*Redaktor guşəsi*

## AZƏRBAYCAN ƏDƏBİYYATININ RUSDİLLİLƏRİ

Dünya çalxalanır. Hadisələr sürətlə bir-birini əvəzləyir. Publisistika cəmiyyət üzərində mütləqi-hakimdir. İctimaiyyətin fikrini yönəltmək üçün siyasilər, işbazlar istənilən cildə girib min cür hoqqadan çıxırlar. Bədii ədəbiyyat nisbətən axsasa da öz yolu ilə irəliləməkdədir.

Çiçəklənən dövrünü yaşayan Azərbaycan ədəbiyyatı çoxşaxəliliyi ilə Nil, Amazonka, Volqa və başqa dünya çaylarını xatırladır. O boyda nəhəng çaylar kükrəyə-kükrəyə gəlir, sonda parçalanıb arxa, dəhnəyə dönərək dənizə, okeana qarışıb itib-batırlar.

Azərbaycan ədəbiyyatı çiçəkləndiyi kimi həm də ən acınacaqlı dövrünü yaşayır. Özünü ədəbi sima hesab edənlərin bir neçə qruplara bölünməsi, aralarında iğtişaş, nifaq oyunları qyrmaları heç də yaxşı hal deyil. On illərdir ki, qruplaşmalararası dava gedirdi. İndi bu davalar nisbətən səngiyib, özünü ədəbi sima hesab edənlər yaza bildiklərini yazıb yavaşıyıblar, çaylar kükrəyib coşandan sonra sakitləşdikləri kimi...

İş o yerə çatıb ki, indi hər qrup öz liderini hörmətdən salmaqla məşğuldur, yəni liderlik iddiasına düşənlər çoxalıb. Bu da liderin çoxarvadlı kişi kimi hər bir qrup üzvünə gözmuncuğu hədiyyə etməsinə bənzəyir. Nəticədə ədəbiyyat yaranmır. Daha doğrusu, asan yol tapıblar. Türk seriallarının səhnələrini yazırlar, dünya ədəbiyyatının bəzi nümunələrindən öz əsərlərinə möhtəşəm giriş düzəldirlər. Daha nə bilim, nə hoqqalardan çıxırlar.

Azərbaycanda daha bir qrup var, onlara rusdilli qrup deyirlər. Sayca çox azdılar. Hamı ilə mehriban davranırlar. Heç bir qruplaşma ilə ədavat, rəqabət aparmırlar, öz yaradıcılıqları ilə məşğuldurlar. Nə qədər uğur qazanıblar, irəliyə gediblər, deyə bilmərəm, amma bir onu bilirəm ki, yerində saymırlar, heç kimi də təkrarlamırlar.

Bütün qrup və qruplaşmalara uğurlar arzulayıram. Allah ədəbiyyatımızı yalançı ədəbi simalardan qorusun!

**Əli BƏY AZƏRİ**
**baş redaktor**

**XƏZAN**
*Ədəbi-bədii jurnal*
*C8, N8, 2023*
*Oktyabr, 2023*

Baş REDAKTOR:
**Əli BƏY AZƏRİ**

**Redaksiya heyəti:**

Şahməmməd Dağlaroğlu, Xaliq Azadi, Məhəmməd Əli, Rəşid Bərgüşadlı, Damət Salmanoğlu, Budaq Təhməz, Hafiz Əlimərdanlı, Təranə Dəmir, Minarə Sığnaq, Ələsgər Talıboğlu, Zaur Ustac, Əyyub Türkay, Elvin İntiqamoğlu, Gülnarə İsrafil

Baş redaktorun MÜAVİNİ:
**Ramiz İSMAYIL**
**Dizayner: Veys ƏLİYEV**

**Redaksiyanın ünvanı:**
Bakı şəhəri, Mətbuat prospekti,
529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı

**Əlaqə telefonları:** (070) 575 03 99
**Email ünvanı:** xezan23@mail.ru,
5750399a@mail.ru

**Çapa imzalanıb:** 15 oktyabr 2023-cü il
Ədliyyə Nazirliyində 15 yanvar 2016-cı ildə
qeydə alınmışdır: 5331

**Jurnal aylıqdır.**
Materiallar elektron variantında,
yaxud diskdə və on dörd şriftlə printerdən
çıxmış çap variantında (bir nömrə üçün) poeziya
və publisistika beş, nəsr on səhifədən çox
olmamaq şərtilə qəbul olunur.

JURNALI Azərbaycan Yazıçılar Birliyinin
"Bayatı" və KİTABEVİM.AZ kitab
mağazalarından əldə edə bilərsiniz.

# QƏHRƏMANLAR UNUDULMUR

# “ÖLMƏK OLMAZ!”

***VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI KAPİTAN SURXAY NOÇUYEVIN ŞUŞA DÖYÜŞÜ QABAĞI TABORA SON ƏMRİ BELƏ OLUB***



Başı müsibətlər görmüş Azərbaycanın dar günündə həmişə pəhləvan biləkli, şir ürəkli oğulları silaha sarılaraq ortaya çıxıblar, vətənin müdafiəsinə qalxıblar, atlanıb düşmənin üstünə yeriyiblər. Keçmişdə də belə olub, indi də belədir, dünya durduqca, Azərbaycanın düşməni qaldıqca belə də olacaqdır. Biz mif uydurmamışıq, nağıllar, əsatirlər fikirləşməmişik, daima real hadisələrdən danışmışıq.

44 günlük Vətən Müharibəsinin son günü də elə oldu. “Atəşkəs” elan olunsa, qələbə xəbəri yayılsa da hamı ondan danışırdı. Sorağı Zəngilanın sərhədlərini aşmışdı, ölkədə onu tanıyan, döyüşdə bir yerdə olan, birlikdə xidmət keçən kim vardısa, hamısı ondan danışırdı. Bir aləm xatirəsi vardı insanların qəlbində. Bu, kapitan Surxay Noçuyev idi.

Surxay Əbdül oğlu Noçuyev 19 dekabr 1988-ci ildə Zəngilan rayonunun Məmmədbəyli kəndində bu işıqlı dünyaya göz açıb. Onda hələ əmin-amanlıq dövrüydü. Düzdür, bədnam ermənilər Sumqayıtda, İrəvanda, Xankəndində, Azərbaycanla Ermənistanın həmsərhəd bölgələrində iğtişaşlar törədirdilər, nisbətən cəbhə bölgəsindən uzaqda yerləşən Məmmədbəyli kəndinə isə baş verənlərin səsi, sorağı gəlib çatırdı. Balaca Surxay öz uşaqlıq qayğıları ilə böyüyürdü. Sonrakı hadisələr bir-birini elə sürətlə dəyişdi ki, Surxayın yeniyetməlik dövründə ona da təsiri oldu.

1995-2002-ci illərdə Xarici Dillər Təmayüllü Gimnaziyada oxuduğu halda qəflətən qərarını dəyişdi. Təhsilini Cəmşid Naxçıvanski adına hərbi liseydə davam etdirdi. Hərbi liseyi 2006-cı ildə başa vuran kimi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldu. 2010-cu ildə Quru Qoşunları fakültəsini bitirib zabit oldu, leytenant hərbi rütbəsi aldı. Daha bir il Silahlı Qüvvələrin Təlim və Tədris mərkəzində “zabit ixtisas kursu” keçərək bir zabit kimi püxtələşdi.

Surxay Noçuyev az müddət ərzində bir zabit kimi zəngin xidmət yolu keçdi. NATO xidməti əsasnaməsinə uyğun olaraq motoatıcı tağım komandiri vəzifəsindən mexanikləşdirilmiş (PDM-3) tabor komandiri vəzifəsinədək bütün vəzifələrdə nümunəvi xidməti ilə pillə-pillə yüksəldi. Kapitan hərbi rütbəsini vaxtında aldı.

27 sentyabr 2020-ci il hamı kimi onun da taleyində dəyişilməz iz buraxdı. Vətənin müdafiəsinə həmişə hazır olan kapitan Noçuyev komandiri olduğu taboru həyəcan siqnalı ilə qaldırıb döyüşə yollandı. Yuxarı komandirlərinin qeyd etdiyinə görə, Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsində və bir-birinin ardınca qələbələrin qazanılmasında kapitan Noçuyevin müstəsna xidmətləri olub. Komandiri olduğu taborun şəxsi heyəti ilə birlikdə döyüşlərdə xüsusilə fərqlənib, şücaət və rəşadət nümunələri göstərib. Ərazini nisbətən yaxşı tanıdığından Füzulinin, Zəngilanın, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə xüsusi fədakarlıq göstərib. Düşmənin çoxsaylı canlı qüvvəsini və hərbi texnikasını məhv edib. Noyabr ayının 9-da Şuşa şəhərinin ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub. 12

noyabr 2020-ci ildə qədirbilən Azərbaycan xalqının çiynində son mənzilə yola salınaraq böyük izdihamın müşayiəti altında II Fəxri Xiyabanda nəşi torpağa tapşırılıb.

"Sağlığında Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)", "Qüsursuz xidmətə görə 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" medalları ilə təltif olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra), "Vətən uğrunda" medalı (ölümündən sonra), "Qubadlının, Füzulinin və Şuşanın azad olunmasına görə" görə (ölümündən sonra) medalları ilə təltif olunub". (rəsmi məlumatlardan)

Surxay Noçuyev davranışına, inadkarlığına, şux duruşuna, əzmkarlığına və bir çox digər dürüst hərəkətlərinə görə doğmalarının, onu tanıyanların, xüsusilə də birlikdə hərbi xidmət keçdiyi adamların yaddaşında bir əsgər, bir komandir, əsl döyüşçü kimi iz salıb. İndi hər kəs onu xoş xatırlayır, fəxarətlə qürur duyduğunu dilə gətirir, ondan ürəkdolusu danışır.

Hələ uşaqlıqdan özünə qazandırdığı mükəmməl vərdişləri Surxay Noçuyevin hərbi xidmətdə karına gəlib. Belə ki, hərbi xidmətin tələbi, qaydaları dürüstlük, səmimiyyət, əzmkarlıqdır. Surxay hansı rütbədə olmasından və hansı vəzifəni icra etməsindən asılı olmayaraq daim özünə, yoldaşlarına və tabeliyindəki hərbi qulluqçulara tələbkarlıqla yanaşmış, onların qayğısına qalmağı heç vaxt unutmamışdır. Onun qətiyyəti qarşısında yoldaşları da qəbul etdiyi qərarlara hörmətlə yanaşmışlar.

Hərbçi yoldaşları və tabeçiliyində xidmət keçənlər öz aralarında onu "Qartalgöz" adlandırırmışlar. Onlardan bəzilərinin etirafına görə Surxayın gözünə baxmağa çəkinirmişlər. Onun qətiyyətli baxışı çox şey deyirmiş. Hər hansı bir işdən, xidmətdən razı qalıb-qalmadığını baxışından müəyyənləşdirməyə çalışırmışlar. Heç vaxt ədalətsiz qərar çıxartmadığını döyüşçü yoldaşları xüsusilə qeyd edirlər.

44 günlük Vətən Müharibəsində kapitan Surxay Noçuyev xüsusi fədakarlıq göstərib. Qazandıqları qələbədən fərəhlənsə də itgilərdən bir o qədər məyus olurdu. Ancaq nə etməli? Döyüş itgisiz, torpaq şəhidsiz azad olmur. Döyüşçü yoldaşları həmin günlər onun çox gərgin, hirsli olduğunu xatırlayırlar.

"Şuşaya hücuma keçməliydik. Taboru bir yerə topladı. Çox hirsli idi, odlu-alovlu danışdı: "30 ildir Qarabağımız erməni quldurlarının tapdağındadır. Bir milyondan çox soydaşımız qaçqın-köçkündür. Mən Qarabağlı olduğuma görə demirəm, bu gün onsuz da hamımız – on milyonluq azərbaycanlı da, əlli milyonluq dünya azərbaycanlıları da hamısı qarabağlıdır. İndi tarixi şərait yaranıb. Neçə illərdir hamı bu günü gözləyir. Biz isə əsgərik, Vətəni dardan qurtara bilərik. İndiyə qədər belə bir imkanımız yox idi, amma indi Ali Baş Komandan belə bir şəraiti bizə yaratdı. Baxın, önümüzdə üç yol var; ya şəhid olacaqsan, ya qazi... – o, bu sözləri deyəndə sanki kövrəldi, heç vaxt kövrəldiyini görməmişdik, ani olaraq özünü cəmləşdirib sözünə davam etdi. – Mən çox istəyirəm ki, hamımız qazi və qalib olaq, amma bilirsiniz ki, bunların ikisindən də uca şəhidlik zirvəsi var. Kimə qismət olacaq, bilmək olmaz... ancaq sizdən bir xahişim var, son dərəcə diqqətli olun! Bu, həm də əmrdir: Ölmək olmaz! Şuşanı götürmədən heç kimə ölməyə icazə vermirəm!""

Bax, beləcə həkk olub qaldı döyüşçü yoldaşlarının qəlbində tabor komandiri kapitan Surxay Noçuyev – sonuncu, əzəmətli əmri ilə: "Ölmək olmaz!"

İndi Surxayın davamçıları onlarla, yüzlərlədir. Onun adına məktəb var, adına neçə-neçə siniflər yaradılıb. Şəkili dəftərlərin üzərindədir, şagirdlər baxdıqca xatırlayır, fəxr edir, böyüyəndə onun kimi qəhrəman olmağı arzulayırlar.

Qədirbilən Azərbaycan xalqı heç vaxt öz qəhrəmanlarını unutmur. Vətən Müharibəsi Qəhrəmanı Surxay Noçuyevin əziz xatirəsi daima qəlbimizdə yaşayacaqdır!

**Əli BƏY AZƏRİ**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü,**
**Prezident təqaüdçüsü**

*NƏZAKƏT CAVADOVA*

# ƏLİMDƏ BİR CÜT QƏRƏNFİL

## *(bir şəhid haqqında elegiya)*

Bu gün günlərdən 27 sentyabr 2020-ci il.

Hardasan, Dədəm Qorqud, hardasan?! Qopuzunu götür gəl, Dədəm, iki tonqal qala...

Bu gün bütün Azərbaycanın şərəfi uğrunda qanını axıtdığı, qeyrətini qoruduğu gündür. Gəl, qılınc əvəzinə əli ilə düşmənin bağrını dələn, Vətən üçün yağının şah damarını dişi ilə qoparan oğullarının yanına gəl. Vəsf elə elinin igidlərini...

**Əlimdə bir cüt qərənfil,** bir Şəhidin məzarı önündə dayanmışam.

Bir igid itirmişəm... Gənc, təvazökar, səmimi. Anasının yeganə oğlu, dayağı. Elə bir igid ki, onun üçün dünyanın iki mərkəz nöqtəsi var idi. Vətəni və anası! Seçim qarşısında qalarkən Vətənini seçdi... Anasını qorumaq üçün...

Bir igid itirərək bir Şəhid qazanmışam, Vətən. Başın sağ olsun!

Harda dolaşır ruhun, igidim?! Cismin burda, ruhun müdafiəsi uğrunda qanının töküldüyü torpaqlardamı dolaşır? Bəlkə bir məsləkdaşının sinəsini hədəf edən namərd güllənin önünə keçir?.. Ya şaxtada səngərdə saatlarla tərpənmədən keşik çəkən əsgərin xəyalən özünü doğma isti evində hiss etdiyini bilib, küləyə dönüb bir yarpağı xışıldadaraq real aləməmi qaytarır səngər yoldaşını? Ruhun haralarda gəzir, igidim? Bəlkə ruhun dincəlmir?! Gah dərdli ananın ağ saçlarına sığal çəkir, gah səngərlərdəmi dolaşır?..

**Əlimdə bir cüt qərənfil,** bir Şəhidin məzarı önündəyəm...

Tabutuna sarılmış bayraq necə də yaraşır öz Şəhidinə. Necə də əzəmətlidir, qürurludur. Ana qucağıtək sarılıb igidimə. Eh, başı buludlardan, ayağı dəryadan, gözü çeşmədən nəm çəkən ana... Bəzi şeylər var ki, demək olmur. Bəzi şeylər var ki, deməmək məsləhətdir. Başını dik tut, dərdli ana. Oğlunun öz əli ilə “anama yadigar qalsın” yazılmış papağını qoy qeyrətli başına. Başına qoy və deyəcəklərim üçün məni qınama.

Şəhidlik ən uca zirvə olsa da, bilirəm, heç bir ana övladını şəhid olmaq üçün dünyaya gətirmir. Bilirəm, hər Şəhidin fonunda dünyası qaralmış bir ana dayanır. Amma, fəxr et, qəmli ana. Sənin böyütdüyün oğul hamımızın fəxri, hamımızın oğlu, hamımızın qardaşı oldu. Sən Azərbaycan üçün oğul böyütdün, ana! Sənin kiçik, kasıb evində böyüyən igid bütöv Azərbaycan üçün qanını axıtdı. Sən elə bir oğul böyütdün ki, qanı ilə səni yalnızlıq girdabından çıxararaq, milyonların anası, bacısı, ağbirçəyi etdi. Canından keçərkən də səni yalnız buraxmadı. Qol-budaqlı çinar ağacı kimi sərin kölgəsini üzərinə sərib, anasını bütün Azərbaycana əmanət edərək getdi...

**Əlimdə bir cüt qərənfil...** bir Şəhidin məzarı önündəyəm...

Yaş 19. Gəncliyin tüğyan etdiyi yaş.

Sevdiyin var idimi, igidim? Olmazmı... 18 yaşında hansımız sevmədik ki? Getməzdən öncə hansı gözəllə əhd-peyman bağladın, igid? Hansı gözələ: – Gözlə məni – söylədin? Hardasan, ey qəmli gözəl? Qəlbinin bir guşəsində çox müqəddəs, eyni zamanda çox ağrılı bir sirri daşımaq çoxmu ağırdır?! Bəlkə uzun illərdən sonra bir ana əziz xatirəni yaşatmaq üçün öz oğluna sənin adını verəcək. Həmin gözəl oğluna nağıl danışarkən, o nağılın qəhrəmanı nə kral Artur, nə Sezar, heç Məlikməmməd də olmayacaq. O, öz oğluna səndən bəhs edəcək, igidim. O gənc ana körpəsinin saçlarına sığal çəkərək deyəcək:

-Biri var idi, biri yox idi. Mavi gözlü Xəzər dənizinin sahilində bir şəhər var idi. Günlərin birində bu şəhərdə başqalarından fərqlənməyən bir oğlan dünyaya gəldi. Amma, elə ki, bu oğlan böyüdü, dillərə dastan oldu.

Ana sənin bütün özəlliklərini sayaraq, oğlunun səni sevməsi üçün usanmadan çalışacaq. Bu nağılın qəhrəmanı fərqli olduğu üçün sonluğu da qeyri-adi olacaq. Bu nağılda göydən üç alma düşməyəcək və sonda göydəki ən parlaq ulduzu




göstərən ana deyəcək:

-Bax, o, göylərdən bizə baxır.

O körpə də sənin göylərdən ona baxdığına inanacaq.

İnanıram, sən də göylərdən bunu seyr edəcəksən.

**Əlimdə bir cüt qərənfil** bir Şəhidin məzarı önundə dayanmışam...

Hardasan, Şair, niyə söylədin ki, "İndi sevənlər üçün beş qərənfil dəbdədir". Nəzərmi gəldi qərənfil? Amma, bütün nəzərə gələnlərdən fərqli olaraq daha ali status alaraq müqəddəsləşdi qərənfil. Hardasan, böyük Şair?! Hardasan Nüsrət Kəsəmənli?! Xəbərin varmı, Şair, indi qərənfil "Şəhid gülü" olub?! Sevənlərin deyil, sevilənlərin gülü olub qərənfil.

**Əlimdə bir cüt qərənfil** bir Şəhidin məzarı önündəyəm.

Məndən daha gənc, məndən daha fədakar. Arzuları, ümidləri pərən-pərən olmuş, amma mənim ailəmi məndən daha gözəl qorumuş bir igidin məzarı önündəyəm. Baş əyirəm sənə, igidim. Həyat necə də təzadlarla doludur, igid. Sən cismən var olsaydın, mən yox olmuş olardım.

Günün birində əlimdə bir cüt qərənfil Şəhidlər Xiyabanında bir igidin məzarı önündə dayanmışdım. Bir qədər kənarda məzarların önünə qərənfil düzən beş yaşlı qızcığaz mənə yaxınlaşıb:

-Vətən torpagı necə yaranıb? – deyə sual etdikdə tərəddüd etmədən:

-Şəhidlər pazl kimi birləşərək Vətən torpağını yaratmışlar! – dedim.

# MƏN EŞQİ BİTİRMİŞƏM

*(mən və duyğularım)*

***Uçurumun kənarında barmaqlarımın ucunda dikələrək, sonsuz cazibəsi ilə məni özünə çəkən dərin boşluqda pərvaz etməyə can atan, bir əsimlik ruzigara möhtac ruhuma: – Yıxılsan, üzülmə, -- Mən uçmağı bacardım, söylə...***
Müəllif ("London saatı" romanından)

Bir zamanlar biriləri mənə: "Baxışlarında sanki "aşk" çiçəkləri açmış" – demişdi.

Mən susaraq, dinləmişdim. Nədənsə hər zaman eşq yox, aşk deyirdi. O zamandan mən də eşq yox, "aşk" deməyə başlamışdım. Bəlkə də kimlərsə məni anlamaz... Mən aşk deyərkən bu sözün gözəlliyini, ülviliyini daha çox hiss edirdim sanki. Bəlkə də, o səbəbdən onu elə eşqin özü sanmışdım. Bilmirəm, məni qınamayın. İndi ona məxsus olan hər şeyi həyatımdan çıxarmağa qərar verərkən mən "aşk" kəlməsini də qadağan olmuşlar siyahısına saldım. İlk dəfə sübh tezdən yuxudan oyanıb yazacağım kiçik məqaləni bir qədər düşündüm: "Mən sevgini sübh tezdən quşların civiltisində aradım", deyib, bu sözləri yazmaq üçün əlimi uzatdığım telefonuma göndərilmiş mesajı görəndə anladım ki, nahaqdan axtarıram sevgini – sevgi elə mən özüməm... hamının aradığı. Özümü göylərdə gəzən mələklər qədər qayğısız və əsrarəngiz sayaraq məni bu qədər möhtəşəm edən eşqə bütün qəlbimlə bağlandım. Amma, bu bir zamanlar idi, o zamanlar ki, hər şey çox gözəl idi. O zaman ki, mənim adım "uğur", titulum "Şahzadə" idi. O zaman ki, Şahzadəliyim devrilib, tacım əlimdən alınmamışdı. O zaman ki, mən evin yeganə övladı olduğumu sanırdım. Nə gizlədim, son zamanlar həyatımdakı bütün gözəl olan anlar, duyğular, insanlar – hamısı miraj kimi yoxa çıxır, sanki heç yoxmuş kimi. Üfüqlərdə görünürlər, tutmaq üçün yaxınlaşıb əlimi uzadıram. Məşhur filmdəki Obeliksin oxşarı kimi – köpük olduğunu görürəm. Köpük kimi iz qoymadan

yox olsalar da, qəlbimdə yoxdan yaranmış bir acı qoyurlar. Bu acılardan üzgün qəlbim çox düşündü və qərar verdi ki, fərq etməz hansı səbəbdən olsun bu "Sevdalar dənizindən, Sevdalar şəhərindən" uzaqlaşıb eşqi bitirsin. Özündə güc tapıb bu qərarı verən qəlbim, sənə təşəkkür edirəm, sənə çox minnətdaram, qəlbim...

İynəyə "tikən" demədiyi üçün təəssüflənən Dədəm Qorqud günlərin bir günü qopuzunu götürüb gəlsəydi, sənin də adını dəyişərdi, qəlbim... Və çox güman ki, qəlb yox, – Fədakar – qoyardı adını Dədəm Qorqud". Mən eşqi bitirdim, qəlbim, sayəndə... Mən eşqi bitirərkən – "nələr itirmişəm və nələr qazanmışam", – deyərək bir araşdırma apardım. Nələr gördüyümü deyimmi? Desəm, bəlkə qəlbim bir qədər yüngülləşər. Təəssüf ki, mən sevgini bitirdim deyərkən insanlara etibarımı, inamımı da itirmişəm. Bir daha heç kimə güvənməsin deyə qəlbimin önündə sədd kimi dayanmışam. Heç kim anlamasın deyə müxalifəti olduğum qəlbimlə bir "İtirilmişlər və qazanılmışlar" partisi təşkil etmişəm ki, parterində, ön sırada yalnızca iki seyrçisi vardı. "Mən və qəlbim"... Mən həyatımın ən böyük qələbəsini qazandım deyib, atəşfəşanlıq edərkən, mən güclüyəm, sevgini bitirdim -- deyərkən, mən yazmağı itirmişəm. Hər zaman sənin çox güclü qələmin var deyənlər, indi üzümə sorğu ilə baxır. Mən qələmi götürüb, təkrar qoyuram. Deyəsən, sevgini bitirərkən, yazmağı da unutmuşam. Mən bacardım deyə, qışqırmaq istəsəm də, səsimin çox zəif, sanki batmaqda olan günəşin fonunda gecənin hıçqırtısına bənzəyişini qazanmışam. Mən eşqi bitirdim deyərkən, şahmat taxtası üzərində vəzirini itirmiş şah kimi gedişlər edirəm. Rabitəsiz... Mən hər piyada bir vəzirdir deyən, həyat dolu, mücadiləçi "məni" itirmişəm. Mən eşqi bitirmişəm – deyərkən...

Ruhumun necə boş qaldığını, bir zamanlar dünyanın son qütbündən məni isidən, ruh verən hisslərin miraj olduğunun fərqinə varmışam. Xoşbəxt anları yaşatmaq üçün bəzən görməzdən gəlmək də keçər içimdən. Bu görməzliyi zövqlə sürpriz edərək, qəlbimə hədiyyə vermək istəyərəm. Qəlbimin necə şad olduğunu gördükdə gözlərim yaşarar. Qəlbimin sevinci mənə dünyanı bağışlayar. Sanki o sevincdən yaranmışam mən. Bəzən də qəlbinin ağlına tabe olmadığını, yalnız eşq üçün çırpındığını gördüyün andan uzaqlaşarsan içindəki "məndən". İçindəki məni titrədən o gözəl hissin zərrə-zərrə yox oluşunu kədərlə, boş qalmış qəlbinə dolmuş təəssüflə seyr edərsən. Sanki başqa birisən kimi...

Dəyərmi, deyə soruşarsan artıq başqa ritmlə vuran qəlbindən... Mən bacardım, mən bu eşqi bitirdim deyərkən, – orbitindən çıxmış başqa bir dünyaya düşərsən ki, həmin dünyada adı uğur olan hər şey var. İnsanlar hər gün lüks avtomobillərdə, şux geyimlərdə işə tələsər. Nahar və şam yeməklərini özəl, elitar restoranlarda yeyər. Axşamlar geniş, ehtişamlı evlərində partilər verər. O dünyada hər şey var. Yalnızca hər yeri işıqlandırıb isidən günəş qəlblərin buzunu əridə bilmir. Bu dünyanın adamları sevə bilmir. Bu dünyada ürəklər his basmış çırağın titrəyən alovu kimidir. Var, amma, işıq sala bilmir. Közərir, ancaq isidə bilmir, yanır, fəqət titrəyərək üşüyür... Bu dünyanın adamları qəlbindən danışanda qəlb demir... əslində, qəlbin nə olduğunu heç bilmirlər də...

Bu dünyanın sakinləri qəlbindən danışanda "fədakarım" deyir. "Fədakarım üşüyür" deyir...

Bu dünyanın adamları hər şeyə qadirdir. İsinmək və gülməkdən başqa!

Burda hər şey buz qədər saf, möhkəm və soyuq olur. Hər şeyin üzərində şaxtadan yaranmış min bir naxışlar olur ki, gözləri oxşasa da, qəlbləri donuq-donuq atmağa məcbur edir. Bu dünyanın adamlarının qəlbi donmağa məhkumdur. Başqa cür olarsa, bu dünyadan digər dünyaya köçməli olarlar.

Bu dünyanın həsrəti, acısı yoxdur. Çünki, ürəkləri donub...

Bəzən qəlbinin buzunu isitmək üçün köhnə, lazımsız əşyalar qoyduğun dolabdan gitaranı əlinə alarsan. Sevdiyin musiqilərdən birini ifa edib qəlbinin buzunu əritmək istərsən. Çünki, bu alətdə sənə öz dünyanı xatırladan nələrsə olduğunu buz bağlanmış qəlbin də hiss edər. Bir zamanlar manqurtlaşmış insanları özünə qaytaran "ana laylası" kimidir bu gitara. Götürsən, sinənə sıxsan, yonulmuş taxta qoxusu verən gövdəsini qoxulasan, simlərinə toxunsan, axıb simlərə do-

laşan saçlarını geri atsan, sevdiyin bir neçə musiqini ifa etsən... günəşin qəlbləri isidə bildiyi həmin dünyana geri dönə bilərsən.

Qəlbinin isindiyini görüb həmin dünyada olanları xatırlayıb cəld gitaranı köhnə əşyalar yığılmış dolaba qoyub, üzərinə digər əşyaları yığarsan. Qəlbin isinsə də, o dünyada buket-buket sənə edilən haqsızlıqlar göydən üzərinə yağış kimi yağar. Yağış demişkən, bu dünyanda rast gəlmədiyin "yağışı" xatırlarsan. Üzünün cizgilərini unutmaq istədiyin birinin səsi qulaqlarına gələr:

Mən yağışı sevirəm...
O xatırladır mənə
hər dəfə bir nəfəri.
Mən ağlayıb ruhumu
təmizləyərkən,
O da yuyur bütün yolları,
təmizləyir şəhəri.
Saçlarımı isladır,
qonur yanaqlarıma
Damcıların səsiylə,
elə bil öz dilində
O da sənsiz darıxır,
O da səni düşünür,
Deyir qulaqlarıma.
Mən dənizi sevirəm...
O hər ləpələnəndə
Elə bil bir nəfərin
saçlarını görürəm.
Astaca əllərimi
toxundurub dənizə
Ona salam verirəm.
Elə çox darıxmişam...
Bunu bir dəniz bilir,
bir də zülmət gecələr...
Uzanım qum sahilə,
qucaqlayım dənizi,
yatım, bəlkə düzələr...

O səsdən qurtulmaq üçün qulaqlarını tutarsan. Barmaqlarının arasından öncə pəncərəyə dəyən yağış damlalarının şap-şup səsi girər qulaqlarına, damlaların arasından əvvəl bulanıq, sonra isə tədricən aydınlaşan cizgilərini unutmaq istədiyin bir çöhrə çıxar.

Sənə öz dünyanı xatırladan bu taxta parçasından qurtulmaq istəyib, əlinə keçən bütün köhnə əşyaların altında dəfn etməyə çalışarsan. Birdən hövlnak üzərinə yığdığın əşyaları götürüb, – birdən telləri qırılar, – deyə təşvişlə baxarsan. Axı bu gitara iki dünya arasında olan yeganə körpündür!

Bəlkə, ruhun haçansa sağalar, öz dünyana dönmək istərsən, – deyə bir qığılcım yaranar içində və yaranan an sönər. Çünki bu dünya qığılcım üçün münbit yer deyil.

Bu dünyanın bir gözəl tərəfi var ki, dönüb geridə qoyduqlarına boylana bilməzsən. Daim irəli, adı uğur olan hər şey üçün çalışarsan. Dayanmadan dişinlə, dırnağınla zirvələrə dırmanarsan.

Bu dünyanın bir devizi var: "Yalnız irəli..." Dönüb baxsan, arxanda sıldırımlı uçurumlar var ki, qətiyyən dönmə, baxma, yıxılsan, bir zamanlar qaçmaq istədiyin əvvəlki dünyana düşərsən.

Bu dünya adamlarının irəli getməkdən başqa şansı yoxdur. Günəş ürəkləri isidə bilmədiyi üçün bu dünyada göz yaşları da yoxdur.

Bu dünyada ürəklər his basmış çırağın alovutək donuq işıltıyla titrəyib üşüdüyündən, bu üşüyən donuq ürəklər zəfər tağı olmayan bir qalibiyyətlə pıçıldayıb:

-Mən eşqi bitirdim, – deyər.

Səsi o qədər zəif çıxar ki, qulaqların şübhə edər.

-Sən həqiqətən nə isə eşitdinmi? – deyər, ya nə isə eşitdiyinə inanmaq istədin?..

Bu zəfər tağı olmayan qalibiyyətinlə razılaşmayıb, məğlubiyyətini pərdələmək istəyərsən. Təzadlı, acınacaqlı, inamsız, zəif səsinlə təkid edərsən:

-Mən güclüyəm, mən eşqi bitirmişəm!..

* * * *

(Proloq, epiloq olmaqla 44 fəsildən ibarət "London saatı" romanında yeganə fəsildir ki, müəllifin ifadə etməsi ilə deyil, əsərin qəhrəmanının dilindən verilmişdir)



**ŞAHMƏMMƏD DAĞLAROĞLU**

**Bir soyuq baxış**

Sibirin qışında üşüməmişdim,
Qanımı dondurur bir soyuq baxış.
Sanma həsrətinin odunda bişdim,
Başqadır bu dəfə üzləşdiyim qış.

Sevgidən danışmaq boş şeydir indi,
Məhəbbət günəşi biryolluq batıb.
Ölü xatirələr səssizcə dindi,
Gümanlar ümidin daşını atdı.

Səni görməyəndə çatmırdı havam,
Yad kimi keçirəm indi yanından.
Mənəm bu dünyada sonuncu avam –
Can qalıb, məhəbbət çıxıb canımdan.

Nələrdən danışır bu quru qəfəs?
Bahara çevirər məhəbbət qışı.
Çağırır, gəl deyir sehirli bir səs,
Çətin bir də yağa sevgi yağışı.

**30 yanvar 2023-cü il**

**Bəlkə də utanardın...**

Bilsəydin şeir deyil şeir deyə yazdığın,
İtki - qafiyə, heca, söz içində azdığın.
Bilsən cəfəngiyatdır bu cür şeirbazlığın,
Yazdığını gizlədib, davam etməzdin ardın,
Bəlkə də utanardın...

Vacibdirmi, hərənin beş-on kitabı ola?
Kağız minə qiymətə, düşə gərəksiz hala?
Boş yerə pul xərxləmə, faydalı iş gör, bala,
Bilsən sözlərin verir duzsuz şorbanın dadın,
Bəlkə də utanardın...

Ha çapala, qürrələn, bircə sözün yer almaz,
Kitablar sırasında kitabına yer olmaz.
İçi məni qarışıq, səni söyən yorulmaz,
Təhqirini doyunca yesən yalanın, yadın,
Bəlkə də utanardın...

Yaxşı-yaxşı fikirləş, lazımmı şeri sənə?
Əlində iş-gücün var, o verər xeyir sənə.
Şeirlə günü keçmiş bir qoca deyir sənə-
Bilsən ki, batırırsan, el adın, şair adın,
Bəlkə də utanardın...

**15 yanvar 2023-cü il**

**Ortaya**

Biri “quş” buraxsa, düşər gündəmə,
Çəkən yox doğrunu, düzü ortaya.
Fərqi nə, götürər, götürməz demə,
Bəs edər, atıram sözü ortaya.

Dilin sümüyü yox, ağlın açarı,
Təkrar sanca bilmir bal çəkən arı.
Hərə eşmək istər özünə sarı,
Qış günü tökəndə közü ortaya.

Getsə, söz gətirər, sözə gedənlər,
Ruhları incidər ruhsuz bədənlər.
Varlı süfrəsini ləziz edənlər,
Qoyarlar çörəyi, duzu ortaya.

Var-dövlət hərisi axtarmaqda bab,
Hamı yazan olub, oxunmur kitab.
Bir vaxt lülə, tikə bişərdi kabab,
İndi bütöv gəlir quzu ortaya.

Kimin ürəyincə bu xahiş, kimin?
Usta iş axtarır, olub iş kimin?
Baxan yox toy kimin, sifariş kimin,
Girir bir havaya yüzü ortaya.

Can qoysan, deyilmir "sağ ol" da daha,
Can da yox qoyasan bu yolda daha.
Nə sağda bir şey var, nə solda daha,
Durmuşam səssizcə, üzü ortaya.

**11 yanvar 2023-cü il**

**Səhvlərim**

Vaxt olsa, baxardım zamana, vaxta,
Bu necə yarışdı, qalibi saxta?
Baharda qar gördüm, yay günü şaxta,
Payızı keçməmiş qışa düşmüşəm,
Çox şeyi mən indi başa düşmüşəm.

Yasda olanın da bir gün toyu var,
Arxalı alçağın yeri, boyu var.
Duymuşam, bilmişəm öndə yuyu var,
İrəli adlayıb, boşa düşmüşəm,
Çox şeyi mən indi başa düşmüşəm.

Zəifə zor nədir, bilməmişəm mən,
Heç nəyi xeyrimə bölməmişəm mən.
Nə olsun, sağ qalıb, ölməmişəm mən,
Göydən atılanda daşa düşmüşəm,
Çox şeyi mən indi başa düşmüşəm.

Enmədim, yüksəldim hey qiymət kimi,
Cəsa da çəkmişəm məzəmmət kimi.
Ehsanda verilən yağlı ət kimi.
Tavada qovrulub, aşa düşmüşəm,
Çox şeyi mən indi başa düşmüşəm.

Səbirli, ürəyi sərin olmuşam,
Cibi səxavəti, dərin olmuşam.
Xeyrinə atılan zərin olmuşam,
Udasan deyənə, qoşa düşmüşəm,
Çox səhvi mən indi başa düşmüşəm.

**9 yanvar 2023-cü il**

**Sevgi şeiri yazsam...**

Bu şəkildə çəkdiyim o sevdiyim qız deyil,
Bu ki, adi şeirdir, "hardadır qız?" – deməyin.
"Şair eşqə düşübdür" – deməyiniz düz deyil,
Şəkli zəif çəkibsə, "etibarsız" - deməyin.

Bu şeirdə mən onu göylərə qaldırmışam,
O, heç məni tanımır, səssiz keçir yanımdan.
Şam yerinə qəlbimi yandırmışam hər axşam,
Yuxuya gedə bilsəm, ruhum çıxıb canımdan.

Yazmasam təbim sönür, yazıram qınayan var,
Az deyil eyib sayan, eləsi var qısqanır.
Sevgi nədir bilirmi, şairi qınayanlar?
Şair qalır bir yanda, hamı o qızı anır.

**5 yanvar 2023-cü il**

**Yeridi**

İndi orda nə mən varam, nə də sən,
O yer adi, son görüşün yeridi.
Söylə, o gün haqlı idin nədə sən?
Ürək qırdın, dağ üstümə yeridi.

Söz düşmüşdü nardan, heyva, almadan,
Yalvarırdım – onu məndən alma, dan.
Ayrı düşsük, səbəb xəbər almadan,
İnciməyin, ya küsməyin yeridi?

Yaş arxıdı yzümdəki arx adı,
Sonda sözüm elə həmin arxadı,
Mən olmasam, de, kim sənə arxadı?
Yol açıqdır, yeri görüm, yeri di.

Səbrim dərya, rəva bilmə o daşa,
Gur yananda zülm eləyər od aşa.
Ahım vurdu səni daşdan o daşa,
Elə bilmə silkələnən yer idi.

Dağlaroğlu, yarla həftə, ay gözəl,
Gecə bizi yerdə süzən Ay gözəl.
Sənin eşqin, məhəbbətin, ay gözəl,
Qan yerinə damarımda yeridi.

**21 fevral 2023-cü il**



XURAMAN ZAKİRQIZI

# ZƏFƏR ƏTRİ

*hekayə*

Dəstə meşələrdən, sıldırımlardan çətinliklə keçib qəsəbənin ətrafına gəlib çıxa bilmişdi. Amma artıq bir gün başa çatmaq üzrə olsa da, qəsəbəyə daxil ola bilmirdi. Atışma ara vermirdi. Düsmən qəsəbəyə xeyli hərbi qüvvə cəmləmişdi.

Cavid hər tərəfi kolluqlar əhatə olunmuş kiçik bir təpənin arxasında mövqe tutub əlindəki durbinlə qəsəbəətrafı yolun digər hissəsini və evləri müşahidə edir, ehtiyac duyulanda silahından atəş açırdı. Güllələri israf etməsin deyə görünməyən hədəflərə kor-koranə atəş açmırdı. Birdən lap yaxınlıqdakı evdən bir uşaq çıxdı. Usagın 2-3 yaşı olardı. O, Cavidi görməsə də, ağlaya-ağlaya yolu keçib onun tutduğu mövqe istiqamətinə gəlirdi. Erməni yaraqlılarının atdıgı odlu güllələr uşagın yaxınlığından, başının üstündən keçib mövqelərimizə tərəf ucuşurdu. Cavid uşağın erməni balası da olsa, güllələrin ona dəyəcəyindən qorxdu. Lakin irəli gedib usağı atəş zonasından çıxara da bilmirdi. Yerindən qalxıb uşaga tərəf getsəydi, düşmən onu aşkar edib vura bilərdi. Ani qərar qəbul edərək ondan sağda və solda mövqe tutmuş dôyüş yoldaşları pulemyotçu Adilə və Rasimə mövqelərini bir qədər də môhkəmləndirib atəşi artırmagı və bununla da düşmənin nəzərini öz üzərlərinə çəkməyi tapşırdı. Belə halda düşmən atəşin əsas istiqamətini Adillə Rasimin tutduğu mövqelərə istiqamətləndirəcəkdi. Bu zaman digər döyüş yoldaşı Vaqif sürünə-sürünə ona yaxınlaşıb özünə yeni mövqe tutmaq istədi. Cavid vəziyyəti Vaqifə də izah edib, ona hazırda tutdügü mövqedən bir az aralıda, ətrafı kolluq olan söyüd agacının yanında mövqe tutub düşməni aramsız atəşə tutmasını tapşırdı. Hər üç  döyüşçü dostu danışdıqları kimi düşmənə aramsız atəş açmaqla onların diqqətini özlərinə doğru yônəltdilər. Xüsusən də Adilin pulemyotu süsmurdu, ermənilərin başına od eləyirdi. Bu vəziyyətdə ermənilər canlarını qorumaq üçün atəşi saxlayıb torpağa sığınmağa basladılar. Cavid qəfil mövqeləndiyi yerdən ildırım sürəti ilə qalxıb alıcı quş kimi uşağa doğru şığıdı. Onu dərhal qucagına alıb bağrına basdı və geriyə, əvvəlki mövqeyinə tərəf qaçdı. Geriyə baxdı. Yaxın evin yola açılan qapısının düz çıxacagında cavan bir erməni qadınının dizi üstə düşüb uca səslə ağlayaraq hər iki əlini Cavid qaçan istiqamətə acdığını gördü. Dayanmaq, geriyə qayıdıb usağı anasına qaytarmaq həm usagın, həm də özünün ölümü ilə nəticələnə bilərdi. Öz mövqeyinə yetişib əvvəlcə usagı ən təhlükəsiz bildiyi yerə uzatdı. Usaq sakitləşib anlaqsız baxışlarla ona baxır, qorxusundan səsini çıxara bilmir, arada hıçqırırdı. Cavid qumqumasından uşağa bir qədər su içirtdi. Usaq sakitləşsə də anlaqsız baxışlarını ondan çəkmirdi. Cavid qadın olan tərəfə nəzər saldı. Qadın oldugu yerdə də

qalıb uca səslə aglamaqda və özünü döyməkdə davam edirdi. Cavid qadına əl işarəsi ilə həyətinə qayıtmagı anlatmaga calışdı. Qadın bir neçə addım geri çəkilib qapıdan daş divarlı həyətə girsə də, qapını örtmədən həyət tərəfdən qapıya söykənərək Cavid tərəfə baxırdı. Artıq Caviddən ona bir zərər gəlməyəcəyini anlamışdı deyəsən. Çünki tərəddüd içində yerində donub qalsa da ta əvvəlki kimi özünü döymür, ucadan ağlamırdı. Amma balasının təhlükəsizliyindən də əmin omadığı halından bəlli idi.

Cavid indi daha çətin vəziyyətə düşmüsdü. Döyüşə-döyüşə həm özünü, həm də anlaqsız bir körpəni qorumalı idi. Avtomat atəşinin səsindən qorxan uşaq yenə də ağlamağa basladı. Amma xoşbəxtlikdən o daha yüyürüb qaçmır, hər atəş səsindən diksindikcı yerə daha çox sıgınmaga çalışırdı. Onun bu halı Cavidin işini nisbətən yüngülləşdirirdi. Döyüş şiddətlə davam edirdi.

Cavidgilin döyüşdüyü istiqamətə bir taqıma yaxın əsgərimiz köməyə gəldi. Onlar döyüş mövqeyini daha yaxşı tanıyan Cavidin məsləhəti ilə düsmənin sağ cinah hissəsində mövqe tutub onlara davamlı atəş açırdılar. Atəşə tab gətirməyən ermənilər qəsəbənin içərilərinə doğru çəkilirdilər. Artıq qəsəbənin kənarındakı evlər düsməndən təmizlənmisdi. Komandir düşmən döyüşçülərimizin arxalarına keçməsin deyə, qəsəbənin kənarında tutduqları mövqedə bir neçə əsgər qoyub qalan əsgərləri özü ilə irəli apardı. Bu zaman Cavid özünə ən yaxın mövqedə olan Vaqifə arxasınca gəlməyi tapşırıb özü bir əli ilə avtomatını, digər əli ilə usagı gôtürüb qadının hələ də ôrtmədiyi həyət qapısına doğru üz tutdu. Həyətə girincə gözünə ilk sataşan qadının qapıdan bir qədər aralı köhnə pilləkəndə qolları sinəsinə çarpazlanmış ruhsuz kimi oturuşunu gördü. Cavidin qucağında körpəsinin sağ-salamat olduğunu görən qadın həyəcanlı halda özünü onun ayaqlarına atdı. Qadın öz dilində aramsız nəsə deyərək onun çəkmələrini qucaqladı. Cavid uşağı qadının yanında yerə qoyub, ayağını cəkdi və ona rus dilində: “Biz, sizinkilər kimi cəllad, qaniçən deyilik. Yəqin ki, bunu çoxdan bilirsiz. Al uşağını, götür, get. Niyə çıxarmayıb sizinkilər səni, uşaqları döyüş gedən yerlərdən?” – dedi və ehtiyatla ətrafa göz gəzdirdi. Qadın yenə ağlayaraq ona yuxarını göstərdi. Cavid silahını hazır tutub qadının arxasınca pillələri qalxıb evə girdi. Evdə köhnə çarpayıda hər iki ayağı gipsdə olan qoca bir kişi zarıyırdı, Cavidi görüncə səsini kəsdi, təlaşla ona baxdı. Cavid rus dilində ərini soruşdu qadından. Qadın yarırus, yarı azərbaycan dilində ərinin harda olduğunu bildirsə də, onun cəbhədə bizə qarşı döyüşənlərin içində olduğu gün kimi aydın idi. İgid döyüşçümüz ayaqları gipsdə olan qocya baxıb ironiya ilə: “Allah bilir bizim orduya, xalqa qarşı nə qədər günah işlətmisən, amma biz silahsız adamlara güllə atmarıq heç vaxt. Hələ heç bir erməni anası deyə bilməz ki, hansısa Azərbaycan əsgəri, ya zabiti bir erməni uşağına, ya qocasına güllə atıb onu öldürüb. Amma sizinkilər bizim körpələrə, istər ötən əsrin əvvəllərində, istərsə də 30 illik işğal dövründə ağla yerləşməyən işgəncələr vermiş və hətta bununla fəxr etmişlər. Xocalıda törətdiyiniz soyqrım min illər sonra da yaddaşlardan silinməyəcək”.

Cavid danışdıqca əsəbdən alnının damarları elə qızarıb şişmişdi ki, qadın nəfəsini çəkmədən onu dinləyir, səsini çıxarmasa da, bu məğrur Azərbaycan zabitinin dediklərini tamamilə anladığı baxışlarından bəlli idi.

Cavid əyilib uşağın başına sığal çəkdi və gəldiyi kimi də cəld həyətdən çıxdı. Silahlı qüvvələrimizin böyük bir dəstəsinin köməyə gəlməsi səbəbilə düşməni qəsəbənin dərinliklərinə qədər çəkilməyə məcbur etmişdilər.

Qarşıda hələ neçə qızğın döyüşlər gözləyirdi döyüşkən ordumuzu, o cümlədən, Cavidin dəstəsini.

Ağır döyüşdən sonra dəstəsinin yeni tapşırığa hazırlanması, mütəşşəkkil olması üçün dincəlməyə, qidalanmağa və ən əsası da yatmağa böyük ehtiyacı vardı. Cavid bütün dəstənin çox yorğun, yuxusuz olduğunu bilirdi. Daha qüvvətli, yorulmaq bilməyən döyüşçülərindən qarovul üçün ayıran Cavid, qənimət kimi boş həyətlərdən götürdükləri beş-altı toyuğun və bir qədər kartofun təmizlənib yemək bişirilməsi işini aşbazlıq

qabiliyyətilə hər kəsin sevimlisi olmuş Əsədə tapşırdı, dəstənin başqa üzvlərinə də yemək hazır olana kimi silahlarının təmizlənməsini, sökülüb yenidən qurulmasını, gödəkçələrinin astar tərəfdən havaya verilməsi üçün ağacdan asılmasını göstəriş verdi. Özü arxası üstə uzanıb gələcək döyüşlərin də uğurlu alınması üçün bildiyi hərbi təcrübəsini götür-qoy etmək istəyirdi. Amma ha çalışdısa da, gənclik xatirələri, sevdiyi qız – Gülsüm gözünün önündən getmirdi... Ürəyindən müharibənin qələbə ilə bitməsi və o, yaralı halda olsa belə bu qələbənin sevincini yaşamaq istəyi keçdi... Xəyallar onu uzaqlara aparmışdı...

Əsədin, Valehin səsi onu xəyaldan ayırdı, qalxıb dəstəyə yaxınlaşdı. Uşaqlar böyük həvəs, coşqu ilə göy otların üstündə yemək "süfrəsi" açmışdılar. Müharibə şəraitində bundan artıq süfrə olmaz ki... Cavid ağlından keçirdi.

Səhərin alatoranında Cavidin rəhbərlik etdiyi dəstəyə növbəti tapşırıq gəldi. Dəstə Hadrut istiqamətinə yollandı. Cavid dözüm, səbr, dəyanətlə çətin döyüş yollarında irəliləyir, silah yoldaşlarına ürək-dirək verirdi. Hadrut ətrafında gedən döyüşlərdə gizir Cavid şücaət göstərərək Hadrut qəsəbəsinin azad olunması uğrunda qarşıya qoyulmuş tapşırıqları qəhrəmanlıqla, cani-dildən yerinə yetirir, bütün döyüşçülərinin yüksək əhval-ruhiyyədə olması üçün özü daha çox cəsurluq göstərir, yorulmadan həm dostlarını ruhlandırır, həm də özü hey irəli can atırdı.

Düşmənin bu qəsəbədə çox böyük canlı qüvvəsi cəmlənmişdi. Bundan əlavə qəsəbə sakinləri də yüksəkliklərdə mövqelənib döyüşən ermənilərə hər vasitə ilə kömək etməkdəydi. Cavid kiçik bir kəşfiyyat aparmaq qərarına gəldi. Dəstə üzvlərinə olduqları yerdən uzaqlaşmamağı, bacardıqca ehtiyac olmadan silah işlətməməyi tapşırıb heç kəsə hiss etdirmədən sıx kolluqların arası ilə irəliyə doğru sürünməyə başladı, ağacların, kolların sıx olduğu yerlərdə ehtiyatla yeriyir, mümkün olduqca irəli getməyə çalışırdı ki, düşmənin hansı mövqedə yerləşdiyini, sayını öyrənə bilsin. Ətraf tamamilə sakitlikdi, bundan ürəklənən Cavid düşmənin hələ çox uzaqda olduğunu düşünürdü.

Beləcə, olduqları yerdən yarım kilometrdən çox məsafədə uzaqlaşdığını hiss edirdi. Ətrafı diqqətlə dinləyib yenə irəliləməyə davam etdi. Artıq hava qaralmışdı tamam. Birdən ayağının altından yer qaçdı sanki. Güclü ağrı hiss etdi, ayağında, çiynində. Nə baş verdiyini anlamağa çalışdı. Qaranlıqda heç nə görməsə də, yaş torpaq iyindən, bir də özünün tərpənməz vəziyyətdə olmasından anlayırdı ki, dərin bir xəndəyə düşüb. Qanı tamam qaralmışdı. İlk növbədə özünə qəzəbi tuturdu, özünü günahlandırırdı: "Bələd olmadığım yerdə gərək çox ehtiyatlı olaydım. İşin bu tərəfini də fikirləşməliydim". Yaş torpaq və çürüntü iyi burnunu çox qıcıqlandırırdı. Yavaş-yavaş tərpənməyə, heç olmasa oturmağa cəhd etdi, ayağını tərpətdikcə güclü ağrı hiss etdi, dişini sıxıb inildəməməyə çalışdı Cavid, hələ bilmək olmazdı, düşdüyü yer təbii çuxurdi, ya xüsusi hazırlanmış tələ. Sağ əlinin təkanıyla bədənini yerdən qaldırdı, sol tərəfi üstə ayağını bütün ağrılara rəğmən qatlayıb istəyinə nail oldu, otura bildi. Yuxarı baxdı, xoşbəxtlikdən ağaclar ayın qarşısını tam kəsə bilməmiş, zəif də olsa ay işıqlandırırdı ətrafı, bir neçə dəqiqədən sonra onun gözləri qaranlığa alışmağa başladı. Yadına düşdü ki, fövqaladə vəziyyətlər üçün buşlatının döş cibində gəzdirdiyi ağrı kəsici iynə var. Əlini cibinə sürtdü. Xoşbəxtlikdən iynə yerində idi. Çıxarıb ağrıyan dizində iynə vurmaq üçün nöqtələr təyin etdiyi yerə vurdu. Az keçmiş ağrıların xeyli azaldığını hiss etdi, onun düşdüyü quyu ilə yuxarıdakı kolların arasındakı məsafə ən azı 2.5-3 metr olardı. Ətrafda heç bir hənirti duyulmurdu, uzaqdan atəş səsləri gəlirdi arabir. O, artıq təbii çuxura düşdüyünü təxmin etmişdi və çıxış yolları barədə düşünürdü. Oturduğu yerdən qalxmağa çalışdı, amma buna nail ola bilmədi. Diz qapağında dözülməz ağrılar vardı. Səhvini dərk etdikcə daha çox məyus olurdu. Çünki, kimsəyə məlumat vermədən çıxmışdı kəşfiyyata. "Yaxşı öyrəndin düşmənin yerini", - özlüyündə dodaqaltı deyindi. Necə olacaq, yəqin ki, çalaya düşərkən ağac kötüyünə, ya nəyəsə bərk dəyib dizim. Kim bilir,

sınıb, ya çatlayıb. Ayaq üstə qalxa bilsəm, burdan necə çıxa bilərəm, bir düşünərdim. Yaman yerdə axşamladın, Cavid. Necə olacaq? Necə çıxacam mən bu kor quyudan. Üstəlik dəstə də qalacaq nigaran. Allah, özün yardım et, mənim kimi axmaq bəndənə...”

Bir neçə dəfə cəhd etsə də, ayağa qalxa bilmədi... “Burda oturub nə qədər gözləmək olar...” Kor-peşiman düşünürdü. Neçə günün yorğunluğu, düşdüyü çıxılmaz vəziyyətin gətirdiyi məyusluq onu üzürdü...

Payızın sərin mehi öz işini gördü. Özünün də xəbəri olmadan yuxu apardı onu... Az, ya çox yatdığından xəbəri olmadı, dizini tərpətmək istəyərkən şiddətli ağrı ilə hövlank ayıldı. Bir neçə saniyə harda olduğunu düşündü. Fikirləri aydınlaşdıqca yenidən güclü məyusluq hissi bürüdü onu. “Nə olur-olsun burdan çıxmalıyam, ağrıya əsir ola bilmərəm”, deyə düşündü. Çox ehtiyatla ayağa qalxmaq üçün təkan verdi. İndi göyün üzü daha da aydınlaşmışdı. Artıq düşdüyü çalanın divarları da görünürdü. Buranın nə zamansa qazılmış və tədricən yan divarları uçulmuş bir quyu olduğunu təxmin etdi. Quyunun nisbətən daha alçaq görünən divarına tərəf gəldi, ağrılar bir qədər azalmış, daha doğrusu, keyimişdi elə bil ayağı. Sol ayağına daha çox güc salmaqla yuxarı dartınmağa çalışdı, quyunun içərisinə doğru bir kol sallanırdı, Cavid sağ əlini kola atdı, ovcunun içində güclü iynələr batmasının sancısını duydu, amma kolun möhkəmliyini duyub buraxmadı əlini, var gücü ilə üzüyuxarı dartınırdı. Sol ayağının və sağ əlinin bütün gücündən istifadə edən Cavid qeyri-adi dəyanətlə bütün ağrıları yenib yuxarı dartındı və nəhayətdə quyunun üstünə qədər irəliləyə bildi, nəfəsini dərib bir də təkan verdi, bədənini quyudan xilas edə bildi. O dəqiqələrdə özünü qələbəyə yetişmiş əsgər kimi hiss etdi.

Amma bütün vücudu tükənmiş kimi gəlirdi ona, düşüncələri, zəkası da korlaşmışdı sanki. İstiqaməti də təyin etməkdə çətinlik çəkirdi, yorğunluq və ətrafdakı sakitlik öz işini görürdü. Sübhün sərin mehi onun göz qapaqlarını məcburi bağlayır, şirin yuxu aparırdı Cavidi. Sanki pərqu yorğan-döşəkdə yatmış kimi dərin yuxuya getmişdi, qulağına qarışıq səslər gəlsə də, hələ tam oyana bilmirdi. Səslər yaxınlaşdıqca oyanmağa çalışsa da hələ ki, buna nail ola bilmirdi. Kiminsə qəflətən onun yaralı ayağına möhkəm təpik vurması Cavidi tam oyatdı və o, ətrafında üç erməni yaraqlısını görüncə yaxalandığını hiss edib, ürəyində düşməndən də çox özünə qəzəbi tutdu, yuxuya əsir düşdüyü üçün. Əliyalın, yaralı halda düşmənə əsir düşmək.., bunu özünə bağışlamayacaqdı heç vaxt.

Deyəsən, köhnə məscidin kiçik bir hücrəsinə bənzəyirdi Cavidin saxlandığı yer. Nədənsə onu tək saxlayırdılar burda. Polkovnik rütbəli birisi gündə iki-üç dəfə gəlib, onu sorğu-sual edir, sonra da beş-altı təpik, yumruq vurub gedirdi. Cavid hiss edirdi ki, onu öldürmək niyyəti yoxdur bu düşmən polkovnikinin. Çünki zərbələr də elə güclü, öldürücü deyildi. “Yəqin ki, öz əsirləriynən dəyişəcəklər məni” - ağlından keçirdi. Onu öz canından daha çox cəbhədəki vəziyyətdən hali olmaması narahat edirdi.

Bir gün yenə sorğu-sual yenicə başlamışdı ki, bayırdan bərk səs-küy qopdu, qapı döyüldü və bir erməni dığası polkovniki çağırdı. Cavid erməni dilini bilməsə də danışanların çox həyacanlı olduğunu, fövqəladə nəsə baş verdiyini hiss etdi. Ürəyi şiddətlə döyünməyə başladı: “Yəqin ki, cəbhədə üstünlük bizimkilərin əlindədir” - deyə düşündü. Çox çəkmədi səslər tamamilə kəsildi. O diqqətlə bayırı dinləsə də heç bir hənirti, danışıq eşidə bilmirdi. Oturduğu kətilə möhkəm sarımışdılar Cavidi. Bir xeyli dartınsa da arxadan kəndirlə bir-birinə bağlanmış əllərini azad edə bilmədi. Oturduğu stolu salamat ayağının təkanı ilə darta-darta pəncərəyə tərəf yaxınlaşdı. Stola bağlı olduğu üçün stolla birlikdə qalxıb pəncərəyə baxdı. Həyətdə kimsə görünmürdü, heç nə düşünmədən qəfil başıyla pəncərəyə zərbə endirdi. Pəncərənin şüşələri çilik-çilik olub töküldü. Şüşə qırıntıları əsasən çöl tərəfə düşsə də iki kiçik şüşə parçası onun qarşısına düşmüşdü, özü-

nü kətil qarışıq yerə yıxdı. Bağlı əllərini birtəhər yaxınlaşdırıb şüşə qırıntılarından birini götürdü və kəndiri kəsməyə çalışdı. Əsirliyin gətirdiyi utanc, cəbhədən, döyüş dostlarından nigarançılıq Cavidə qeyri-adi güc vermişdi elə bil, bacardıqca daha qüvvətlə çəkirdi şüşə qırıntısını və nəhayətdə qollarının boşaldığını, kəndirin qırılmaq üzrə olduğunu hiss edib şüşəni yerə atdı, var gücüylə qollarını bir-birindən aralamağa çalışdı. Nəhayət, kəndiri qıra bildi, açılan əllərini xeyli ovuşdurub, tez-tələsik ayaqlarını da kəndirdən azad etdi. Bir də həyətə baxıb, şüşəsi sınan pəncərədən özünü həyətə atdı. Diz qapağı zədələnmiş ayağından güclü ağrı qopsa da, dişlərini sıxıb səsini çıxarmadan ətrafa baxaraq ehtiyatla ordan uzaqlaşmağa çalışdı. Məscidin qarşı tərəfinə keçəndə yanında balaca oğlan uşağı olan bir qadınla qarşılaşdı. Onu görən qadın əvvəl həyacanla səslənsə də, qəfil əlini ağzına tutub susdu. Cavid də qeyri-ixtiyari dayandı və qadını tanıdı. Deyəsən, elə qadın da onu tanımışdı. Çünki həyəcanla bir ona, bir də arxa küçəyə tərəf baxırdı çaşqınlıqla. Birdən nə düşündüsə, rus dilində: “tez qaç, tez get, indi gələcəklər” - deyib, ona istiqamət göstərdi. Cavid qadına başının işarəsiylə razılıq bildirib, onun göstərdiyi istiqamətdə axsaya-axsaya olsa da durmadan qaçırdı. Çox getməmişdi ki, uzaqdan maşın səsləri, atəş səsləri eşitdi və buna sevindi. Demək onu cəbhə bölgəsinə yaxın yerdə saxlayıblar, ürəyində bundan məmnun oldu. Magistral yolu görsə də yola yaxınlaşmağa ehtiyat edirdi. Daha çox kolluqların olduğu yerlərdən getməyə çalışırdı. Birdən yaxınlıqda: “Dur! Tərpənmə!” - əmrini eşitdi. Ürəyi atlandı: “Öz doğma dilimizdə bu söz nə qədər möhtəşəm səslənir, Allah!” Əllərini qaldırıb səs gələn istiqamətə döndü.

Onu görən Adil sevinclə çığırdı: “Komandir! Sənsən! Şükür olsun Allaha! Sağsan?!

İki döyüş yoldaşı elə sarılmışdı ki, bir-birinə, illərin həsrətlisi kimi... Ayrıla bilmirdilər.

Artıq bütün yollar üzü Şuşaya gedirdi...

Havadan Zəfər ətri duyulurdu.



**MÜƏLLİM ADINI ŞƏRƏFLƏNDİRDİN**

***(Bakının Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki 156 saylı tam orta məktəbin direktoru Gülər İsmayılovaya həsr edirəm)***

Müəllim adının şərəfi böyük,
Bəşər ilham alır sənin adından.
Bu yolda yorulmaq bilmədin nədir,
Dincəlmək söz kimi çıxdı yadından.

Gecəni gündüzə qatıb, eləcə
Yeni pöhrələrə qapı açmısan.
Onların işıqlı gələcəyinə
Sən bir Günəş kimi şəfəq saçmısan.

Bu gün öyrətdiyin hər bir məktəbli
Sabahın ən sadiq vətəndaşıdı.
Müəllim adının gör, neçə “barı”
Məktəbdən cəbhəyə zəfər daşıdı...

Məktəb sənin üçün ikinci evdir,
Sinif otaqları bağça-bağındır.
Səni şagirdlərə belə sevdirən
Büllur sular kimi saf olmağındır.

Hər addan ucadır müəllim adın,
Dahilər bu adı tarixə yazdı...
Heyranam səndəki qabiliyyətə,
Şəninə nə desəm, yenə də azdı!

Əzəl yaranışdan el adamıdır,
El ilə ağlayar, gülər müəllim...
Böyük bir ordendir sinəndə, adın,
Zəkan işıq saçır, Gülər müəllim!

**Fərhad ƏSGƏROV (RAMİZOĞLU)**



**DİLBƏR RZAYEVA**

*Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsi, böyük elmi işçi*

# SATİRİK "MƏŞƏL" JURNALI

***Açar sözlər:*** *Satirik jurnal, Molla Nəsrəddin, felyeton, poçt qutusu, teleqraf xəbərləri, gizli imza.*

**XÜLASƏ**

"Məşəl" jurnalı Azərbaycanda mühüm siyasi məsələlərin baş verdiyi bir dövrdə - 1910-cu il noyabrın 13-də Bakıda nəşrə başlamışdı. Jurnalın redaksiyası Spasski küçəsindəki 2 nömrəli (indiki Qasım İsmayılov küçəsi - Zərgərpalan) evdə yerləşirdi. Jurnal "Turan" elektrik mətbəəsində çap olunurdu.

Ə. Qarayevin redaktəsi ilə çap olunan həftəlik "Məşəl" jurnalı "Molla Nəsrəddin" jurnalının qabaqcıl ənənələrini davam etdirən ilk kommunist satirik jurnal idi.

İnqilabdan əvvəl Azərbaycanda nəşr olunan bütün satirik jurnallar kimi "Məşəl"in səhifələrində də iştirak edən müəlliflərin heç birinin açıq imzasına rast gəlmirik. Burada iştirak edən müəlliflər "Binəva", Binəva bəy", "Arıq", "Sərgərdan", "Ədibül-hükəma", "Qarınqulu", "Əcül", "Sarsaqqulu bəy", "Sərkərdan", "Köhnə tabaqçı", "Ədib" "Sarsaqqulu bəy" və s. gizli imzalar ilə felyetonlar, satirik şeirlər və kəskin tənqidi yazılar çap etdirirdilər.

***

**Giriş**

Azərbaycan Xalq Cümhuriyyəti illərində nəşr olunan çoxsaylı mətbu orqanlar arasında satirik janra üstünlük verən jurnallar da var idi. 1918-20-ci illərin satirik mətbuatı "Molla Nəsrəddin" ədəbi məktəbinin ənənələrindən faydalanaraq, azadlıq və istiqlal düşmənlərini, imperializmin müstəmləkəçilik siyasətini, geriliyi və cəhaləti "atəş"ə tuturdu. Satirik mətbu orqanlar xalqı elmi biliklərə yiyələnməyə və müasirləşməyə səsləyirdi. Həmin dövrdə milli ideyalı satirik nəşrlər - "Şeypur", "Zənbur" jurnalları ilə yanaşı, bolşeviklərin nəşr etdirdiyi "Məşəl", "Tartan-partan" və s. jurnallar da çap olunurdu.

"Məşəl" jurnalı Azərbaycanda mühüm siyasi məsələlərin baş verdiyi bir dövrdə - 1910-cu il noyabrın 13-də Bakıda nəşrə başlamışdı. Jurnalın redaksiyası Spasski küçəsindəki 2 nömrəli (indiki Qasım İsmayılov küçəsi - Zərgərpalan) evdə yerləşirdi. Jurnal "Turan" elektrik mətbəəsində çap olunurdu.

Jurnalın redaktoru Əliheydər Qarayev (1896-1938) idi. O, 1919-1920 illərdə "Bakı Fəhlə Konfransının əxbarı", "Zəhmət sədası", "Azərbaycan füqərası", "Füqəra sədası", "Kommunist", "Oktyabr inqilabı" (Azərbaycan və rus dillərində) və s. qəzetlərin, "Tartan-partan" və "Məşəl" jurnallarının redaktoru olmuşdur.

Əliheydər Qarayevin redaktəsi ilə çap olunan həftəlik "Məşəl" jurnalı "Molla Nəsrəddin" jurnalının qabaqcıl ənənələrini davam etdirən ilk kommunist satirik jurnal idi.

İnqilabdan əvvəl Azərbaycanda nəşr olunan bütün satirik jurnallar kimi "Məşəl"in səhifələrində də iştirak edən müəlliflərin heç birinin açıq imzasına rast gəlmirik. Burada iştirak edən müəlliflər



مشعل

ФАКЕЛ

"Binəva", Binəva bəy", "Arıq", "Sərgərdan", "Ədibül-hükəma", "Qarınqulu", "Əcül", "Sarsaqqulu bəy", "Sərkərdan", "Köhnə tabaqçı", "Ədib" "Sarsaqqulu bəy" və s. gizli imzalar ilə felyetonlar, satirik şeirlər və kəskin tənqidi yazılar çap etdirirdilər.

Jurnalın cəmi 6 nömrəsi çıxmışdır. Jurnalda Azərbaycanın bir sıra məşhur partiya xadimləri, jurnalist və yazıçıları iştirak etmişdir. Bunlardan Əliheydər Qarayev, Mir Cəfər Cavadzadə (Pişəvəri), Ağababa Yusifzadə, Bayraməli Abbaszadə (Hammal), Ağahüseyn Rəsulzadə, Nemət Bəsir, Salman Nərimanov və başqaları gizli imzalarla çıxış edirdilər. Jurnalda əsas siyasi məzmunlu felyetonları və məqalələri "Binəva", "Binəva bəy" və "Tartan-partan" imzaları ilə Əliheydər Qarayev yazırdı.

"Məşəl" jurnalı musavat hökumətinə qarşı müxalif mövqedə dayanır, onların ictimai-siyasi fəaliyyətini kəskin ifşa edir və çox vaxt birtərəfli və subyektiv mövqe sərgiləyərək, onları tənqid hədəfinə çevirirdi. Bununla yanaşı, kapitalistləri, xanları, bəyləri, menşevik partiyasının xalqa zidd siyasətini, əksinqilabçı, ağqvardiyaçı qüvvələri, imperialist müdaxiləçiləri satira atəşinə tuturdu. "Məşəl" jurnalının digər satira jurnallarından fərqli olaraq, dövrün, zamanın bütün təbəllüatlarına bir çox məqamlarda ziddiyyətli və sosialist baxışı özünü göstərirdi. Torpaq məsələsi, əli qabarlı fəhlələrin mənafeyini müdafiə etmək, geniş xalq kütlələrinin istismarçı ağalara qarşı mübarizəsini işıqlandırmaq və s. məsələlər jurnalın başlıca məzmununu təşkil edirdi.

Jurnalın ilk sayında Əliheydər Qarayev "Binəva" imzası ilə "Məqsədimiz" adlı baş məqalədə yazırdı: "Bilirəm jurnalımızı oxuyan deyəcək: A balam, bu qəzetənin müdiri "Zəhmət sədası"nın, yainki "Füqəra sədası"nın müdiri deyilmi? A balam buna nə oldu ki, müsavatçılardan betər, inqilabın əvvəlindən necə onlar torpaq məsələsini gündə azından on dəfə dəyişdirən kimi, bu da dünən füqəra tərəfdarı, amma bu gün jurnal çıxardır və yazır ki, jurnalımız boynuyoğunların jurnalıdır. Bərəkallah sənə müdir!.

Mən bilirəm ki, bu sözləri əziz qarelər deyəcəklər. Amma buna özüm indidən cavab verirəm: "Qardaş mən indi düşündüm ki, canım bu incəboğaz, əl-üzü neftli, kirli paltarlı fəhlədən ötrü boğazını yırt, dağıt vallah bir şey çıxmayır. Öylə yazırsan, çığır-bağır edirsən, görürsən ki, qarnın qalır ac, başın qapazlı, qələminə qıfıl vururlar, özünü qazamata soxurlar. Xülasə başına min bir cür bəla gəlir. Odur ki, mən deyirəm: Dünyada insana hər nə olsa boynuyoğundan olacaq. Ata, babam, ulu babam hamısı qazanıb boynuyoğunların ətəginə tökübü. Özü ac, yalavac, lüt- üryan qalmışlarsa, ancaq boynuyoğunlar o qazancları nina, anyalara, sonyalara bağışlayıb min türlü keyf, işrət çəkmişlər. Eyləcə də gərək mən olam"(1)

Buradan aydın görünür ki, "Məşəl" jurnalı istismarçı siniflərə qarşı daha qəti və daha inqilabi mübarizə aparmışdır. "Məşəl" kinayəli dil ilə oxuculara müraciət edərək tez-tez "Boynuyoğun", "qarnıyoğun", "qarnızorbalar", "qolu zorbalar" kimi adlar altında hakim dairələrə, xan və bəylərə, kapitalist və qoçulara işarə edirdi. Jurnalda bu adların sahibləri zəhmətkeş siniflərin, "üzü neftli fəhlələrin", "incəboğazlıların" və geniş kəndli kütlələrinin və bütün azadlıq tərəfdarlarının düşmənidirlər.

Jurnalın ilk nömrəsində oxuyuruq: "Qardaş, dünən özünü sosial demokrat, menşevik sanan xaricə naziri donuna girib milli demokrat olmuşdur,

nəinki bir xariciyyə naziri, bu gün özünüz oxudunuz ki, musavat donuna girib milli demokrat olmuşdur. Nəinki xarici işlər naziri, hətta milyonçu Əsəd Ağayev, Qarabağ uyezdinin ac-yalavac, lüt-üryan bəyi ki, heç olmasa azacıq 7 və 8 kəndi var, Sultanov da musavatın abu-həyat bulağından su içib milli demokrat olmuşdur."

"Məşəl" musavat ağalarının amansız düşməni idi. Göründüyü kimi, fəaliyyəti boyunca kommunist ideologiyasına sadiq qalan jurnal musavatı xalqın düşməni kimi təqdim etməyə çalışmışdır. "Məşəl"in müxtəlif ədəbi vasitələrdən istifadə edərək musavatı sərt ittihamla tənqid obyektinə çevirməsi jurnalın ölkədə baş verən mühüm ictimai-siyasi prosesləri düzgün səciyyələndirə bilməməsi, hadisələrə ayıq münasibət göstərməməsi ilə izah oluna bilər. Keçən əsrin əvvəllərində Azərbaycandakı mövcud situasiyanı, uğursuzluqları yalnız musavatın adı ilə bağlayan jurnal məsələlərə ayıq gözlə baxa bilmir, Rusiyada və bütövlükdə dünyada gedən siyasi mübarizələrə kortəbii münasibət bəsləyirdi. Buna görə də jurnalda dərc edilən məqalələrdə musavat və onun fəalları oxuculara əsas ifşa obyekti kimi təqdim olunur, dövrün aparıcı partiyası mülkədar-burjua quruluşunun "qolu zorbalar"ı, "boynuyoğunlar"ı şəklində xarakterizə olunaraq xalqa çatdırılırdı.

Jurnalın musavatla əks qütbdə dayanması və ona qarşı düşmən mövqedə olması burada çap olunan 4 misralı bir taziyanədə də öz əksini tapmışdır. Satirada jurnal subyektiv şəkildə musavatı istismarçı siniflərin müdafiəçisi kimı göstərir, kommunistlərin "Hümmət" təşkilatını isə məzlum siniflərin mənafeyi uğrunda çarpışan bir ictimai qurum olaraq aydın surətdə təqdir edir:

***Harada görsən qarnı şişman peysəri,***
***Bil musavat üzvüdür ol sərsəri,***
***Ac, fəqir, yoxsul, bütün məzlumlar,***
***"Hümmət"in əzasıdır bil əksəri.(2)***

Jurnal torpaq məsələsinə daha çox əhəmiyyət verirdi."Məşəl" öz səhifələrində yazıb göstərirdi ki, musavat parlamentinə yığışmış bəylər, qolçomaqlar hər dəfə seçki qabağı kampaniyalarda torpaq məsələsinin həll olunacağını vəd edir, sonra isə məhsuldar torpaqları öz əllərində saxlayır, kəndliləri istismar edirlər. Musavat hökuməti rəsmi dairələrdə torpaq məsələsinin həlli barəsində nə qədər çığır-bağır salsa da heç bir tədbir görmürdü.

Jurnal torpaq məsələsinə musavatın bu münasibətini kəskin tənqid edərək yazırdı:

"Bunu da yazsam deyəcəklər ki, bizi məsxərəyə qoyub, bizə inanmayırlar. Qardaş, mən inanıram, canım gözüm inanıram, ancaq bir şey var ki, o məni qoymur inanmağa. O da "Xoruzun quyruğudur", yənu musavatın köhnə adəti, yəni ki, hər bir intixabatdan qabaq yığılıb qurultay qayırırlar. Elə ki, iş başına keçdi, "Millət necə tarac olur olsun, nə işim var!" Qəbilindən edirlər..."(3.). Jurnalda əksini tapan bu satirik felyetonda da "Məşəl"in musavata qarşı tənqidi münasibəti açıq- aşkar görünür.

"Məşəl" öz səhifələrində "Yalan xəbərlər", "Sənətkarlar ittifaqında", "Tartan-partan", "Əyri-palan" başlıqları ilə çap olunan felyetonlarda musavat partiyasını və onun havadarlarını çox kəskin satira dili ilə qamçılayırdı. Jurnal "Yalan xəbərlər" sərlövhəsi altında ictimai həyatda baş verən hadisələri işıqlandıraraq həqiqəti xalqa çatdırırdı. Burada kəndlərdəki hökumət orqanlarının oğrular ilə əlbir olması ifşa edilir, kəndlilərin var-yoxdan çıxmasının səbəbləri göstərilirdi.

Jurnal yazırdı: "Burada əmin-amanlıqdır, oğurluq filan yoxdur. Doğrusu, evlərdə bir şey qalmamışdır, bütün qab-qazan və paltarlarını satıb arpa çörəyinə vermişlər. İndi növbə guya məscidlərin şüşə, pəncərələrinə yetişmişdir. Oğruların əlinə bir şey düşməyəndə özlərini ucastkaya soxub damağlarını isladırlar. Əcaib budur ki, mübarək oğruları bir kəs də tanımayır"(4).

"Məşəl"də ədəbiyyat məsələləri əhəmiyyətli yer tuturdu. Jurnalda Cəlil Məmmədquluzadə məktəbinə məxsus felyetonlara, publisist məqalələrə də rast gəlirik. Publisist məqalələrdə ən çox musavat hökumətinin yarıtmaz işi və həyata keçirdiyi tədbirlər tənqid olunurdu. "Məşəl"in qüvvətli satirik yazılarında, bir sıra şeirlərində Denikinin alçaq niyyətləri, çirkin əməlləri ifşa edilir və xalq bu çar generalına qarşı qəti mübarizəyə çağırılırdı. Jurnalın 1920-ci il 6 mart tarixli nömrəsində dərc olunan "Yavaşcadan" adlı felyetonda musavat ağalığının söz azadlığı tələb edənlərə, hətta "mitinq" kəlməsini ağzına alanlara divan tutmasından bəhs edilir. Başqa bir müəllif "Ədib" imzası ilə çap etdirdiyi "Dərədən-təpədən" başlıqlı yazısında fəhlə yığıncaqlarına qarşı polis hücumlarını, fəhlə rəhbərlərinin təqib edilməsi, zindanlara salınması və sürgün edilməsi kimi halları satirik bir dillə ifşa edirdi:

"Hərgah götürüb yazasan ki, Azərbaycan bir zalım dəryasına dönmüşdür. Pristavlar fəhlələri iclas qurmağa qoymurlar. Fəhlə rəhbərləri tutulub sürgün ediliyor.... onda bir vəqt görəçəksən ki, gəlib yaxandan tutub kamali- nəzm və qayda ilə Bayıl qazamatına aparacaqdır ki, orada məhbuslar aclıq elan etmişlərdir. Gərək orada sən də acından müxbir sifətilə gedəsən "(2).

"Məşəl"in səhifələrində İran və Cənubi Azərbaycanda xalqların istibdad əleyhinə, xanların, bəylərin özbaşnalığına qarşı mübarizəsini əks etdirən xəbərlər və satirik parçalar da dərc olunurdu.

Jurnalın 1920-ci il nömrəsində Cənubi Azərbaycan şairi Abbaszadə Bayraməli Hammal "Hammal Gülzari - Sərabi" imzası ilə "Ədəbiyyat" sərlövhəli catirik şeirində xanın, mollanın, "füqərayi-əşrarın" zülmündən baş götürüb qaçan və bir parça çörək qazanmaqdan ötrü öz doğma yurdundan didərgin düşən həmvətənlərinin halını belə təsvir edirdi:

***Bu nədəndir ki, vətəndən çıxıb üryan dolanır,***
***Dağılıb çöllərə bu milləti İran dolanır.***
***Xan söyür, molla söyür, firqeyi-əşraf söyür.***
***Seyyidü dərvişimiz şami qəriban dolanır.(5)***

Jurnalda "Əbdül-hükəma və Arıq" imzası il yazan şairlərin əsərləri daha maraqlıdır. Ədibül-hükəma" "Tuti" və başqa satirik jurnallarda tez-tez çıxış etmişdir. "Arıq" imzası ilə yazan şair şeirlərinin birində ağqvardiyaçıların mahiyyətini açıb, onların Azərbaycanda qolçomaq, mülkədar və bəylərə dayaq olduqlarını ifşa edirdi:

***İşləsin qoy Denikin biz vəli yatmaqda olaq,***
***O gözəl uyku ilə varlığı satmaqda olaq,***
***Gər Dağıstanı işğal eyləmişdi bizə nə,***
***Əhlini xeyli bədəhval eyləmişdir bizə nə,***
***Özünə özgə malın mal eyləmişdir bizə nə,***
***Qafqaz əhlin belə bədhal eyləmişdir bizə nə.***

"Məşəl" jurnalı öz səhifələrində teleqraf xəbərlərinə böyük yer verirdi. Bu satirik məlumatlar adi teleqram və ya teleqraf xəbərlərindən fərqlənirdi. Teleqraf xəbərlərinin təsir gücü onun konkret həyat faktına əsaslanması ilə bağlıdır. Burada Bakı şəhərinə aid materiallar çox yer tutsa da, jurnalın səhifələrində Azərbaycanın bir sıra rayonları (Qazax, Quba,Şəki, Şamaxı, Lənkəran Naxçıvan və s.)ardıcıl olaraq işıqlandırılırdı. Jurnal bununla kifayətlənməyərək öz səhifələrində o zamankı beynəlxalq hadisələrə də geniş yer verirdi. "Şəhər xəbərləri", "Ətraf xəbərləri", "Qəribə xəbərlər", "İnanılmaz xəbərlər" və s. rubrikalar jurnalın əksər nömrələrində dərc olunmuş və oxuculara həm ölkə daxilindən, həm də ölkə hüdudlarından kənarda baş verən mühüm hadisələrdən xəbərlər çatdırmışdır.

Bu xəbərlər ağqvardiyaçı mənbələrdən alınmış saxta məlumatları ifşa etmək məqsədi daşıyırdı. Zahirdə bu xəbərlər ağqvardiyaçıların qələbəsindən kinayə ilə yazılmış ifşaedici bir üsul idi:

**London** - Yudeniçdən alınan simsiz teleqraf böylədir. Cümlə cahan boynuyoğunlarına xəbər verəsiniz. Petroqrad mənim tərəfimdən işğal olunmuşdur. Ağalar böyük rəşadətlik göstərmişlər. Təfsilatı sonra.

**London** - Yudeniçin alınan ikinci teleqrafına görə Petroqradı guya onlar yuxuda almışlarmış.

**Bakı** - Keçən gün Ağabala Quliyev Azərbaycan parlamanında bulunan Slavyannarus cəmiyyəti nümayəndələri daşnaqlar Momontovun ştabının həbs olunmasına görə böyük bir təziyə gecəsi qurmuşlar.

Rəvayətə görə Ağabala Quliyevin ağlamaqdan sağ qolu qurumuş və gözləri isə ağlamaqdan kor olmuşdur. (2)

## Nəticə

Yumoristik səciyyə daşıyan bu xəbərlər cəbhədəki vəziyyətin real təsvirini verir və oxuculara həqiqəti başa salırdı.

Əliheydər Qarayevin redaktorluğu ilə çıxan "Məşəl" jurnalı qısa bir müddət fəaliyyət göstərməsinə və sosialistyönümlü, ziddiyyətli baxışlarına baxmayaraq, dövrün mühüm ictimai-siyasi və ədəbi-mədəni hadisələri haqqında oxucuda aydın təsəvvür yaradır . "Molla Nəsrəddin" jurnalına məxsus satirik üslubu və ifadə tərzini yaşadan "Məşəl" jurnalının fəaliyyətini aşkara çıxarmaq Azərbaycan milli mətbuat tarixini öyrənmək üçün müəyyən əhəmiyyə malikdir.

**ƏDƏBİYYAT:**

1. "Məşəl" jurnalı. 1919.№1.
2. "Məşəl" jurnalı. 1919.№4.
3. "Məşəl" jurnalı. 1919.№3.
4. "Məşəl" jurnalı. 1920.№6
5. "Məşəl" jurnalı. 1920.№5



**TƏRANƏ DƏMİR**

# POEZİYANIN PAYIZ ÇƏLƏNGİ

***

Üstünü örtmüşük həqiqətlərin,
Tarixi salmışıq gözdən, ay Vətən!
Nə olsun dinmirsən, bilirik axı
Sən də utanırsan bizdən, ay Vətən!

Çəkirik İrana, Turana səni,
Salırıq o qana, bu qana səni,
Satırıq yerindən durana səni,
Seçmirik yaxşını pisdən, ay Vətən!

Qəlb ki, alışmadı gözdə yaş olmaz,
Qarğadan, quzğundan qızılquş olmaz,
Hər Vətən deyəndən vətəndaş olmaz,
Yükünü tutmusan sözdən, ay Vətən!

Hələ anlamırıq hara gedirik,
Yıxıla gedirik, dura gedirik,
Sabaha üzümüz qara gedirik,
Gedirik yalandan, düzdən, ay Vətən!
Sənə övlad olmaz bizdən, ay Vətən!

***

Yığıb yağışını, selini yenə
Qapının ağzını kəsdirib payız.
Xəzəl yarpaqları yaz budağından,
Günəşi torpaqdan küsdürüb payız.

Sarı saçlarını darayıb gəlib,
Çəməni, bağçanı talayıb gəlib,
Yolları başına dolayıb gəlib,
Baharı hayanda azdırıb payız?

Külək yalquzaqtək ulayır yenə,
Dağları, daşları yalayır yenə,
Buludlar torpağı sulayır yenə,
Yenə də fikrimi çaşdırıb payız.

Yığıb yağışını, selini yenə
Qapının ağzını kəsdirib payız.
Xəzəl yarpaqları yaz budağından,
Günəşi torpaqdan küsdürüb payız.

***

Ayrılığa açıldı
Pəncərəm bu səhər də.
Həsrət qoxusu doldu
Otağıma Xəzərdən.

Bu gün də sahil boyu
Yağışa yoldaş oldum.
Töküldükcə üstümə
Xatirələr yaş oldu.

Bu gün də əsib-coşdu,
Sahildə çapdı külək.

Sən olan xəyalları
Dənizə səpdi külək.

Yamanca yordu məni
Bu şəhərin yolları.
Sən demə, çox çətinmiş
Keçmək ayrılıqları.

Bu gün də bir mən oldum,
Xəzər, bir də dalğalar.
Ətrafımda dolaşdı
Göyərçinlər, qarğalar.

Yanımdan gəlib keçdi
Sevənlər, aldadanlar.
Məni yenə duymadı
Qıraqdan söz atanlar.

Yenə ətrini aldım
Bakının havasından.
Bu günlük də həsrəti
Atdım Qız qalasından.

***

Bu güllə yüzdən keçdi,
Mindən keçdi bu güllə.
Keçdi həftədən, aydan,
Gündən keçdi bu güllə.
Saçımdakı siyahdan,
Dəndən keçdi bu güllə.
Kimin vüsalın dərdi?
Kimin həsrəti oldu?
Kimin yolundan keçdi?
Kimin zülməti oldu?
Kimin içindən keçdi?
Kimin çölündən keçdi?
Kimdən keçdi bu güllə?
Bircə göz qırpımıymış,
Bu ömür nəydi, Allah?
Gözlərin aydın olsun,
Bu güllə dəyə-dəyə
Səbrimə dəydi, Allah!
Səbrimdən dəydim, Allah!

***

Gecəyarı, kənd yolu,
Hər tərəf qatı duman.
Gözümə heç nə dəymir,
Duman məni udacaq,
Qorxuram, aman, aman.
Kəndi alıb altına
Zülmət nə yaman, Allah.
Vaxt da keçmir elə bil
Dayanıb zaman, Allah.
Yumuram gözlərimi,
Açıram yenə duman.
Dayanıram dumandı,
Qaçıram yenə duman.
İtirimişəm bu kəndi,
Bu yolu, bu döngəni.
Duman düşüb dalımca
Qamçılayır kölgəmi.
Deyəsən, yol azmışam,
Ya qara basır məni?
Qaranlıq pusur məni.
Qanın, tərin içində
Kəndi ayaqlayıram,
Gülürəm, ağlayıram.
Evlər, çəpərlər hanı?
Hara getsəm özümlə
Daşıyıram dumanı.
Gecə duman donunda
Nə qorxulu görünür,
Duman kənd-kənd sürünür.
Səsimə səs verən yox,
Dünya yatıb deyəsən.
Kənd dumanın altında
İtib batıb deyəsən.
Dörd tərəfim qaranlıq,
Dörd tərəfim dumandı...
Kimsə çağırdı məni:
-Getmə!Dayan!
Dayandım..
Sonra geri qayıtdım.
Gözlərim duman donun
Yavaş-yavaş soyundu.
Şükür, səhərə çatdım!

***

Elə bilmə qayayam,
Elə bilmə daşam, heyy!
Sən minillik həsrətim,
Dərdi qoşa-qoşam, heyy!

Ömründə bircə dəfə
Üzünü görmədiyim,
Səsini duymadığım
Qara gözlü Şuşam, heyy!

Sən dünənsən, bu günsən,
Sabahsan, ərən şəhər.
Sən şərin qabağında
Nər kimi duran şəhər.
Ürəyimin nisgili,
Düyünü, dağı, Şuşa.
Həsrətimin ocağı,
Üzümün ağı, Şuşa.
Yuxularda gəzmişəm
Dağ səni, dərə səni,
Çapmışam , yüyürmüşəm
Belədən belə səni.
Çiçəyindən dərmişəm,
Bulağından içmişəm,
Dolağından keçmişəm,
Tapmışam, itirmişəm,
Bağışla məni, Şuşa,
Görüşə gecikmişəm.
Düşmənlərin başına
Daş olub yağan şəhər,
Xan şəhər, ağam şəhər.
Şəhidlərin gözüylə
Dünyaya baxan şəhər.
Bir ana duasında,
Bir gəlin həyasında,
Bir payız havasında
Təzədən doğan şəhər.
Sən azadsan, mən azad,
Gözümüz aydın, Şuşam,
Salam, günaydın, Şuşam!

***

Milyon kərə tikələnən,
Milyon kərə bütövlənən,
Öz adına möhürlənən
Dədə Vətən, Ozan Vətən,
Tarix-tarix gəzən Vətən!
Ağrısında, acısında
Betonlaşan, qayalaşan.
Şeirləşən, nağıllaşan,
Baba yurdum, ata yurdum.
O tay da sən, bu tay da sən,
Güney də sən, Guzey də sən,
O da yurdum, bu da yurdum.
Hardan keçsək, hardan getsək
Sənə çıxır bu yol Vətən,
Oğul Vətən, ahıl Vətən!
Bu qapı xan qapısıdı,
Girə bilməz yoldan ötən.
Bir arzum var,
Bu qapqara məftilləri qırıb tökək,
Çırmalanaq, xan Arazı vurub keçək.
Düz Təbrizdə dalğalansın bayrağımız.
İrəvana, Zəngəzura gedib çıxaq,
Bu qaydasız qanunları vuraq, yıxaq.
Lazım gəlsə dəmir qapı Dərbəndəcən yürüş edək.
Sərhəd-sərhəd bütövləşsin torpağımız,
Sərhəd-sərhəd vətənləşək.
Baxıb görək o yan Vətən, bu yan Vətən.
Azad olsun daşın Vətən, qayan, Vətən!
Dayan, Vətən!

***

Yay yenə də yol üstədi,
Yığıb şələsin gözləyir.
Yollar, küçələr, səkilər
Payız lələsin gözləyir.
Günlər də qısalır yaman,
Göz aç, yum axşam yetişir.
Külək yolur ağacları,
Yarpaq yarpaqla ötüşür.
Arada qaralır hava,
Buludlar yerə ağlayır.
Payız tökülür üstünə,
Çöllər, dağ dərə ağlayır.
Vaxt gəlib keçir beləcə,
Bu yay da belə ötüşür.
Bahardan çıxan sevginin
Qismətinə payız düşür.

***

Sabahın xeyir, ay adam,
Günün mübarək, mübarək.
Mübarək qaşın, qabağın,
Çənin mübarək, mübarək.

Nə yaman pis oyanmısan,
Qaranlığın yorub səni?
Kim ağladıb yuxularda
Kim ovudub, qərib səni?

Bax gör ayağın yerində?
Bax gör başın yerindədi?
Bax gör günahın yerində?
Bax gör daşın yerindədi?

Allahına şükür elə,
Səfərdən sağ qayıtmısan.
Yarı ölü, yarı diri,
Axır ki, bax, qayıtmısan.

Geyin səhəri əyninə,
Gecəni soyun, tez elə.
Tök gözündən bu zülməti,
İşıqda yuyun, tez elə.

Sabahın xeyir, ay adam,
Günün mübarək,mübarək.
Mübarək qaşın, qabağın,
Çənin mübarək, mübarək.

***

Həyat ən böyük səhnə,
Adamlarsa roldadı.
Hərə bir cür güldürür,
Hərə bir cür ağladır.
Danışanlar, susanlar,

Oxuyanlar, yazanlar -
Hərə bir cür aldadır.
Ovlananlar, ovçular,
Dilənçilər, yolçular.
Padşahlar, nökərlər,
Canavarlar, şikarlar.
Balacalar, yekələr,
Xırda-xırda arzular,
Böyük-böyük kölgələr.
Enənlər, ucalanlar,
Qıraqdan əl çalanlar,
Satılanlar, satanlar,
Rəngli-rəngli talelər,
Rəngli-rəngli adamlar,
Uduzanlar, udanlar -
Hərə bir cür oynayır,
Səhnə daşır, qaynayır.
Beləcə qaçır zaman,
Beləcə uçur zaman.
...Gözlə qaşın arası
Bir də...
Bir də baxırsan
Bu da sonuncu işıq,
Bu da sonuncu pərdə.
Bu da sonuncu alqış,
Bu da sonuncu... Nöqtə!

***

Bu gündən səhərə
bir gecəlik yol qaldı,
Bircə gecəlik.
Bir gün də artdı həsrətin yaşı,
Bir gün də xəzəlləşdi
sənsizliyim zamanın qollarında.
Bir gün də payızlaşdı
kədərin üst-başı,
Bir günüm də
qoşuldu ümidsizliyə,
Bir gün də qaldı
əlçatmazlıqda, ünyetməzlikdə.
Tənhalığım bir gün də
göyərdi ovuclarımda,
Bu gün də sabahla aldatdım
sənsizliyin başını,
Bu gün də utandım
sapsarı arzularımdan,
Bir günüm də uçub getdi
əllərimdən tənhalığa sarı.
Bir gün də qarıdım məhəbbətimdə ,
Bu gün də baxışlarım yağır etdi yolları,
Bu gün də küsdüm Tanrıdan,
Üz çevirdim O olmayan tərəfə.
Sonra...
Sonra da hardansa bir işıq düşdü
nisgilimin üstünə son dəfə.
Bu gün də sənsizliyə büründüm
başdan ayağa.
Bu günüm də yuxuladı
gecənin baxışlarında,
Bir günümü də uduzdum sabaha.

***

Gecə keçib, ay da yatıb, ulduzlar da yuxulu,
Mənsə nağıl gözləyirəm bu gecənin üçündə.
Milyon ilin təkliyi də kirpiyimdən asılıb
Qaranlıqda yol axtarır gözlərimin içində.

Başım üstə dövrə vurur öz ruhumun kölgəsi,
Xəyallara əlim çatmır, əlləşirəm uzaqdan.
Hayandasa it ulayır tənhalığın üstünə,
Görən kimə acıqlıdı, səsin kəsmir bayaqdan?

Ara-sıra ağacların yarpağı xışıldayır,
...Demək çöldə yavaş- yavaş,
xəfif-xəfif meh əsir.
Otağıma işıq düşür qaranlığın içindən,
Maşınların kölgəsidi pəncərəmdə tələsir.

Divarlar da mürgülüdü, həyət-baca mürgülü,
Aradabir çarpayıdı hənirimə diksinən.
Ürəyim də dayanmadan təpikləyir sinəmi,
Deyən o da qaranlıqda sığışammır köksümə.

Yenə qulaq kəsilmişəm tənhalığın səsinə,
Zaman yenə damcı-damcı gözlərimdə əriyir.
Divardakı saat da ki, yarı oyaq, yuxulu
Yorğun-yorğun, asta-asta sübhə sarı yeriyir.



**VÜQAR ƏHMƏD**

# NİQAB

*hekayə*

Vaxtilə Universitetin Şərqşünaslıq fakültəsini bitirən Gövhər artıq iyirmi il idi çalışırdı. Belə ki, institutun müdiri Bilal Qüdrətzadə onun işindən çox razı idi. Çünki vaxtında işinə gələn, heç vaxt işdən yayınmayan, öz işini hamıdan yaxşı bacaran, eyni zamanda səliqə-sahmanı ilə ordakıları heyrətləndirən Gövhər həm direktor Bilal Qüdrətzadənin, həm də ümumiyyətlə bütün heyətin üzünü daim ağ etmişdi. İnstituta vaxtaşırı müxtəlif ərəb ölkələrindən təşrif gətirən ərəb alimlərlə, yazıçı-şairlərlə ərəbcə sərbəst danışan, çox zaman da müdiri Bilal Qüdrətzadə ilə onların arasında dilmanclıq eləyən Gövhər xanım qonaqların da ehtiramını qazanmış, onun haqqında olduqca xoş sözlər deməyinə öz ədəb-ərkanı, mədəniyyətilə nail olmuşdu. Bu səbəbdən dəfələrlə mükafatlar almış, medallarla təltif olunmuşdu. Gövhərin bu qədər işgüzarlığının, zəhmətkeşliyinin səbəbi həm də onda idi ki, o, öz işini sevirdi, işinə çox bağlı idi. Əgər onu işindən ayırsaydılar, bəlkə də bağrı çatlayardı.

Gövhər xanımın həyat yoldaşı Sərdar ali dərəcəli sürücü idi. Əvvəllər marşrut avtobusu sürən Sərdar artıq on il idi ki, ölkədə çox tanınmış biznesmenlərdən biri Şamil bəyin sürücüsüydü və öz patronundan çox razıydı. Şamil bəy səxavətli, gülərüz, mehriban bir adam idi. Kimsənin ürəyini qırmaz, hamını özündən razı salmağa çalışardı. Şamil bəy Sərdarın həyat yoldaşı Gövhərə də hüsn-rəğbət bəsləyir, Sərdar evdə olarkən onunla telefon əlaqəsi saxlayarkən hökmən Gövhər xanımın da kefini soruşur, “bir sıxıntısı varsa mütləq deyin, qardaşınız imkan daxilində sizə kömək eləsin”, - deyirdi.

İndi isə Sərdar patronundan ürəyəyatan bir söz eşitmişdi. Bir həftədən sonra Şamil bəy Bakının ən füsunkar restoranlarından birində yeganə qızına toy eləyəcəkdi. İllərlə toya getməyi arzulayan Gövhər ərindən bu əlamətdar xəbəri eşidən kimi, toya hökmən dəvət alacaqlarına əmin olub artıq özünü ən əziz qonaq kimi Şamil bəyin qızının toyunda hesab etdiyi üçün əlinə mikrafona bənzəyən boş duzqabı götürüb güzgü qarşısında dayanaraq dil-dil ötürdü:

-Möhtərəm qonaqlar! Toy əcdadlarımızdan bizə miras qalan misilsiz bir adətdir. Toy hər valideynin, hər ananın, hər atanın ən böyük arzusudur. Çünki toy gələcəyə ümidlə baxmaq üçün bənzərsiz bir vasitədir. Toy şirin-şəkər nəvələrin dünyaya gələcəklərindən xəbər verən olduqca xoş bir müjdədir. Toy iki gəncin xoşbəxtlik bulağının qaynamağa başladığı gündür. İnsan sür-

düyü həyatda enişlərlə, yoxuşlarla yaşayır. İnsan həyatı sevinclərdən və kədərlərdən ibarətdir. Fəqət toy elə bir mərasimdir ki, toy günü bütün kədərlər, qəmlər, acılar unudulur. Toy günü bütün əqrəbaların, dostların, bir-birinə hüsn-rəğbət bağlayan insanların bir araya gəldikləri olduqca əlamətdar bir gündür. Toy Uca Allahdan bizə mükafat kimi verilmiş olduqca şirin bir sərvətdir. Toy günü hamının üzü gülür, hamı sevinir, hamı şadlanır, hamı şənlənir. Toy gələcəyə uzanan elə bir körpüdür ki, bu körpü tək toyu olan növcavanlara deyil, onların valideynlərinə, doğmalarına, əzizlərinə yalnız səadət, səadət və səadət bəxş edir. Toy hamının bir-birinə xoşbəxlik dilədiyi bir gündür. Yuxarıda dediyim kimi toylar toyu olan, daha doğrusu, evlənən şəxslərə ailə qurma vəsiqəsi, nəsil artırma sənədi verməklə yanaşı xalqın milli-mənəvi dəyərlərini əks etdirən, mədəniyyətinin zənginliyini, tarixinin, adət-ənənələrinin qədimliyini nümayiş etdirən ən gözəl vasitədir. Toylar bizə yeddi arxa dönənimizdən miras olaraq qalmışdır və biz toylar vasitəsilə həyatımızdakı üzüntülərdən, sıxıntılardan, çətinliklərdən qurtularaq işıqlı bir həyata qədəm qoyuruq. Toylar bizi gələcəyə, yaşamağa, firavanlığa səsləyir. Toylar ümiddir, gələcəyə xoş bir cığır açan həyatımızda ən əlamətdar hadisələrin bünövrəsi, özülüdür. Dediyim kimi toyda bir-birinə hüsn-rəğbət bəsləyən şəxslər hamı bir araya gəlir və bir-birinə: “O gün olsun sizin subaylarınız üçün olsun, oğlundan görəsən, qızından görəsən”, - deyir. Bəylə-gəlinə isə: “Qoşa qarıyasız, oğullu-qızlı olasız, Allah öz inayətini, mərhəmətini, rəhmətini üzərinizdən əskik eləməsin”, - arzulayırlar. İndi mən də deyirəm, toyunuz mübarək olsun, səadət bütün ömrünüzcə sizə yar olsun. Bəxtəvərlik heç vaxt qapınızdan çəkilməsin. Bütün arzularınız çin olsun, inşallah! Bura gələn qonaqların ürəklərində nə arzu varsa, Allah müstəcəb eləsin, inşallah! Xoşbəxt olun, dostlar! Allah mübarək eləsin! İndi isə bütün qonaqları rəqsə dəvət edirəm.

Sərdar ona baxıb gülümsəyirdi. Gövhər çıxışını bitirən kimi gülümsəyərək üzünü ərinə tutdu:

-Sən nə deyəcəksən, Sərdar?

Sərdar yüngülcə başını buladı:

-Sənə çıxış üçün söz verəcəklərinə əminsənmi?

Gövhər dodağını qəribə şəkildə büzüb hər iki əlinin baş barmağını yuxarı qaldırdı:

-Əlbəttə! Şamil bəy çox həssas, geniş qəlbli, mədəni adamdır. Mənə elə gəlir ki, o, düz on il ən azı yarım milyon qiyməti olan avtomobilinin sükanını hərləmiş öz dəyərli sürücüsünün xanımına övladının toyunda hökmən söz verər. Sənin mənimlə işin olmasın. De görək nəyin var, nə deyəcəksən, növcavanları necə təbrik eləyəcəksən?!

Sərdar duzqabını Gövhərdən alıb güzgünün qarşısına keçdi və bədənnüma güzgüdə iri qamətini o tərəf, bu tərəfə tərpətdi:

-Qoy bir pozamı alım. Aha, demək belə! Çox möhtərəm qonaqlar! Mən səbəbkarlarımızı təbrik etməzdən qabaq istəyirəm misilsiz bir insan olan Şamil bəy haqqında bir neçə söz deyim. Mən on ildi, düz on ildi bu nəcib şəxsiyyətin sürücüsüyəm və onun sürücüsü olmağı özümə şərəf, səadət hesab eləyirəm. Yəqin ki, burdakı qonaqların əksəriyyəti bilir, bu kişinin ağzından ləl-cəvahirat tökülür. Bilirsiz insanlar hamısı bərabərdir, lakin o insan ki, vəzifəsinə, puluna güvənib sadə adamlara aşağı baxır, məhz Uca Allah o cür adamları bəyənmir. Şamil bəy kübar cəmiyyətdə çox nüfuzlu, hörmətli biridir. Lakin onun öz işçilərilə münasibəti heyrətamizdir. O, həm də bizə, öz işçilərinə etibar eləyir, başa düşürsüz?! Bəzən yüz min pul verir ki, Sərdar bu pulu filankəsə çatdır.

Bu yerdə Gövhər narazı halda başını buladı:

-Nə danışırsan, ay kişi?! Heç dəxli var?! Bir tərəfdən Şamil bəyin yüksək-mənəvi keyfiyyətlərindən danışırsan, bir tərəfdən də məsələyə aid olmayan sözlər deyib baş-ayaq vurursan. O, yüz mini demə, onun məsələyə heç bir adiyyatı yoxdur.

Sərdar yüngülcə başını tərpətdi:

-Yaxşı, yüz mini aradan sildik. Hə, deməli belə. Mən Şamil müəllimin övladına, gözəl gəlinimizə və bəyimizə yalnız səadət, səadət, səadət arzulayıram. İndi isə bəylə gəlini rəqsə dəvət edirəm! Adə zurnaçı, filə o zurnanı! Bir dənə hopstop!

Gövhər bu dəfə bir qədər qeyzli şəkildə başını buladı:

-Nə hopstop, hansı hopstop?! İndi hopstop vaxtıdır, ay kişi?!

Sərdar sol əlini yana açdı:

-Bəs nə vaxtıdır?

Gövhər yenə güzgüyə yaxınlaşıb qırx beş yaşına baxmayaraq gənc qızlardan daha cazibədar görünən çöhrəsinə diqqət etdi:

-Hopstopun əl-qolunu bağlayıb sandığa salmaq lazımdır. İndi camaat toylarda Koreya, Yapon, Amerika rəqsləri oynayır.

Sərdar narazı halda dilləndi:

-Qoy bizi oturmuşuq, ay Gövhər, bəs bizim öz milli rəqslərimiz, Tərəkəmə, Heyvagülü, Qazağı, Xançobanı, onlar nə oldu?

Onlar folklorşünasların kitablarında qaldılar. İndiki gənclər o rəqslərə gerilik kimi baxır.

Sərdar ikrahla gülümsündü:

-Nə gənclikdi bu belə ki, öz keçmişinə xor baxır?! Eşitməmisən ki, keçmişinə xor baxanı, gələcək nəsillər topa tutar! Sözün açığı, gənclərimizin bu qədər dəyişdiyini bilməzdim.

Gövhər yalnız indi nəzərlərini bədənnüma güzgüdən ayırdı:

-Hardan biləsən? İllərdir bizə verilən dəvətnamələri cırıb atmısan. Elə bir dənə söz demisən ki, bizim bu toylarda nə işimiz var? Pulumuzu çöldən tapmışıq bəyəm?! Övladımız var ki, ona toy eləyib bu dəvətnamə verənləri çağıraq?! Belə olan halda mən heç vaxt kiminsə toyuna-zadına gedən deyiləm. Bəs indi nə oldu?! Bu sənin patronundu, sənə yaxşı aylıq verir, buna görə hə?! Bundan da vaz keçəydin də, niyə keçmədin?! Məni də illərlə toylara həsrət qoymusan, heç fikirləşməmisən ki, axı bu da insandı, bunun da bu dünyadan zövq almağa haqqı var.

Sərdar pərt halda başını aşağı salmışdı, iyirmi beş illik ömür-gün yoldaşının bu, nə qədər acı olsa da, həqiqəti əks etdirən sözlərinin qarşısında söz tapa bilmirdi. Çünki həqiqətən də ərəb dili mütəxəssisi, ərəb dilindən Azərbaycan dilinə, Azərbaycan dilindən ərəb dilinə elmi, bədii əsərlər, şeirlər tərcümə eləyən, elmi əsərlər yazan ümumiyyətlə ərəb dilndən başqa, fars, ingilis, fransız, alman, rus dillərində sərbəst danışa bilən, olduqca geniş təxəyüllə, iti şuura, dərin zəkaya, yüksək intellektə malik zövcəsini ailə qurduqları iyirmi beş il ərzində hətta qohum-əqrəbasının, dostlarının, rəfiqələrinin, iş yoldaşlarının belə xeyir işlərinə həsrət qoymuşdu. Adət-ənənələrə, milli dəyərlərə çox bağlı olan Gövhər isə onun ərlik hüququnu heç vaxt tapdalamamış, öz arzularına zəncir vurmuş, yalnız onun istəklərilə hərəkət etmişdi. Buna görə iyirmi beş il müddətində ruhunu sarmış fırtınanın təlatümünü olduqca mədəni şəkildə bəyan etdi. Məhz bu həqiqəti əks etdirən "bəyanat"dan sonra dərindən köks ötürdü. Çünki iyirmi beş ildə onun ruhunu hövüləndirən, əsəblərini tarıma çəkən fırtına bir anın içində sakitləşib yoxa çıxdı.

Gövhərin, Sərdarın iliyinə işləyən sözlərindən sonra otaqda bir xeyli sükunət hökm sürdü. Nəhayət, Sərdar sükutu pozdu:

-İndi ki, belədi, mən vaz keçirəm rəqs eləməkdən.

Gövhər sağ əlini yellədi:

-Elə şey yoxdu, camaat nə deyər?! Toya gedən adam hökmən rəqs eləməlidi. Yoxsa toya gələn qonaqlar elə bilər ki, paxıllıqdan əl-qol atmırsan.

Gövhər bunu deyib ərinin pərtlikdən pörtmüş yekə sifətinə, nəmlənmiş gözlərinə baxdı:

-Bura bax, Sərdar, olmaya məndən incidin?

O yaxına gəlib Sərdarın kobud, iri sağ əlindən tutdu:

-Yaxşı, ürəyinə salma! Bir sözdü dedim. Axı biz toya hazırlaşırıq. Rəqs eləmək bir yana. Gərək mən toya layiq paltar tapım, səninçün də qəşəng bir kostyum alım.

Gövhər bu dəfə sol əlilə Sərdarın sağ əlindən yapışdı:

-Bilirsən, ancaq gəlin gələndə, yəni iyirmi beş il bundan qabaq böyük bacım Sənubər basıb məni maşına, zorla aparıb gözəllik salonuna. O vaxtdan heç vaxt orda olmamışam. Gərək toy günü bir ora baş çəkim. Etiraz eləməzsən ki?!

Sərdar zorla üzünə gülüş ifadəsi verdi:

-Yox, əlbəttə!

Bununla da onların bu günlük toy haqqında söhbətləri bitdi.

Toy gününə üç gün qalmış axşam işdən gələndə Sərdarın qanı çox qara idi. Gövhər bunun səbəbini soruşanda o, qəzəblə sağ əlini yellədi:

-Elə bil indiyə qalmışdı.

Gövhər sualının cavabını almaq üçün səbrini bir az da basdı. Nəhayət, Sərdar onun sorğusunu cavablandırdı:

-Şamil bəy mənə əmanət vermişdi ki, bir nəfərə çatdırım. Maşını sürətlə qovdum və yol polisi saxlayıb sürücülük vəsiqəmi aldı, maşını isə cərimə meydançasına apardı.

Gövhər narahat halda soruşdu:

-Şamil bəy bunu bildi?

Sərdar siqaretə dərin qullab vurdu:

-Bildi. Zəng də vurdu, lakin Şamil bəy sadəcə biznesmendi. Rütbəsi, vəzifəsi yoxdu. Odur ki, güzəşt eləmədilər.

-Bəs əmanəti necə, çatdıra bildin?

Sərdar yenə havaya tüstü buraxdı:

-Çatdırdım. Taksi çağırıb apardım. Lənət şeytana! Mən də istəyirdim toy günü orda sürücü kimi bir işə yarayım. Nə isə…

Gövhər ona ürək-dirək verdi:

-Eybi yox, ürəyini sıxma!

Gövhər bunu deyib iri dolabı açıb ordan gözoxşayan bir kostyum götürdü:

-Narahat olmağına dəyməz. Bax, əla kostyumdu, geyinsən sən də bəyə oxşayacaqsan. Qara kostyum, mahud parçadan. Özü də 60, 4-cü rost. Əsil sənin ölçün.

Sərdar kostyumu geyib güzgü qarşısında dayanandan sonra əsəbləri xeyli sakitləşdi. Kostyum onun təndürüst qamətinə o qədər yaraşırdı ki, gözlərini güzgüdən çəkə bilmirdi. Odur ki, gözlərini güzgüdən ayırmadan soruşdu:

-Bəs sən, toy üçün paltar aldınmı?

Gövhər dolabdan zərxaradan hazırlanmış paltar çıxarıb geyindi və geyinən kimi o qədər gözəlləşdi ki, Sərdarın o qədər də böyük olmayan gözləri xeyli böyüdü:

-Aman Allahım! Aman ya Rəbbim! Sən dünya gözəli imişsən. Mən yüz faiz, yüz faiz əminəm ki, o toyda səndən daha gözəl qadın olmayacaq.

Gövhər ərinin sözlərindən xoşlana-xoşlana servantın üstündən balaca bir vaz götürüb içindəki zinət əşyalarını barmaqlarına, qulaqlarına, qollarına, boynuna taxmağa başladı.

Sərdarın gözləri indi bir az da böyümüşdü, o xanımı üçün bu qədər ziynət əşyası almamışdı və onun buna gücü də yetməzdi.

Gövhər onun çox maraq etdiyini görüb səkkiz barmağını bəzəyən brilyant, yaqut, zümrüd, firuzə qaşlı qızıl üzüklərə baxdı:

-Bir qismini bacım Sənubərdən, bir qismini rəfiqələrimdən borc götürmüşəm. Gözlərin kəllənə çıxmasın.

Sərdar yumruğunu büküb sağ əlini yuxarı qaldırdı:

-Sən par-par parıldayacaqsan, Gövhər. Mən əbləh indi anlamışam ki, nəinki Bakıda, yer üzündə sənin kimi gözəl yoxdu.

Gövhər bir az nazlandı:

-İyirmi beş ildi evliyik, indi bilmisən mənim qədrimi?!

Sərdar başını buladı:

-Yox, yox, əzizim. Mən həmişə sənə yüksək dəyər vermişəm. Bilirsən, bizim nəsillikcə xasiyyətimiz belədi. Öz xanımına belə xoş söz desən, sanki erkəkliyi artıq əldən vermiş olursan. Biz heç vaxt öz fikirlərimizi açıq-aşkar ifadə eləyə bilmirik. Öz halal xanımına bir şirinlik eləsən, sanki özün öz gözündə qiymətdən düşmüş olursan. İndi görürəm ki, bu heç də yaxşı xüsusiyyət deyil.

Sərdar sözünü bitirəndən sonra hər ikisi təzə geyimlərini soyunub ev paltarları geyindilər ki, təzə əlbisələr çirkə-zada batmasın. Bundan əlavə Gövhər ziynət əşyalarını da çıxarıb vaza yığıb əvvəlki yerinə qoydu və üzünü ərinə tutdu:

-Düşünürdüm toya beş yüz manat salarıq. Amma indi fikirləşirəm ki, Şamil bəy çox zəngin adamdır, elə isə biz niyə xəcalət çəkməliyik. Biz də toya min manat salarıq, hə Sərdar?

Sərdar başını tərpətdi:

-Hə, əlbəttə! Biz kimdən əskiyik ki..

Bundan sonra Sərdar yenə bir siqaret alışdırıb çəkməyə başladı. Gövhər isə işdən yorğun gəlmiş əri üçün isti yemək və çay tədarükündə oldu.

Bir sözlə, iyirmi beş il müddətində toy görməmiş ər-arvad toy gününə qədər xəyallarla ya-

şadılar. İyirmi beş il övlad həsrəti çəkmiş ər-arvad sanki bu toydan alacaqları zövqlə övladsızlıq acısını unudacaqdılar. Toy yiyəsindən dəvətnamə almasalar da, toya dəvət alacaqlarına əmin olduqları üçün toy gününə qədər səbirlə gözlədilər, belə ki, Gövhər xanım hətta həmin gün səhər kosmetika salonuna gedib öz gözəl surətini daha da gözəlləşdirdi...

Ertəsi gün Gövhər xanım işə gələndə onun dünən məhşur bir biznesmen Şamil bəyin övladının toyunda iştirak edəcəyini bilən Bilal Qüdrətzadə kağız kimi ağarmış çöhrəsini görəndə qorxuya düşdü, odur ki, salamlaşmadan soruşdu:

-Sizə nə olub, Gövhər xanım, bəniziniz ağappaqdı. Yoxsa toyda bir hadisə baş verib?

Gövhər başını buladı:

-Toyda heç bir hadisə baş verməyib.

Bilal Qüdrətzadə bir addım da ona yaxınlaşdı:

-Bəs onda nə olub, Gövhər xanım? Mən sizi heç vaxt bu vəziyyətdə görməmişəm. Bəlkə rəhmətə gedən var?

Gövhər dərindən köks ötürdü:

-Yox, rəhmətə gedən də yoxdu.

Bilal Qüdrətzadə indi yerindən tərpənmədən soruşdu:

-Axı bəs onda nə olub? Səbrim tükəndi, vallah! Bilirəm dünən Sərdarla toya getmişdiz. Kaş, həmişə toy olsun!

Bilal Qüdrətzadə yenə nəsə demək istədi, lakin Gövhər onun sözünü kəsdi:

-Toya getməmişdik, Bilal müəllim!

Bilal Qüdrətzadənin səsi bu dəfə həmişəkindən zəif çıxdı:

-Niyə?

Gövhərin səsi indi ney avazına bənzədi:

-Çünki bizi toya dəvət eləmədilər.

Bilal Qüdrətzadə olduqca məyus halda kətilin üstündə oturdu və bir neçə saniyə keçəndən sonra bir kəlmə söz dedi:

-Niqab… Əfsuslar olsun ki, bəşər övladının yarısından çoxu məhz bu cür niqab taxır, məhz Şamil bəyin taxdığı niqabdan.

Ertəsi gün, bazar günüydü deyə iş olmadığından Gövhərlə Sərdar dənizkənarı parka gəzməyə getmişdilər. Əslində gəzməyə getmişdilər deyəndə, srağagün axşamdan bəri düşdükləri ağır vəziyyətdən çıxmaq üçün mavi Xəzərin sahilindəki parkda gəzməyə üstünlük vermişdilər. Çünki zatən onlara mələk kimi görünən Şamil bəy onları övladının toyuna dəvət etməyib aşağılamaqla onlara bəlkə də övladsızlıq acısından da ağır zərbə vurmuşdu. Onlar sahil bağındakı əsrarəngiz yaşıllıqlara, dayanmadan Bakı əhalisinə həzin laylay çalan mavi Xəzərə, Xəzərin əzəmətli körpülərinə tamaşa etməklə həddindən artıq gərilib tarıma çəkilmiş əsəblərinə su çiləmək istəyirdilər. Sahil bağına daxil olandan bir qədər sonra dənizin lap sahilində qoyulan skamyada oturub mavi Xəzərə tamaşa etməyə başladılar. Min illərdən bəri Xəzərin qoynunda uçmağı həyatlarının mənası hesab edən qağayıların səsi insan qəhqəhəsinə bənzəyirdi. Sanki bu müqəddəs quşlar saxtakar insanların ikiüzlülüyünə qəhqəhə çəkib gülürdülər. Bununla belə qağayılar sinəsi qəmlərlə, kədərlərlə dolu olan dənizi elə bil ki, bu nahaq dünyadan ayırıb olduqca saf, təmiz bir dünyaya səsləyirdilər. Bundan əlavə cürbəcür ölçüdə sərnişin və yük gəmiləri isə bəlkə də yaşı həyatın başlanğıcı ilə bir olan Xəzəri olduqca müəzzəm və füsunkar göstərirdi. Lakin bütün bunlar bir yana dursun, əsas o idi ki, mavi Xəzər olduğu kimi görünürdü, o bir sıra nankor insanlar kimi niqab taxmamışdı. Hardansa lap uzaqdan isə həzin bir mahnı sədalanırdı:

Gecənin zümzüməsin,
Əks edən laylasısan,
Gündüzün həzin-həzin,
Vəsf edən avazısan.

Dünyada yox bənzərin,
Mavi gözlü gözəlim.
Ziynətim, simuzərim,
Mənim əziz Xəzərim.

Şahə qalxdığın zaman,
Titrədirsən hər yanı,
Sakit axdığın zaman,
Oxşayırsan səmanı.

**09.09.2023**



**AY BƏNİZ ƏLİYAR**
**Şabran...**

**43 YAŞIMA GECİKMİŞ MƏKTUB**

Yaş, nə tez ötüşdün, hara tələsdin?
Nəyi necə etdim, bilmədim axı.
Bəzən çıxıb qəfil yolumu kəsdin,
Bəzən dönüb oldun bir şirin yuxu.

Bir vaxt ruhum təzə, könlüm də xoşdu,
Baharlar rəngarəng bağçam-bağımdı.
İndi nədən belə ürəyim boşdu?
Özüm də bilmirəm, hansı çağımdı?

Məni qucaqlayan, məni axtaran,
Yüyürüb bir zaman üstümə cuman,
O gözəl sevdalar, o zərif hisslər,
İndi hara getdi? Kim onu gizlər?

Milyon arzu uçdu başımın üstdən,
Ruhumun göyləri kəhkəşan oldu.
Mən ki, heç qorxmadım duyğudan, hissdən,
Duyğular nə zaman məndən yoruldu?

Yaş, nə tez ötüşdün, tələsdin hara?
Nəyi qazandırdı hər ötən bir il?
“Dur” deyə bilmədin gedən çapara,
Yəqin ixtiyarın özündə deyil!

Bəlkə də hardasa səni gözləyən,
Səni arzulayan bir kimsənə var.
Bəlkə də O yoxdu, O yoxdu deyə,
Səni belə uzaq aparır yollar.

Bir vaxt hər telindən min naz süzülən,
İncə gülüşündə kəpənək gülən,
O “gənclik” adında eşq hara getdi?
Kimlər onu belə tarimar etdi?

Qırxı adladınsa əllidir demək,
Bundan sonrasılar bəllidir demək!
Bu yaşda dost-düşmən çəpəri olmur,
İnsanın eşqlərə səfəri olmur.

Nə günlər xoş keçir, nə hisslər dərin,
Gömülür qəlbinə gizlədiklərin.
Əlində oyuncaq olur baxışlar,
Qəlbinin içində bir kədər qışlar,
Bu dəmlə əllidən sonralar başlar.

Sən ki saf hisslərlə getdin hər yolu,
Bu imiş zamanın sənə “sağolu”?
Hanı əldə çıraq səni gəzənlər?
İndi növbənövdü səni əzənlər.

Deməräm, çox qovğa çəkməyib başım.
Şükür, elə ağır yanmayıb canım.
Şələni qoy yerə döyüşək, yaşım,
Ya sən zəfər qazan, ya mən qazanım.

Gənclik yüyürməkdən doymadığındı,
Adı bilinməyən sirdi nə varsa...
Gənclik gözdən kənar qoymadığındı,
Qəlbində son ümid, nurdu nə varsa...

**O DAM**

Bu dünyanın damı varmı görəsən,
Damı varmı boylanmaqçün hər yerə?
O dam boyda bir nərdivan hörəsən,
Pillə-pillə ucalasan göylərə...

Ətəkləri buludlara qarışan
Tacı varmı, yeddi rəngli çələngdən?
Damı varmı ulduzlara yaraşan,
Bacasından çıxan tüstü nə rəngdə?

O dam bəlkə kainatın dibidir?
O dam özü bu dünyaya çətirmi?
O dam yəqin Tanrıların evidir,
Ora görən dualarım çatırmı?

Mən o dama çıxmaq üçün çalışdım,
O dam sanki bir alınmaz qalaydı...
Mən o damda buludlara qarışdım,
O dam ölü ulduzlarla doluydu...

Çıxıb bir-bir ulduzları süpürdüm,
Ovcuma bir ad söyləyib üfürdüm,
O dam görən dəli olmaq üçünmü?!
Adam bunu düşünmədən keçinmir...

**QIZIMA GECİKMİŞ AD GÜNÜ TƏBRİKİ**

Bir az gecikmişəm, bağışla, qızım,
Tək Allah şahiddir nə çəkdiyimə.
İndi 10 yaşın var, durum nə yazım?
Bir gün haqq verərsən gecikdiyimə.

Bir az gecikmişəm, nə alım, deyə,
Nə ilə könlünü xoş edə bilim...
Ana duasından gözəl hədiyyə
Yoxdur, mən biləni, göydədir əlim...

Hədiyyə səninçün sözdə çox adi,
Bax, yenə hazırdır gülün, ətirin.
Səadət, dediyin, can sağlığıdı,
Onu nəylə alım, necə gətirim?!

Canımdan dəyərli bilirəm səni,
Yalan deyirəmsə kor olsun gözüm.
Hərdən çarəsizlik üzsə də məni,
Üzmədim əlimi göylərdən, qızım.

Bəzədin ömrümün hər saatını,
Buna əvəz olan nədir, bilmirəm.
Sən mənə bəxş etdin "Ana" adını,
Mən bundan dəyərli heç nə görmürəm.

***

Göy üzün yenə də qovur buludlar,
Nə payız yenidir, nə yağış yeni.
Ağaclar düşürür nə yarpağı var,
Damır göy üzünün bulud sakini.

Damıb islatmağa adamı hanı?
Yenə küməsinə çəkilib hamı.
Dolmur gecələrin səssiz dalanı,
Göylər dama-dama boşuna damır.

Daha təsəlliyə çevrilmir hər an,
Daha sərçələri qovmur pişiklər.
Daha qaranquşlar qaçmır payızdan,
Daha təzələnmir köhnə beşiklər.

İtirir həmdəmin yuvalar tək-tək
Qalıb nəğmələrdə quşların səsi.
Toxunsan, hürküdən sükutu gerçək,
Nimdaş xatirəyə dönüb hamısı.

Yurddan nə zamandır köçübdür lələm,
Sanki zamanın da beyni çalışmır.
Gözümün ovuna qurulmur tələm,
Qəlbimin oduna ruhum alışmır.

Dişini qırıbdı köhnə kirkirə,
Təzə hiss yaratmır şeirin boyatı.
Bu haqsız, narahat zamana görə,
Sınıb kəfkirindən divar saatı.

***

Bu sabah işdəyəm, ağlımda da sən,
Telefon susmayır neçənci gündü.
Mobil telefonda görünər nömrən,
Bəlkə, iş nömrəmi yığırsan indi?

Danışmır zəng edən, qalxır səs tonum,
Görən kim zəng edir, axı kim bilsin?
Nömrəni gizlədir iş telefonum,
Dəstəyi atırsan, səsim kəsilsin?

Demirəm, zəng elə, dəstəkdən asıl,
Mən də zəng eləsəm zəngimi açma.
Zəng etmək səninçün qürur sancısı,
Toxda, qürurunu sındırma, sancma.

Darıxmaq belədir, bitir iş-gücün,
Gəzirsən, çiynində yükün var kimi.
Mən izn verirəm, zəng elə hər gün,
Hər gün bircə dəfə yoxla səsimi.

***

Mən bir barlı ağacam ki,
Barım şeirdir, şeirdir.
Yaratdığım kəhkəşanım,
Varım şeirdir, şeirdir.

Yellər səpələr ruhumu,
Küləyə qonar tellərim.
Arılar ballanar məndə,
Yelləncək olar qollarım.

Sözəm kökümdən-gövdəmə,
Bağçam şeir, bağım şeir.
Yazda çiçəyim şeirdir,
Payızda yarpağım şeir.

Dan boyunca seyrim şəfa,
Günəş nur saçar şənimə.
Quşlar məndə dincin tapar,
Nəğmə qoşarlar şeirimə.

Kölgəmdə mehmanım yatıb,
Onunla hər davam şeir.
Toplu-toplu, dolu-dolu,
Budağımda yuvam şeir.

Zəhmətim çıxmaz ki, boşa,
Şeirdir alnımda tərim.
Tanrının mənə yazdığı
Şeirdir tale əsərim.

Ağacam, barlı ağacam,
Növbahar, bəhər adamam.
Adamlar məni anlamaz,
Belə dərbədər adamam.

***

(Yağış yağır, yenə yağır,
Hər məhləyə, tinə yağır.
Doluxsunub uşaq kimi,
Sallayıb alt dodağını.
Bu buludlar mənə tanış,
Eşidirsən?
YAĞIR YAĞIŞ...)

***

Pəncərəmdə mayak kimi,
Göyqurşağı göyə kəmər.
(Süd verən analar bilir,
Anam torpaq, anam torpaq.)
Niyə istisən, bilirəm,
Göylər səndən südün əmər.

Üzüb yerdən əllərimi,
Göyə çırmanıram yenə.
(Durmaq ilə yoxdu aram,
Dırmanqucam, durum bəlli.)
İki dünya arasında
Yenə dırmanıram, yenə...

Əlim durmur ətəyimdə,
Ətəyimdən küsən əlim.
(Özümə baxmır, özümə,
Üzümə baxmır, üzümə.)
Özgəsinə umac ovan,
Əriştələr kəsən əlim.

Nə yer deyiləm, deyiləm,
Nə göy deyiləm, deyiləm.
(Uzaqdan bir azca qərib,
Bir az əcaibəm bəlkə.)
Amma düşündüyün boyda
Köntöy deyiləm, deyiləm.

**YOXLUQ**

Yox olmaq nədir görən?
Ölüm bunca haqdı? Yox!
Bir var sağdı, bilirsən,
Bir də var ki, yoxdu! Yox!

Qızılı bir payızmı,
sarı yarpaqmı yoxluq?
Qara daşmı, qəbirmi,
soyuq torpaqmı yoxluq?

Qəlbində basdırdığın
gözündəki dirimi?
Əllərində boş qalan
əllərinin yerimi?

Yox olmaq nədir görən?
Ötən zaman, keçən il?!
Heç biri deyil axı,
heç biri deyil, deyil!

Baxıram, yollarına
xəzəl düşüb bir yığın.
Hansı yönə bənd olub
çəkilməyən yoxluğun?

**HARDAN BİLİM**

Həyat necə bir oyun?!
Udmadım, hardan bilim?
Mənə tutulan toyu
Tutmadım, hardan bilim...

Vicdan dildə-dodaqda,
Xəstə düşüb yataqda.
Bir dostu bəd ayaqda
Atmadım, hardan bilim...

Dərdmi ömrün məhşəri?
Varmı görən oxşarı?
Bir xeyirə bir şəri
Qatmadım, hardan bilim...

Bu qatar nə qatarı?
İçində nə aparır?
Niyə haray qoparır?
Çatmadım, hardan bilim...

Asan oldu "yaz" demək,
Aldanıbdı göz demək...
Üç badam bir qoz demək?
Satmadım, hardan bilim...

Bu nə vay, bu nə vuruş?
Qazancı da bir quruş.
Sevgi şirin yuxuymuş,
Yatmadım, hardan bilim...

Qollarım dar ağacı...
Hər gün qəmdən gül açır...
Nədir bunun əlacı?
Yetmədim, hardan bilim...

Bazarı var, malı yox...
Azarı var, yolu yox...
Məzarında ölü yox...
Getmədim, hardan bilim...

**... QAPISI**

Yenə sancılıb sinəmə
Bu dünyanın dərd qapısı.
Kədərimdə gülür üzü,
Sevincimdə pərt qapısı.

Hava dolur çatlağına,
düşüb sifət qıtlığına.
Qırış düşüb qatlağına,
açılmayıb qart qapısı.

Durur yenə gecə-gecə,
vurur yenə gecə-gecə.
Hürür yenə gecə-gecə
it qapısı, qurd qapısı...

Nə yarımçıq mey deyiləm,
nə buludsuz göy deyiləm.
Açılmır ki, hey döyürəm,
sınaq ömrün şərt qapısı.

Əl açmışam - loxma gələ,
Loxmadan bir sıxma gələ.

Allahdan bir doğma gələ,
mərd qucağı, mərd qapısı.

### ...QAPININ

Bivaxt döyməzlər, ay adam,
cəftəsi küsmüş qapını.
Mövsümləri bahar fəsli
kilidə düşmüş qapını.

Yaman yerdə düşüb bəndə,
Aça bilməz heç bir bəndə,
Tanrısının əlindən də
əlini üzmüş qapını.

Nə ondan gedənə yaddı,
Nə ona gələnə şaddı.
İçi dolu ah-fəryaddı,
baharı keçmiş qapının.

Toxunursan, yoxlayırsan,
Nəyə ümid bağlayırsan?
Ürəyini dağlayırsan
ürəyi şişmiş qapının.

### GƏZƏRSƏN

Bir ağ gün çıxmaz qarşına,
əlində çıraq, gəzərsən.
Kədərlə qolboyun, amma
sevincdən uzaq gəzərsən.

Nə gənclik var, nə cavanlıq,
ümidlər də bircə anlıq.
Yox səadət, firavanlıq,
hər şeyə yasaq gəzərsən.

Dünya bir boş nağıl yeri,
yeyilibdi "qoğal" yeri.
Saçlarında sığal yeri,
əlində daraq gəzərsən.

Dərdləri zaman kiridir,
Kimin varsa, bir-bir gedir.
Dost əli bilirsən nədir?
Kürəkdə bıçaq! - gəzərsən.

Həqiqət enib dizinə,
Tale bağlanıb üzünə.
İnanmayıb öz-özünə,
Hamıdan qaçaq gəzərsən.

Dərd nədir ki, keçilməyə?
Gözlərin var içilməyə.
Ürəyini köçürməyə
bir quru varaq gəzərsən.

Bu dünyaya tox kimisən,
eh, bir az da yox kimisən.
Axirətin sakinisən,
dünyaya qonaq gəzərsən.

***

Bir ayrılıq ulayır
İt kimi küçələrdə...
Tək ölmək qorxusu var,
Sən adlı gecələrdə.

Məni də düşün bir az,
Bir şeir yaz, deyirdin.
Xəyalını oxşamaq
Yazmadığım şeirdi.

Səni mən tək sevmədi,
Kamına yetdiyin də,
Bir yastığa baş qoyub,
Bir yorğan örtdüyün də.

Səni yazmaq olmayır,
Aciz düşüb varaqlar...
Sən elə qəhrəmansan,
Yazsam, tanıyacaqlar.

### ÖLÇÜSÜ BOYDA

Tanrıyla aramda qalan
Bəxtin ölçüsü boydayam.
Boyuma yaraşdırdığı
Taxtın ölçüsü boydayam.

Günümdə əqrəbi təzə,
Yerişi möhürlü Sözə...
Bir saat o üz-bu üzə,
Vaxtın ölçüsü boydayam.

Nə tez idi, nə də gecdi,
Ömür göz önündən keçdi.
Mənə nə ölçdü, nə biçdi,
Haxdı, ölçüsü boydayam.

### ANA OLMAQ

Bir az başqayam bu ara,
Duyğu anında... bir başqa...
Günün əvvəlində ayrı,
Günün sonunda bir başqa...

Bu da gözlənilməz deyil,
Bu işdə də var bir xeyir.
Ürəyim bir başqa deyir,
Axan qanım da bir başqa.

Duyğularla tək qalıram,
Fikri min yerə salıram.
Özümlə başqa oluram,
Aləm yanında bir başqa.

Bu qədər gileyim bəsdi,
Bunun axı nəyi pisdi?
Ana olmaq gözəl hissdi,
Can var canında bir başqa!



**_RÖYA TALIBLI_**

**_Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu, Elmi işçi_**

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN KEŞİKÇİSİ

**_Açar sözlər: Mədəniyyət, incəsənət, Ulu Öndər, dövlətçilik, tərəqqi_**

***"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir.***

***Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir"***

**Heydər Əliyev**



***Heydər Əliyevin İncəsənət xadimləri ilə görüşü***

Azərbaycan öz kökləri çox-çox qədim zamana dayanan milli-mənəvi dəyərləri ilə dünyada tanınmışdır. Bəşəriyyətin çoxəsrlik tarixi təcrübəsi sübut edir ki, mədəniyyətin və incəsənətin inkişafında liderlərin rolu əvəzsizdir. Güclü lideri olan dövlətlər və millətlər çox yüksək inkişaf yolu keçmiş və tarixi uğurlar əldə etmişlər. Belə liderlər bizim xalqın tarixində də yetişmiş, Azərbaycanımızın inkişafında, dövlətçiliyimizin yaranıb möhkəmlənməsində, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında əhəmiyyətli rol oynamışlar. Onların arasında öz işıqlı əməlləri ilə bu xalqı müstəqilliyə qovuşdurmuş, dövlətçiliyimizin daha da möhkəmlənməsində müstəsna xidmətləri olmuş Ulu öndər Heydər Əliyevin adı hər zaman qürur hissi ilə çəkilməkdədir.

XX əsrdə xalqımızın mədəni həyatında yeni bir dövr başlamışdır və şübhəsiz ki, bu, ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan bir dövrdür.Mədəni irsimizin qorunub saxlanmasında, inkişaf etdirilməsində, onun geniş təbliğində, dünya miqyasında şöhrət tapmasında böyük şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətləri var.Milli-mənəvi dəyərlərimizə göstərdiyi qayğı müstəqil Azərbaycanın mənəvi həyatında əsaslı yüksəlişə səbəb olmuşdur. Onun xidmətləri nəticəsində Azərbaycan mədəniyyətinin, incəsənətinin demək olar ki, bütün sahələrində sözün həqiqi mə-

nasında, yüksəliş dövrü keçdi.Bu mənada xarici ölkələrdə Azərbaycan mədəniyyət və incəsənət günləri kimi tədbirlərin keçirilməsi mədəniyyətlərarası dialoqun inkişafına yol açırdı.

Mədəniyyəti xalqın böyük sərvəti hesab edən dahi şəxsiyyət mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün mümkün olan hər şeyi edirdi.Bu mənada 1993-2003-cü illər ərzində Azərbaycan dövləti mədəniyyət və incəsənət sahəsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, o cümlədən, "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması", "Ümumdünya mədəni və təbii irsinin qorunması", "Arxeoloji irsin qorunması" konvensiyalara qoşularaq Avropa şurasının mədəniyyəti, siyasəti üzrə departamenti ilə də yaxından əməkdaşlıq etmişdir. Bu əməkdaşlıq nəticəsində bir sıra maraqlı proqramlar həyata keçirilmişdir. Bu proqrama əsasən mədəniyyət siyasətinə uyğun olaraq incəsənət xadimlərinə dövlət köməyi də nəzərdə tutulmuşdur.O cümlədən, respublika prezidentinin sərəncamına əsasən onlara fərdi təqaüdlərin, dövlət mükafatlarının, fəxri adların verilməsi ilə bərabər görkəmli şəxsiyyətlərinin yubileyləri və əlamətdar hadisələrin təntənəli qeyd edilməsi, beynəlxalq səviyyəli festival, müsabiqə, konqres və konfransların keçirilməsi də təqdirəlayiqdir. Onu da qeyd edək ki, sovet dönəmində ulu öndərə qədər heç bir sənətkar bu fəxri adlara layiq görülməmişdir. O, bununla milli ədiblərimizin və insənət xadimlərinin geniş şöhrət qazanmasına nail olurdu.

Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafına nail olmaq üçün Heydər Əliyev görkəmli bəstəkarların, rəssamların, kino və teatr xadimlərinin yubileylərinin dövlət səviyyəsində keçirilməsinə böyük əhəmiyyət verməklə onların yeni yaradıcılıq axtarışlarını yüksək qiymətləndirirdi.Bu gün Azərbaycanda onlarla sənət adamının -Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi və digər nəhəng simalarının memorial-xatirə, mənzil, bölgələrdə tarix-diyarşünaslıq muzeylərinin yaradılmasının təşəbbüskarı da məhz ümummilli lider olmuşdur.

Milli istiqlal məfkurəsi işığında keçirilən möhtəşəm tədbirlər, Heydər Əliyevin milli-mənəvi keçmişə məhəbbət və ehtiramının, xalqın gələcəyinə inamının tarixi ifadəsi idi.



***Heydər Əliyevin incəsənət xadimləri ilə görüşü***

Sosialist iqtisadi sisteminin dağılmasından sonra təsviri sənətin nümayəndələrinin maddi vəziyyətinin çətinləşməsini həssaslıqla duyan dövlət başçısı onların xarici ölkələrdə sərgilərinin təşkil olunması ilə yanaşı bu sahəyə verilən hər bir qərar və sərəncamlar bütünlükdə Azərbaycan incəsənətinin yaşamasına, daha da inkişafına və beynəlxalq təbliğinə köklənmişdi. Azərbaycanın tanınmış sənət adamlarına göstərdiyi diqqət

və qayğı, yaradıcı şəxslərlə yaxın dostluq əlaqələri Heydər Əliyevə böyük incəsənət xadimləri arasında dərin hörmət və nüfuz qazandırmışdı.

Heydər Əliyev yaşadığı dövrün siyasi durumundan asılı olmayaraq, Azərbaycan incəsənətinin, bütövlükdə mədəniyyətimizin rifahı naminə səmərəli işlər həyata keçirib. Dahi siyasətçi Azərbaycan mədəniyyətinin



***Heydər Əliyev Cəfər Cabbarlının ev muzeyinin açılışında (1982-ci il 22 mart)***

inkişafına töhfə verən sənətkarların həmişə qayğısına qalıb. O, yaxşı bilirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını sağlam düşüncəli mədəniyyət təşkil edir. Sabahkı uğurlara yeganə təminat isə sağlam cəmiyyət quruculuğuna diqqət artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə aşılamaqdır. Onun milli mədəniyyət tariximizə saldığı izlər də bu mənada silinməz və əbədidir.

Azərbaycanın müstəqil dövlət kimi inkişafına mədəniyyət və incəsənətimizin , tərəqqisində çiçəklənməsində, beynəlxalq miqyasda daha yüksək imiclə tanınmasında, ölkəmizin dünyada söz və nüfuz sahibi olmasında ulu öndərimizin xidmətləri əvəzsiz olmuşdur. İncəsənət xadimləri də öz növbəsində Ulu Öndərimizin müəyyən etdiyi dövlətçilik amallarına sadiq qalaraq ölkəmizdə mədəniyyət və incəsənətin inkişafı və qüdrətlənməsi naminə daim əzmlə çalışacaqlar.

**Ədəbiyyat siyahısı:**

**Aqşin Babayev** – "Mədəniyyət və incəsənətimizin Heydər Əliyev zirvəsi" Ədəbiyyat qəzeti, 2013, 19 aprel, səh.1-3

**İ.Ə.** "Azərbaycançılıq idealına sədaqət nümunəsi" // AMEA-nın Naxçıvan Bölməsinin Xəbərləri, Xüsusi buraxılış, 2013, səh.16

"Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" Bakı, "Şərq-Qərb", 2009

**Novruzov T.C.** – "Heydər Əliyev və ədəbiyyat məsələləri", Bakı, 2007, səh.38

"Sovet dövrü Azərbaycan ədəbi fikirinin istiqamətləndirilməsində Heydər Əliyevin rolu" / Regional inkişaf və böyük mədəniyyət: mənşə, harmoniya və tipologiya məsələləri. Beynəlxalq konfransın materialları. Naxçıvan Dövlət Universiteti, Qeyrət, 2009, səh. 42-43

"Ümummilli lider Heydər Əliyev Məhəmməd Füzuli haqqında" // Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri. 2013, № 2, səh. 256-260

"Heydər Əliyev və azərbaycançılıq məfkurəsi", Bakı – 2002, səh.232



HAFİZ ƏLİMƏRDANLI

# Müxəmməslər

**Tarixin təkəri geriyə dönməz**

Seyr elə, Vətənim, gör necə olur laləzar,
Hər oba, hər şəhər qəlbimə verir iftixar,
Nə vaxtdı, qalmışdı ürəkdə kədər, intizar,
Bilmirdim eyləyim səbəbin necə aşikar,
Dağılmış el-oba, Qarabağ olmuş tarimar.

***

Dəyişir bu dünya, suallar yaranır hərdən,
Səbəb nə, illərlə yurdumda salsa da məskən?
Duz-çörək kəsənlər oldular barışmaz düşmən?
Yırtıldı maskalar, açıldı sifətlər birdən,
Bilindi məqsədlər, dünya da oldu xəbərdar.

***

Tarixdir, sözündə yeganə dəyişməz qalan,
Yazılan pozulmaz, çalışsa nə qədər insan,
Çəkilən əzablar qalarmı tarixdə pünhan?
Söylə bəs, İlahi, hardadır deyilən vicdan,
Çatmışdır zamanə bilinsin kimdir günahkar.

***

Qırıldı qəfəslər, azadlıq qazandı millət,
Ürəyim fərəhdən sevinclə doldu nəhayət,
Azadlıq sayılır həyatda ən böyük neymət,
Dağıldı tarixin zindanı, dağıldı zülmət,
İstiqlal yolunda hər millət məsud, bəxtiyar.

***

Kimlərsə bilməsin, tarixi qaytarmaq olar,
Tarixin gedişin zamandan qoparmaq olar,
Dünya ki, fırlanır, onun bir yaradanı var,
Fərmanlar onundur, Hafiza o verir qərar,
Vətəni sidq ilə etmişdir bizə etibar.

**28.07-05.08.2023**

**Qadın**

Kimsə varmı, söylə bir, həyatında qadınlar?
Hər addımda onunla, birgə tutmasın qərar?!
Axtaranda həmfikir, gəzəndə diyar-diyar.
Ürəkdən sevən qadın sənə yaxın dost olar,
Qəlbindəki sevinci, həm kədəri o duyar.

***

Əzəl, qadın anadır, bəşərin səcdəgahı,
Yaranan arzuların ürəkdə qibləgahı.
Körpələrin ümidi, yeganə son pənahı,
Yalnız ana bağışlar, bilirlər ki, günahı,
Anasız dünya yetim, anasız ürək qübar.

***

Ana uca dağ, baxın, dik zirvələrdir ətəyi,
Onunla bağlı qalıb, torpağımın duz çörəyi.
Danılmaz, deyim candan, tarixdə olan əməyi,
Alıbdır neçə dahi, sevən qadından köməyi.
Əzəldən vermiş ona bu taleyi pərvərdigar.

***

Hər kəsə, ellər bilir, anayla yardır dayaq,
Qəlbində yer alarsa, günlərin qaynar bulaq.
Əzəldən həyat budur, yazılıb yarpaq-yarpaq,
Ömür ki, bir sınaqdır, pıçıldar ürək, dodaq,
Sınayar hər gün bizi, eylər həyatda etibar.

***

Könül sevən nigara eldə dildar deyərlər,
Ürəklər bir döyünsə, sevgidir, aşkar deyərlər.
Qönçə də həmdəm olar, gələndə bahar deyərlər,
Abad ocaq qurana, Hafiza, memar deyərlər.
Sevgisiz ömür sürən, söylə, olarmı bəxtiyar?

**26-28.09.2017**
**20-26.08.2023**

# Qəzəllər

**Ümid var ki, vüsal yetər**

Ümid var ki, vüsal yetər, görən dildar istəməzmi?
Qönçə açar, sevinc gələr, əsən rüzgar istəməzmi?

Bir adətdir cəfalardan, canan verər dəva-dərman,
El də deyir savabdır bu, bilməm gülzar istəməzmi?

Badi-səba söylə pünhan, xəbəri heç varmı onun?
Fələk bu gün kömək eylər, ol vəfadar istəməzmi?

Həsrətindən şəmi-səhər, misra-misra ürək sızlar,
Qələm-dəftər tapsa əgər, nəzmi nübar istəməzmi?

Qəlbim yanar sətir-sətir, göz yaşımdan nəmlənsə də,
Ahlar dolu beytlərimi qəlbi qübar istəməzmi?

Ötsə bahar ümid qalar, nədən bəxtim açılmaz heç?
Xəzan gəlsə, həmdəm olmaq, daşan çaylar istəməzmi?

Həyat sevgi, həyat eşqdir, yadına sal, ey Hafiza,
Könlün ötən o günləri, təkrar-təkrar istəməzmi?

**05-06.09.2023**

**Olmasa sevgidən həyatda söhbət,
həyat nə lazım**

Dilbəra, olmasan sevgimə qismət, həyat nə lazım?
Qəlbim hey qalarsa eşqinə həsrət, həyat nə lazım?

Söylə bir səbəb nə, düşübdür yarım aralı məndən,
Xəyalda hər günüm yaradır dəhşət, həyat nə lazım?

Əzabdan sıxılır ürəyim, bilməm bilirmi afət?
Qüssədən, yüksələr ah-naləm əlbət, həyat nə lazım?

Sevdamın dərmanı məlumdur, yəqin, söyləyir hamı,
Bir çarə qılmağa etməsə adət, həyat nə lazım?

Yüz kərə eşitsəm, əğyara çatmış ürəkdən xəbər,
Bəhərli günlərim olacaq zülmət, həyat nə lazım?

Məcnunun zamanı ötübdür artıq, mən də bilirəm,
Eşq ilə yaşamaq olsa qəbahət, həyat nə lazım?

Bir dəli ağlamaq ürəkdən gəlir, neyləyim axı?
Yoxdursa dünyada sevdayla ülfət, həyat nə lazım?

Hafiza, deyilib, deyilir, deyiləcəkdir yenə,
Olmasa sevgidən həyatda söhbət , həyat nə lazım?

**27.02.2023**

**Sınayarsa həyat bizi**

Həyat bizi sınadıqca, eyləməz eşq əlac məgər?
Ondan dünya rövnəq alar, hərdən sevinc, hərdən kədər.

Ömür yalnız sevdadamı, sual verir ürək hər gün,
Cavab tapmaq necə çətin, soraqdadır hələm bəşər.

Meyar nədir, bilinmir heç, ötsə belə aylar, illər,
Neçə dahi sərf eləyib bu yollarda ömrü hədər.

Eşq dünyanın pənahıdır,eşqsiz həyat bir gün sönər,
Yaşadıqca eşqlə insan, yəqin ona verər dəyər.

Eşqdir qəlbimin cövhəri, çatıb mənə əcdadlardan,
“Ot kötüyü üstə bitər”-əbəs yerə demir ellər.

Eşq sözündə Vətənimin, bu ellərin sevgisi var,
Qəlbimizdə rişə atmış, min illərdən almış bəhər.

Ey Hafiza, səndən qabaq ustadlar da yazmış bundan,
Səbəb nədir bu naləyə, dostlar alar səndən xəbər.

Əsrlərdən axıb gələn bu duyğunu kim unudar?
Səbəb budur, ürək yalnız, eşqlə dolu həyat istər.

**14-17.03.2023**

# Rübailər və dübeytlər

**Səməndən tək olar alovdan qanad**

Yaratmaq eşqimdə olsa istedad,
Sevinər ürəyim, sevinər ustad,
Hər misrə ürəkdə alışıb yansa,
Səməndər tək alar alovdan qanad.

**15.07.2023**

**Tarixi yaradan insandır, insan**

Tarixi yaradan insandır, insan,
Tarixi yaşadan zamandır, zaman,
Bir qövmün tarixdə izi olmasa,
Yazdığı, yapdığı yalandır, yalan.

**16.07.2023**

**Demirəm...**

Demirəm insantək yaşamaq asandır, asan,
Demirəm var-dövlət qazanmaq ziyandır, ziyan,
İmkan yaranarsa, deyirəm, hər kəs bir zaman,
Həyatda ağılla, yəqin ki, qazanar ad-san.

**20.07.2023**

**Alqışla bərabər, qazanar hörmət**

Ölkəni yüksəldər elmi rəqabət,
Endirər amma ki, tamahla rüşvət,
Seçimi düz edən dünyada yalnız,
Alqışla bərabər, qazanar hörmət.

**22.07.23**

**Sualsız həyatın mənasımı var?**

Sualsız həyatın mənasımı var?!
Həyatın axarı sual yaradar,
Sualsız həyatda sual ondadır,
İnsan bəs sualsız necə yaşayar?

**04.08.2023**

**Cəhənnəm əzabı qatar**

Dünyada sülh varsa, istedad yaşar,
Yazılan əsərlər yadigar qalar,
Yaratmaq qədrini bilməsə dövran,
Həyata cəhənnəm əzabı qatar

**13.08.2023**

**Dövlətin dəyəri qüdrətindədir**

Dövlətin dəyəri qüdrətindədir,
Qanunla səhvlərin nisbətindədir.
Düz gediş ölkəni gülüstan edər,
Xətalar bu yolun dönməsindədir.

**16.08.2023**

**Yəqin ki, püxtələr alarlar ilham (rübai dəsti)**

*Salam aparınız məndən Xəyyama,*
*Deyiniz ona ki, bunca xam olma,*
*Mən haçaq demişəm, badə haramdır?*
*Halaldır püxtəyə, haramdır xama.*

**Ömər Xəyyam**
**(tərcüməsi: Mikayıl Müşviqindir)**

Hafiza, güvənmə göy büsatına,
Eylərmi, bir kömək ol fəryadına,
Arzular, istəklər uzaqda qalsa,
Badəylə məna ver öz həyatına.

Mey haqda bir zaman yazmışdır Xəyyam,
Kimlərə halaldır, kimlərə haram,
Xamları demirəm, bəlkə onunla,
Püxtələr alarlar həyatda ilham.

**17.08.2023**

**Dünya ki, fırlanır, geriyə dönməz**

Dünya ki, fırlanır, geriyə dönməz,
Günlərin sayını kimsəylə bölməz.
Bir anlıq parlasa ulduzun sənin,
Qismətin söyləyir, çalışsan sönməz.

**17.08.2023**

**Ürəyimdə Vətən qədər payı olmaz**

Dağlar var ki, əzəmətdə tayı olmaz,
Çaylar var ki, rəqabətdə sayı olmaz,
Cənnətməkan bir yer olsa Yer üzündə,
Ürəyimdə Vətən qədər payı olmaz.

**10.07.2023**

**Yaratmaq sevinci verməsə fayda**

Bir ömür keçmirsə alovda, odda,
Qəlbim arzusuna yetmirsə orda,
Həyatın mənasın anlamaq olmaz,
Yaratmaq sevinci verməsə fayda.

**11.07.2023**

**Həyatda məqsəd haradır**

Şübhəsiz şüuru Tanrının özü yaradır,
Şüur yoxsa, heyhat, dünyanın üzü qaradır,
Şüurdur dəyişən əslində dünyanı hər gün,
Zamanla hər kəsə göstərir, məqsəd haradır?

**12.07.2023**

**Hər qəlbdə bir sevda olarsa...**

Hər qəlbdə bir sevda olarsa gerçək,
Sevinər o gündən, sevinər fələk,
Ürəklər eşq ilə dolansa hər gün,
Silahlar işlənməz həyatda bişək.

**12.07.2023**

**Bilməz**

Naşılar qəzəlin şərtini bilməz,
İncitək söğzlərin qədrini bilməz,
Qəlbində sevgisi, eşqi olmayan,
Dilbərlə dildarın fərqini bilməz.

**24.06.2023**

**Azalmaq bilməyir hələ dərdimiz**

Bir zaman həyatı dərk eləsək biz,
İllərlə yəqin ki, qalar izimiz,
Fəqət bu dünyanın qalmaqalından,
Azalmaq bilməyir hələ dərdimiz.

**29-30.08.2023**

**İblisdən danışır aləm**

İblisdən danışır min illər aləm,
Nağıllar uydurur, yorulmur qələm,
Axtarma kənarda, deyim doğrusu,
İnsan qəlbindədir yuvası hələm.

**02-03.09.2023**

**Yazıqlar olsun bizlərə**

Bölünüb yer üzü hey çəpər, çəpər.
Nə qədər imkanlar sərf olur hədər,
Yazıqlar bizlərə olsun həyatda,
Çəpərli olarsa qəlbi bir nəfər.

**10.09.2023**

**Suallar yaranır**

Suallar yaranır həyatda hər gün,
Hələ yox imkanlar cavablar üçün,
Milyonlar həyata gəlib getsə də,
Dünya dəyişdimi düşün bir özün?

**10.09.2023**

**Əzablı illəri ömrə qatmasa**

Üfüqlər qızarmaz, günəş batmasa,
Çiçəklər açılmaz, zaman çatmasa,
İnsanda kamillik olarmı, bilməm?
Əzablı illərdən ömrə qatmasa.

**11.09.2023**

**Nəyi itirirsən**

Gördüyün iş sənin olsa bisəmər,
Nəyi itirirsən, düşün hər səhər?
Gəlməklə getməyin ölçüsü birdir,
Cahillər günləri sərf edər hədər.

**13.10.2023**



DAMƏT SALMANOĞLU

# MƏN SƏNİ UNUTMADIM

*hekayə*

**İlk məhəbbət insanın beyin hüceyrlərinin kod yaddaşına yazılan ilk hiss, ilk baxış, ilk həyacan olduğu üçün heç zaman unudulmur!**

Bizim kəndimiz Kür çayının sol hissəsində yerləşir. Çayın sahilində hündür söyüd ağacı varıydı. Mən də hər gün günortadan sonra o ağacın kölgəsində əyləşərək, ayaqlarımı suya sallayıb kitab oxuyur, instituta hazırlaşırdım. Bir gün adətim üzrə yenə həmin yerə gələndə baxdım ki, mənim yerimdə bir sarışın rus qızı əyləşib, ayaqlarını suya sallayıb, əlindəki qamışla axan suyu ləpələndirir. Yaxınlaşıb salam verdim. O da gülümsünüb rus dilində salamımı alıb əlini mənə uzatdı:

-Adım Lenadır, bəs sənin?

Qızın bu səmimiyyəti qarşısında bir anlıq özümü itirdim. Handan-hana dilim topuq vura-vura:

-Şad oldum, mənim adım da Vahiddir. – cavabını verə bildim.

-Hə, çox gözəl, deyəsən, sənin yerini tutmuşam. – dedi və gözünü qıyaraq məni süzüb gülümsədi. – İstəsən, rahatlıqla ikimiz də əyləşə bilərik.

Qızın özünü bu qədər sərbəst aparmağı qəribə gəlsə də, Lenanın yanında əyləşdim.

Lena ilə tanışlığımız təsadüfən yaransa da, bu tanışlıq ürəyimcə oldu. Lenanın gözləri dənizə, saçları sarı sünbülə, üzünün çilçilləri buğdaya bənzəyirdi. Gördüyüm andan bu qeyri-adi gözəllyin qarşısında özümü itirdimmi, yoxsa ilk baxışdan aşiqmi oldum, onu anlaya bilmədim. Amma qəlbimdən bir sızıltı keçdiyini hiss etdim. Bir sözlə, dosluğumuzun təməli atılmışdı.

Lenagil yaxınlıqda yerləşən hərbi hissənin şəhərciyində yaşayırdılar. Atası Valeri Aleksandroviç hərbi hissənin mayoruydu. Bunların hamısını Lena söhbət əsnasında söyləmişdi. Lena səkkizinci, mən isə onuncu sinifi bitirib imtahanlara hazırlaşırdım. Sənədlərimi Azərbaycan pedaqoji institutuna vermişdim. Ümid edirdim ki, qəbul olacam.

Demək olar ki, hər gün söyüd ağacının altında görüşüb uzun-uzadı söhbətlər edirdik. Lena deyirdi:

-Mənim atam, anam Rostov vilayətində doğulub, indi orda nənəmlə babam yaşayır. Bizim kəndimizin yanından Volqa çayı keçir, sizin Kür çayı kimi o çay da sürətli axır. Elə bizim kəndimizə bənzıyir bu yerlər, ona görə də sevirəm buraları.

Hərdən biranlıq baxışlarımız toqquşanda gözlərimiz danışırdı bizim əvəzimizə. Hiss edirdim ki, alışmışam bu qıza. Onu bir gün görməyəndə darıxır, özümə yer tapa bilmirdim.

İmtahanlarla əlaqədar Bakıya gedəsi oldum.

Dörd imtahanın hamısından “yaxşı” və “əla” qiymət aldım. İyirmi gündən sonra kəndə qayıtdım. Evdə qərar tapa bilmirdim, Lenanı görməyə tələsirdim.

Bu görüşdə birinci dəfəydi ki, Lena məni qucaqlayıb, pıçıltılı səslə söylədi:

-Sənsiz çox darıxdım...

Başını sinəmdən çəkmək istəmirdi. Anidən özümdən ixtiyarsız onun sünbül saçlarını öpüb dedim:

-Lena, mən səni sevirəm...

Lenanın buğda çilli yanaqları qızardı, pıçıltılı səslə dedi:

-Bu iyirmi gün ərzində mən də səni nə qədər sevdiyimi anladım.

***

Sentyabrın biri dərslər başlayırdı. Biz bir-birimizdən necə ayrı qala biləcəyimizi təsəvvür edə bilmirdik. Amma məcburi təhsilimi davam etdirməliydim. Bakıya gəldikdən sonra demək olar ki, hər gün məktub yazırdım. Lena da cavab yazırdı.

Bir neçə gün məktubların arası kəsildi. Çox nigaran idim, heç bilmirdim neyləyim.

Birinci semestr imtahanları verən kimi kəndə yollanıb hərbi şəhərciyə getdim. Ordakı tanışlardan öyrəndim ki, Lenanın atasının xidmət yerini dəyişib Kemerovo şəhərinə göndəriblər. Çox məyus halda geri döndüm. O vaxtdan illər keçsə də, onu unuda bilmədim. Hətta həsrətimi bir bənd şeirlə ifadə etməyə çalışmışdım:

Qaranlıqda itən günü,
Gün batmamış bitən günü,
Ötən çağı, ötən günü,
Bu günümdə axtarıram.

***

İnstitutu bitirdim, təyinatımı kənd məktəbinə verdilər. Həmin kənddən olan bir qızla ailə həyatı qurdum. Evliliyim öz axarlyla davam edirdi. Tezliklə bir oğlumuz dünyaya gəldi. Uşaq gəlişiylə məni o qədər sehrlədi ki, hətta öz-özümü dedim:

-Bəlkə də, belə yaxşı oldu, demək qismətim beləymiş.

Amma o dəli sevdanı da unuda bilmədim.

***

İllər keçdi, Bakı şəhərində bir instituta müəllim işləməyə dəvət etdilər məni. Bu dəvəti qəbul edib, ailəmlə birgə Bakıya köçdüm. Uşaqlar böyüdü, hər birini el adətiylə evləndirdim. Onlar da, bu cəfakeşliyim müqabilində mənə babalıq sevinci bəxş etdilər. Nəvə sevincini, qoxusunu duyub hiss etmək deyərdim ki, dünyanın ən şirin nemətidir. Bu xoşbəxt ailə sevinci heyif ki, çox çəkmədi. Həyat yoldaşım uzun sürən xəstəlikdən sonra dünyasını dəyişdi. Bu itki ilə barışmaq mənə çox çətin oldu. Nəvələr, övladlar nə qədər başımı qatsa da, yenə də özümü tənha hiss edirdim. Bu ərəfədə yaxın bir dostumun zəngi gəldi. Çoxdandır görüşmürdük. Hal-əhval tutduqdan sonra harda olduğunu soruşanda Kemerovo şəhərində ticarətlə məşğul olduğunu söylədi. Kemerovo adını eşitdikdə bir anlıq məni gəncliyimə qaytardı. Dostumdan Lenanı tapmasını xahiş etdim. O da: “narahat olma, mütləq tapacam”, deyib sağollaşdı.

Səbirsizliklə dostumun zəngini gözləməyə başladım. Nəhayət bir müddət sonra gözlədiyim zəng səsi gəldi. Mənə Lenanın nömrəsini tapmışdı. Nömrəni əllərim titrəyə-titrəyə bir təhər yığdım. Dəstəyin o biri başında Lenanın bu günə qədər unuda bilmədiyim səsi eşidildi:

-Alo.

-Salam, Lena, mənəm Vahid, xatırladınmı?

Bir qədər Lenanın səsi eşidilmədi. Daha sonra hıçqırıq səsi duyulurdu. Özümdən asılı olmadan gözlərim dolmuşdu.

Söhbət əsnasında məlum oldu ki, Lenanın da həyat yoldaşı dünyasını dəyişib, qızı Svetlana ilə birlikdə yaşayır. Mən ona Azərbaycana gəlməsini təklif edəndə, verdiyi cavab bu günə qədər də məni incidir:

-Mənim ayaqlarım yerisəydi, həyat yoldaşımın ölümündən sonra ilk döyəcəyim qapı sənin qapın olardı, Vahid. Mən səni heç vaxt unutmadım...

Qəhər məni boğdu, deməyə söz tapmadım. Telefon qulağımda udquna-udquna qaldım.

**14.09.2023**



SEYMUR SÖNMƏZ PAŞAYEV

**BƏD NƏZƏRLƏR ÇAPDI BİZİ**

Saf eşqimiz günəş kimi nur saçırdı bir vədələr,
Bizdən hələ uzaq idi həm qeybətlər, həm hədələr.
Bəlkə elə kölgəmizi görüb daşladı gədələr,
Gözmü dəydi sevgimizə, bəd nəzərmi çapdı bizi!

Coşub-daşan sular kimi kükrəyib axa bilmədik,
Qarşımızı kəsənləri yandırıb-yaxa bilmədik.
Ha qaçsaq da xeyri yoxmuş, bir yana çıxa bilmədik,
Neçə-neçə yönsüz adam köpək kimi qapdı bizi!

Axı, heç vaxt haqq yolundan sağa-sola dönməmişdik,
Kəlmə-kəlmə közərsək də, yel əsəndə sönməmişdik.
Əhdimizə sadiq idik... andımızdan dönməmişdik,
Harda günah eylədiksə, mələklər də atdı bizi!

Heç bilmirəm niyə axı, özümüzü xoşbəxt sandıq,
Üzü dönük bəxtimizin yağlı dilinə aldandıq...
Hərdən qaçıb xəyalların kölgəsində daldalandıq,
Zalım fələk fəndgir imiş, soraqlayıb tapdı bizi!..

**MƏN SƏNİ BU QƏDƏR SEVMƏMƏLİYDİM**
**(nəzirə)**

Bir vaxtlar heyrandım doğma səsinə,
Boylanıb baxmırdım bir özgəsinə.
Sənə vurulmuşdum dəlicəsinə,
Mən səni bu qədər sevməməliydim!

Deyirdim çoxum da, azım da sənsən,
Tükənməz ümidim, arzum da sənsən.
Elə bilirdim ki yazım da sənsən,
Mən səni bu qədər sevməməliydim!

Biganə deyildin eşqimə sən də,
Hərdən görüşürdük güllü çəməndə.
Daha o xoş günlər qalıbdı gendə,
Mən səni bu qədər sevməməliydim!

Anlaya bilmirəm bu necə işdi,
Üstündən qapqara yelmi ötüşdü?
Bir anda qəfildən fikrin dəyişdi,
Mən səni bu qədər sevməməliydim!

Səni səsləsəm də dinən deyilsən,
Yanıma qayıdıb gələn deyilsən.
Ta bir də geriyə dönən deyilsən,
Mən səni bu qədər sevməməliydim!

**SƏNİN**

Sənə güvənməyim hədərmiş, hədər
Yaman əldən saldı məni qəm-kədər.
Bəlkə də ömrümün sonuna qədər,
Gözümü yoluna dikərəm sənin!

Sənin yoxluğuna dözməyəndə can,
Təsəlli verirəm özümə hər an.
Nə vaxtsa təzədən geri qayıtsan,
Könlündə gül-çiçək əkərəm sənin!

Öyrəşə bilmədim bu adətinə,
Niyə saldın axı, məni çətinə?
Özünü qəlbimin hərarətinə,
Şəklini şerimə bükərəm sənin!

Bəlkə də ən uzaq bir yol üstəsən.
Qaçaram yanına... təki səslə sən.
Rəssam olmasam da, əgər istəsən,
Nazını mən sözlə çəkərəm sənin!

**NOLAR, QOCALMASIN ANAM, AY ALLAH**

Dilimdə həmişə əzbərdi adı,
Vaxtsız bükülməsin qolu-qanadı.
Həm ata əvəzi, həm də anadı –
Nolar, qocalmasın anam, ay Allah!

Qəfil titrəməsin əli-ayağı,
Güldürsün üzləri səsi-sorağı.
Odur həyatımın bürcü, dayağı –
Nolar, qocalmasın anam, ay Allah!

Gözündən heç vədə yaş süzülməsin,
Nələr çəkdiyini kimsə bilməsin.
Qocalıq üstünə erkən gəlməsin –
Nolar, qocalmasın anam, ay Allah!

Ürəkdən bağlıdır obaya-elə,
Arzusu-diləyi sonsuzdur hələ.
Çiynində ağır yük daşısa belə -
Nolar, qocalmasın anam, ay Allah!

O, bəxt ulduzudu, göyqurşağıdı,
Bir elin, bir evin yaraşığıdı.
Seymurun könlündə gün işığıdı –
Nolar, qocalmasın anam, ay Allah!

**GEDİRSƏN...**

De, niyə qəfildən fikrin dəyişdi,
Sonrakı bəxtinmi ovcuna düşdü?
Özün de qoy bilim, bu necə işdi –
Yanımdan keçəndə dümdüz gedirsən.

Nəmli kipriyimdən süzülən yaşdı,
Həyat başdan-başa cəngdi, savaşdı.
Bəlkə köksündəki bir parça daşdı –
Nə əsir əl-ayaq, nə diz, gedirsən.

Payızda açmışdın gül-çiçək kimi,
Nə arı kimiydin, nə pətək kimi...
Elə bil bir xallı kəpənək kimi –
Qoymayıb hardasa bir iz gedirsən.

Bir vaxtlar arzum da, diləyim də sən,
Leysanım, yağışım, küləyim də sən.
Bənd ala bilmədin ürəyimdə sən –
Görən üşüdünmü, bumbuz gedirsən?

Son qoyub nisgilə-aha gəlmişdin,
Çox sevincli idim, daha gəlmişdin.
Sən mənim ömrümə baha gəlmişdin –
Bəs, niyə gedəndə ucuz gedirsən?

**NEYNİRƏM UCUZ AD-SANI...**

Yalan söz ürəkdə təlaş-vəlvələ,
İnsanın dərd yükü ən ağır şələ.
Nədənsə qınamaq olmayır hələ -
Haqsıza züy tutub danışanları!

Əl aç, nə istəsən Rəbbindən istə,
Mərhəmət görmədim qudurğan kəsdə.
Bu fani dünyada, bu bəhsəbəhsdə -
Çox gördüm əzilib qırışanları!

Torpağa düşməsə, göyərərmi dən,
Çöllərdə bənd almaz nə duman, nə çən.
Milçəyə bənzətdim baxan kimi mən –
Müftə yem üstünə darışanları!

Xeyirxah əməldir duruldan qanı,
Neynirəm dəyərsiz, ucuz ad-sanı.
Seymur, gecikmə ha... vaxtında tanı –
Yalanla qaynayıb, qarışanları!

**MƏNİ BAĞIŞLA**

Səni düşünəndə dolur gözlərim,
Yadından çıxıbmı ayaq izlərim?
Bir vaxtlar dediyim acı sözlərim,
Qəlbini qırsa da məni bağışla!

Qəlbini titrədir bəlkə ahların,
Amansız hökmü var hər sabahların.

Yadına düşəndə öz günahların,
Üzünə dursa da, məni bağışla!

Məndən uzaqdadır getdiyin yollar,
De, nəyə gərəkmiş bu qeylü-qallar?
Hələ də cavabsız qalan suallar,
Səni hey yorsa da, məni bağışla!

Bir vaxt səni nə yalandan öymüşəm,
Nə də sözlə qamətini əymişəm.
Bildinmi xətrinə niyə dəymişəm,
Günahım varsa da məni bağışla!

**GETMİSƏN...**

Elə bil qollarım burxulub-sınıb,
Dərd-qəmin kölgəsi üstümə “qonub”.
Əhdini unudub, andını danıb,
De, kimə qoşulub çıxıb getmisən?

Küləkmi söndürdü görən közünü,
Ya məndən üstünmü bildin özünü?
Elə bil zülmətə tutub üzünü,
Bulanıq su kimi axıb getmisən!

Mənim ümidlərim tapdanmış zəmi,
Nə yaman ağırmış ayrılıq dəmi...
Qəfildən kükrəyən qara yel kimi,
Könül sarayımı yıxıb getmisən!

Qış urvatsız olar şaxtasız-qarsız,
Ağac kimə lazım, meyvəsiz-barsız?
Səndən gözləməzdim, ay etibarsız,
Qəlbimi odlara yaxıb getmisən!

Sən acgöz-tamahkar, mən gözləri tox,
Demirəm təzədən şimşək kimi çax...
Eşqin zirvəsindən təkcə məni yox,
Elə özünü də yıxıb getmisən!

**SƏN HARDAN BİLƏSƏN...**

Fikrimdə hər ötən anı sayıram,
Sevdalı könlümü varaqlayıram.
Səni kəlmə-kəlmə soraqlayıram,
Qəm-kədər qəlbimdən gen olmayanda.

Şəlalə hayqıran ərən səsidir,
Çeşmələr sevgimin şikəstəsidir.
Duman təbiətin tül pərdəsidir,
Dağ getməz yuxuya, çən olmayanda.

Çətin ki pay düşə kiməsə azdan,
Görən doyan varmı çiçəkli yazdan?
Daşlar da məst olar şirin avazdan,
Sümbül saçaqlamaz dən olmayanda.

Həsrətin, nisgilin nə çoxu-azı,
Ürəyim bir ülvi eşqə tamarzı...
Sən hardan biləsən, ay zalım qızı,
Mən nələr çəkirəm sən olmayanda...

**GÖRDÜM**

Bu fani dünyanın tərs üzü də var,
Hər qarış torpaqda qan izi də var.
Qaranlıq gecənin gündüzü də var,
Əyridən axırda düzü də gördüm...

Ana təbiətin qüdrətinə bax,
Tufana, çovğuna yenilməyir dağ.
Hər zaman gur yanmır nur saçan ocaq,
Üstünü kül örtmüş közü də gördüm.

Bir də geri dönməz ötüb keçən an,
Əbədi deyildir nə ürək, nə can.
Elin şad günündə yanıb-yaxılan,
Bədnəzər, sırtılmış üzü də gördüm.

Görüm ahım tutsun vəfasız yarı,
Bəxt sonda üzümə güləydi barı...
Yayın ortasında quzeydə qarı,
Güneydə köhnəlmiş buzu da gördüm.

Baxıb heyran oldum çiçəyə-gülə.
Duruldu qəlbimdə söz gilə-gilə.
Əzəldən dərd əhli olsam da belə,
Hərdən işvəni də, nazı da gördüm.

Seymurun qəlbinə yol tapmaz yalan,
Təkcə yaxşılıqdır insana qalan.
Bu dünya əzəldən boşalıb-dolan,
Həyatda çoxu da, azı da gördüm.

*KİFAYƏT MƏMMƏDOVA*

***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsi, filologiya üzrə fəlsəfə doktoru***



# AZƏRBAYCANIN CAĞDAŞ XANIM ŞAİRƏSİ

## *Həmidə Rəiszadə (Səhər)*

***Açar sözlər:*** *poeziya, folklor, şeir, müasir ədəbiyyat, vətənpərvərlik*

**XÜLASƏ**

Ədəbiyyatımızın zənginləşməsində qadın şairlərimizin də xidməti danılmazdır. Söz, sənət tariximizə nəzər salsaq Məhsəti Gəncəvi, Xurşidbanu Natəvan, Ağa bəyim ağa və bir çox qadın şair və yazıçılarımızın hər birinin öz dövrlərinin nəhəngləri olduqları aşkarlanır. Bu məsələdə onların incə təbiətə, incə yaradılışa, duyğuya malik olmaları xüsusi rol oynadıqları bir daha diqqətə çatdırılaraq, göstərilir ki, Güney Azərbaycan ədəbiyyatında Səhər təxəllüsü ilə tanınan Həmidə Rəiszadə özünəməxsusluğu ilə bərabər adını çəkdiyimiz qadın şairələrin cərgəsindədir. İlk şeir toplularından başlayaraq yazı və danışıq dillərini birləşdirərək yeni ədəbi dil ilə oxucularına müraciət etdi. Beləliklə, əski türkcə ilə tanış olmayanlar bu yeni yaranan dilə maraqlarının artması sayəsində oxucuların sayı artdı. Beləliklə, Əslən Ərdəbilli olan Səhər ilk dəfə olaraq ədəbiyyatımızda müasir şeirə yenilik gətirdi. Bu səbəbdən də onun yaradıcılıq dövrü Cənubi Azərbaycan ədəbiyyatında yeni bir dövr sayıla bilər. “Mavilər”, “Yaşıl mahnı”, “Aylı baxış”, “Bir dəstə təzə günəş”, “Hikayəte dürr” və sair topluları dediklərimizə sübutdur. Səhər xanım “Mavilər” şeir toplusunda folklor və əski formalarda deyilən və yazılan düşüncələri yeni baxışlarla sintez edərək köhnə qəliblərdə yeni düşüncə, yeni baxış yarada bilmişdir.

***

**Giriş**

**«Səhər»** təxəllüsü ilə tanınan **Həmidə Rəiszadə**, Azərbaycan çağdaş şeirinin öncülərindəndir. Səhər xanım, 1952 (1331)-cı ildə Ərdəbil şəhərində dünyaya göz açmış və həmən şəhərdə boya-başa catmışdır. Həmidə Rəiszadənin lirası xalqının və doğma diyarının tərənnümü ilə saysız tellərlə bağlıdır. O, hələ İslam inqilabından əvvəl şeir yazmağa başlamışdır. Səhər xanım mübariz, azadlıqsevən bir şairədir. Onun istər farsca, istər türkcə yazdığı şeirlərində cəmiyyətimizin diləkləri, dərdləri, tələbləri tərənünm edilir.

Məhəmmədəli Nəhavəndi (Muğan) Səhər xanımı xatırlayaraq yazır: “ Səhər xanım cəsarətli və özünə məxsus sədaqətli bir qadındır. Düşüncəli şairdir. Kəlmələri nəzmə çəkən nazim deyildir.”(1.s.6)

Cənubi Azərbaycan poeziyasında “Səhər” ləqəbi ilə tanınan Ərdəbilli Həmidə Rəiszadə Müasir Azərbaycan xanım şairləri arasında gözəl, həssas, dərin məzmuna malik və simvollarla zəngin şeirlər yazmaqda tanınmış şairə şeirlərində yeni mövzular və orijinal ifadələr işlətməklə də

seçilməkdədədir. Dünya fəlsəfi fikir tarixində özünəməxsus yeri olan sufi fəlsəfəsi, İlahi eşqlə bağlı şeirlər tarixin müxtəlif dövrlərində yaşamış şairlərin istər dünyagörüşündə, istərsə də şeirlərində mühüm yer tutmuşdur.

Ədəbiyyatımızın zənginləşməsində qadın şairlərimizin də xidməti danılmazdır. Söz, sənət tariximizə nəzər salsaq Məhsəti Gəncəvi, Xurşidbanu Natəvan, Ağa bəyim ağa və bir çox qadın şair və yazıçılarımızın hər birinin öz dövrlərinin nəhəngləri olduqları aşkarlanır. Bu məsələdə onların incə təbiətə, incə yaradılışa, duyğuya malik olmaları xüsusi rol oynadıqları bir daha diqqətə çatdırılaraq, göstərilir ki, Güney Azərbaycan ədəbiyyatında Səhər təxəllüsü ilə tanınan Həmidə Rəiszadə özünəməxsusluğu ilə bərabər adını çəkdiyimiz qadın şairələrin cərgəsindədir. İlk şeir toplularından başlayaraq yazı və danışıq dillərini birləşdirərək yeni ədəbi dil ilə oxucularına müraciət etdi.

Beləliklə, əski türkcə ilə tanış olmayanlar bu yeni yaranan dilə maraqlarının artması sayəsində oxucuların sayı artdı. Əslən Ərdəbilli olan Səhər ilk dəfə olaraq ədəbiyyatımızda müasir şeirə yenilik gətirdi. Bu səbəbdən də onun yaradıcılıq dövrü Cənubi Azərbaycan ədəbiyyatında yeni bir dövr sayıla bilər. “Mavilər”, “Yaşıl mahnı”, “Aylı baxış”, “Bir dəstə təzə günəş”, “Hikayəte dürr” və sair topluları dediklərimizə sübutdur. Səhər xanım “Mavilər” şeir toplusunda folklor və əski formalarda deyilən və yazılan düşüncələri yeni baxışlarla sintez edərək köhnə qəliblərdə yeni düşüncə, yeni baxış yarada bilmişdir.

Pəhləvi rejimi devrildikdən sonra Güney Azərbaycan şeirində yeni dönəm başlandı. Həmidə Rəiszadə (Səhər) xanımın 1365(1986)- ci ildə “Mavilər” adlı şeir kitabı yayımlanmaqla yanaşı çağdaş ədəbiyyatımızda yeni atmosfer ortaya çıxdı və şeir canlanmağa başladı. Bu kitabda onun müxtəlf illərdə müxtəlif mövzularda, yazdığı əsərlərin nümünələri toplanıb və yaradıcılığının səciyyəvi xüsusiyyətlərini özündə cəmləşdirə bilib.

Məlihə Əzizpur yazır: “O «Mavilər» kitabında olan şeirlərində fikir və duyğuda tam dəyişik bir forma və canlı təsvir, təmsil və istiarələr ortaya qoyub və öz yaşadığı dövrün çağdaş istək və çətinliklərinə toxunmaqla açıq-gizlin dərdlərini ədəbi və bədii formada cəsarətlə açıqlaya bilib”.(2.)

Gecədir!
Baxıram ay bacasından
Başqa bir mavi göyə
Orda da var
Elə bil
Gecə yurdun qana dönmüş dənizindən
neçə bir qəmli bulud- qanlı söyüd...
Gecədir!(3.s.6)

Fikirdə və duyğuda tam bir dəyişiklik, bacarıqlı texnika və forma, gözəl, canlı və əlvan təsvirlər, onun yaradıcılğının gözə çarpan ilk xüsusiyyətlərindəndir. Biz bu şeirlərin ardında dərin düşüncəli, incə duyğulu bir qadın şəxsiyyəti ilə tanış oluruq. Şairin “Mavilər” adlandırdığı bu şeir məcmüəsi onun şəxsi həyatı və mənəviyyatında əks olunan ictmai hadisələrin poetik dünyasının güzgüsüdür, desək, yanılmarıq. Səhər xanım keçirtdiyi iztrabları, həyəcanları, sevinclərini, kədərini və mənəviyyatında pozulmayan irili- xırdalı ictimai hadisələrin izlərini, şeirlərində əks etdirməyə çalışır.

Ədəbiyyatşünas alim, tənqidçi, filologiya üzrə elmlər doktoru Esmira Fuad (Şükürova) yazır: “Səhər xanımın şeirlərində vətən sevgisindən doğan gizli haray, azadlıq sevgisi, oyanış düşüncəsi əsas özəllikdir. O, modern poetik ifadə tərzinə yiyələnmiş şairlərdən biridir”. (4.)

İctimai münasibətlərə yanaşmaq, dövrün müasir tələb və çətinliklərinə toxunmaq, nisgil və dərdləri ədəbi – bədii bir şəkildə cəsarətlə yazıb bəyan etmək, sənətkarın daha artıq bir vəzifəsinə çevrilmişdir.

O, cəmi bir neçə misradan ibarət olan şerində xalqının doğma dilə həsrət qoyulduğunu cəsarətlə tərənnüm edir:

Sarsılmaz dağların zirvəsin dedim,
Dizlərim yorulub bükülən zaman
Ləhzələr üstünə gecəl ər boyu
Zülmət qarqış kimi tökülən zaman
Sabahın, günəşin cilvəsin dedim
Sevginin görüşə gəlməsin gərək
Haçanacan demək?Haçana qədər?(3.s.10)

Səhər xanımın şeirlərində vətən sevgisindən doğan gizli haray, azadlıq sevgisi, oyanış düşüncəsi əsas özəllikdir. Şairin gizli kədər və qəmlərindən həzin – həzin söz açması nəhayətdə uca bir fəryada dönür:

Saraldı qüssədən üzlər, ağardı yol döyən gözlər
Nə lazımdır həzin sözlər,
Səhər fəryad olan yerdə. (3.s.12)

Səhər xanımın ilk əsərləri toplumun ürəyindən qopub gələn mövzular və onunla uyqunlaşan, gənclərimizin istəklərinə düzgün cavablar verərək yaranırdı. Onun sadəliyi və səmimiyyəti ürəyə yatırdı və şeirləri xalqımızın ruhiyyəsini əks etdirirdi. Sənətkarın müasirliyi və dövrə uyğun olan bir dili onun bədii yaradıcılığına, lirikasına daha dəyərli bir gözəllik və yenilik verir:

… polad tək iradə
Bir şüşə gülab kimi sadə insan
diləyirəm.
Pasaj qabağından, pasaj qabağına çatmaq
Savalan dayana caqlı yaşamaq
çətin yola yoldaş diləyirəm.
Çətin yola
yoldaş …(5.s.14)

Əlli ildən artıq hökm sürən qanlı-qadalı şahlıq üsul-idarəsi, cəmiyyətdə pis əhval-rühiyyə yaratmışdı, zındanları abad, ölkəni virana qoymuşdu, istibdad və dıktatorluq istər-istəməz şeirimizi üsyan bayrağına çevirmişdir. Şairə ölkəsində törədilən qanlı çinayətləri bütün vücudu ilə hiss edir çox yanıqlı, nisgillli və dərin mənalı "..Bülbül" şeirində fəryad edərək yazır:

Asıldı əlli min bülbül budaqlardan dara söylə.
Günəş də zülmdən söndü, üzü oldu qara söylə,
Denən gəldi elim, yurdum bu zülmdən zara, bülbül,
Ucalmış naləni sazdan, dolan sal dağlara, bülbül!
(3.s.4)

Səhərin misralarının əsil siması bu həqiqəti tərənnüm etməkdə daha qabarıq ifadəsini tapır. Hümmət Şəhbazi "Müasir Azərbaycan şeirinin tənqidi" kitabının müqəddiməsində yazır: "Səhər xanım parlaq bir ulduzə kimi «Mavılər» dünyasında anadan oldu və Savalan qədər ucaldı. Onun misralarında Araz həsrəti «həsrət ədəbiyyatımızda» səsləndi və xalqımızın ürəyində bır içim məhəbbət kimi sevgiyə sarıldi. Beləliklə şeirimizin ilahəsi Azərbaycan ədəbiyyatında qanad çalaraq bir ədəbiyyat dirəyi kimi şöhrət qazandı:

Bir dayan, zirvəyə diz qoy, gəlirəm
Sanmaki, xəstəyəm, iz qoy, gəlirəm
Bir çanaq sözdə, dənız qoy,gəlirəm
Bir döyüş meydanı çən saxla mənə! [6.s.9]

Səhər xanımın poeziyası düşüncə və məna ilə zəngindir, sanki qüdrətli mütəfəkkir insan haqqında düşüncələrinin bəhrəsini və həyatın müxtəlif tərəflərini, mənəvi və sosial məqamlarını yazmışdır. Əziz Möhsinin sözləri ilə desəkşair dövrün şairi deyil, əxlaqın tərbiyəsi və incəliyi şairidir.

Səhər xanımın ən diqqət çəkən xüsusiyyəti, şeirlərində ifadə olunduğu və şeirlərinə ictimai, siyasi rəng verdiyi cəmiyyətin məhrum və yetim qaldığı insanlara edilən təzyiq və dəstək ruhudur.

Şairin şeirlərində ədalətsevərlik, vətənərvərlik, müharibəyə nifrət, doğma yurduna məhəbbət və sevgi özünü göstərir:

Gəlirəm qanda qalan qəlbimi ğəmdən alasan,
Gəlirəm mən qurtaram səndə, fəqət sən qalasan,
Saz kimi tellərimin mahnısı mizrab diləyir,
Nola gizlin alasan qoynuva, gizlin çalasan?!(3.s.21)

**Nəticə.**

Onun "Mavı göylər çarşabların açan zaman ", "Dəryalar üsküyə dolmayan", " Ağzımdakı saqqız sevincim ", "Qan rəngin göstərməz donumu geyim ", "Qaşı düşmüş uzugumun " kimi misraları ilə başlayan şeirlərində məhz gündəlik həyatımızda baş verən hadisələr, cəmiyyətimizdə olan insani xüsusiyytlərin tərənnümü, xalqımızın mənəviyyatına yad olan eybəcərliklərə qarşı etiraz, bir sözlə, insan səadəti, vətənin abadlığı, dostluq, əmin-amanlıq kimi məsələlərdir.

Əksər şeirlərində zülmlər və haqsızlıqlar barədə məlumat vermək istədiyi üçün narahatlıq

və narahatlıq doğuran yaradıcı şeirlər yazmaqla sosial etirazlara üz tutur:

Yaşıl ölkəmdə qara yellər əsib
Günəşə qəfəs olunub nəsib
Vətənimdə tülkü kəmin kəsib
Belə aşiyanəni neylirəm

Qərib olmuşam özümə- özüm
Oturub bu dərdə nəcür dözüm?
Ürəyimdə qaldı axır sözüm
Gedirəm, təranəni neylirəm.(3.s.18)

Səhər xanımın poeziya dünyasında müasirliyi ilə yeni bir fəsil açan ilk qadın olduğuna işarə edən Firuz Baxış yazır: “Ölkənin çağdaş tarixindəki şairlər hamısı onu sevir və şeir dövrünün ulduzu adlandırırlar. Zəriflik, sadəlik və ritorika bu şairin poetik xüsusiyyətləri arasındadır. Təsəvvür, xəyanət, bənzətmə və təəssübkeşlik Səhərin şeirlərində də aydın görünür”.(6.s.111)

Beləliklə,Səhər xanımın misraları da bu inkar olunmaz həqiqətə öz möhrünü vurur. Ana torpağın daşı, çayları, dəryaları belə ilk andına-ana yurdu ağ günlərə qovuşdurmaq öhdəçiliyinə sadiq qaldığını cəsarətlə açıb göstərir.

**Ədəbiyyat:**

1.Məhəmmədəli Nihavəndi (Muğan) “Həmidə xanım Rəsizadə (Səhər)”, “Xudafərin” jurnalı. 2016 (1395), №146

2.Məlihə Əzizpur. Güneydə çağdaş ədəbi proses. ishiq.net

3.H.Rəiszadə (Səhər). “Mavilər”.Tehran,1995(1374).

4.Esmira Fuad Şükürova. Güney Azərbaycanda vahid ədəbi dil məsələsi. “525-ci qəzet”, 6 yanvar 2023

5.H.Rəiszadə (Səhər). “Aylı Baxış”, Tehran, 2000(1379)

6.Hümmət Şahbazi. “Müasir Azərbaycan şeirinin tənqidi”. Təbriz, 2004(1383)



**MAHİR CAVADLI**

## PAYIZ

Əzəldən payızı heç sevməmişəm,
Nə o tərəflikdir, nə də bu yanlıq.
Gah sevgi fəslitək düşüb dil-dişə,
Gah da sel-suyuyla vurub ziyanlıq.

O sevdiyim qız da payız fəslində
Bir “yox” kəlməsiylə qəlbimə dəyib.
O payız bircə söz məni, əslində,
Könüldən sındırıb, qəddimi əyib.

Payız günündəyəm indi mən özüm,
Sirr deyil, bilirəm üzüqışayam.
Allahım, taqət ver, bir az da dözüm,
Gələn payızadək gərək yaşayam.

**oktyabr, 2023**

## QAYIDARIQ, İNŞALLAH

***Zəngilana qədəm qoyanda Hacı Mədinə xanım diz çöküb torpağı öpdü***

Ziyarətin mübarək, baş əy doğma torpağa,
Çınqıl dizliyin olsun, söykən kəsək balınca.
Sinə dağın yox olsun, ürəyin dönsün dağa,
Ağla, nəm gözlərindən dərd yükün boşalınca.

Bitdi daşnak fitnəsi, yox erməni bəlası,
Otuz illik həsrətin sanma izsiz qalası,
Cəddinə nəzir dedik, Ağamızın balası,
Ürək yurda can atdı, ac çapantək qılınca!

Duaların bitməzdir, Allah qəbul eləsin,
Bəsdir dərd-ələm çəkdik, sevinci bol eləsin,
Yurda getmək istəyən hamıya yol eləsin,
Gecəyə dua etdik, sübh namazı qılınca.

İlk səhəri al günəş salamladı, xoş oldu,
İlk iftar süfrəsini yurdda açdıq, nuş oldu,
Havasından, suyundan dadanlar bihuş oldu,
Dovğası, göyərtisi, çörəkdə ki,- qalınça!

Bax çəkilən yollara, relslər düzüm-düzüm,
Qayıdarıq, inşallah, bir az hövsələ, dözüm!
Demə həsrətlə getdi yarısı ömrümüzün,
Uzanar ömrümüz də, yurdda məskən salınca,
Zəngilanlı olaraq, Zəngilanda qalınca!

**aprel, 2023**

**SALAM, OD-OCAĞIM**

Qara saça qar ələnib, dən düşüb,
Gəncliyimi burda qoyub getmişəm.
Heç bilmirəm illər necə ötüşüb,
Sanırdım ki, tükənmişəm, bitmişəm.

Gəlirəm, doğma yurd, doğma məmləkət,
Səni abad edim, ağıllı görüm!
Araz qırağında yeniləşən kənd,
Barlı-bərəkətli Ağalı görüm!

Alın tərim hopsun xam torpağıma,
Yanıb köz-köz olan külü gül açsın,
Baş əyim bəy obam, xan torpağıma.
Talanmış divarı, daşı dil açsın.

Başını dik saxla, şəhid məzarım,
Sıxma ürəyini, yenə varıq biz!
Dönür Zəngilanlı günüm, güzarım!
Tək Vətən qoynunda bəxtiyarıq biz!

Həkəri, Xan Araz sevinc göz yaşın,
Bəsitçay bəmindir, Oxçu zəngulən!
Şükrətaz, Süsənlə ucadır başın.
Gəlirəm, doğma yurd, Qızıl Zəngilan!

**fevral, 2021**

**SƏNİN axı NƏ YAŞIN Kİ...**

***Vətən müharibəsinin iştirakçısı olmuş gənc həkimlərə***

Cavan həkim,
Axı sənin nə vaxtın ki,
Bu yaşında
yaddaşında
kadr-kadr, şəkil-şəkil
ölüm-itim, can qorxulu,
barıt iyli. qan qoxulu
xatirələr ötə-ötə
qərq olasan küdurətə?!..
Nə vaxtındır sənin axı?
Göz yaşını içdə sıxıb,
sağ yumruğun qəzəbiylə
sol ovcunu döyəsən ki,
deyəsən ki:
“Yaşının çox gənc çağında
şəhid olub qucağımda,
can tapşıran o igidlər,
tutub qazilik yolunu
sağ əlini, sol qolunu,
gözlərini, ayağını,
həyat, yaşam dayağını
“Vətən sağ olsun” deyə
itirən hər igid, ər
mənim səngər yoldaşımdır,
zabit, əsgər, qardaşımdır.”
Cavan həkim, sənin axı, nə yaşındır?!..
Desəm bu qorxulu hissləri
bir az unut, daşındır,
günahım böyük olar.
Bu, sənin ömür boyu
ürəyində bir yük olan
yol yoıçun, dərddaşındır.
Cavan həkim,
düzdür heç kim
taleyindən qaça bilməz.
Bəndə suçlu, Tanrı hakim!
Bir kimsə baş aça bilməz.
Ancaq o da sirr deyil ki,
bütün dünya deyir ki,
getdiyiniz mərd yoluydu!
Dara düşəndə Vətən
canına uf demədən

şəhid olanlarımın,
qazi qalanlarımın
qeyrət adlı sərt yoluydu.
Çəkdiyin ağrıları
demirəm unut, boşla,
aç o dərd sarğıları,
yeni bir günə başla!
Qoşa gəz dağı, daşı,
düzlərin gülünü dər!
Tanı dostu, yoldaşı,
qızların gülünü dər!
Çaylarında yuyunub,
sev dəniz havasını!
İçib bulaq suyunu,
ud təmiz havasını!
Günəş üzünə gülsün,
dan çağı nura boyan.
At dərd-səri, gülümsün,
başı dik tut, şux dayan!
Azad Vətən, yurd evin,
xoşbəxt elin, xalqın var!
Deyib-gül, şadlan, sevin,
Sənin buna haqqın var!
Sənin buna haqqın var!

**11.2020**

**ÇƏKİLİR**

Vətən dərdi tügyan edir içimdə,
Bağrım başı sanki şişə çəkilir.
Dərd var ki, çarəsi bir həb biçimdə,
Bu dərd içdə şişə-şişə çəkilir.

Həyat bizə hər an "bəxşiş" gətirir,
Çarəsiz, əlacsız bəd şiş gətirir,
Birinin üstünə beş-beş gətirir.
Dağ olub sinəyə, döşə çəkilir.

Təklənib bəşərin qartal balası,
Əsir düşüb Şuşam, - qartal qalası,
Gözəl təbiəti yurdun bəlası,
Sərvətimiz quduz dişə çəkilir.

Daş olub sinəmdə cavabsız sual,
Deyirlər dillənmə, ağzına su al!
Neyləyim, ömrümü çürüdür bu hal,
Şirin yuxularım ərşə çəkilir.
oktyabr, 2019

**QƏHRƏMAN SİVAS**

Hər bir addımında tarixin izi
Sevgiylə yaşadır tariximizi.
Burda çox düşmənin qatlanıb dizi,
Zəfər dastanıdır cəngi, davası,
Mən belə tanıdım qoca Sivası!

Fatehlər oylağı, ərlər meydanı,
Cahana hökm etmiş xanı, xaqanı,
Sivaslıya can de, alsın qadanı,
Oxşasın könlünü sazın havası,
Sözlə tərif etsin Xoca Sivası!

Dağlar ətəyində şahanə diyar,
Ay-ulduz sevdalı cavan, ixtiyar!
Qarabağ eli də ola bəxtiyar,
Şuşam könül verib quça Sivası,
Ad-sanı ucadan-uca Sivası!

**Sivas, Türkiyə, may 2020**

**İSTİ BİR YAY GÜNÜ**

Yaman bərk yorulmuşam,
Yerimirəm, axıram.
Elə bil ağır daşam
Asfalt üstə çıxıram.

Sözə baxmır ayağım,
Dözmür dizdən dayağım.
Yolda sərxoş sayağı
Keçənlərə baxıram.

Günəş yeri qovurur,
Yel külünü sovurur,
Qalxmaq gözümə durur
Oturmağa qorxuram.

Yaydı da vaxtı yetər,
Odu, alovu, bitər,
Mənsə hər şeydən betər
Ürəyimi sıxıram.

Çox qaçdım, çox yüyürdüm,
Eh, sinəmə döyürdüm,
Vaxt vardı hey deyirdim
Deyinməklə yox aram!

**08.09.2021**



AYAZ İMRANOĞLU

# SEVGİLİMİN OĞLU QARDAŞIMDIR

*romandan bir parça*

***(davamı – əvvəli jurnalın 50 və 52-ci saylarında)***

Bir neçə qaraçı da avtobusda sərnişinlərin ciblərini “şimon” etmişdi. Onların da məsələsini həll etdi. “Delovoy” (bacarıqlı) arvaddı. Ona görə də səhər-səhər tərbiyə dərsi keçirdi.

-Əhsən qarıya.

-İyirmi ildir qaraçılar müştərimdi. Onlar bura “Qaraçılar hotel”I adını veriblər.

-Maraqlı millətdir. Öz adət-ənənələri var. Özü də o adətlərə sadiq qalırlar.

-Hə, elədi. Uzun illərdir qaraçılarla təmasda olduğumdan onların dediklərindən öyrənmişəm ki, qədim xalqdırlar. Vətəninin Misir olduğunu deyirlər. Hansı səbəbdənsə tərki-vətən olub dünyanın müxtəlif yerlərinə səpələniblər. Əsasən köçəri həyat tərzi keçirirlər. Qaraçıların mənşəyi haaqında elmdə müxtəlif fikirlər var. On beşinci əsrdən Avropaya köçləri başlayıb. Ən çox məskunlaşdıqları ölkə Rumunyadı. Rəvayətə görə, dünyada bir çox xalq Allah tərəfindən lənətlənib, onlardan biri də qaraçılardı.

-Bu qədər məlumatı hardan öyrənmisən?

-Onların özlərində elə kitablar var. Veriblər oxumuşam.

-Demək qaraçışünassan, - Sərxan bunu deyib gülümsədi.

-Adə, nöş gülürsən? Onlar haqqında elə şeylər bilirəm ki, heç özləri bilmir. Dedim axı, nə günah ediblərsə, Allah tərəfindən lənətləniblər.

-Başqa hansı xalqlardı?

-Onlardan biri haqda az-çox məlumatım var. Bu latın xalqıdı. Həmin xalqın əlifbasından az qala bütün dünya istifadə edir. Amma xalqın özü yoxa çıxıb. Hətta Latın xalqının dünyanın hansı ərazisində yaşadığı da mübahisəlidi. Qaraçı xalqı da bir başqa cür o taleyi yaşamaqdadı.

-Qaraçıların həyatından bəhs edən bir neçə filmə baxmışam, - dedi Sərxan.

-Mən elə bilirəm onlar göy adamları, ruh adamlarıdı. Onların rəqslərinə baxanda görürsən ki, az qala qanad açıb göyə uçacaqlar. Sevgilərini yerdə yox, göydə axtarırlar. Göy cismlərini ən yaxşı bilən qaraçılar olublar. Mən elə bilirəm ulduz falını da onlar kəşf edib. Təbiətdə baş verən bütün fəlakətləri ulduzların düzülüşü ilə xəbər verirlər.

Deyilənə görə, qaraçılar min illər öncə bilirmişlər ki, hansı planetdə hansı varlıq yaşayır. Onlar iddia edirlər ki, yer kürəsində yaşayan bütün canlılar başqa planetlərdən göndərilib. Elm isə indi-indi Marsda, ayda, digər planetlərdə yaşamaq üçün axtarışlar aparır.

-Necə?.. Elə şeymi olar? – Sərxan təəccübünü bildirdi.

-Hə, onlar belə deyirlər ki, yer kürəsində buzlaşma başa çatdıqdan sonra torpaq görünəndə başqa planetlərin sakinləri bir yerə yığışıb BMT sayağı kimi qürumda qərara gəlirlər ki, hər pla-

netdən yer kürəsinə canlılar göndərsinlər. Elə də olur. Bir neçə planet də insan göndərir. İnsan göndərən planetlərin göndərdiklərinin fizonomiyaları fərqlənir. Ona görə də zəncilər, gözü qıyıqlar, qırmızı dərilər kimi insanlar yaranır yer kürəsində.

-Deməк insan oğlunun vətəni yer kürəsi yox, hansısa planetdi. Biz buraya gəlməyik.

-Hə, elədir. İnsanla bərabər bütün canlılar bura göndərilmişlərdi. Biz o planetlərin bostanıyıq. Onlar bizə öz laborotoryaları kimi baxır. Ona görə də vaxtaşırı buradan insanlar, başqa canlılar aparır yadplanetlilər. Biz daimi olaraq onların nəzarətindəyik.

-Maraqlıdır. Sizin bu qədər məlumatlı olmağınız heç ağlıma gəlməzdi. Axı siz iş adamı, sahibkar kimi fəaliyyət göstərirsiniz. Belə adamlar elmə çox meyilli olmurlar.

-Adə, bu xalan Azərbaycanda tanınmış fizik olub. Bir səhv hərəkətimdən həvsxanaya düşmüşəm. Bayaqdan hiss etmirsən jarqon sözlər işlədirəm. Həbsdən çıxandan sonra ata-baba mülkümüzdə evlər tikib kirayəşin saxlamaqla dolanışığımı qurdum. Sonra da bu qaraçılarla işbirliyi qurdum.

-Deyirlər qaraçıların dədə-baba peşələrindən biri də baxıcılıq, falçılıqdı.

-Bizə belə öyrədiblər ki, elmdən kənarda heç nə yoxdur. Hər şeyin elmi kökləri var. Dini kitablarda da hər bir kəlamın elmə söykəcəyi var. O ki, qaldı falçılıq, baxıcılıq onlar da təsadüfən yaranmayıb. Dərin köklərini araşdırsaq, görərik ki, insanın bütün əzalarının göy cisimləri ilə bağlılığı var. Falçılar da ən çox əl cizgiləri ilə taleyi, qisməti oxuyurlar. İllər öncə bir falçının yanında oldum. Əlimin içinə baxmaqla həyatımda baş vermiş elə hadisələri nəql etdi ki, ondan şübhələndim. Axı bu onları hardan bilir. Görünür, bura gəlməmişdən mənim həyatımda baş verən bəzi hadisələri yaxınlardan kimsə danışıb deyə düşündüm. Amma falçı elə şeylər danışırdı ki, onu yalnız mən bilirdim. Bəs bu hardan bilir? Sonra məni qarşıda gözləyəcək hadisələrdən xəbərdarlıq etdi. O dediyi vaxtdan illər ötüb. Mən o hadisələrin hamısını yaşadım.

-Mən də falıma baxdırmaq istəyirəm.

-Ona baxdıracaqsan? – deyib Sərxana doğru bir addım da atıb, gözucu gəlin olan otağa tərəf baxıb, onun görünmədiyinə əmin olduqdan sonra yavaş səslə, - Mən dediyim falçı da orada qalır.

-Qarını deyirsiniz? – Sərxan soruşdu.

-Qarının bir vaxtlar şan-şöhrəti bu şəhər boydaydı. Sonra birdən-birə onda yaddaş pozğunluğu yarandı. O da sevimli falçılığından əl çəkib qızına öyrətdi. İndi qarının işi qaraçıları idarə etməkdi.

-Belə deyin, - deyən Sərxan fikrə dalıb, sonra nə düşündüsə, - gedim işləməyə yer tapım, ardını gələndə danışarsınız, - deyib pencəyinin altında sinəsinə bağladığı xırda çantadan pul çıxarıb hotelin bir həftəlik xərcini ödədi. - Hələlik burada qalmalı olacam.

-Get, işin avanda olsun, - dedi sahibə xanım

Bu vaxt qaraçı gəlin həmişəki kimi tül pərdəni azca aralayıb baxırdı. Sərxan çöl qapıdan çıxana kimi onun arxasınca baxdı.

Yaxınlıqdakı avtomobil təmiri sexinə gəldi. Sahibkarın kabinetini döyüb “gəl” sözündən sonra içəri keçdi. Özünü təqdim etdi. Orta yaşlı kişi başını qaldırmadan eləcə qarşısındakı kağızlarla məşğul idi. Gördü kişi öz aləmindədi, heç Sərxanın gəlişindən belə xəbəri yoxdu. Yenidən dilləndi:

-Salam, adım Sərxandı. Mataristəm.

Kişi kabinetində adamın olduğunu indi eşidirmiş kimi başını azca qaldırıb qəribə tərzdə Sərxanı başdan-ayağa süzüb:

-Harada işləmisən?.. Niyə işdən çıxarıblar?.. Yaxşı ustanı gəzərlər, o iş axtarmaz, - deyib Sərxanın gözlərinin içinə elə baxdı ki, sanki, demək istədi bu suallarla mütləq ilişəcəksən.

Əslində bir-birinin ardınca verilən sual yağışı Sərxanı çaşdırmışdı. Sərxan düşündü ki, bu niyə belə edir, elə bil dilotu yeyib. Dəyirman daşı kimi üyüdüb-tökdüyü suallara təmkinlə cavab verməliydi. Ona görə də təhərini pozmadan, sakit səslə, özü də aramla:

-Rusetdə işləyirdim. Yenicə qayıtmışam. Elə ilk müraciət etdiyim yer sizin təmir sexidir, - dedi.

-Belə de. Mən də elə bildim buralarda işləmisən. Bir də fikirləşdim ki, görəsən, işində nə zibil qaynadıb…

Sərxan gilümsədi:

-Demək, dələduz adama oxşatdınız.

-Xətrinə dəyməsin. Hər gün elələrinə azı iki-üç dəfə rast gəlirəm, - sonra sözünə ara verib ayağa durdu, səmimi halda, - adım Aydındı, - deyib əl uzatdı.

Görüşdülər. Sərxan bir də özünü təqdim edib:

-Məmnun oldum tanışlığa, Aydın müəllim.

-Hə, görürəm ədəb-ərkanlı, etikalı oğlansan. Kobud rəftar etdimsə, üzürlü say, - deyib sonra ciddi görkəm aldı, - Bilirsən nə qədər işsiz var? Nə qədər adam iş axtarır? Bu ölkədə işsizlik adamları bir tikə çörəyə möhtac edib. Bəyənmədiyimiz sovetlər dönəmində fabriklər, zavodlar, kolxozlar, sovxozlar vardı. Hər kəs gedib səkkiz saatlıq işini işləyir, normal yaşayırdı. Hamı işlə təmin olunurdu. Hətta kimsə işsiz qalıb, avaraçılıq edərsə onu ağsaqqallar, ağbirçəklər tənbeh edərdilər. Bu da təsir etməsə milis şöbəsinə çağırıb, sorğu-sual aparıb, lazımı işlə təmin edərdilər. İndi isə kimsə iş tapıb işləyirsə, özünü xoşbəxt sanır. Bir bax gör ölkənin hər yanı qul bazarına çevrilib. Kimsə də ağzını açıb bir söz deyirsə, cibinə nəşə atıb şərləyib üç il, beş il “istirahətə” göndərirlər. Ona görə də məni qınama. Bacardı, bacarmadı işləmək xətrinə hamı gəlib deyir ustayam. Təki ailəsini dolandırmağa pul olsun. O gün biri gəlib deyir ki, qaynaqçıyam. Qaynaq aparatı verdim ki, dəmir çubuqları bir-birinə qaynaq et. İnan bu adam hələ aparatı işə salmağı bilmədi, o ki, qaldı qaynaq etsin. On manat verib dedim ki, get özünə başqa iş axtar.

-Mən rus istehsalı olan maşınların mataristiyəm.

-Yoxlayarıq peşəkarlığını.

-Olsun.

Aydın Fərrux adlı ustanı hayladı. Heç beş dəqiqə keçməmiş üst-başı mazutlu, qırx-qırx beş yaşlarında olan dolu bədənli, hündür boylu usta yanına gələn kimi:

-Fərrux usta, xahiş edirəm, bu cavan oğlana bir günlük iş tapşır, görək necə ustadı? Deyəsən, dilinə görə dilçəyi var, - dedi Aydın.

-Oldu, şef, - deyən Fərrux usta Sərxana əl uzadıb bir daha özünü təqdim etdikdən sonra, - getdik, - deyib Sərxanın kürəyinə ərkyana şapalaq vurdu, - Maşallah, ürəkli oğlana oxşayırsan. Heç demədin adın nədir?

-Adım Sərxandı, - deyib ustanın arxasınca getdi.

Təmirdə jiquli “06” maşını vardı. Fərrux ustanın verdiyi kombinizonu əyninə taxıb öz emalatxanası kimi işə başladı. Arada Fərrux ustanın hazırladığı pürrəngi çaydan bir stəkan içir, azca fasilə verib yenidən işini görürdü. Axşama kimi işlədi. Axşam iş hazır olanda Fərrux usta maşını işə salıb maşının səsini dinlədikdən sonra söndürüb maşından çıxan kimi yenə Sərxanın kürəyinə şapalaq vurdu:

-Afərin. Balam düz deyirlər də, çörəyi ver çörəkçiyə, birini də üstəlik. Maşallah olsun. Bu yaşda ki, bu işi belə zərgər dəqiqliyi ilə öyrənmisən, sənə zaval yoxdu.

-Sağ olun, usta. Dəyəriniz ucadı.

Onlar birgə sahibkar Aydının kabinetinə girən kimi Aydın qaş-gözlə Fərrux ustaya nəyisə işarə edəndə, o da əlini yumruqlayıb, baş barmağını qaldırıb “vışi” (əla) dedikdən sonra:

-Bu gün bir neçə dəfə yanını kəsdirdim. Nəyi, necə etməyi elə gözəl incəlikə edirdi ki, zövq aldım. Düzünü deyim ondan bir neçə detalın xırdalıqlarını öyrəndim. Gözəl iş metodu var. Allah rəhmət eləsin bunu öyrədən ustaya.

-Fərrux usta, səhv etmirəmsə, ustası rus olub, - deyib Aydın gülümsədi.

-Ölüyə də, diriyə də rəhmət düşür,- deyib Fərrux usta Sərxana baxdı, - Düz demirəm, usta qardaşım?

Sərxan başı ilə onun dediyini təsdiqləyib sonra da:

-Mən də babamdan eşitmişəm ki, diri adama da rəhmət düşür. – dedi.

-Ay sağ ol, çörək tapacaqsan, - deyib yenidən Sərxanın kürəyini şapalaqladı. Sərxanın narazlıqla baxdığını görüb, - qədeş, incimə e..., bu məndə vərdişdi.

Aydın da, Sərxan da Fərrux ustanın bu sözünə güldülər.

Aydın Fərruxun dediyi xoş sözlərdən sonra Sərxanın gördüyü işin müqabilində pul verib:

-Sabahdan Fərrux ustanın yanındakı ”boks” sənin.

Sərxan uğurlu iş günündən xoşhal olmuş kimi sağollaşıb təmir sexindən çıxıb üzü “Qaraçılar hotel”inə yol aldı. Yolda ərzaq mağazasına girib

xeyli ərzaq da aldı.

***

Bir ay olacaqdı Bakıya gəlmişdi. Hələ də “Qaraçılar hotel”ində qalırdı.

Dünən axşam işdən qayıdanda həyət qapısının ağzında durmuş hotelin sahibəsi salamsız, kəlamsız onun qarşısını kəsib:

-Ələ, yeraz, özünü falçıya baxdıracaqdın, nooldu? Mən də sənə görə gəlinə ağız açmışam.

-Hə, mən də yol gələ-gələ elə o haqda düşünürdüm. Axı, falçı xanımla danışıb hə-yoxunu mənə deyəcəkdiniz.

-Adə, indi deyirsən mən yalançıyam?

-Allah eləməsin sizə yalançı deyəm. İzn verin əl-üzümü yuyub, gəlim gedək. Dədə-babadan eşitmişəm ki, falçı, baxıcı, molla, seyid, Allah evinə gedəndə belə yuyunub, paklaşıb gedərlər. Axı onlar Allahın seçilmişləridi. İkincisi də fala baxdırmaq elə vacibdirmi? Qız deyiləm ki, deyəm yaşım ötür, qız qarıyıram, bəxtimi aça, - sonra gülüb, - mənim taylarım hələ qız arxasınca gəzir, mənsə biri ilə evlənib, boşanıb gəlmişəm.

-Alə, söhbəti çox uzatdın e... Burcutma. Sən dedin, mən də təşkil etdim. Gözlərini açıb yaxçı-yaxçı mənə bax. Məni aldadan, dolayan adamı elə dolayaram ki, adı da yadından çıxar. Sadəcə, gördüm başa düşən oğlansan. Unutma, sən qədeşlər yaşayan şəhərdə yaşayırsan, yaşayacaqsan. Burada qədeş söhbəti baş kəsir ha... Kişi gərək dediyi sözü ağzında bişirib çıxarsın. Çiy söhbətin aqibəti yaxçı olmur, - deyib Sərxana narazılığını bildirdi.

Sərxan hotel sahibəsinin əndazədən çıxdığını görüb

-Əmin-amanlıqla danışsaq, nə olar? Hay-küylə danışmaq elə də yaxşı əlamət deyil, - sonra ətrafa göz gəzdirib, səsinin tonunu aşağı salıb, - Görmürsən qaraçı uşaqlar bizə qulaq asırlar. Elə bilirlər nəyisə bölüşə bilmir, dava edirik. Hərü? Başa düşdün, ədə? Yaxçı, əl-üzünü yu, keç mənim otağıma. Gəlin orada falına baxacaq, - deyib Sərxana qaş-göz atdı.

-Oldu, sahibə xanım, - deyib ötüb keçmək istəyəndə qadın onun qolundan tutub:

-Alə, bir dayan görüm e... söhbət hələ bitməyib. Mənə bir de görüm adımın Sahibə olduğunu haradan bilirsən? Mən öz adımla nə vaxt çağrıldığım yadımdan çıxıb. Deyəsən, mənim haqqımda çox şeylər bilirsən axı... Bəlkə köhnə ərimlə görüşmüsən, sənə nəsə artıq-əskik danışıb?

-Bilmirdim. Eləcə buranın yiyəsi, müdirəsi olduğundan sahibə xanım dedim. Yəni hotelin sahibəsi.

Qadın qımışıb:

-Öz aramızdı, quşu gözündən vurdun ha... Sən mədəni danışdın. Mənsə açıb faş etdim ki, adım Sahibədi, - qəhqəh çəkib güldükdən sonra, - bu zonada, hətta ətraf məhəllərdə belə hamı məni qaraçı qız kimi tanıyırlar.

-Qaraçı qız?.. Kinosu var e…, ”Qaraçı qız” filmindəki qızımı deyirlər?

-Hərü!..

-İnnən belə qaraçı qız deyərəm, inciməzsiniz yəqin.

-Alə, özüm hələ xanım-xatun kimi bir şeyəm, - əndamına sığal çəkib, - di, get, yuyun!..

Sərxan tez-tələsik paltarlarını dəyişib, həyətdəki krantda əl-üzünü yuyub Sahibə xanımın otağına yaxınlaşdı. Qapını astaca döyən kimi içəridən məlahətli qadın səsi “gəlin” dedikdən sonra açıb içəri daxil oldu.

Bir andaca elə bil nağıllar aləmindəki şah hərəmxanasına düşdü. Gen otağın divarları, yeri xalı-xalçalarla bəzədilmişdi. Yerdəki xalçalar üzərinə ipək parçalarla döşəkçələr, mütəkkələr düzülmüşdü. Hər döşəkçənin qarşısında cəviz ağacından hazırlanmış balaca mizlər, mizlərin üstündə sulu qəlyanlar, gümüşü qablarda quru meyvələr göz oxşayırdı. Otağın hər küncündə şamlar yanırdı. Pəncərələr yaşıl, tül pərdələrlə örtülmüşdü. Yarımqaranlıq taxtın üstündə şahzadələrə oxşayan qaraçı gəlin oturub qarşısına da ağ tül çəkilmişdi. O Sərxanın davranışına göz qoyurdu.

Sərxan hələ də özünü yad aləmdə hiss edirdi. Həm də gəlin otağına düşdüyünü zənn edirdi. Bu gəlin də xanımı qiyafəsində. Hind filmlərində bu cür səhnələr gördüyündən dodaqları azca qımışdı. Qaraçı gəlin gərdəkdə oturub onun yolunu gözləyirmiş kimi ehtirasla Sərxana baxırdı. Arxa tərəfdə onları gözləyən iki nəfərlik qırmızı yorğan, döşəyin olması ona düşündüklərinin səhv olmadığını anladırdı. Demək, Sahibə xanım mənim gəlinlə yaşamağımı təşkil etmişdi. Adını da

qoymuşdu fala baxmaq...

Neçə dəfə uzaqdan-uzağa gördüyü, hər dəfə də ürkək ceyran təsiri bağışlayan, söz atıb cavab almadığı, gözəlliyindən məst olduğu gəlinlə çox yaxın dayanmış, aralarındakı məsafə iki-üç addım ola, ya olmazdı. Belə fürsət bir də ələ düşməzdi. "Sahibə xanım gör nələr düzüb-qoşub mənim üçün", - düşündü. Falçı gəlinin vurduğu ətirin xoş qoxusu otağı bürümüşdü. Sükutu gəlin pozdu:

-Xoş gördük, bəy əfəndi, - oğlanın ona baxdığını görüb, - zəhmət olmasa, bir az yaxına gəlin, - dedi.

Onsuz da bir aydan çox idi Svetadan uzaq düşmüşdü. Könlündən dəfələrlə qadınla yaşamaq keçsə də, buna imkan olmamışdı. İndi bu fürsət onun üçün göydəndüşmə olmuşdu. Elə bu istəklə gəlinə doğru bir addım da atmışdı ki:

-Əllərinizi olarmı? – növbəti sualı verdi gəlin.

Sərxan sağ əlini ona tərəf uzatdı:

-Ürək sol tərəfdə yerləşir. Demək sol əlinizi uzatmalısınız, - gülümsəyib dedi gəlin. İndi tam əmin oldu ki, gəlin onu ram etmək istəyir. Sadəcə olaraq hiylə işlədir.

"İlahi, güləndə dodaqları necə gözəl çiçək açır. Ləçək-ləçək. Allanmış yanaqları bir almanın iki üzü kimi görünür", – düşünürdü Sərxan. Sol əlini uzadan kimi gəlin oğlanın əlini ipək ovcuna alıb, bir xeyli əlin içindəki işarələrə baxdı. Sonra başını qaldırıb mənalı baxışlarla Sərxanı süzdü:

-Qəribçiliyin dadını çıxarıb heç vaxt olmadığın bu şəhərə gəlmisən. Baxmayaraq doğulduğun yer qədim yerlərimizdən olub. Ciddi bir səbəbdən ora yox, bura gəlmisən. Düz də eləmisən. Bura da sənin vətənindi.

Gəlinin dedikləri düz olsa da, Sərxan elə şübhə ilə yanaşdı ki, az qala desin: "Xanım bunu sizə Sahibə xanım – Qaraçı qız deyibmi? Bir ayda mənim haqqımda çox şeylər öyrənib". Amma deməyib susdu. Gözlədi ki, falçı xanım daha nələri üyüdüb-tökəcək. Qadınsa bir xeyli əlin içindəki cizgilərə baxdı:

-Sənin anan iki dostu sevib. İkisi ilə də sevişib. Sən dostlardan birinin oğlusan. Bu sevgi sonradan iki dostu bir-birinə düşmən edib.

Sərxanı soyuq tər basdı. Bir vaxtlar qonşu oğlunun dediyi sözlərin eynisini eşidirdi O da demişdi ki Səməd dayının oğlusan...

Qaraçı gəlin oğlanın haldan-hala düşdüyünü görüb:

-Bəy oğlan, ardını danışımmı?.. – soruşdu. – Yoxsa gərək deyil.

Sərxanın boğazı qurumuşdu. Nə düşünüb, hansı məqsədlə bu otağa girmişdi hamısı yalan olmuşdu. Hələ onu nələr gözləyirdi, bir Allah bilirdi. Ona görə də boğazını arıtlayıb:

-Dayanın, deyəsən boğuluram burada, su olarmı? – deyib öyüməyə başladı.

Əlini ağzına tutub özünü pəncərə önünə verib, tez pərdəni aralayıb, pəncərənin bir tayını açıb başını bayıra çıxartdı. Gecənin sərinliyində alnına puçur-puçur tər qonmuşdu. Cib dəsmalını çıxarıb alnının, üzünün, boğazının tərini sildi. Öskürəyi sakitləşmiş, ürəyi bulanmırdı.

Bu müddət ərzində qaraçı gəlin şah taxtına bənzər taxtından qalxıb otaqdan arxa otağa açılan qapıdan keçib bir azdan stəkan dolu su ilə qayıtdı:

-Buyurun..., için, - dedi.

Stəkan dolu sərin suyu bir nəfəsə içib stəkanı ona uzatdı. Sərxan gözlədi ki, daha bir stəkan su gətirəcək. Gəlinsə onun toxtamasını gözləyirdi. Oğlan hələ də təngənəfəs idi.

Ikisi də sakit durmuşdular. Bir az da keçdi ki, Sərxan töyşüyə - töyşüyə:

-Bittə-bittə hamısını danışmağını istəyirəm, - deyib ayaqlarını sürütləyə-sürütləyə bayaqkı yerə gəldi.

Falçı gəlin ona stol gətirib:

-Oturun. Özü də həyəcan keçirmək nəyə lazım.

Belə hallarda müştərilərinin fikirlərini yayındırmaq üçün özünəməxsus zarafatını işə salırdı. Ona görə də Sərxan oturan kimi:

-Bəs mənim zəhmət haqqım necə olacaq?, - deyib ipək ovcunu Sərxana tərəf acdı.

Sərxan heç nə demədən əlini cibinə salıb iki şirvan pulu çıxarıb onun ovcuna basdı.

-Səməd və sənin ata dediyin Arif uşaqlıq illərindən dost olublar. On il bir sinifdə oxuyublar. Orta məktəbi bitirən sinif yoldaşları ali məktəblərə qəbul imtahanları verirlər ki, təhsillərini davam etdirsinlər. Bu iki dostsa həmişə arzulayırmışlar ki, məktəbə gəlib-getməkdən canları

qurtarsın. İndi də əsgərliyə gedəcəkləri ayları, günləri sayırdılar. Kənddə veyil-veyil gəzməkdən bezar olmuşdular. Bir gün qərara gəlirlər ki, qonşu Gürcüstanın Tiflis şəhərində işləməyə getsinlər. Fikirlərini valideynlərinə deyirlər. Onlar da oğlanlarının təklifinə yox demirlər. Beləcə, iki dost Gürcüstanın paytaxtına gəlirlər. Kəndçilərindən bir nəfər orada yaşayıb, işlədiyindən axtarıb onu tapırlar. Həmin adam həmkəndliləri-ni evinə gətirib ailəsi ilə tanış edib, bir neçə gün də evində saxlayır. Onları şəhərdəki tikintidə işə düzəldir və deyir ki, şəhərə uyğunlaşana kimi onlarda qalsınlar. Dostlar isə kirayə evdə yaşayacaqlarını deyirlər. Kəndçiləri bir söz demədən onlara qonşu məhlələrin birindən həyət evi kirələyir.

Həyətyanı ev Tiflisin köhnə məhləsində, kasıb bir gürcü ailəsinin xırda otağı idi. Otaqda iki ədəd çarpayı, sınıq-sökük stol, stullardan başqa otaqda bir ədəd də divara bərkidilmiş köhnə güzgü vardı ki, adamı güclə göstərirdi.

Üç nəfərlik gürcü ailəsi ər-arvaddan, bir də Manana adlı nəvələrindən ibarət idi.

-Manana? – Bayaqdan söhbətə diqqətlə qulaq asan Sərxan anasının qızlıq adını eşidib falçı gəlinə sual verir:

-Hə, hə, düz tutdun sözümü. Məgər sənin ananın adı Manana deyilmi? Onu deyirəm, gürcü qızıdır.

-Yox, siz nə danışırsınız? Mənim anam azərbaycanlı olub. Heç vaxt da başqa millətdən olduğunu deməyib. Gürcü olsaydı, ən azı danışığından hiss olunardı. Gürcülər xristiandırlar, mənim anam isə müsəlman olub, hər gün beş rükət namazını qılır, hicab bağlayırdı.

-Anan gürcü qızı olub. Səməd, Arifdən anan beş yaş böyük olub. Bu iki dost onların həyətində kirayəşin qalmamışdan öncə Manana azərbaycanlıya ərə gedib, əri ilə altı ay bir yerdə yaşayıblar. Yay ayı Kürdə çimən zaman boğulub ölmüşdü. Həmin izdivacdan bir qız övladı doğulur. O qız atasını görmür...

-Bunları sən hardan bilirsən? – Sərxan hövsələsizlik edib yenə dilləndi.

-Yaxşı olar susub, qulaq asasan danışdıqlarıma. Sonra sənlə müəyyən məsələləri müzakirə edərik. Bir də nə bilirsən o qız kimdir? – falçı gəlin sual edir.

-Kim?.. – Sərxan laqeydliklə soruşur.

-Diqqətlə qulaq as. Mən bilirəm, görürəm sənin mənə istəyin var. O istəyin nədən ibarət olduğunu demək gərək deyil, - deyib qaraçı gəlin başını aşağı salıb, - mənəm həmin qız…

Sərxanı birdən-birə elə bil elektirik cərəyanı vurdu. Bütün bədəni həyəcandan titrədi. Dili bir anlıq söz tutmadı danışsın. Falçı gəlin də Sərxanın keçirdiyi hiss və duyğuları gözəl başa düşdüyündən yenə sakit halda, aramla danışmağa başladı:

-Unutma ki, biz ana bir, ata ayrı qardaş-bacı sayılırıq. Sən bura gələn günün səhərisi Binəqədi qəsəbəsinə gedib məyus halda bura döndüyün gündən səni tanımışam.

-Ola bilməz, - sonra nə düşündüsə Sərxanın gözləri güldü, - Mən də deyirəm bu xanım ilk baxışdan mənə niyə doğma gəlir. Düşünürəm ki, görəsən harda bir-birimizə rast gəlmişik, - sonra da qadının və öz dediklərinə inanmırmış kimi, - Axı, sən nə bildin mən adlı ögey qardaşın var?

Falçı gəlin gülümsəyib:

-Həyatında hələ çox hadisələr surprizlərə çevrilib səni şoka salacaq. Kaş, bütün surprizlər xoşməramlı ola, həyatına əlvanlıq qata.

-Pafoslu sözlərinizə görə çox sağ olun. Amma mən bilmək istəyirəm ki, siz hardan bildiniz biz qardaş-bacıyıq?

-İki il əvvəl yanıma bir qadın gəlmişdi. Əsgərliyə gedib qayıtmayan oğlunun gəlib, gəlməyəcəyinin falına baxdırırdı. Oğlanın şəkilini də gətirmişdi. O qadın Ermənistandan qaçqın düşüb Binəqədi qəsəbəsində yaşayırdı. Onun falına baxıb dedim:

-O bir qadının əliylə zəncirlənib. Zənciri qıran kimi yanına gələcək. Və...

Sərxan bayaqdan daxili gərginlik yaşadığından bədənini soyuq tər basmışdı. Cib yaylığını çıxarıb alnının tərini sildikdən sonra:

-Xahiş edirəm, bu mövzuda nə bilirsinizsə, hamısını mənə danışasınız. Hövsələmi basıb diqqətlə qulaq asacam, - dedi.

-Bax, bayaq dediyim surprizlərdən biri də indicə baş verdi. Mənlə sevgili olmaq istəyən oğlan qardaşım çıxdı, - sonra mənalı baxışlarla Sərxanı süzüb, - Çalışacam bildiklərimi danışım... Da-

vamı belə olur ki, dostlar gürcü qızına vurulurlar. Yaxınlaşıb bir söz deyə bilməsələr də eləcə kənardan-kənara iştahlarını öldürürlər. Manana da bu kənd uşaqları olan sadəlövh oğlanlara işvə-naz satıb, onları yandırıb-yaxır. Həmişə də özlüyündə deyirmiş:

-Elə bil göbəyim azərbaycanlı oğlanlara kəsilib. Məni onlara çəkən nədir axı? – deyib verdiyi sualı özü də cavablandırdı, - səmimi olmaq, mehribançılıq, alicənablıq. Əsas odur ki, hara getsələr axşam arvadlarının yanına dönürlər.

Səməd də, Arif də gerçək həyatda Mananaya bir söz deməsələr də yuxularında onu qucaqlayıb öpür, yataqda şəhvani hisslər yaşayırdılar. Gündüzlər isə həyat-bacada Manananı gördükdə yanından yel olub ötə bilmirdilər. Hətta bu gözəl gürcü xanımı onlardan nəsə soruşanda dilləri topuq vurur, çaş-baş danışırdılar. Maraqlı olan o idi ki, Mananaya olan hisslərini də bir-birinə demirmişlər. Eləcə dostlar gürcü gözəlini dəlicəsinə sevirmişlər.

Mananaya isə azərbaycanlı ərindən sonra həyatındakı boşluğu dolduracaq birisi gərək idi. Təbii ki, Mananının arzuladığı kişi olmalıydı. Bu istəyini bir neçə dəfə gerçəkləşdirmək istəsə də alınmamışdı. İndi ikisi birdən peyda olmuşdu. Özü də evinin içində...

Onun ağlına gəlməyən başına gəlmişdi. Düz deyirlər, dərd insanı tapmasın, tapdısa zəli kimi adamın yaxasından yapışıb qanını sorub qurtarmayınca əl çəkən deyil. Manana da bir neçə ildi zərif qadın çiyinlərində dərdi batmanla daşıyırdı. Belə ki, ərindən sonra bütün mehri-məhəbbətini iki yaş yarımlıq qızına vermişdi. Amma günün bir günü qızı həyətdə oynayarkən bir göz qırpımında yoxa çıxmışdı. Həyət-bacada elə bir yer qalmadı ki, oranı ələk-vələk etməsin. Hər yandan da əli boşa çıxırdı. Yazıq qadının qışqır-bağırtısı hər yanı bürümüşdü. Eşidən-bilən qonum-qonşu haya gəldilər. Həyəcanla içəri girən rəfiqəsi Xatun soruşdu:

-Ay qız, axı necə oldu uşaq gözünün qabağından yoxa çıxdı?

-Nə bilim, ay bajı. Uşağı yer uddumu, göyə uçdumu? – deyib vay-şivən qopartdıqdan sonra, - Paltar yuyub ipliyə asırdım. Qız da orda, - əli ilə tut ağacının altını göstərir, - orada gəlinciyi ilə oynayırdı. Odey hələ də ordadır oyuncaqları. Birdən elə bil kimsə mənə dedi ki, bir dön tut ağacı tərəfə bax. Baxdım. Uşaq yox idi. Əvvəl elə bildim evə girib. Tez evə girib otaqları gəzdim. Uşaq yağlı əppək olub qeybə çəkilmişdi.

Xatun həyətdəki su quyusunu göstərib dedi:

-Bəlkə quyuya...

Haya gələnlərin hamısı on səkkiz metrlik dərinliyi olan su quyusunun ətrafına toplaşdı. Bir-bir quyunun içinə boylandılar. Dibi qaranlıq olduğundan heç nə görünmürdü. Uşağın adını səslədilər. Səs quyuda əks-səda verib özlərinə qayıdırdı.

Məhəllənin ən igid oğlu belinə kəndir bağlayıb quyuya düşdü və beş dəqiqə keçməmiş çıxıb təəssüflə çiyinlərini çəkdi:

-Orda yoxdu...

Gümanlar min yerə yozuldu. Kimsə dedi ki, bəlkə Kür çayına düşüb. Axı evlərindən elə də uzaqda olmayan Kür çayı axır. Tezcə də sual yarandı ki, iki yaş yarımlıq qız uşağı ora niyə getsin ki? Lap elə tutaq ki, uşaq həyət qapısından çıxıb uz tutdu Kürə sarı. Axı kimsəsiz uşağı görənlər onu sorğu-suala tutub milisə təhvil verərlər. Haya gələnlərdən yaşlı qadın dedi ki, bəlkə həyət qapısından çıxıb asfalt yolda maşın vurub. Yaşlı qadının dediyinə təkan verənlər onu da dedilər ki, uşaq hansısa xəstəxanada yaralı vəziyyətdə ola bilər. Ona görə də şəhər milis şöbəsinə zəng edib hal-qəziyyəni danışdılar. Onların nümayəndəsi gəldi. Tezcə də bütün xəstəxanalara sorğu göndərildi. Cavablar mənfi oldu.

Sonradan qonşulardan kimsə demişdi ki, qızcığaz itən günü məhəllələrdə qaraçı dəstəsi dolaşırmış...

Milis şöbəsi tam heyətlə harada qaraçı topası görürdülərsə onları sorğu-suala tutub, axtarış aparırdılar. Hətta qaraçıların ağsaqqalı, tayfa başçısına kimi gedib çıxdılar. Ordan da ümidverici xəbər gəlmədi. Qızcığazın itkin düşməsi xəbəri televizyada verildi.

Beləcə, qızcığaz haqqında açılmış cinayət işi neçə illər açıq qaldı...

Mananının dərdi köhnəlsə də yarası qaysaq bağlamırdı. Hara gedirdi iki, üç yaşlı qız uşağı görən kimi gözləri ona dikilirdi. Qızına oxşatdıqları da olmuşdu. Hətta bir dəfə eyni ilə qızına

oxşayan birisini qucaqlayıb öpmüş, “balam” – demişdi. Manana unudurdu ki, illər əvvəl itirdiyi qızı indi iki, üç yaşında yox, böyüyüb yekə qız olmuş olar.

***

Səmədlə, Arif onların həyətində kirayənişin qalırdılar. Boylu-buxunlu, cavan oğlanlara heyranlıqla baxırdı. Düşünürdü ki, baş qatmaq üçün əsil fürsətdir. Gecələr yatağında kirayənişin oğlanları düşünəndə göbəyindən bir qarış aşağının...

...İstirahət günü idi. Axşamdan iş bölgüsü etmişdilər. Səhər yeməyini yeyən kimi Arif bazarlıq torbasını götürüb şəhərə getdi. Səməd isə qaldıqları otağı silib-süpürmüş, axşamdan bulanıq qalmış qab-qacağı yumuş, günorta yeməyi bişirmişdi. Bütün işləri görüb qurtardıqdan sonra yorğunluğunu çıxarmaq üçün yenicə dəmlədiyi çaydan bir stəkan süzüb, otağın qarşısındakı üzüm tənəyinin altında oturdu. Həm kölgə, həm də sərin meh Səmədin əhvalına rahatlıq gətirirdi. Dünən gecədən stolun üstündə qalmış “Qaraçılar hoteli” kitabının davamını oxumağa başladı. Bu kitabı Manana ona verəndə demişdi ki:

-Azərbaycanlı müəllifin romanıdır. Oxuduqca elə bil qaraçılarla nə vaxtsa qohum olduğum yadıma düşür.

-Maraq məni bürüdü. Mütləq oxuyacam, - demişdi Səməd.

Səmədin tənək altında oturduğunu görən Manana bu vaxt paltar dolu teşti qoltuğuna vurub həyətə su kranının yanına gəldi. Krandan teştə su alıb paltarları islatdıqdan sonra sabunlayıb yumağa başladı. Paltar yuya-yuya gürcü xalq mahnısını zümzümə edir, həm də gözaltı Səmədi süzürdü. Uzun çit donuna krantdan su çiləndiyindən islanmışdı. Ona görə də donun ətəklərini yığıb belinə düyün vurdu.

Bayaqdan Səməd də gözaltı Mananını marıtlayırdı. Bu dəfə açıq qalmış baldırlarını görəndə isə...

Ağ maya budlara gün işığı dəydikcə Səmədin gözlərini qamaşdırır, hayıl-mayıl edirdi. Fikrindən qəribə şeylər keçir, xəyallar qururdu. Manana bunu hiss edib arxasını Səmədə tərəf çevirdi. İndi isə yanbızlar…

Paltarları yumaq uzandıqca Səməd də haldan-hala düşürdü. Teştə yığıb sərmək üçün Səmədin yanındakı ipliyə tərəf gəlib yerə qoydu. Hər paltarı bir-bir ipliyə sərib, şpilka vurduqda yenə də oğlana göz qoyurdu. Oğlansa ehtirasdan pörtmüşdü. Ona görə də özündə olmayan oğlana birdən-birə:

-Doyunca baxa bildinmi? – deyib dilini çıxartdı.

Səməd Manananın bu sözündən od tutub yanmağa başlamışdı. Üstəgəl badımcan içi dili. Ha istədi özünü cəmləyib cavab versin, alınmadı. Dili topuq vuracağını düşünüb eləcə gözləri ilə Mananı soyundurub lüt bədəninə baxırdı. Manana da Səmədin halını başa düşdüyündən:

-Ehh… dostum, səninləyəm, eşidirsənmi?!.. – deyib əlini Səmədin gözləri qarşısında yellədi, - ayıl, a bala, halın o söz…

Səməd hələ də bu gürcü gözəlinin sözləri ətrafında baş sındırırdı. Bəlkə də ilk dəfə idi çətin sual qarşısında qalmışdı. “Doyunca baxa bildinmi?.. Bu nə deməkdir axı?.. Belə çıxır ki, o Səmədin keçirdiyi hissləri duyur”. Daha nə hərəkət edirdi, nə danışırdı, özü də bilmirdi. Handan-hana özünə gəlib:

-Hara baxırdım ki? – deyən Səməd suala sualla cavab verdi.

-Mənə də… Elə bilirsən görmürəm?.. Məgər qadın görməmisən?.. Gözlərini elə marıtlayıb baxırsan ki, sanki pişik siçan ovundadır, - deyib güldü.

Səməd isə eşitdiyi sözlərdən boğazı qurumuşdu. Eləcə udqundu.

-Utanma. Nə sözün var de. Sən subay oğlan, mən də ki, dul qadın, - sonra nəyisə yadına salırmış kimi əlavə etdi. - Bilirsən də siz azərbaycanlılarda belə bir atalar sözü var…

-O nə sözdür elə? – Səməd soruşdu.

-Utananın oğlu olmaz. Doyunca mənə baxıb, kam almaq imkanı verirəm. Əgər kişi kimi sir saxlaya biləcəksənsə?!.. – deyib oğlanın gözlərinin içinə baxdı.

Səməd ilk dəfə idi qadından belə sözlər eşidirdi. Fikirləşirdi ki, görəsən, onların kəndlərində qızlar, gəlinlər niyə belə açıq-aşkar danışmırlar. Onların kəndlərində hələ də nənələr yaşmaq taxır, gəlinlər, qızlar yaylıq bağlayırlar. Həmişə qadının həya mücəssiməsi olduğunu eşidib, gör-

müşdü. İndi isə Manananın dediyi sözlərdən həyəcanlanmış, bədəni cumculuq su (tər) olmuşdu.

Yaxşı ki, Manana onun bu halını görməyib getdi. Heç beş dəqiqə keçməmişdi ki, Manana yeni qiyafədə aynabənd pəncərəsindən başını çıxarıb Səmədə səsləndi:

-Cavan oğlan, kömək edə bilərsinizmi?

Səməd tez ayağa durub aynəbənd istiqamətə yaxınlaşdı:

-Buyurun, xanım, - deyib Mananaya eşqlə baxdı.

-Qocalar (ata, anasını nəzərdə tuturdu, bunu Səməd yaxşı bilirdi) mağazaya getdilər. Mən də evdə yerdəyişmə edirəm. Şifoneri çəkməyə kömək edə bilərsinizmi? – deyən gürcü gözəli bu dəfə Səmədə göz vurdu.

Səməd sanki bu təklifi çoxdan gözləyirdi. Evin pilləkənlərinə doğru yerimir, uçurdu. Pilləkənləri qalxıb evin qapısına yaxınlaşmışdı ki, Manana qapını açıb, ərkyana:

-Gəl görək də, -  hələ də kirayəniişinlərin adlarını dəyişik deyən xanım oğlanın qolundan tutub içəri saldıqdan sonra qapını örtdü.

Otaqdakı xoş rahiyyəli qoxu Səmədin ruhunu oxşadı. Belə qoxunu kəndlərində molla Əsgərgilə gedəndə duymuşdu. Evlərinə gələndə nənəsinə deyəndə ki, molla Əsgərgilin evindən gözəl qoxu gəlirdi. Nənəsi ona demişdi ki, bala onlar evlərinə, paltarlarına gülab qoxusu vurur.

-O gülabdan bizdə niyə yoxdu? – demişdi.

-Bala, gülabı ölü yerlərində istifadə edirlər.

-Necə yəni yas yerlərində?

-Belə ki, məhrumun qəbrinə baş çəkib gələndə qonaqların əllərinə gülab suyu damcıladırlar.

-Hə, nənə yadıma düşdü. Museyib babanın qəbrini ziyarət edib gələndə molla ərəbcə nəsə oxuyurdu. Əmioğlu da cərgə ilə düzülmüş adamların əllərinə maye damcıladırdı.

-Hə, ona gülab suyu deyirlər…

İndi Mananagilin evindən də təxminən elə qoxu gəlirdi.

Bayaqdan Manana söz soruşanda danışa bilməyən, danışanda da dili topuq vuran Səməd indi az qalır hər sözünə bülbül kimi cəhcəh vura.

-Sizi belə yaxından görməmişdim. Çox gözəl xanım, çiçək kimi təravətli, həm də məlahətlisiniz, - dedi.

-Sən bütün qadınlara komplement deyirsən? Bilirsən də qadınlar həm də qulaqları ilə sevir. Xoş sözdən sənə vurula bilərlər…

-Siz həqiqətən mələksimasınız, - dedi Səməd.

Sonra Manana əllərini qoşalayıb ona uzatdı. Elə bil bir cüt ağ göyərçin ona tərəf qanad çaldı. Səməd ipək əlləri bir xeyli oxşadı. Qadın bədənindəki ehtiras enerjisi kükrəyib oğlanın bədəninə axırdı. Eşq dolu qadın gözləri onun saf, məsum gözlərinə zillənib qığılcım ulduzlar ötürürdü. Səmədi Manana tilsiminə salmışdı. O bütün varlığı ilə qadının əsarətində idi.

-Bir dayan görək. Bəy tərifini sonra edərsən. De görüm dostun gecmi gələr? Deyirəm biz yorğan saplayanacan gəlib bizi işimizdən eləməsin. Siz azərbaycanlılara yaxşı bələdəm, bir az hay-küyçüsünüz. Dostun gəlib səni evdə görməyib bizim qapını döyə bilər, - deyib təravətli bədənini Səmədin sinəsinə toxundurdu. İkisinin də nəfəsi bir-birinə qarışmışdı. Elə bil dev ağzından od püskürürdü. İkisi də…, - deyirəm bakirəsən, yoxsa sən də mənim kimi bakirəliyini on üç yaşında itirmisən?

-O nə deməkdir?.. Bakirə qalmaq necə olur?.. – deyən Səməd Manananın gözlərinin içinə təəccüblə baxdı.

-Yəni indiyə kimi qadınla yaşamamısansa, demək bakirəsən, - deyib bic-bic güldü.

Səməd kefli adamlar kimi olmuşdu. Sanki Jora kimi gündə nışələnmişdi. İndi bu dəqiqə göylə gedirdi. Mananaı, otaqda hər şey gözlərinə baş-ayaq görünürdü. Utancaqlığı yoxa çıxmışdı.

-Kəndimizdəki üç qardaş gölündə qızlarla birgə çimirdik. Kim tez göldən çıxmaq istəyirdisə, onu palçıqlayırdıq. O da qayıdıb çimirdi.

-Mən o mənada demədim. Yəni qadınla yataq, filan…

-Yox, bu günə kimi əlim qadın əlinə dəyməyib. Sənin əlin ilkdir

-Biz indi sevişməyə də ilk imza ata bilərik.

-Kəndimizdə çoban Bəhmənin qızına könül vermək istədim, o da mənə sifariş göndərmişdi ki, gedib anqırıb tayını tapsın…

Mananadan şaqqanaq gülüş qopdu. Gözü yaşaranacan güldükdən sonra qarnını tutdu.

-Siz kəndlilər nə qədər sadəlövhsünüz. Hə,

dedim axı, dostun gec gələr, yəqin…

-Dostumun işləri çoxdu, gec gələcək. Çünki bazarlıq edəndən sonra şəhərlərarası telefon qovşağına gedib valideynləri ilə danışacaq, ordan da poçta gedib onlara pul göndərəcək, - deyən Sərxan da bic-bic güldü. - şifonerin yerini hara dəyişəcəyik?

-Bəs nə deyim? Səni özümə necə cəlb edim? Sən indi mənə hava, su kimi gərəksən, - deyib Səmədi odlu öpüşlərə qərq etdi.

Manana gözləmədiyi halda onu qocaqlayıb özünə sıxdı. Gürcü gözəlinin ona tərəf yaxınlaşdırdığı ətli dodaqlarını öpüb, əmməyə başladı. Manana Səmədin əlindən tutub arxasınca dartdı, başqa otağa keçdilər. Bura yataq otağı idi. Səməd düşündü ki, bura yəqin onun yataq otağıdı. Çünki otaqda tək çarpayı və bir də qadın gecə paltarı asılqandan asılmışdı. O otağın bayıra açılan pəncərəsinin göy pərdəsini endirən kimi otaq yarımqaranlıq oldu.

Bir azdan oradan inilti səsləri eşidilməyə başladı…

Səməd Mananagilin otağından çıxıb qaldığı otağa yenicə qayıtmışdı ki, həyət darvazası çırıltı ilə açıldı. Qocalar əllərindəki seylafon dolu torbalarla həyətə daxil oldular

***

Sevişmələri ikisinin arasında sirr olaraq qaldı. Həyət-bacada adam olanda aralarında heç nə olmamış kimi bir-birinə “salam”, “günaydın” deyib ötüb keçirdilər. Manana isə Səməddən aldığı ləzzətin dadı damağından getməmiş yenə istəyirdi. Bunun üçün fürsət gəzirdi. Səmədsə ondan qaçırdı. Ona görə də növbəti sevişmələri baş tutmurdu.

Günlərin bir günü Səmədə kəndlərindən teleqram gəldi. Faciə baş vermişdi. Kiçik qardaşı uşaqlarla kəndin kənarından keçən kanalda çimərkən burulğana düşüb boğulub ölmüşdü. Səməd işdən icazə alıb yasa getdi.

Arif tək qaldığından işdən sonra başını qatmağa televizor, radio olmadığından Səmədin oxuduğu kitablardan götürüb oxuyurdu. Uşaq yaşlarından bədii əsərlər oxumaq onun xobbisi idi. Bəzən elə olurdu ki, bir gecəyə romanı oxuyub başa çatırdı. Özü də ciddi xarakrli, həyatı hadisələrlə zəngin olan əsərləri çox sevirdi.

Səhərdən Mananının başında başqa bir istək baş qaldırmışdı. Səmədə qurduğu tələnin başqa birisini də Arifə quracaq. Kənd oğlanlarının ehtirası güclü olur. Qadını yataqda elə yorurlar ki, neçə gün o ləzzətlə yaşayır. Arif isə çox ciddi oğlana oxşayır. Əgər onu ram etsə, daha heç bir ağrı, acısı qalmaz. Amma Arif ağır təbiəti ilə onun istəyini yerinə yetirəcəkmi? Həmyaşıdları qadınlar söyləyirdilər ki, ən ciddi kişi qadınla yataqda beş yaşlı uşağa dönür.

Bir gün…

Axşamüstü idi. Arif yatağına uzanıb Səmədin oxuduğu “Qaraçılar hoteli” kitabını oxuyurdu ki, qapı döyüldü. “Gəl” deməmiş qapı açıldı. Xozeyka dedikləri Manana qapı ağzındaca səsləndi:

-Salam, cavan oğlan. Narahat etmədim?..

Arif tez yataqdan qalxıb, köynəyinin açıq düymələrini bağlaya-bağlaya dedi:

-Bağışlayın, siz allah, bilmirdim siz gələcəksiniz.

-Ehhh… narahat olma. Sənin tayların şəhərin parklarında, kino-teatrlarda gözəl qızlarla qolboyun olub min hoqqadan çıxırlar. Sən də burada mütaliyəyə güc vermisən. Soruşmaq ayıb olmasın, nə oxuyursan? Yəqin hamı kimi sən də detektiv, ya da sevgi macaraları ilə dolu olan kitab oxuyursan?

-Qızlarla görüşmək xarakterimə yaddır. Oxuduğum kitab “Qaraçılar hoteli” adlanır. Dostumun oxuduğu kitabdır.

-Hə, başa düşdüm. Deyirəm o kitab oxumağı sonraya saxlayasan, bəlkə. Gəl, bir samovar çayı içək, - deyib Manana mənalı halda oğlanı süzdü..

-Bayaqdan çay içmək könlümdən keçir.

-Bəs niyə tənbəllik edirsən?

-Kitabın elə maraqlı yerində qalmışam ki, oradan ayrılmağı özümə günah bilirəm. Hazır çay olsa, mən də içərəm.

-Samavarı kim qaynatdı ki, sən də içəsən? Deyirəm samovar gətirim, qaynadaq.

-Oldu. Qamqalaq doğramaq mənlik, samavarı qaynatmaq sənlik, - deyib Arif güldü.

-Necə rəva görürsən mən gözəllikdə xanım özümü hisə, tüstüyə verim. Necə qıyırsan mənə, ay insafsız, - Manana dodaq büzdü.

-Yaxşı qaynatmaq da mənlik, dəmləmək sənlik…

Manana imkan vermədi ki, Arif sözünü tamamlasın:

-Yox, e…, sən qaynadıb dəmləyəcəksən, mən də içəcəm. Bu işdə bircə şeyə gücüm çatar. O da ondan ibarətdir ki, quru çay Gürcüstan yox, Lənkəran çayı verərəm.

Daha Arifin deməyə sözü qalmadı.

-Baş üstə, xanım, - deyib kitabı qatlayıb bir kənara qoyub ayağa durdu…

Heç yarım saat keçmədi Arif samavarı qaynadıb, dəmləyib Mananagil oturduğu stola gətirdi. Arif stəkanlara pürrəngi çaydan süzüb onların qarşısına qoyub dəmlədiyi çayı təriflәyib:

-Bəh-bəh. Əsil xoruzquyruğudur. Nuş can edin, - deyib özü də stolun bir tərəfində oturub özünə süzdüyü stəkan dolu çayı qabağına çəkdi.

Manana, ata, anası da çaydan içə-içə onlar da neçə kərə “bəh-bəh” dedilər. Mananının atası azdan-çoxdan azərbaycanca danışa bilsə də anası heç bilmirdi. Ona görə də kişi eşidib-bildiklərindən həvəslə danışırdı. Bir azdan axşam sərinliyi düşdüyündən hiss olunurdu ki, qocalar üşüyür. Kişi:

-Bizi üzürlü sayın, soyuqdu, gedək içəri. Çay üçün təşəkkür edirik. Xoş oldu, - deyib arvadına gürcücə nəsə deyən kimi arvad da ayağa durub qol-qola verib evə keçdilər.

Manana valdeynləri gedəndən sonra astadan pıçıldadı:

-Mənimlə söhbət etmək darıxdırıcı deyilsə…

-Niyə ki, xoşdur.

-Onda çiyələk mürəbbəsi var, gətirim içək.

-Çiyələk mürəbbəsi ən çox xoşladığım mürəbbədir.

Manana tez gedib bir banka mürəbbə gətirdi.

Arifə də, özünə də çay süzüb, mürəbbə qoyan Manana indi onunla üzbəüz oturmuşdu. Şirin söhbət edirdilər. Yavaş danışdıqlarından kənarda kimsə olsaydı eşitməzdi. Bayaqdan neçə kərə ayağını Arifin ayağına sürtmüş və həmin anda da gözlərinin içinə baxmışdı. Oğlan qızarıb-pörtsə də bir söz deyə bilməmiş, ya da reaksiya verə bilməmişdi. Ona görə də Manana:

-Afərin çayçılığına, ləzzətlə içdim, - deyib oğlanı ehtirasla süzdü.

Qorxurdu ki, oğlanı hürküdə. Bayaq çay qaynatmaq söhbəti ortaya çıxanda iş bölgüsü edib, üyüdüb-tökməyinə baxma, üzüyola oğlanmış. Biclik nə olduğunu hələ bilmir… Bayaqdan Arif-lə söhbət etsə də fikirində də onu götür-qoy edirdi. Arifin dediyi sözlər onu düşüncə dünyasından ayıltdı:

-Sağ olun, xanım. Deyirlər kişilərin bişirdikləri yeməkləri qadınlar elə iştahla yeyirlər ki, hətta doymayıb barmaqlarını da yalayırlar, - dedi Arif.

-Çay dəmləməyinə söz ola bilməz. Yemək bişirməyinə də baxarıq, - bic-bic Arifi süzüb, az qala pıçıltı ilə, - Gecə qonağın olacam. Quluncunu sındırmaq istəyirəm, - gördü Arif cavab vermir, - sən də məni masaj edərsən, - deyib Arifə göz vurdu.

Arif bilmədi nə desin. Fikirləşəndə ki, ilk dəfə qadın bədənini lüt görəcək, ağlı başından çıxırdı. Özü də o bədəni Arif masaj edəcək. Bu haqda xəyal qurduqca halı dəyişirdi. Bir də Manana dedi ki, Arifin quluncunu sındıracaq, yəni ər-arvad olacaqlar. Molla Əsgər burda olsaydı Mananını bir neçə günlüyə siğə etdirərdi ki, halalı olsun…

***

Gecə ay doğmuşdu. Çopur ulduzlar sayrışırdı. Arifin otağında gecə lampası yanırdı. Həmişəki kimi yenə kitab oxuyurdu. Hərdən də pəncərədən Mananagilin evlərinə tərəf baxırdı. Orda da otaqlardan birinin işığı yanırdı. Elə səbirsizliklə gözləyirdi yolunu. “Qonağın olacam” demişdi.

Astadan qapı açıldı. O, içəri keçdi. Arifin çarpayıda uzanıb kitab oxuduğunu görüb pıçıltı ilə yaxınlaşdı:

-Mən söz vermişdim, gəldim?

-Xoş gəldin. Yolunu gözləyirdim. Darıxdığımdan kitab oxumaqla vaxtı ötürdüm, - deyib çarpayıdan qalxaraq qadına tərəf addım atdı.

İkisi də üz-üzə dayanıb bir-birinə heyrətlə baxırdılar. İkisinin də gözlərində şəhvani hisslər parlayırdı. Sanki ilk dəfə idi bir-birini görürdülər. Ağıllarından nələr keçirdi, bir özləri bilirdi.

-Yaxşı ki, samovar qaynatmaq söhbəti ortaya çıxdı, - deyən Arif onun əlindən tutdu.

-Samavar görüşməyimizə körpü rolunu oynadı, - deyib Manana ona sığındı. - Səhərdən masaj etdirmək üçün səni düşünürdüm. Sən bura gələn gündən gözlərimlə səni yeyirdim. Hətta gecələr yatağımda yastığı iki ayağımın arasına qoyub sıxanda elə bilirdim sən məni…

-Necə? – Arif ehtirasla dilləndi.

-Bayaq musqullu qollarını görəndə o qollar arasında can vermək könlümdən keçdi, özü də erotik hala uyğun olaraq…

Arif gürcü gözəlinin tül gecə köynəyində indi görürmüş kimi gözləri az qaldı hədəqəsindən çıxsın. Döşlərinin gilənər boyda olan giləları, göbəyinin fındıq boyda yaratdığı çala onu çağırırdı.

Manana da hiss edirdi ki, ovçusu kamanı dartıb oxu buraxmaq halındadır. Aralarındakı məsafəyə burunları sərhəd çəksə də indi o sərhəd də pozulmuşdu. Birdən Manana yaralı kəklik kimi Arifin üstünə atılıb:

-Öp məni, qucaqla, nəfəsimi kəs, sənin olmaq istəyirəm, - inildəyib Arifin boyun-boğazını atəşə qərq etdi. – Ruhunla, bədəninlə, nəfəsinlə mənimsən…

Və…

***

Onların səbirsizliklə gözlədikləri gün gəlib çatdı. Eyni gündə ikisinə də hərbi komissarlıqdan məktub gəldiyini xəbər verdilər. Sevinirdilər.

İşdən ərizə yazıb çıxdılar. Ordan qaldıqları evə gəlib kirayə haqqını ödəyib xırda-para əşyalarını, paltarlarını yığıb evlərinə getməyə hazırlaşdılar.

Bu şəhərdən nigaran gedəcəklər. Yəni gözləri arxada qalacaq. Mananənın onların hər biri ilə gizli sevişmələrinin dadı-tamı dodaqlarında qalmışdı.

Səmədin xəbəri olmadan Arif fürsət tapıb gizli olaraq Manana ilə görüşüb, ikisi də bir-birinə sarılıb göz yaşı axıtmışlar. Əhd-peyman bağlamışdılar. Manana Arifə evlərinin ünvanını yazıb vermişdi ki, əsgərlik yerinə çatan kimi məktub yazsın. Arif Mananəni bağrına basıb dodaqlarından öpüb:

-Səni sevirəm. İki illik əsgərliyimi gözlə. Qayıdıb gələn kimi evlənəcəyik, – demişdi.

Manana Arifdən bu tezliklə evlilik xəbəri gözləmirdi. Sevincindən bir daha Arifi öpüb, sonra isə köks ötürdü:

-Allahdan gizli deyil, səndən niyə gizli olsun. İndi ki, evlənmək məsələsi ortaya çıxdı, agah ol ki, mən ailəli olmuşam, özü də bir qız anası…

-Sevdiyim qadının övladı elə mənim də övladım sayılır. Təxmini bilirdim. Bəs o qız necə oldu? – Arif soruşdu.

-Bu çox uzun söhbətdir. Sənin isə vaxtın qısadır. Get əsgərliyini çək, sağ-salamat qayıt. Əsgərlikdən sonra arxayın söhbət edərik. Bəlkə onun axtarışına yenidən başladıq.

Mövzu ilə bağlı söhbətə burada nöqtə qoydular.

…Eyni gündə dostlar hərbi xidmətə getdilər. Yolda onları bir-birindən ayırdılar. Hərəsi Rusyanın bir tərəfində; Arif uzaq şərqin Xabarovski vilayətində, Səməd isə Moskvaətrafı rayonların birində əsgərliklərini keçdilər.

Arif əsgərliyinin ilk günündən Mananaya məktub yazdı. Manana da ona cavab məktubları yazırdı. Məktublarının birində Manana hamilə qaldığını yazır. Arif əvvəlcə təəccüb etsə də sonradan çox sevincək olur ki, ata olacaq. Oğan hətta bu xəbəri məktub vasitəsilə valideynlərinə bildirir. Valideynlər elçisiz, nişan taxdısız, toysuz olan bu evlənməyə giley-giley dolu məktublar yazsalar da sonradan övladlarının xətrinə Gürcüstana, Mananagilə gəlirlər.

Manana doqquz aylıq hamiləliyini başa vurub oğul övladı dünyaya gətirir.

Arifin valdeynləri gəlini, nəvəni gətirirlər evlərinə. Arif əsgərliyini başa vurub evlərinə dönəndə Sərxan artıq yaş yarımlıq idi.

***

Gecədən xeyli keçmişdi. Sərxan falçı xanımın danışdığı bu uzun hekayətə qulaq asdıqca doymamazlıq halı yaşayırdı. Onun danışdıqlarının hər bir cümləsində, sözündə, nöqtə-vergülündə bu günə kimi Sərxana sirr olan hadisələr gen qapısını açırdı. Çünki o hadisələrin içində Sərxanın həyatı boy atırdı. Onun da falçı olan bacısına deyiləsi çox sözü olsa da susurdu. Xanım danışdıqlarını başa çatdırıb Sərxana baxdı ki, bəlkə sualı ola. Onda artıq dözə bilməyib dilləndi:

-Bir vaxtlar qonşunun oğlu atamın Arif yox, dayısı Səməd olduğunu deyib lağ edirdi mənə. Mən də onunla dava edirdim. İndi sənin dediklərinə diqqətlə qulaq asıb gördüm ki, o düz deyirmiş.

-Nə bilim, - deyən Şəhrizad çiyinlərini çəkdi, - mən bura qədər danışa bildim. Qalanını da özün bilirsən. Qaldı atanın kim olduğuna, onu da anamız bilirdi. Təəssüf ki, indi ona nə əlimiz, nə də ünümüz yetir. Övladları kimi ruhuna fatiə oxuya

bilərik.

-Hə, elədir, - deyib Sərxan sual dolu baxışlarla falçı bacısını süzdü, - Bəs Mananın iki yaşlı qızı necə oldu? Səhərdən o uşağın taleyi düşündürür məni. Özü də hardasa məndən dörd yaş böyük imiş. O mənim ögey bacım sayılır.

-Bayaq dedim axı, o qız mənəm, - sonra qayğıkeşliklə qardaşına baxıb gülümsündü, - Yuxun gəlmirsə, danışım…

-Söhbətin o qədər maraqlıdır ki, yuxumu bayaqdan qaçırmısan, - deyib Sərxan dərindən köks ötürdü, - Danış, xahiş edirəm. Səni kimlər oğurlamışdı, məqsədləri nə imiş?.. Niyə anamız sənin haqda mənə heç nə deməmişdi?..

-Həmin gün baş verən hadisə bittə-bittə yaddaşıma həkk olunub. Baxmayaraq iki yaş yarımın içində olmuşam. Hələ düz-əməlli danışa bilmirdim. Anam məni həyətdəki tut ağacının yoğun budağında qurulmuş yelləncəkdə yellətdikdən sonra oyuncaqlarımı qabağıma töküb özü yuduğu paltarları asmağa getdi. Anam paltar asdıqca hərdən də mən tərəfə baxırdı. Birdən həyət qapısı açıldı. Bir cavan qadın həyət-bacaya göz gəzdirib anamı görcək, ağacın arxasına keçib ona tərəf baxdı. Anamsa başı qarışıq olduğundan deyəsən məni yaddan çıxarmışdı. Həmin qadın sakitcə yanıma gəldi. Sevincək üzümdən öpüb, cibindən barbaris konfeti çıxarıb kağızını soyub ağzıma qoydu. Bir də anama tərəf baxıb məni qucağına aldı:

-Babanla nənən məni göndərdi ki, get nəvəmizi gətir, çayda çimsin, - sözünü bitirər-bitirməz həyət darvazasından çıxdıq.

Bilirdim ki, babamla, nənəm səhərdən harasa gediblər. Qadın onların Kürdə çimdiklərini deyəndə sevindim. Axı neçə gün öncə anam, babam, nənəm ora getmişdik. İndi də bunun belə deməsi sevincək etmişdi məni. Dinib-danışmadan yol kənarında dayanmış qara maşına oturduq. Qadın təngənəfəs halda sürücüyə:

-Tez ol, sür, tez ol, təcili buradan uzaqlaşmalıyıq… - dedi.

Maşın yerindən tərpəndi. O, çevrilib arxa şüşədən harasa baxdı. Maşın sürətlə şəhərin küçələrini adlayıb şəhərdən kənara çıxdı. Asfalt yoldan çıxıb torpaq yola düşdü. Torpaq yolla da bir xeyli gedib meşəyə girdi.

Maşın meşənin dərinliklərinə kimi gedib bir yaşıl talaya çatıb dayandı. Sürücü qadınla məni düşürdükdən sonra maşın talanı dövrə vurub gəldiyimiz yolla geri qayıtdı. Buradan çay-zad axmırdı. Talanın müxtəlif yerlərində çadırlar qurulmuş, hər çadırın yanında üstü örtülü at arabası və xeyli sayda adam vardı. Bir nəfər kişi gitarada mahnı çalıb oxuyurdu. Qadınlar, kişilər də deyib, gülür, rəqs edirdilər. Onlar anlamadığım dildə danışırdılar. Maraqla onlara baxırdım.

Qadın məni qıraqdakı qapısı qırmızı qotazlarla bəzədilmiş çadıra gətirdi. Çadırın içərisi xalı – xalçalarla bəzədilmişdi. Yerdən yarım metr hündürlüyü olan taxtın üstündə bu qadın yaşda olan başqa bir qadın oturmuşdu. O bizə fikir vermədən başını aşağı salıb əlindəki uzun, yaşıl rəngli təsbehi çevirdikcə dodaqaltı nəsə zümzümə edirdi. Məlahətli səsi çadırın içində olan başqa qadınları da məftun etmişdi.

Qadın qolumdan tutub onun oturduğu taxta kimi gətirdi. Təsbehli gəlin məni qucaqlayıb öpdü və məni gətirən qadınla öz dillərində bir xeyli danışdılar.

Bir anın içində bu yer mənə darıxdırıcı gəldi, tez buradan uzaqlaşmaq istədim. Bir də fikirləşdim ki, bu təsbehli qadın məni niyə öpsün ki? Onların başı söhbətə qarışdığından mən yavaş-yavaş geri addımladım ki, onların gözlərindən yayınıb, qaçım. Məni gətirən qadın gördü ki, geriyə çəkilmişəm, məndən şübhələndi. Mənsə “anamı istəyirəm, anamı” – deyib çadırdan çıxmaq istəyəndə qadın üstümə elə qışqırdı ki, az qaldı qorxudan bağrım çatlaya. Qəzəbini bununla soyuda bilməyib üzümə elə bir sərt şillə vurdu ki, gözlərimdən qığılcımlar çıxdı.

Təsbehli qadın onu acıladı. Sonra nə dedisə, məni gətirən qadın tez çadırdan çıxdı. O, ayağa durub yanıma gəldi. Mən danışdığım dildə:

-Anan bir azdan bura gələcək, ağlama cocuğum, - deyib başım sığalladı.

Gözlərimi ovuşdura-ovuşdura ağladıqca da arada:

-Tez gəlsin, tez… Məni evimizə aparsın. Söz verirəm, bir də həyətdə tək oynamayacağam, - deyirdim.

O, mənə çoxlu şirniyyatlar, oyuncaqlar verdi. Konfetləri donumun ciblərinə, oyuncaqları da

qucağıma yığmışdım. Hələ indiyə kimi belə yaraşıqlı oyuncaqlarım olmamışdı. Mən sakitləşəndən sonra qolumdan tutub çadırdan çıxarıb xeyli uşaq toplanmış uşaqların yanına gətirdi. Uşaqlar məni tanıyırmışlar kimi tez dövrəyə alıb, hərəsi bir tərəfdən:

-Konfetindən birini ver, - deyib hərəsi bir yandan cibimə əllərini uzatdılar.

Mənsə əllərini geri itələyib qoymurdum əllərini ciblərimə soxsunlar. Gördüm ki, əl çəkmirlər hərəsinə bir konfet verməyə başladım və bir də gördüm ki, konfetlər qurtarıb, onlardansa hələ də konfet vermədiklərim var. Çevrilib key-key təsbehli qadına baxdım. O isə gülümsəyirdi…

Hardansa gitara çalan kişi də gəldi. İri bir ağacın kötüyünün üstündə oturub gitarasını dilləndirdi. Tez çadırlarda yaşayanlar, biz uşaqlar onu dövrəyə aldıq.

Uşaqlar qaraçı rəqsi oynamağa başladılar, tək məndən başqa. Təsbehli qadın mənim də oynamağımı israr edirdi. Gördü ki, rəqs etmək həvəsim yoxdu:

-Oynamasan, qoymayacağam anan səni gəlib aparsın, - deyib qorxudurdu məni.

-Oynasam, demək anam gəlib aparacaq hə?..

-Hə, oynasan, sözüm sözdü…

Təsbehli qadının sözlərinə inanıb qol açıb oynamağa başladım. Ha istədim onlar kimi oynayam, alınmırdı ki, alınmırdı.

…Artıq neçə vaxt vardı qaraçıların arasında yaşayırdım. Təsbehli qadın yaşayan çadırda mənim üçün də yataq yeri hazırlamışdılar. Gündüzlər uşaqlarla oynasam da, gecələr anam üçün darıxdığımdan yorğanı başıma çəkib xısın-xısın ağlayırdım. Təsbehli qadın mənim ağladığımı eşitsə də bir söz demirdi.

Qaraçı dilini çox tez öyrənsəm də, qaraçı uşaqlara qaynayıb-qarışsam da anam yadıma düşəndə darıxırdım.

Bir dəfə isə qərara gəldim ki, hamı yatandan sonra qaçam. Amma qaraçı uşaqların öz aralarında etdikləri söhbət məni fikrimdən daşındırdı. Uşaqlar deyirdilər meşədə ayılar var, yem üçün gecələr dağdakı mağaralarından enib meşəyə girirlər. Meşədə yaşayış məskənlərinə yaxın yerlərdə pusqu qurub uşaqlar görəndə oğurlayıb mağaralarına aparırlar. Orada işgəncə verə-verə yeyirlər. Ayı söhbəti çıxandan sonra qaçmaq fikrindən daşındım…

Anamın yolunu hər gün gözləsəm də o gəlmədi.

Qaraçıların həyat tərzinə uyğunlaşmışdım…

Yay fəsli başa çatmış, qızılı payız fəsli başlamışdı. Havalar soyuyub, yağışlar başladığını görən qaraçılar meşədən köçüb getmək vədəsinin yetişdiyini deyirdilər. Demək məni də özləri ilə aparacaqlar…

Həqiqətən həmin gün gəlib yetişdi. Qaraçı köçü çadırların söküb, at arabalarına yüklədi…

Səhər erkəndən günəş meşənin üstünə hələ qalxmamışdı ki, qaraçı köçü yola düşdü. Təsbehli gəlin məni dizinin yanında oturdub hansısa qaraçı mahnısını zümzümə etdikcə mən də ağzımı açıb ona baxırdım…

Bir neçə gün yol getdik. Qəsəbələri rayon mərkəzlərinə, rayon mərkəzlərini də şəhərlərə çevirib, dərə aşıb çay aşırdıq, gəlib çıxdıq bağlı-bağatlı bir kəndin qırağına.

Təsbehli gəlin arabadan yerə ayağını qoyan kimi sevinclə üzünü mənə tutub:

-Burada doğulmuşam. Ona görə də haraya getsəm də bu yerlərin daşı, torpağı məni özünə çəkir. Vətən deyilən eşq budur. Yoxsa bizim qaraçılar vətən deyə-deyə tərki-dünya olub bütün dünyanı ömürləri boyu axtarırlar. Vətənsizlik naləsi ilə də dünyadan köç edirlər.

Böyüyüb bu dünyanı dərk edəndə bildim ki, o kənd Azərbaycanın Ağdaş rayonunun Sığanlar kəndidir.

***

Falçı gəlin söhbəti yarımçıq kəsib:

-Susuzluqdan dilim-ağzım qurudu. – deyib sağ əlini yerə söykək verib ayağa durdu.

Qaz quşu kimi yanlarını basa-basa mətbəxə keçdi Bir azdan ikimiz üçün fincanlarda çay gətirib birini özünün, birini də mənim qarşıma qoyub söhbətinə davam etdi:

-Yəqin ki, mənim danışdıqlarıma bəzi insanlar dodaq büzüb deyər ki, beş yaşlı, üç yaşlı uşağın ağlı elə şeyləri yadında saxlamaz. Mən də olsaydım elə düşünərdim. Amma orada görüb, yaşadıqlarım yaddaşıma elə həkk olunub ki, bu gün də orada baş verənlərin hamısını bittə-bittə danışaram.

-Hə, elə mən də onu soruşacaqdım. Üç yaşlı uşaq nə qanır ki, hələ bir ətrafında baş verən hadisələri də yadında saxlaya bilsin. Sənin dediklərindən belə qənaətə gəldim ki, ya sənin beynin vaxtından tez inkişaf edib, ya da bu allah vergisidir.

-Düz deyirsən. Mənim beynim yer kurəsində yaşayan bütün insanların yaddaş kartıdır. İstənilən insan, istədiyi vaxt həyatında baş vermiş hər hansı hadisəni məndən soruşa bilər. Mən allahın seçilmişiyəm. Sadəcə olaraq adamlar adıma falçı deyirlər. Onu bilmirlər ki, mən dünyanın neçə yerində baş verəcək müharibələrin qarşısını almışam.

-Deməк gələcəyi də oxuya bilirsən? – Sərxan maraqla soruşdu.

-Mən kainatın elə yerindən bura göndərilmişəm ki, bizlə birgə yaşayan varlıqları tək mən görə bilirəm.

-Yəni, deyirsən onlar bizim aramızda yaşayırlar? – Sərxan növbəti təəccübünü bildirdi.

-Bu dünyanın nizam-tərəzisi çoxdan pozulub. Biz bura gəlmişik onu qaydaya salaq. Onu da bilin ki, bu dünyanı məhv etmək istəyən o qədər varlıqlar var ki? Planetlər var ki, bizim planeti söndürmək üçün milyard ildi davadadı.

-O hansı planetdi? Bəlkə sən də onların nümayəndələrindənsən?

-Bütün yaradılmışlar idarə olunur bir mərkəzdən. Siz onun adına allah, slavyanlar boq, bir başqası nə, nə deyir. Sənin, mənim ətrafımızda olanları biz görmürük. Yer kurəsində elə yaradılmışlar var ki, onlar bir anın içində başqa planetə gedib gələ bilirlər. Zamansızdırlar.

Falçı gəlinin dediklərini artıq Sərxanın beyni qəbul etmək iqtidarında deyildi. Ona görə də:

-Bu gecə çox uzun çəkdi. Mən isə sabah işə gedəcəyəm, - deyib canını qurtarmış kimi oldu.

-Yanımda olmaqdan narahat olma. Heç bir yorğunluq, yuxusuzluq səni narahat edə bilməz. Mütamətdi olaraq sənə enerjimi ötürürəm.

***

Növbəti gecə yenə onun yanına getdim. Tilsimlənmiş kimi onun otağı məni yanına çəkib gətirmişdi. Falçı gəlin dünənki ömür hekayətinin davamını danışmağa başladı:

-Ağdaşa gələndən sonra təsbehli gəlin məni özü ilə dədə-baba evinə gətirdi. Dedi bu yerin adamlarına qaynayıb-qarışsaq da, ölkə qanunlarına tabe olsaq da hələ də bizə qaraçı deyirlər.

-Mən də qaraçı sayılırammı? Mən sənin nəyinəm? - dedim təsbehli gəlinə.

-Səni anandan oğurlayıb gətirənə kimi o hər gecə yuxuma gəlib deyirdi ki, mələksimanı xilas et. Hazırda sən mənim rəsmi olaraq övladımsan.

-O dediyin şəxs kimdir ki, sənə göstərişlər verir? – dedim analığıma.

-Qaraçılar padşahının yanındakı baş kahin yuxu ilə əmrlər, göstərişlər verir. Biz qaraçılar bütün əmrləri, tapşırıqları yerinə yetirmək zorundayıq. Hələlik yer kurəsində bizim dövlətimiz, ərazimiz yoxdur. Dünya öz nizamına düşəndə xalq olaraq dünyanın başbilənlərindən dövlətimizin qurulmasını tələb edəcəyik.

-Demək nə vaxtsa qaraçı dövləti olub ki, hələ də onun rəmzi padşahını seçirsiniz

-Bəli, bizim böyük dövlətimiz olub. Dövlətçilik ənənəmizi yaşatmaq üçün qaraçı padşahımız da var.

-Deyirlər qaraçılar həm də ruh adamlarıdır, - Sərxan falçı gəlinə sual verdi.

-Dünyada insanların hələ bilmədiyi qaraçı elmi olub. Qaraçı elmi insana, insanlığa xidmət edirmiş. Göy cisimləri ilə yer kurəsinin idarə olunması elmi qaraçı elmi ilə bağlıdır. Qaraçı elmi deyir ki, insan açılmamış sirdir. Onun hər əzası, hər bir cizgisi onun yaşam tərzini, sağlamlığını, keçəcəyi ömrü izhar edir. Min illər öncə yer kurəsində olmuş qaraçı dövlətini başqa planetdən gəlmiş gözəgörünməzlər ordusu məhv edib. Ona görə indi dünyanın hər yerinə səpələnmiş, sərgərdan həyat yaşayırlar.

-Bəs səni övladlığa götürən qaraçı qadın yaşayırmı?

-Əlbəttə, Zita anadır də...

-Başa düşmədim?

-Burada qaraçı dəstəsinin başçısı olan qadını deyirəm.

-Bildim, bildim, - deyib Sərxan gülümsədi.

-O, mənə analıq etməklə bərabər, həm də mənim xilaskarımdır. Bu gün həyatda yaşayıramsa, ona borcluyam.

-Necə?

***(ardı var)***



ŞƏRQİYYƏ BALACANLI

**SEVİMLİ RƏHBƏR**
***Ali Baş Komandan İlham Əliyevə***

Sən də hamı kimi anadan oldun,
Böyüdün gül açan arzular ilə.
İllər ötüşdükcə sən yaşa doldun,
Yetişdin kamala, ali təhsilə.

Aldın ailədən həyat dərsini,
Müəllmin oldu atan, həm anan.
Sevmədin həyatın, yolun tərsini,
Qəlbin halallıqla döyündü hər an.

Vətən sevgisiylə çəkildin başa,
Oldun Baş Komandan, sevimli rəhbər.
Məğrursan, məşhursan, var ol, yüz yaşa,
Sən qalib sərkərdə, sən ər oğlu ər.

Sənin hünərindən dünya söz açır,
Diqqəti səndədir bu gün dünyanın.
Adın günəş kimi yurda nur saçır,
Sərkərdə oğlusan Azərbaycanın!

**Hamı əzizimdir**

Şeirlər yazmağım söz olur hərdən,
Razı qalan da var, narazılar da.
Heç nə çıxmasa da bu şeirlərdən,
Sevgi var, həyat var yazdıqlarımda.

Bir şeir söz açır balalarımdan,
Bir şeir süfrəmin halal neməti.
Bir şeir xəbərdir namus arımdan,
Bir şeir vəsf edir saf məhəbbəti.

Yerimi, yurdumu tərif edirəm,
Hərdən dilə gəlir giley-güzarım.
Bir adi yolçuyam, yoldu – gedirəm,
Əlim boş, qəlbimdir dövlətim, varım.

İşim pisləməkdir pisləri daim,
Yaxşılar var olsun, onlarla varam.
Vətən çiçəklənsin, budur istəyim,
Ürək yaz deməsə, heç nə yazmaram.

Ürəkdən sevirəm əzizlərimi,
Vətəni sevənlər dostum, qardaşım.
Narahat etmirəm eldə heç kimi,
Hamı əzizimdir, hamı sirdaşım.

**Mənim İbrahim balam**

Adın peyğəmbər adı, çatmısan boya-başa,
Gücün Koroğlu gücü, yağı dözməz önündə.
Mənim İbrahim balam, bəxtinlə yol get qoşa,
Dəstənin önündə ol, Vətənin dar günündə.

Sən qalib davamçısı, Poladın, Mübarizin,
Əlində şanlı bayraq, getməlisən qabağa.
Düşmən sənin önündə sürünər dizin-dizin,
Baba yurdumdur deməz bir daha Qarabağa.

Ay gözümün işığı, ay ürəyim, ay canım,
Boyuna qurban nənən, çalış gül açsın işin.
Fəxr eləsin səninlə, elim, Azərbaycanım,
Örnək, nümunə olsun gələcəyin, keçmişin.

**Təvazökar adam**

Sən məni çatdırdın çox arzulara,
Yoluma nur saçdı xeyirxahlığın.
Əlinlə qol çəkdim çox uğurlara,
Təriflər eşitdim hey yığın-yığın.

Gözünlə baxıram gələn sabaha,
Uğura aparır göstərdiyin yol.
Səninçün qiymətli, çox şeydən baha,
Ürəkdən deyilən adi "Çoxsağol".

Təvazökar adam, gözütox adam,
Tanrı hifz eləsin, yaxşı ki varsan.
Sənin varlığınla rahatam, şadam,
Təmiz, saf adınla sən bəxtiyarsan.

**Bilmirəm**

Qeyrət enən yerdə ucaldı ayaq,
Mən bu acı dərdə dözə bilmirəm.
Vətənin daşına heyifim gəlir,
Namussuz başını əzə bilmirəm.

Bu gün eləsi var girir min dona,
Gəlmir öhdəsindən ata, ya ana.
Biri canan bilir, o biri sona,
Nədən atır özün közə, bilmirəm?

Daha seçmək olmur qızı, qarını,
Bilmirsən kim dərdi kimin barını.
Hətta eləsi var namus, arını,
Mən necə gətirim sözə, bilmirəm.

Ağlayır, inləyir könlümün simi,
Şərqiyyə, günahkar tutum mən kimi?
Ürəyə sığmayan sonsuz dərdimi
Mən necə ərz edim sizə, bilmirəm.

**Zəfər qazanan şəhidlərə**

Həsrət köynəyimiz Vətən bayrağı,
Geyinib üz tutaq biz Qarabağa.
Bu yurdu, torpağı çox sevdik deyə,
Təmiz arzularla büküldük ağa.

Tapdaqda qalmadı Şuşa şəhəri,
Onu geri aldıq qan bahasına.
Gətirdik qəlblərə şanlı zəfəri,
Xalq bir də güvəndi öz dühasına.

Can verdik, ölmədik, biz şəhid olduq,
Əbədi ölməzlik nə gözəl addır.
Əbədi eşq olub qəlblərə dolduq,
İndi ruhumuztək torpaq azaddır.

**Dünyanın**

Nədənsə dünyadan hamı gileyli,
Bu qədər ağırmı daşı dünyanın?
Mənim yaşım əlli, səninki altmış,
Kim bilir neçədir yaşı dünyanın?

Tanrı necə qurub gör bu qurğunu,
Mən həyat aşiqi, düzlük vurğunu.
Ovuda bilməyir məntək yorğunu,
Gör nəyə qarışıb başı dünyanın?

Yol gedirəm əlli ildi yar ilə,
Şərqiyyəyəm, canım əkiz ar ilə.
Bəxtiyaram sevgi adlı var ilə,
Süfrəmdə çörəyi, aşı dünyanın.

**Tələbəlik illəri**

Ötən əsrin yetmişinci illəri –
Unudulmur, tələbəydim onda mən.
Bakı yeli öpür qara telləri,
Bəxtəvərdim güllü, sətin donda mən.

İndikindən geniş idi küçələr,
Ali duyğuları sayırdıq sərvət.
İmtahana hazırlaşıb gecələr,
Fərəhdən uçardım, alanda qiymət.

Universitet, müəllimlər, dost-tanış,
Yada düşür, kövrəlirəm arada.
Əlli ildir ötür bahar, gəlir qış,
O xoş günlər ötdü, qaldı harada?

Ömrün kövrək illəriymiş o illər,
Qazanmışdıq neçə uğur, qələbə.
Xatirəylə dil açanda könüllər,
Sanki yenə tələbəyəm, tələbə.

**Vətən**

Bizimçün hər zaman səcdəgah olub,
Sevimli, müqəddəs torpağın, Vətən!
Şükür, ildən-ilə artıq nur saçır,
Düşməni kor edən çırağın, Vətən!

Oğlun da, qızın da igid, hünərvər,
Hər bir vətəndaşın ayıq bir əsgər.
Ali Baş Komandan – qüdrətli rəhbər,
Onunla gülməkdə növrağın, Vətən!

Kükrəyib coşmaqda çayın, dənizin,
Həzi vüqarlıdır mərd Mübarizin.
Yamanca qatladın düşmənin dizin,
Gəlir dost ellərdən sorağın, Vətən!

Gülür, çiçəklənir yamacın, dağın,
Ağ günün görürük biz Qarabağın.
Şərqiyyə gəl deyib açır qucağın,
Əlində üçrəngli bayrağın, Vətən!

**Sərkərdə oldun**

Atan – od, anan – su, özün – ildırım,
Nur saçdın Vətənin səmalarında.
Sən böyük xilaskar, budur şüarım,
Yer aldın qəlblərin dualarında.

Üzü gülüş gördü qaçqın köçkünün,
Sığmadı tərifə, dillərə adın.
Yalaq ağızları yerinfə hər gün
Kəsərli sözlərlə cırdın, qapadın.

Matdır idrakına dünyada hamı,
Sülhə tərəfdarsan, döyüşdə mətin.
Nə qədər şirinmiş Qələbə tamı,
Bunu çətin dadsın düşmənlər, çətin.

Azad nəfəs alır indi Qarabağ,
Məqsəd Zəngəzura, Göyçəyə yetmək.
Əlimizdə şanlı, üçrəngli bayraq.
Dərbəndi, Təbrizi ziyarət edək.

Sən sərkərdə oldun, biz əsgərlərin,
Əmrinlə gedirik ancaq irəli.
Sərkərdə hünərin, düşüncən dərin,
Daim çiynimizdə ədalət əli.

Ali Baş Komandan, sərkərdə oldun,
Bir yerdə gedirik nurlu sabaha.
Daim qalib olsun müzəffər ordun,
Səni tapşırırıq qadir Allaha!

**Nəvələrimə**

Babam Sabirdən dərs aldım,
Sevdim insanı pir kimi.
Daim bir sifətdə oldum,
Qəzəbdə, gücdə şir kimi.

Şəhidləri mən böyütdüm,
Mənim balamdı qazilər.
Düşmənləri odda ütdüm,
Təmizləndi ərazilər.

Savad aldı balalarım,
Cəhalətdən oldu uzaq.
Şair oldu dostum, yarım,
Qalib oldu oğul-uşaq.

Azərbaycan bizə ana,
Anasını sevər övlad.
Yağı gəlsə batar qana,
Vətənimdə yer, göy azad.

Şərqiyyənin məqsədi bir,
Eldə qalsın sözü, adı.
Özü qədər elin sevir,
Qəlbi geniş bir dünyadı.

**Məhəbbətim**

Çağladıqca heç doymadım,
Döndü selə məhəbbətim.
Dara düşməyə qoymadım,
Taydı gülə məhəbbətim.

Saldım Haqqa, düzə meyli,
Olmadım əsir, tüfeyli.
Nə o Məcnun, nə mən Leyli,
Başdan belə məhəbbətim.

Bəxt yeridi önümüzə,
Quşlar susdu ünümüzə.
Min şükür bu günümüzə,
Gülür hələ məhəbbətim.

Hamı kama yetə bilməz,
Gün ağrısız ötə bilməz.
Hər ürəkdə bitə bilməz,
Düşməz ələ məhəbbətim.

Şərqiyyəyəm, taleyim ağ,
Gecə boyu eşqim çıraq.
Xoşdur, yetsə məndən qabaq,
Xalqa, elə məhəbbətim.

**Qələbə sevinci**

Otuz il həsrət çəkib,
Daddıq Qələbə dadın.
Gül balalar and içib,
Daşlara yazdı adın.

İndi Şuşa mənimdir,
Burda rahat gəzirəm.
Qarabağ vətənimdir,
Güllərini üzürəm.

Göyçə o yandan baxır,
Deyir: Oğullar, gəlin!
Təbrizdə şimşək çaxır,
Dərbənd uzadır əlin.

Nə qədər dərdi varmış,
Anam Azərbaycanın.
Haqq özü haqqa yarmış,
Sözü var İrəvanın.

Kəlbəcərim, Ağdamım
İndi öz əlimdədir.
Səhərlərim, axşamım,
Düzgün əməlimdədir.

Düşmən itirib başın,
Əl atmaqda hiyləyə.
Görüb türkün savaşın,
Dönüb qorxaq gədəyə.

Qələbə sevincini
Yaşamaqda el-oba.
Dostlar almır dincini,
Deyir bizə: Mərhəba!

Sərkərdəmi, ordumu
Vəsf edirəm sözümdə.
Bir övladtək yurdumu
Qoruyuram ozüm də.

Yaşasın qalib ordum,
Yaşasın Azərbaycan!
İçimdə bir taxt qurdum,
Sahibi şaddır hər an!

**Azərbaycan şəhidləri**

Ana qədri bilən oldu,
Son nəfəsdə gülən oldu,
Düşmən qəlbin dələn oldu
Azərbaycan şəhidləri!

Hərəsi ölməz can kimi,
Can verdilər qurban kimi.
Döyüşlərdə aslan kimi,
Azərbaycan şəhidləri!

Qarabağı nur etdilər,
Adların məşhur etdilər.
Milləti məğrur etdilər,
Azərbaycan şəhidləri!

Laçın, Şuşa qalasıdır
Daim uca olasıdır.
Şərqiyyənin balasıdır
Azərbaycan şəhidləri!





**RUQİYƏ İSMAİLOVA**

**Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu Ekskursiyaçı**

# AZƏRBAYCAN GƏNCLİYİNİN XİLASKARI

***Açar sözlər:*** *Xilaskar, Ulu Öndər, gənclik, Gənclər günü*

"Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir" deyən Ulu öndər Heydər Əliyevin dövlətçiliyimizin daha da möhkəmləndirilməsi və gənclərin aparıcı qüvvəyə çevrilməsində əvəzsiz xidmətləri olmuşdur. Gənclər millətin gələcəyinin, inkişafının mühüm qüvvəsi hesab olunmaqla yanaşı həm də ölkənin mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında əsaslı rol oynayır.

Ümummilli liderin hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq ölkəmizdə gənclər siyasəti ilə bağlı bir çox fərman və sərəncamlar imzalamış, gənclərin milli vətənpərvər ruhda tərbiyəsinə həssas dərəcədə əhəmiyyət vermiş, istedadlı gənclərə xüsusi diqqət və qayğı ilə yanaşmışdır. Onun təşəbbüsü ilə ölkədə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gəncin ali məktəblərdə təhsil almalarına şərait yaradılmışdır. Bununla yanaşı gənclərin müasir ixtisaslara yiyələnmələrində rolunu olduqca böyük hesab etmək olar. Bu dəyərlər gənclərin enerji və imkanlarınımilli maraqlarımızın müdafiəsinə və onların vətənpərvər ruhda formalaşmasına zəmin yaratdı. Bu məqsədlə gənc kadrların hazırlanması və təşkilatlanması üçün Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradılmışdır.



***Heydər Əliyevin gənc idmançılarla görüşü***

2 fevral 1996-cı il tarixində keçirilən Azərbaycan gənclərinə həsr olunmuş I forumda ölkə rəhbəri Heydər Əliyev şəxsən iştirak etmiş və demişdir; "Bütün bunların hamısı o vaxtlar Azər-

baycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm”.

Daha sonra 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si “Azərbaycan Gəncləri Günü” elan edilmişdir.

1999-cu ildə Azərbaycan gənclərinə həsr olunmuş II formda imzalanmış “Dövlət gənclər siyasəti haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Gənc istedadlar üçün təqaüdlərin təsis edilməsi haqqında” fərmanlar, sərəncamlar, eyni zamanda, qəbul edilmiş “Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında”, “Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında”, “İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı”, “Gənclər siyasəti haqqında” proqramlar və.s qanunlar Azərbaycan



***Azərbaycan Gənclərinin II Formu***
***(2 mart 1999)***

gəncliyinin inkişafı yolunda çox mühüm faktora çevrildi.

Hər ildə keçirilən bu əlamətdar gün Azərbaycanda gənc istedadlara dövlət qayğısı, dövlət gənclər siyasəti sahəsində çoxsaylı fərman və qanunlar verilməklə gənclərin dövlət idarəetməsində iştirakı təmin edildi, həm də gənclərə dövlətin diqqətini hiss etdirdi.Gənclərə dəstək siyasətinin davamı olaraq 2002-ci il aprelin 9-da “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu qanunda gənclər siyasətinin məqsəd və prinsipləri, dövlətin vəzifələri, bu siyasətin əsas istiqamətləri, maddi və maliyyə təminatı və digər məsələlər konkret öz əksini tapıb. Bu istiqamətdə aparılan məqsədyönlü işlər nəticəsində dövlət-gənclər siyasətinin normativ hüquqi bazası formalaşdı. Ümummilli Liderin müəyyənləşdirdiyi dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi gənclərin qarşısında duran problemlərin həllinə münasibətin köklü surətdə dəyişməsinə imkan yaratdı və onları vahid azərbaycançılıq ideologiyası ətrafında daha da sıx birləşdirdi.

Heydər Əliyevin qurduğu siyasət nəticəsində Gənclərin Məşğulluğu və Sahibkarlığı yolunda müxtəlif addımlar atılmışdır ki, bu da onların özlərinə inamını artırmaq və ölkənin iqtisadi inkişafına töhfə vermək üçün görülən işlərdən biridir.

Ölkəmizin dövlət quruculuğu prosesində gənclik enerjisinə ehtiyac duyulduğunu düzgün qiymətləndirən müstəqilliyimizin böyük xilaskarı müxtəlif illərdə gənclər siyasətinin ayrı-ayrı istiqamətlərini dəqiq müəyyənləşdirmişdir.

Azərbaycançılıq ideologiyasının mühüm istiqamətlərindən biri də gənclərin vətənə sədaqət ruhunda tərbiyə edilməsidir. Məhz dahi şəxsiyyətin fəaliyyəti nəticəsində Azərbaycan gəncliyi öz layiq olduğu səviyyəyə yüksələ bilmişdir.Hər zaman sonsuz sevgi, minnətdarlıq və qürurla xatırladığımız müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev daim gənclərə böyük qayğı və diqqət göstərib, onların ən böyük himayədarı olub.Gənclərimizə vətənpərvərlik ruhunun aşılanması, dərin köklərimizə bağlı əsl vətəndaş kimi formalaşması za-

mana sığmayan dahi şəxsiyyətin adı ilə bağlıdır.

Bu gün ümümmilli liderin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də digər sahələrdə olduğu kimi gənclər siyasətində də ardıcıllığı yüksək səviyyədə təmin edir. Ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin nəticəsi olaraq Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2007-ci il respublikamızda "Gənclər ili" elan edilib. Bu da Azərbaycanda gəncliyinin uğurlarına hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir.

**Ədəbiyyat siyahısı**

Axundova E. – "Heydər Əliyev. Şəxsiyyət və zaman", I hissə, 1923-1969. - Bakı: Ozan, 2007 – səh.352

Əliyev Q. – "Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu", Bakı: Şəms, 2006. – səh.520, rəngli foto-portret

Mirələmov H. – "Zəfər yolu", esse. – Bakı: Gənclik, 2003. – 66 s. rəngli foto.

Qacar M. – "Xilaskar", poema. - Bakı: Ulduz, 2004. - 58 s.



***İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında iştirakı (01 fevral 2019-cu il)***

Gənclik enerji, təşəbbüs, gələcəyə ünvanlanmış inkişafdır. Özünün dinamik inkişaf yoluna qədəm qoymuş Azərbaycan dövlətində gənclərin enerjisindən istifadəyə obyektiv bir tələbat duyulur.Gənclər hər bir xalqın gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı təbəqədir. Hal-hazırkı gəncliyimiz ictimai, sosial həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir.

Bu gün dövlətin və cəmiyyətin idarə edilməsində ölkənin ən fəal gəncləri olaraq daha inamla və həvəslə dövlətimizin inkişafı və bayrağımızın ucalması üçün yorulmadan çalışmalıyıq.

Sadiq Qurbanov – "Zamana sığmayan lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi" / S. H. Qurbanov; elmi red. Ə. Muradov; red. C. Cəfərov; Azərbaycan Dövlət İqtisad Universiteti.- Bakı: İzə, 2022.- 436 s.

Siyavuş Novruzov – "Qurtuluşdan başlayan tərəqqi", [müsahibələr] / S. D. Novruzov; tərt. M. D. Qıpçaq; red.: Z. A. Əsgərov, M. D. Qıpçaq; məsul red. T. Talıbova.- Bakı: Elm vətəhsil, 2019.- 232 s

Əliyev H.Ə. – "Müstəqil Azərbaycan Respublikası gənclərinin I Forumunda çıxış", 2 fevral 1996-cı il



ZAUR USTAC

**USTACAM**

Müzəffər ordunun şanlı əsgəri,
Ərənlər yurdunun ər övladıyam!
Zalımın zülmünə təhəmmülüm yox,
Babəklər yurdunun hürr övladıyam!

Ustadım Nəsimi, sözümüz sözdü,
Ədalət, həqiqət bağrımda közdü,
Ziyadar dühası bir deyil, yüzdü,
Mövlalar yurdunun nur övladıyam!

Dərvişəm, müqqəddəs sayılır təkkəm,
Hülqumdan yuxarı dayanır öfkəm,
Od, ocaq diyarı tanınır ölkəm,
Alovlar yurdunun nar övladıyam!

Unutma, şah babam Xətai başdı,
Nadir şah, mətədə tərpənməz daşdı,
İlham, nə keçilməz sədləri aşdı,
İgidlər yurdunun nər övladıyam!

Tarixdə Nəbisi, Koroğlusu var,
Gen dünya yağıya daim olub dar,
Düşmən qarşımızda yenə oldu xar,
Aslanlar yurdunun şir övladıyam!

Göydən Yer üzünə ərmağan, payam,
Gündüzlər Günəşəm, gecələr Ayam,
Ən parlaq ulduzdan törəyən boyam,
Ozanlar yurdunun sirr övladıyam!

Ustacam, vətənim vətən içində,
Axıb duruluruq zaman köçündə,
Min bir anlamı var, adi "heç"in də,
Aqillər yurdunun pir övladıyam!

**ARAZ**

Halına acıdım lap əzəl gündən,
Bu qədər qınanır bilmirəm nədən,
Arazı heç zaman qınamadım mən,
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

Sarıyıb Yurdumun şırım yarasın,
Açmayıb, bağlayıb qardaş arasın,
İndi mən qınayım bunun harasın?
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

Çəkib acıları, yığıb suyuna,
Sakitdir, bələddir hamı huyuna,
O da qurban gedib fitnə, oyuna,
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

Xudafərin qucaqlayan qoludur,
Keçidləri salam deyən əlidir,
Bayatılar pöhrələyən dilidir,
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

O tayda çifayda deyir Şəhriyar,
Bu tayda dardadır indi Bəxtiyar,
Yarını gözləyir hər gün Lütfiyar,
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

**BAYRAQ,**
**BİZİM BAYRAĞIMIZ!**
***(Arazın o tayında bayrağımız dalğalanıb)***

Üstündən yüz Araz axsın,
Torpaq, bizim torpağımız!
Güney, Quzey fərq eləməz,
Oylaq, bizim oylağımız!

Axışı lal, susur Araz,
Mil, Muğanı yorur ayaz,
Kərkükdən ucalır avaz,
Oymaq, bizim oymağımız!

Göyçə dustaq, Urmu ağlar,
Yaşmaq düşər, börü ağlar,
Qaşqayda bir hürü ağlar,
Papaq, bizim papağımız!

Dörd bir yanın qarabağlı,
Dəmir qapı çoxdan bağlı,
Bir ağacıq qol, budaqlı,
Yarpaq, bizim yarpağımız!

Ustac boşa deməz əlbət;
-"Sərhədinə elə diqqət",
Bu kəlamda var bir hikmət,
Sancaq bizim sancağımız!

**NADANLIQ**

Urmu axan göz yaşımdı,
Yanağımda duz olubdu…
Urmu, Urmu söyləməkdən
Bağrım başı köz olubdu…

Şümürə lənət deyənlər
Susuz qoyubdu dindaşın…
İnsan insana qənimdi,
Günahı nə dağın, daşın?

Savalanı dərd qocaltdı,
Murov soyuqdan üşüyür…
Araz sükütun pozmayır,
Kür əlçatana döşüyür…

Dəmir Qapım pas atıbdı,
Neçə körpüdən keçmirik…
Kərkük, Mosul unudulub,
Bağdada iraq demirik…

Nəsimi nəşi Hələbdə,
Füzuli hərəmdə qalıb…
Babəkin ruhu sərgərdan,
Bəzz qalasın duman alıb…

Suyumu daşla boğurlar,
Daşımı suyla yuyurlar…
Xudafərin, Urmu incik,
Bizləri bizsiz qoyurlar…

Şah babam yol ortasında,
Koroğlu göylərdə gəzir…
Bizi, bizdən ayrı salan
Nadanlıq ruhumu əzir…

**MƏN ZƏFƏRƏ TƏŞNƏYƏM**

Qutlu zəfər sancağım,
Sancılmağa yer gəzir!
Alınası öcüm çox,
Bu gün ruhumu əzir!

Dərbəndi, Borçalını
Unuduruq həmişə…
Kərkük, Mosul bağrı qan,
Boyun əyib gərdişə…

Yurdumun dörd bir yanın
Hürr görmək istəyirəm!
Şanlı zəfər tuğuma
Zər hörmək istəyirəm!

İrəvan peşkəş olub
Beş sətirlik kağızla…
Zəngəzuru naxələf
Verib quru ağızla…

Bədnam Araz illərdir
Olub qargış yiyəsi…
Top doğrayan qılıncın
O taydadır tiyəsi…

İstəyirəm bu bayraq
Dalğalansın Təbrizdə!
Urmuda üzsün balıq,
Sanki üzür dənizdə…

Xoyda, Mərənddə bir gün,
Olum qonaq üzü ağ.
Ərdəbilə, Tehrana
Qurulmasın ta duzaq…

Qarsdan, Ağrıdan baxım,
Qaşqayadək görünsün!
Qapıcıqdan, Qırxqıza
Ağ dumanlar sürünsün!

Bu arzular həyata
Keçməsə, mən heç nəyəm!
Neynim, mayam belədir,
Mən zəfərə təşnəyəm!

**BU PAYIZ**

Zəfər libasında sevinc göz yaşı,
Hər iki sahildə dayanıb ərlər!
Ayrılıq atəşi elə qarsıyıb,
İçərək qurudar Arazı nərlər!

Göylərdən boylanır Tomris anamız,
Əlində qan dolu o məşhur tuluq!
Xain yağıların bağrı yenə qan,
Canı əsməcədə, işləri şuluq…

Uşaqdan böyüyə hamı əmindir,
Tarix səhnəsində yetişib zaman!
Bu dəfə biryolluq bitəcək söhbət,
Nə güzəşt olacaq, nə də ki, aman!

İllərdir həsrətdən gözləri nəmli,
Mamırlı daşların gülür hər üzü!
Neçə qərinədir qalmışdı çılpaq,
Yamyaşıl çayırla gəlib payızı.

Al donun geyinir Günəş hər səhər,
Səmamız masmavi, göy üzü təmiz!
Duman da yox olub, itib buludlar,
Gözün aydın olsun, sevin, a Təbriz!

**TUNCAYA**
***(Tuncayın timsalında)***

Tanrı tutub, ağ torpaqdan mayanı,
Gündoğandan Günbatana sənindi!
Nişan verib, yeddi günlük Ayını
Əksi düşən tüm torpaqlar sənindi.

Xəzəri ortaya düz qoyub nişan,
Boynuna dolanan Hilal sənindi!
Ən uca zirvələr, ən dərin göllər
Ormanlar, dəryalar, düzlər sənindi!

Tanrının payıdı, lütf edib sənə,
Tanrıya sarsılmaz inam sənindi!
Ataya, Anaya, qocaya hörmət
Sirdaşa sədaqət, güvən sənindi!

Zamanla hökm etdin tüm yer üzünə
Hakimiyyət sənin, hökm sənindi!
Aman istəyəni kəsmədin heç vaxt,
Ən böyük ədalət, güzəşt sənindi!

Unutma ki, lap binədən belədi,
Mərhəmətli, yuxa ürək sənindi!
Xilas etdi, bağışladı ənamlar,
Yamana yaxşılıq, ancaq sənindi!

Döyüşdə, düşməni alnından vuran,
Süngüsü əlində ərlər sənindi!
Savaşda, uçağı kəmədlə tutan,
Qüvvəsi qolunda nərlər sənindi!

Dəli-dolu Türk oğullar cahana
Bəxş etdiyi şərəfli ad sənindi!
Adı gəlsə, yeri-göyü titrədən
Qorxu bilməz, şanlı əsgər sənindi!

Çöldə simgə etdin Qurdu sancağa,
Kəhər Atın ən yaxşısı sənindi!
Ay-yıldızı nişan tikdin Bayrağa,
Zəkalar, dühalar tümü sənindi!

Tutduğun yol tək Tanrının yoludu,
Aydın zəka, tər düşüncə sənindi!
Çoxu deyir, tay dünyanın sonudu,
Fəqət bilməz, yeni dünya sənindi!

**DAĞLAR**
***(Dağlara xitabən üçüncü şeir)***

Tarix səhnəsində yetişdi zaman,
Başlanmış bu çağın mübarək, dağlar!
Hələ nə zəfərlər gözləyir bizi,
Qutlanmış novrağın mübarək, dağlar!

Dövranın gərdişi döndü, dəyişdi,
Davadan doğulan ərlər yetişdi,
Didilmiş yaralar tutdu, bitişdi,
Üç rəngli duvağın mübarək, dağlar!

Nə vaxtdır yol-iriz bağlı qalmışdı,
Qoynunda yağılar məskən salmışdı,
Canımı sağalmaz bir dərd almışdı,
Sayalı qonağın mübarək, dağlar!

Xətai qırmadı könül bağını,
Nadir unutmadı hicran dağını,
İlhamın silahı əzdi yağını,
Dəmirdən yumruğun mübarək, dağlar!

Qurtuldu yağıdan zənburun, balın,
Bir başqa görünür yamacın, yalın,
Zirvəndən boylanır şanlı hilalın,
Müqəddəs sancağın mübarək, dağlar!

Haqqa nisbət tutub ulu Ələsgər,
Andırıb, tanıdıb, bilib pərisgar,
Hər səngər məbəddi, pirdi hər əsgər,
Şuşa tək ocağın mübarək, dağlar!

Ay Ustac, min şükür arzuna yetdin,
"Dədə"n gedən yolu, sən də qət etdin,
Dolandın dünyanı yurdunda bitdin,
Doqquzu zər tuğun mübarək, dağlar!



**FƏRHAD ƏSGƏROV (RAMİZOĞLU)**

# QULAQ YOLDAŞI

*hekayə*

Solmaz Bakının qəsəbələrinin birində anadan olmuşdu. Atası Rüstəm kişi uzun illər idi ki, mağaza müdiri işləyirdi. Ən böyük arzusu qızını həkim görmək idi. Qız özü də böyüyəndə həkim olmaq istəyirdi. Elə də oldu. Solmaz məktəbi bitirdiyi il Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil oldu. Onunla bir sinifdə oxuyan Vüqar da öz arzusuna çatmış, Pedaqoji İnstitutun tarix fakültəsinə qəbul olunmuşdu.

Hələ məktəbdə oxuduqları vaxtdan Solmaz hiss etmişdi ki, Vüqarın ondan xoşu gəlir. İş elə gətirdi ki, hər gün şəhərə instituta da eyni avtobusda gedib-gəlməli oldular. Yolboyu dərslərindən danışır, ümumi mövzulardan söhbət açırdılar. Artıq avtobusun daimi sərnişinləri də onları həmişə bir yerdə görməyə adət etmişdilər. Solmaz ortaboy, qəşəng bir qız idi. Yanağındakı balaca xalı, qara saçları, ağappaq sifəti, incə gülüşü ona xüsusi gözəllik verirdi. Vüqar isə ucaboy, sarışın oğlan idi. Gözəl tərbiyəsi, səmimi, qayğıkeş rəftarı ilə ətrafdakılara xoş təsir bağışlayırdı. Hərdən səhərlər vaxt tapanda qızı instituta ötürür, dərsdən tez çıxanda isə Solmaz oxuduğu binanın qarşısına gəlir, evə birlikdə qayıdırdılar.

Beləcə, hiss olunmadan illər keçirdi. Artıq Vüqar institutu bitirmək üzrəydi. Təyinatla onu ucqar dağ rayonlarından birinə müəllim işləməyə göndərirdilər. Axırıncı günləri bir yerdə gedib-gəldiklərini hiss etsə də, heç cür ürəyindəkini açıb qıza deyə bilmirdi. Ayrılıq yaxınlaşdıqca elə bil ki, nitqı daha da tutulurdu. Nəhayət, bir gün səhər tezdən avtobusdan düşüb, metroya yaxınlaşanda addımlarını yavaşıdıb qızı səslədi:

-Səninlə söhbətim var.

-Nə söhbət, ay Vüqar? Elə dörd ildir ki, söhbət edirik də...

-Yox, Solmaz, bu tamam başqa söhbətdir.

Bir anlığa baxışları qarşılaşdı. Solmaz məsələni çoxdan başa düşsə də, o da özünü itirmişdi. Utandığından qıpqırmızı qızarmış Vüqar dili dolaşa-dolaşa ürəyindən keçənləri birnəfəsə deməyə çalışdı:

-Solmaz, artıq neçə ildir ki, səni sevirəm, mən səninlə ailə həyatı qurmaq istəyirəm. Düzdür, sən hələ bir neçə il də oxuyacaqsan. Nə olar, oxu qurtar. Mən də təyinatla rayonda işləyim, əsgəri xidmətimi yerinə yetirim, sonra ailə həyatı quraq. Hə, Solmaz, de görüm fikrin nədir?

Solmazın baxışları uzaqlara zillənmişdi. Handan-hana dilləndi:

-Vüqar, hələ heç nə deyə bilmərəm. Sağlıq olsun, baxarıq.

Beləcə, ayrıldılar.

Əvvəlcə rayonda işləməyə, oradan da hərbi

xidmətə yola düşən Vüqar müddəti başa çatdıqdan sonra Bakıya qayıdaraq orta məktəblərin birində müəllim işləməyə başlamışdı. Solmaz da institutu bitirib poliklinikaların birində sahə həkimi işləyirdi. Hər gün yanına gələn xəstələr ona müxtəlif hədiyyələr gətirir, habelə pul da verirdilər. Bir gün Vüqar onun iş yerinə gəldi, görüşdülər, ona fikrini bildirdi:

-Sabah anamı sizə göndərəcəyəm.

Ertəsi gün Vüqarın anası və iki nəfər yaxın qohumları elçiliyə gəldilər. Solmazın anası Validə xala məsələdən agah olandan sonra qızın fikrini bilmək üçün ona yaxınlaşdı. Qız qəti olaraq imtina etdi:

-Mən heç vaxt müəllimə ərə getmərəm. Düzdür, Vüqar yaxşı oğlandır. Ancaq nə olsun, müəllimdir, quru maaşa baxır. Mənim isə əlim pulla oynayır. Özüm kimi pul qazanan oğlanla ailə həyatı qurmaq istəyirəm.

Elçilər kor-peşman geri qayıtdılar.

Aradan bir neçə il keçdi. Qohum-əqraba yığışaraq Vüqarı evlənməməyə görə çox danladılar və az müddətdən sonra onu iş yoldaşı olan müəllimə qızla evləndirdilər. Toya Solmaz da gəlmişdi. O, yaxın rəfiqəsi ilə toyda yeyib-içir, istehza ilə Vüqarın gələcək ailəsi haqqında danışırdı:

-Bəh-bəh! Ər müəllim, arvad müəllim. Gözəl dolanarlar, inşallah!

İkinci dəfə Solmaza elçi gələndə, yaşı otuz beşə çatmışdı. Elçi göndərən oğlan böyük bir mağazanın müdiri işləyirdi. Yaxşı evi-eşiyi, bağı, maşını var idi. Anası məsələni qızına danışanda yenə də rədd cavabı eşitdi:

-Tanıyıram onu, boydan balacadır, özünün də elə bir görkəmi yoxdur. Mən istəyirəm ki, nişanlım ucaboylu, qəşəng oğlan olsun.

Bu elçilər də beləcə geri qayıtdılar.

Artıq Vüqarın uşaqları var idi. Ailə mehriban dolanır, xoş arzularla yaşayırdı.

Daha bir neçə il də keçdi. Qonşu qəsəbədən Hüseynağa kişinin arvadı rəhmətə getmişdi. Övlad sarıdan iki qızları var idi ki, onlar da özlərinə ailə qurub köçdükləri üçün kişi tək yaşamağa məcbur olmuşdu. Onun tək dolana bilməyəcəyini görən qohumlar arvadın ölümündən bir il keçəndən sonra yığışaraq kişini evləndirmək qərarına gəldilər. Hərə öz tanıdığı qızın adını çəkdi. Nəhayət, Solmazın üstündə dayandılar.

Budur, yetmiş yaşlı Validə xala yenə də elçiləri qarşılayırdı. Gələnlər məsələni olduğu kimi danışdılar.

-Düzdür, Solmaz Hüseynağadan yaşca xeyli kiçikdir. Ancaq nə olsun, xoşbəxtlik bəyəm yaşdadırmı?

Axşam işdən yorğun gələn qızını qarşılayan Validə xala dərhal məsələni ona açmadı. Solmaz artıq xəstəxanada baş həkimin müavini vəzifəsində işləyirdi. Özünə yaxşı cehiz düzəltmişdi. Gələcək nişanlısı üçün üzükdən tutmuş, nə lazımdırsa – hamısını almışdı. Bir vaxt həyatın mənası hesab etdiyi bu şeylər, yaş ötdükcə gözündə heçə çevrilmişdi.

Solmazın qırx beş yaşı var idi. Atası artıq on il idi ki, rəhmətə getmişdi. Qoca anasının nə vaxtsa dünyadan köçəcəyini düşünəndə kövrəlir, təklikdə xısın-xısın ağlayırdı. Tək yaşayacağı isə onu narahat edirdi.

İki saatdan sonra Validə ana yenidən elçilərin gəldiyini ona xəbər verdi. Otağın ortasında dayanıb key kimi qulaq asan Solmaz heç nə deməyərək taqətsiz halda stula çökdü. O, bir neçə dəqiqə Vüqarı gözünün önünə gətirdi.

Daha iş işdən keçmişdi. Artıq o, ailə-uşaq sahibi olacağından ümidini üzmüşdü. İndi qulaq yoldaşı tapması arzusundaydı...

**1984-cü il**

# BELƏSİNƏ NƏ DEYƏSƏN?
## (olmuş hadisə)

Taksi ilə Azərbaycanın kənd rayonlarından birinə gedirdim. Bakı şəhərindən həmin rayona dörd saatlıq yoldur. Sürücü ilə yolboyu xeyli söhbət etdik. O, bu müddətdə bir neçə maraqlı əhvalat da danışdı ki, vaxtımız xoş keçsin. Həmin əhvalatlardan biri daha məzəli olduğundan oxucularıma təqdim etməyi vacib bildim. Sürücü belə bir hadisə danışdı:

-Adətim üzrə səhər tezdən işlədiyim taksi parkından çıxdım. İki saatdan sonra orta yaşlı bir kişi maşını saxlatdı. Bildirdi ki, axşam saat 6-yadək onun üçün işləməliyəm və axırda mənə

100 dollar verəcək. Fikirləşdim ki, bu lap göydəndüşmə oldu ki... Qazandığım pul həm plana bəs edər, həm də özümə. Çıxıb gedərəm evimə, bir az istirahət edərəm. Yoxsa, planı yığmaq üçün bəzən səhərədək işləməli olursan.

Kişi maşını müxtəlif küçələrə, müxtəlif ünvanlara sürdürürdü. Bir neçə dəfə müxtəlif binaların qarşısında düşüb gedir, sonra da qayıdıb əyləşirdi maşına və başqa ünvana sürməyi tələb edirdi. Mənim üçün isə nə fərqi, təki pulumu versin.

O, bir doqquzmərtəbəli yaşayış binasının qarşısında yenə taksidən düşdü. Bir qədərdən sonra iki kağız qutu ilə qayıdıb gəldi və maşının baqaj yerini açdırıb həmin qutuları ehmalca ora qoydu. Yenə də maşın Bakı küçələrində şütüməyə başladı.

Növbəti dayanacaq mərkəzi univermağın qarşısında oldu. Müştəri 15 dəqiqəyə qayıdacağını bildirib, qutulardan muğayat olmağı xatırlatmağı da unutmadı.

Qısa danışacağam: onu dörd saat gözlədikdən sonra başa düşdüm ki, müştərim məni aldadıb.

Qanıqara halda evə gəldim. Əhvalatı həyat yoldaşıma danışdım. Hətta həmin kişinin qutuları barədə də dedim. Qərara aldıq ki, qutulara baxaq. Gedib maşının yük yerini açıb qutuları evə gətirdim. Açıb içinə baxmaq istədikdə məişət tullantılarının kif iyi evi başına götürdü. İzahata ehtiyac qalmamışdı: hər şey gün kimi aydındı...

Təxminən həmin əhvalatdan bir ay keçmişdi. Küçədə müştəri gözləyirdim ki, təsadüfən həmin adamı gördüm. O, sakitcə gəzişirdi. Taksini onun yanına sürüb saxladım və maşına oturmasını xahiş etdim. Əyləşəndən sonra bir ay əvvəlki hadisəni ona xatırladıb dedim ki, heç kişiyə belə hərəkət yaraşar? Kişi elə bil ki, bu sözümə bənd imiş. Başladı, nə başladı!..

-Böhtana görə səni məsuliyyətə cəlb etdirərəm! Azı bir il türmədə yatarsan! Sənin kimilərini gündüz çıraqla axtaran polis ilə tanışam. Məhkəmənin sədri qohumumdur. Böyük bir rayonun prokuroru ilə bir binada yaşayırıq...

Daha deməyə söz tapmadım. Beləsinə nə deyəsən? Ondan belə həyasızlığı gözləmirdim. Heç nə deməyib yalnız üzr istədim və yoluma davam etdim.



## SƏBUHİ RƏHİMLİ

### GİLEYLİ DEYİLƏM

Şirin arzularım daşa dəyməyib,
Bəxtimdən gileyli deyiləm hələ.
Əzrayıl qapımı gəlib döyməyib,
Bəxtimdən gileyli deyiləm hələ.

Qazancım çox olub, az itirmişəm,
Özümə sevincdən pay götürmüşəm,
Bu da bir ömürdü, mən bitirmişəm,
Bəxtimdən gileyli deyiləm hələ.

Heç kimə yamanlıq eləməmişəm,
Heç kimə faciə diləməmişəm,
Əl açıb qeyrəti dilənməmişəm,
Bəxtimdən gileyli deyiləm hələ.

Gəlib deşsələr də iki gözümü,
Mən yenə deyəcəm ürək sözümü,
Ümidsiz sanmıram bu gün özümü,
Bəxtimdən gileyli deyiləm hələ.

### ÖZÜNLƏ APARDIN

Odumu söndürdün, közüm qalmadı,
Sözümdə inci bir düzüm qalmadı,
Qüvvətim tükəndi, dözüm qalmadı,
Özünlə apardın nəyim vardısa.

Kədərim çoxalıb təpələnibdi,
Dənizə dönübdü, ləpələnibdi.
Gümanım min yerə səpələnibdi,
Özünlə apardın nəyim vardısa.

Tufansız, yağışsız, qarsız qalmışam,
Ağac böyütmüşəm, barsız qalmışam.
Tənhalıq hökm edir... yarsız qalmışam,
Özünlə apardın nəyim vardısa.

Yeganə təsəllim o ilk görüşdü,
Əlin əllərimdən nə tez sürüşdü?
Bu acı sevgidən mənə nə düşdü?
Özünlə apardın nəyim vardısa.

Sirat körpüsündən keçməmiş hələ,
Sevgi bulağından içməmiş hələ,
Röyalar qoynuna köçməmiş hələ,
Özünlə apardın nəyim vardısa.

**TƏNHA BÜLBÜL**

İz salıb torpağa qan ləkələri,
Dağların ətəyi meyid qoxuyur.
Hardasa - yaxında, ağac başında,
Dünyadan xəbərsiz bülbül oxuyur.

Bülbül hardan bilsin, iki gün əvvəl,
Qan suya dönmüşdü dağ ətəyində.
Başları kəsilən günahsızlara,
Köməyi çatmamış heç fələyin də.

Bülbül hardan bilsin, Odlar ölkəsi,
Matəmə bürünüb göz yaşı tökür.
Özgə torpağında qan tökən yağı,
Neçə evlər yıxır, neçə bel bükür.

Elə hey oxuyur qəmsiz, kədərsiz,
Səngimiş alovun tüstülərində.
Elə bil üşüyür zavallı bülbül,
Ona təsiri yox istilərin də.

Bəlkə də ah-nalə çəkir zavallı,
Bəlkə də məhv olub isti yuvası?!
Gör neçə bülbülə faciə verir,
İnsan ədavəti, insan davası.

**YAĞAN YAĞIŞ**

Ara verib dayanmadı,
Atəşimi duyammadı,
Kədərimi yuyammadı
Narın-narın yağan yağış.

Palçıqladı hər küçəni,
İslatdı yoldan keçəni,
Pozdu sükutlu gecəni,
Narın-narın yağan yağış.

Yol verdim - yoldaş olmadı,
Sirr verdim - sirdaş olmadı,
Qan verdim - qardaş olmadı,
Narın-narın yağan yağış.

Səbuhinin çəkər başı,
Bir gün qalxar məzar daşı -
Axıdar onda göz yaşı,
Narın-narın yağan yağış.

**İTİRDİK**

Zərrə-zərrə, damla-damla,
Qədir-qiyməti itirdik.
Ağsaqqala, ağbirçəyə,
Olan hörməti itirdik.

Tez saraldıq çiçək kimi,
Haçalandıq ləçək kimi,
Müqəddəs duz-çörək kimi
Ulu neməti itirdik.

Doğmalıqdan uzaqlaşdıq,
Günü-gündən alçaqlaşdıq,
Ad oldu ki, qoçaqlaşdıq,
Arı-qeyrəti itirdik.

**ŞƏHƏRƏ GEDƏN YOL**
***(Mərhum müğənni Viktor Soyun xatirəsinə)***

Qarşımda bir yol durub,
Bu yol şəhərə gedir.
Bəlkə mənə tor qurub,
Bu yol şəhərə gedir?

Sağ tərəfim göy otlar,
Sol tərəfim buludlar.
Palçıq olub ayağım,
Gündən yanır dodağım.

Tutub məni ağaclar,
Budağında turaclar...
Düşüncə, fikir, xəyal,
Müəmmalı çox sual -
Qəlbimi talan edir,
Bu yol şəhərə gedir.

Dərdlə qucaqlaşmışam,
Kənddən uzaqlaşmışam.
Şəhər isə görünmür,
Yollarım geri dönmür.
İrəli getməliyəm,
Şəhərdə bitməliyəm.
Küçələrdə elanlar,
Ürəyimdə ilanlar -
Məni yamanca didir,
Bu yol şəhərə gedir.

Hərə öz hayındadır,
Toyunda, vayındadır.
Nə çoxdur bura gələn,
Daralmış tora gələn.
Qucaq açır qolları,
Tanımırlar yolları.
Nə dəvə, nə karvan yox,
Nə bələdçi, sarvan yox -
Hamı azır birbəbir,
Bu yol şəhərə gedir.

Qoyun-quzu ət yeyir,
Qurd insafdan dərs deyir.
Ulduzlar səhər çıxır,
Qarışqa adam yıxır.
Çiçək yarpıza dönür,
Uca alçağa enir.
Burda toyuq banlayır,
Yalan haqqı danlayır -
Pişik gətirir səbir,
Bu yol şəhərə gedir.

**ÖZÜMDƏN AĞIR**

Bu düzlərin ormanı yox,
Bu dağların dumanı yox.
Həsrətimin gümanı yox,
Həsrətim özümdən ağır.

Haram tikə yeyəmmirəm,
Zirvələrə dəyəmmirəm,
Kədərimi deyəmmirəm -
Kədərim sözümdən ağır.

Ruhumla canım savaşda,
Ahım qan yalayır daşda,
Gözlərimdə donur yaş da,
Kipriyim gözümdən ağır.

Sanma quru söz deyirəm,
Hər nə desəm, düz deyirəm,
Kişisənsə "döz!" deyirəm,
Nə var ki, dözümdən ağır?!

**TORPAQ**

Torpaq mənim anam-bacım,
Torpaq mənim gözlərimdir.
Torpaq mənim qəlbimdəki
İnci-inci sözlərimdir.

Hər tərəfim tüstü-alov,
Dağılmış ev, yanmış torpaq.
Yanımda bir əsgər ölüb,
Sinəsində qanlı papaq.

Gurultular, iniltilər,
Aləmi lərzəyə salır.
"Torpaq!" deyə biz ölürük,
Gör torpaqda kimlər qalır?!

Gecə-gündüz sürünürük,
Qana dönmüş torpaqlarda.
Kimsə rahat nəfəs alır,
Telefonlu otaqlarda.

Qeyrəti pula çevirsək,
Torpaq bizi alqışlamaz.
Torpaq üçün vuruşmasaq,
Torpaq bizi bağışlamaz.



ÇƏRKƏZ NƏSİRLİ

# QIRX PİLLƏKƏN

*hekayə*

Əhmədlə Rəsul dost idi. Şəhərə ayrı-ayrı rayonlardan gəlmişdilər. Onları musiqiyə olan sevgiləri dostlaşdırmışdı. Bunun sayəsində də hər ikisi bu sahəni özlərinə sənət seçmişdilər.

Onlar əvvəlcə musiqi məktəbinə getmiş, sonra təhsilllərini davam ettirmək üçün Üzeyir Hacıbəyli adına Ağdam orta ixtisas musiqi məktəbində təhsillərini davam etdirmişlər.

Ağdamda təhsil aldıqları dövrdə bir-birləri ilə tanış olmuşdular. Belə ki, valideynləri tərəfindən kirayə tutulmuş bir evdə yaşayırdılar. Elə bu gündən də onların dostluğu baş tutduğu üçün dörd il təhsil aldıqları dövr bir yerdə, bir mənzildə yaşamışlar. Əhməd Ağdama Zəngilandan, Rəsul isə Şuşadan gəlmişdi. Şuşa Ağdama yaxın olduğu üçün Rəsul hər həftənin altıncı günü evlərinə, valideynlərinin yanın gedərdi. O, bir neçə dəfə təklif etsə də Əhməd onunla Şuşaya getməmişdi.

**Əhməd söyləyirdi:**

“Dekabr ayının birinci həftəsi idi. Rəsul yenə Şuşaya getmişdi. Birdən otağın qapısı döyüldü. Mən tez durub qapını açdım, gələn Rəsulun atası Mikayıl dayını gördüm. Mən özümü itirmişdim, otağımız səliqəsiz olduğundan bilmədim nə edəm. Özümü cəmləşdirib Mikayıl dayını içəri dəvət edib üzrxahlıq etdim. “Bu gün bazar günü olduğuna görə gec durmuşam, ona görə bağışlayın, otaq bir az səliqəsizdir”, dedim. Mikayıl dayı: “Eybi yoxdur, amma çalışın otağınız həmişə səliqəli olsun. Bax, təsadüfən qonaq gələr, onda da yaxşı olmaz”, dedi. Sonra sözünə davam etdi: “Mən Bakıdan ezamiyyətdən gəlirəm. Sizin yanınıza çöndüm ki, vəziyyətinizlə tanış olum. Hə, yeri gəlmişkən, bəs Rəsul hanı?” Mən söylədim: “Hər həftə olduğu kimi dünən dərsdən qayıdan kimi Şuşaya getdi”. “Bəs sən niyə getmədin? Axı anası da, mən də ona tapşırmışdıq ki, səni burda tək qoymasın, Şuşaya qonaq gətirsin. Sən Şuşanı görməmisən, ora çox gözəl bir yerdi. Ay səni, Rəsul!” Mən tez: “Mikayıl dayı, Rəsul təklif etdi, ancaq mən getmədim”, dedim. “Nə üçün, sən burda tək qalırsan? İndi nə işin var?” ”Heç bir işim yoxdur, sadəcə, sizə əziyyət vermək istəmədim. Ona görə də Rəsulun təklifini qəbul etmədim”. “Bax, Əhməd, mən elə ona görə bu gün bura çöndüm. Hər dəfə Rəsul gələndə biz soruşurduq ki, nə üçün dostunu gətirməmisən. O da bizə söyləyirdi ki, mən təklif etdim, o isə gəlmək istəmədi. Mən oğluma inanıram, biz bilirdik ki, o, təklif edib, lakin sənin nə üçün gəlmədiyini bilmirdik. İndi bildim. Yox, Əhməd, sən də bizim bir balamız. Dur, yığış gedək. Bu gündən hər altıncı gün Rəsulla birlikdə bizə qonaq gəlirsən”.

O gündən mən də Rəsulla birlikdə həftənin altıncı günü Şuşaya gedir, birinci gün səhər tezdən ilk avtobusla Ağdama qayıdırdıq.

Qarşıda qış tətili gəlirdi. Əvvəlcə Rəsulla razılaşdıq, sonra da onun valideynlərinə deyib icazə

aldım ki, qış tətilində Rəsul mənimlə Zəngilana getsin. Axı Zəngilan da gözəl yerdir, heç də Şuşadan geri qalan deyil. Bolsulu çayları, zümrüd meşələri, əzəmətli dağları var. Bir sözlə, Zəngilan da ölkəmizin dilbər guşələrindən biridir.

Düzdür, ölkəmizin hər bir yeri özünə görə gözəldir, lakin Zəngilanın ayrı bir yeri var. Bəlkə də Şuşa şəhərinə çatmaz. Şuşa məni çox heyran edib. Orda o qədər görməli yerlər, muzeylər, tarixi özündə əks etdirən abidələr vardi ki, hər həftə gedəndə yeni bir məkanla, yeni bir tarixi abidə ilə tanış olurdum.

Beləcə, yaz gəlmişdi.

Bu gün biz yenidən məşhur Cıdır düzünə gedəcəyik. Yolüstü olan Mir Mövsüm Nəvvabın abidəsini, Molla Pənah Vaqifin məqbərəsini ziyarət edəcəm. Hər dəfə Cıdır düzün gedəndə bu məqbərələri ziyarət edib sonra Cıdır düzünə çixirdiq. Orada gəzir, Üçmıx deyilən tərəfə Cıdır düzündən yuxarı qalxırdıq. Getdikcə hündürlüyə qalxanda Şuşa xeyli aşağıda qalırdı. Biz ora ancaq Xarıbülbül gülü yığmaq üçün gedirdik. Bir dəfə Rəsul orda belə bir söz işlətdi: “Əhməd, sən o çayı görürsən? O çay Daşaltı çayıdır. O çay uzaqda görünən Daşaltı kəndinin ətrafındakı uca dağlardan, meşələrdəki saysız-hesabsız bulaqlardan başlayaraq üzüaşağı axır və kənddə birləşir və üzü Ağdama tərəf tələsir. Yəqin ki, sən bunu da bilmirsən. Onu da söyləyim ki, şəhərin o biri tərəfində Laçına gedən tərəfdə Turşsu da, Səkili meşəsindən olan bulaqlar da gəlib Xəlfəli kəndində birləşərək Xəlfəli çayı adlanan çayı əmələ gətirir. O çay da gedib Ağa körpüsündə Daşaltı çayla birləşir. Qar-qar düzündən keçərək Ağdama gedir. Ağdamda bizim gördüyümüz Qar-qar çayın başlanğıcı bu çaylardır. Onu da deyim ki, o ermənilər yaşayan Xankəndində (ermənilər Stephanakert deyir) içməli suyun mənbəyində Xəlfəli çayının üstündə böyük bir su anbarı tikiblər. O anbar vasitəsi ilə şəhərin su ehtiyacını ödəyirlər. Bunları da bilməyin üçün dedim. Ancaq sənə əsas demək istədiyim budur. Bax, burdan, Cıdır düzündən ora, Daşalti çaya düşmək olar”.

Mən tez dilləndim, yox zarafat edirsən, ola bilməz ki, bu sıldırım qayalardan ora düşmək olsun. “Yox, mən zarafat etmirəm, düzün deyirəm. Bir vaxt əmim mənə o yolu göstərmişdi. Özü də o yol qırx pilləkən adlanır. Düz Cıdır düzünün ortasından ora düşmək olur. İndi gecdir, biz gələn həftə gələndə, havalar yaxşı olsa, mütləq o yolu sənə göstərərəm. O yolu şuşalıların yaşlı nəsli bilir, ancaq cavanların çoxu bilmir. O yolu bilənlər də bir-birilərinə söyləmirlər. Çünki, ora çox qorxulu yoldur. Ordan Daşaltı çayına düşmək üçün o sıldırım qayalarla ensiz bir cığırla düşmək lazımdır”. Mənim ciddi maraqlandığımı görüb sözünə davam etdi: “Mən əmimlə ora düşmüşəm və yolu yaxşı tanıyıram. Çünki bir neçə dəfə getmişəm”.

Mən üzümü Rəsula tutub dedim: “Onda gələn həftə ora düşərik”. “İnşallah, hava əlverişli olsa. Yəni, səma təmiz, buludsuz olsa düşərik. Axı Şuşanın havası da tez-tez dəyişir. Bir də görürsən bulud gəldi, yağış yağdı. Bəzən də tərsinə, tezdən buludlu olur, bir az sonra açılır, kefin istəyən hava olur. Bax, elə Şuşanın bir gözəlliyi də elə budur”.

Həftə boyu heç yadımdan çıxmırdı, hər gün hava haqqında məlumatlara qulaq asırdım. Altıncı və istirahət günü havanın necə olacağı məni çox maraqlandırırdı. Düzünü deyim ki, Qırx pilləkan məsələsi, Daşaltı çaya düşmək məni çox maraqlandırır və ora getməyimi, aşağıya düşməyimi xəyalımda canlandırırdım.

Nəhayət, həftə tamam oldu və biz altıncı günü dərslər qurtaran kimi avtodayanacağa gəlib Şuşaya getmək üçün maşına mindik. Rəsul mənə xəbərdarlıq etmişdi ki, birdən söz düşsə, Daşalti çaya enmək istədiyimizi evdə deməyim. O demişdi ki, əgər evdə bilsələr, bizim oraya enməyimiz baş tutmayacaq. Valideynlərim bizim ora getməyimizə heç vaxt icazə verməzlər. Ordan düşmək çox qorxuludur. Elə ona görə də Şuşada çox adam o yolu bilmir. Bilənlər də başqalarına söyləmir, çünki heç kim başını bəlaya salmaq istəmir.

Ertəsi gün nahar etdikdən sonra Cıdır düzünə getdik. Orda Rəsulun iki dostu Ariflə Fehruz bizi gözləyirdilər. Onların evləri Cıdır düzünə yaxın bir yerdəydi. Biz aşağı düşməyə başladıq, bir qədər aşağı düşdükdən sonra dostum mənə söylədi: “Bax, o uzaqdakı böyük qayanı görürsən?” Mən o səmtə baxdım və başımla gördüyümü işarə etdim. Rəsul sözünə davam etdi: “Buradan görünən o qayanın altı böyük bir mağaradır. Ora keçmişdə sığınacaq kimi istifadə olunurmuş. Mağaranın qarşısı geniş bir düzənlikdir. Elə ona görə də ora

Yastıağız kaha deyirlər."

Biz danışa-danışa aşağıya düşürdük. Mən elə bilirdim ki, doğrudan da Daşalti çaya 40 pilləkanla düşəcəyik. Qarşıma sərt bir sıdırım qaya çıxdı. Mən özümü itirdiyimə görə az qala oradan düşəcəkdim. Bəxtim orada gətirdi ki, səma çox təmiz idi və hər tərəf aydın görünürdü. Biz oradakı 4-5 pilləkəna oxşayan daşla aşağı düşdük, sonra o sıldırım qayanın üstü ilə, dar bir cığırla bizdən çox aralıda olan Daşaltı kəndə tərəf yol aldıq. Təxminən 200 metr getdikdn sonra yenidən pilləkəna oxşayan daşlarla aşağı düşdük. Sonra isə gəldiyimizə əks istiqamətdə aşağı düşə-düşə getdik.

Beləliklə, 2-3 dəfə sıldırım qayanın üstündəki cığırla gah üzü yuxarı gah da aşağı hərəkət edə-edə Daşalti çaya düşdük. Onu da söyləyim ki çaya düşməmişdən əvvəl bir yerdə oturub bir qədər dincəldik. O vaxt dostum yenə mənə çox maraqlı bir əhvalat danışdı:

"Əhməd, bax qarşımızdakı çayın o biri sahilindəki sıldırım qayalara, o qayaların, dağların üstü Topxana meşəsidir. O qayaların tam ortasında cığıra oxşayan bir yer var. Sən diqqətlə bax, onu görəcəksən". Mən əvvəlcə çox baxsam da dostumun dediyi o cığırı tapa bilmədim. Belə olduqda Rəsul yenidən əli ilə istiqaməti göstərərək mənə izah etdi: "Görmürsən? Daşların arasında kol-kosu, tək-tək ağaclar bitən yeri..." Mən tez dedim: "Əlbəttə, oranı görürəm". "Bax, elə oranı deyirəm. O cığırdır indi kol-kos, ağac basıb. Deyilənə görə, orada da bir mağara var. O cığır da, bax, həmin o mağaraya gedib çıxır. İnsanlar vaxtında yadelli düşmən hücumlarından qorunmaq üçün qaçıb orada gizlənərmişlər. Hələ bir dənə də maraqlı məsələ var. Düzdür, mən ora heç vaxt getməmişəm. Ancaq söyləyirlər ki, o mağaranın bir yerində, daşın üstündə ərəb hərfləri ilə yazılmış bir yazı var. O yazıda göstərilir: "Burada xəzinə var. Xəzinə sizi görür, ancaq siz xəzinəni görmürsünüz". Onu da deyirlər ki, indiyəcən ora kim gedibsə, heç bir şey tapa bilməyib".

Biz aşaği, tam çayın yanına düşəndən sonra bir qədər də dincəldik. Buz kimi suyu olan bu dağ çayı biz düşdüyümüz yerdən beş-altı kilometr yuxarıda böyük bir qayanın altından çıxırdı. Onun çıxdığı qayanın ətrafi geniş və əlverişli olduğu üçün orada insanlar bir kənd salmışdılar. Orada indi ermənilər yaşayır. Həmin kənd elə Daşaltı kənddir. Düzünü deyim ki, mən həm çox duyğulanmışdım, həm də düşüb bu yerləri görməyim məndə o qədər xoş təsir buraxmışdı ki sevincimin həddi-hüdudu yox idi. Bizim yoldaşlarımızdan biri, deyəsən Fehruz: "Uşaqlar getmək vaxtıdır. Düşməyimizə baxmayın, çıxanda gəldiyimiz kimi tez gedə bilməyəcəyik. Altdan-yuxarı çıxmaq o qədər də asan deyil", dedi.

Nəhayət, biz geriyə yola düşdük. Onu da deyim ki, biz çoxlu bənövşə və xarıbülbül gülü yığmışdıq. Biz yola düşməmişdən əvvəl Rəsul yenə üzünü mənə tutub söylədi: "Bax, Əhməd, bu gülləri evdə görən kimi soruşacaqlar ki, bunları haradan yığmısınız. Bu güllər Üçmıx adlanan yerdə də çox bitir, biz onsuz da Üçmıxın yanından keçib getmişik. Elə soruşsalar, ordan yiğdiq deyərsən". Və sözünə davam etdi: "Keçən il Bakıdan qohumlarımız gəlmişdi. Biz yaşda uşaqları var idi. Onda biz Yastıağız mağarasına getmişdik, o uşaqlardan biri sürüşüb yıxılmışdı. Bilirsən, məni evdə nə qədər danladılar. Düz bir həftə atam məni heç dindirmədi. Söylədi ki, sənin heç məsuliyyətin yoxdur. O sürüşüb tam aşaği düşsəydi, heç tapa bilməzdik. Onda nə olardi, biz bu qohumlara nə cavab verərdik? Bax, o vaxtdan mən heç bir qonağı buralara gətirmirəm. Mən sizə gedəndə gördüm sizin də rayonunuz dağların ətrafında yerləşir, ona görə də səni Daşaltı çaya düşürməyə söz verdim və sözümə də əməl ettim".

Fehruz: "Durun, durun gedək. Bilmək olmaz, bir də gördün duman gəldi, onda biz yolu tapa bilmərik, azıb elə yerlərə gedib çıxarıq ki, geri qayıtmaq çox çətin olar", dedi. Beləliklə, biz gəldiyimiz cığırla geri qayıtmağa başladıq. Qırx pilləkan adlanan yerə çatmağımıza az qalmış duman gəldi. Fehruz dedi: "Gördünüz, mən deyəndə siz mənə güldünüz. İndi bir az da cəld tərpənin o pilləkanı çıxaq. Sonrası heç bir dərdimiz olmaz". Biz çox keçmədi o qorxulu yeri keçib getdik. Artıq hər şey arxada qalmışdı. Yığdığımız gülləri qoxlaya-qoxlaya evə gəldik.

O yerləri gedib görməyim, Daşaltı çaya düşməyim məndə elə bir iz buraxmışdı ki, o günü hər zaman xatırlayıram. Xatırladıqca o illər yadıma düşür, mən inanıram ki, nə vaxtsa yenə xoşbəxt günlər keçirdiyimiz o yerlərə gedəcəyik".

**25.05.2020, Bakı şəhəri**



**NƏCMƏDDİN MÜRVƏTOV**
**Siyəzən**

**Şuşada**

Həsrətiylə sinəmə dağdı vətən ayrılığı,
Uzun illər beləcə dərdlə ötən ayrılığı,
Şükür Allahıma, gördüm də bitən ayrılığı.
Saysız istəklərimə kamımı aldım Şuşada,
Öz gözümdə elə bil xeyli ucaldım Şuşada.

Ən xoş əhvaldı inan, yetməyim Cıdır düzünə,
Göz yaşımla üzümü sürtməyim onun üzünə,
Məlhəm oldu bu təmas qəlbimin odu, közünə.
Cəm gözəlliklərinin seyrinə daldım Şuşada,
Öz gözümdə elə bil xeyli ucaldım Şuşada.

Mat qaldım, bir daha mat, əsgərimin qeyrətinə,
Səbəb idi hünəri dünyamızın heyrətinə,
Qalxıb sərt sıldırımı yağını salıb çətinə.
Əzizim, doğmam ilə bax, zəfər çaldım Şuşada,
Öz gözümdə elə bil xeyli ucaldım Şuşada.

Vaqiflə sirdaş olub birgə yaşadım neçə gün,
Hər anım şuxluq ilə, "söz"lə ötən toydu, düyün.
Üzeyir, Natəvanın, Xan əmimizlə Bülbülün
Ruhlarıyla qovuşub, baş- başa qaldım Şuşada,
Öz gözümdə elə bil xeyli ucaldım Şuşada.

Sığal, tumar çəkilir burda torpağa, daşa da,
Diqqət, ehmalla elə tarixi şəksiz yaşada.
Fərəhimdən ürəyim çırpınır dönüb quşa da.
Bütün gördüklərimə mehrimi saldım Şuşada,
Öz gözümdə elə bil xeyli ucaldım Şuşada.

Həsrətiylə sinəmə dağdı vətən ayrılığı,
Uzun illər beləcə dərdlə ötən ayrılığı,
Şükür Allahıma, gördüm də bitən ayrılığı.
Saysız istəklərimə kamımı aldım Şuşada,
Öz gözümdə elə bil xeyli ucaldım Şuşada.

**Çaşıb Nikol**

Çırpınır uydurduğu yalanların torunda,
Deyil bircə istəyi qüvvəsində, zorunda,
Yetər yəqin onlara məzarında, gorunda.
Cəhənnəmə aparır onu yön aldığı yol,
Lap başını itirib, yamanca çaşıb Nikol.

Oyuncağa çevrilib "yekə"lərin əlində,
Onların da söz-sovu səslənmədə dilində,
Cəfənglikdə fərqlənir, fitnəsində, felində.
Eşitdiyi hər yandan " mənə bax, ağıllı ol",
Lap başını itirib, yamanca çaşıb Nikol.

Sızıldayır, zarıyır olsa harda həmişə,
Verib söz, sonra danmaq dönüb onda vərdişə,
Gözü orda-burdadır, çəkir qorxu, əndişə.
Səhvlərinin içində boğulur, atır əl-qol,
Lap başını itirib, yamanca çaşıb Nikol.

Dinir, sözü, kəlməsi həmən qoyulur lağa,
Tərpənişdə addımı səbəb olur qınağa,
Donur, döyükür baxır, tuş gələndə sınağa.
Naqolaylıq biçilib sanki boyuna gen, bol,
Lap başını itirib, yamanca çaşıb Nikol.

Neçəsinə vəd verib, qalıb indi arada,
Qarışdırıb eləyə nəyi , nə vaxt, harada,
Seçim edə nəhayət düşüncəsi kara da,
Gəlmir, qorxur kürəyi qeyrisindən “görər zol”,
Lap başını itirib, yamanca çaşıb Nikol.

Saysız bədliklərinə yetib cavab zamanı,
Xilasına, ağlına gəlmir zərrə gümanı,
Avazıyıb bənizi, kəsilib də amanı.
Gizlənməyə arayır gözdən iraq qalın kol,
Lap başını itirib, yamanca çaşıb Nikol.

**Nə olub axı?**

“Lal oyunu oynayırsan, de nədən”
Cavabsızdır saysız neçə sualım?
Bircə anlıq yoxmu məgər vaxt, vədən,
Düşündürmür səni zərrə bu halım?

İstəyimdən iradlarım bu qədər,
Hay-küylərim, vallah, buna görə də.
Bəd gümandan sıxır məni qəm, kədər,
Çaşqınlığım qoyur ağlı girə də.

Bilirəm ki, toxunmuşam xətrinə,
Üzürümü qəbul eylə, danış, din.
Susqunluğun salır məni çətinə,
İnsafa gəl, röyalarım ola çin.

Çox deyilmi göstərdiyin tərs inad,
Düşün, daşın layiqəmmi buna mən?
Dillən də, nə olar, deyilik ki, axı yad,
Yandırma da, adilərə tutma tən.

Yalvarışım olmadımı yetərli,
Ürəyini soyutmadı göz yaşım?
Bir çarə de, de neyləyim mən “dəli”?
Deyən, vallah, havalanır lap başım.

“Lal oyunu oynayırsan, de nədən”,
Cavabsızdır saysız neçə sualım?
Bircə anlıq yoxmu məgər vaxt, vədən,
Düşündürmür səni zərrə bu halım?

**Səslə**

Məramım kiməsə yaxşılıq ancaq,
Olsa da belədə əziyyətim çox.
Açıram dərdliyə hər zaman qucaq,
Əvəzdə zərrəcə umacağım yox.

“Görən marağı nə?” şübhələriylə,
Barəmdə bəd fikrə düşənlər də var.
Hesabsız hədyanlar gətirib dilə,
Puç-boş zənn gümanla verənlər qərar.

Gülürəm içimdə bu yazıqlara,
Görmürlər duyduğum həzzi, ləzzəti.
Dünya gözlərində bozdur, ağ-qara,
Şərafət sayırlar çox qəbahəti.

Xırdaca köməyim bəzən olub bəs,
Kədərli simada təbəssüm görəm.
Onda düşünmüşəm,yox, deyil əbəs,
Yaşamım, sevincdən kövrəlib o dəm.

Dardasan? - səslə də, az imkanımla
Yetərəm, çataram sənin dadına.
Sözlə, həm işimlə, ürəklə, canla
Dönməyə ruhunun qol, qanadına.

**Dözər yəni?**

Tab eyləsin axı necə, bax, bu dərdə?
Namərdləri səydə gələ üstün mərdə,
Bundan ötrü ölüm, qırğın min bir yerdə.
Yaradırlar unutmaqla iman, dini,
Dünya bu cür hoqqalara dözər yəni?

Haqq donunda ortalıqda riya, yalan
Çaşa bəşər durub gendə “şəfəq” salan,
Fitnələri bir, beş deyil, saysız, kələn.
Azdırmaqla zaman-zaman güman, zənni,
Dünya bu cür hoqqalara dözər yəni?

Leşə dönüb hərə bir cür sökür, eşir,
Çox götürə bir-birinin gözün deşir,
Acları çox, tək-təkləri köpür, şişir.
Əvəz edən saysızlar var şeytan, cini,
Dünya bu cür hoqqalara dözər yəni?

Ədaləti qurban verib hikkələrə,
"Lap yekələr" utanmadan keçir şərə,
Aqil, müdrik aciz, xəcil batır tərə.
Sevgi, şəfqət üstələmir nifrət, kini,
Dünya bu cür hoqqalara dözər yəni?

Yaxşı nəsə vəd eləmir çox əlamət,
Fəzilətdən gen durmaqla hey qəbahət,
Törətmələr vərdiş olub bizdə, adət.
Başı üstdə haqsızlığın duman, çəni,
Dünya bu cür hoqqalara dözər yəni?

**Səni anlamayan...**
***Şükür, belələri də var***

Deyir mərd-mərdanə, edir etiraf,
Sayır özündəki kəsir, kəmini.
Düşüncəm: Belələr yaşayır da saf,
Səmimi, ömrünün hər bir dəmini.

Necə ehtiyatlı söz, kəlməsində,
Duyuram süzülür, zehnindən axır.
İnam, qətiyyəti məğrur səsində,
Haqqı çatdırmağa" şimşək tək çaxır".

Etiraz etməyə görmürəm səbəb,
Deyir nə, dəlili, sübut yerində.
Tək demir, ədalət eyləyir tələb,
Olan, olacağa öz dəyərində.

Dinləmir görürəm hərzə, hədyanı,
Yox nadan sözünə fikri, rəyi də.
Qova dərklərdəki sisi, dumanı,
Bax buna yönəlir  bütün səyi də.

Gözümdə ucalır danışdıqca o,
Çoxları kiçilir elə beləcə.
Köksü od-közündən alışdıqca o,
Allahım, deyirəm, bunda bax gücə.

Saflığı qədərdir kövrəkliyi də,
Baxmır ki, sözünə gözünün yaşı.
Bunu söyləməyim axı niyə də,
Səni anlamayan naşıdır, naşı.

**Günahı nə dünyanın?...**

Əvvəlkitək eyni ki, Günəşi də, Ayı da,
Ulduzların həmənki elə sonsuz sayı da,
Tanrı lütfü hamıya, yetər dürlü payı da.
Cəhdi, səyi eyləyə cənnət təki hər yanın,
Bu bəd halda, əhvalda günahı nə dünyanın?..

Kim əmr edib bizlərə dağıtmağı, yıxmağı,
Göyə qoyub nərdivan dırmanmağı, çıxmağı,
Xırxalayıb, yapışıb "haqqı" boğub sıxmağı,
Ədalətin köksünə qoyub diz alaq canın?
Bu bəd halda, əhvalda günahı nə dünyanın?..

Məsrəf edib dolunu, boşa "şıllaq atırıq",
Gözləməyib halalı haramlara qatırıq,
Naxələflik etmədə lap ifrata çatırıq.
Zəli təki soruruq yazıq, fağırın qanın,
Bu bəd halda, əhvalda günahı nə dünyanın?..

Eyni olub dəyəri, yox fərqi şorun, balın,
Ucuzlaşıb qiyməti dərkin, ağlın, kamalın,
Ürəklərdən böyükdür kökslərdə dərddən xalın.
Bəhanəmiz, "qaydası bu, hökmüdür zamanın",
Bu bəd halda, əhvalda günahı nə dünyanın?..

Birləşmişik gedirik fəlakətə doğru, bax
Hərə bir cür yalançı, hərə bir cür oğru, bax
Parçalanır bu dərddən aqillərin bağrı, bax.
Dönən yoxdur bu yolda yarısından ziyanın,
Bu bəd halda, əhvalda günahı nə dünyanın?..

Dilimizdə bitib söz: "Dünya yalan dünyadır",
Vəfasızdır, bizləri yola salan dünyadır,
Sığallayıb ehmalca, qəfil çalan dünyadır.
Yaxşına karıq,kor, yozuruq pis hər anın,
Bu bəd halda, əhvalda günahı nə dünyanın?..

**Heykəllərin günahı nə?**

Yanındayam güllələnmiş heykəllərin,
Seyr edirəm qəlb ağrımla hər birini.
Kökslərində yaraları necə dərin,
Hardan bilsin yağı dahi dəyərini?!

Anlamır ki, bəşər üçün doğulmuşlar,
Ortağımız mənimki tək onundur həm.
Belələrə güllə atar yaramazlar,
Dərkdən kaşıb kütbeyinlər, ağıldan kəm.

Bəstəkarlıq cinayətmə ay nadan,hay,
Hansı dağı musiqiylə sənə çəkib?
Üzeyirim insanlığa tövhədir, pay,
Notlarıyla ürəyinə dərdmi əkib?

Yandırıbmı söz deyimi Natəvanın?
Ya qurmağı, yaratmağı bu diyarı?
Məkrlisən, paxıllıqdan çıxır canın,
Cılızsan çox, onunsa çox haqdan varı.

De, Bülbülün səsi deşib qulağını?
Zəhərlənib qan qusmusan avazından?
Zənguləsi qırıb bəlkə dayağını?
Düşüksən lap, deyim Vallah, ən azından!

Yanındayam güllələnmiş heykəllərin,
Söhbətdəyəm xəyalımda onlarla mən.
Dinləyirəm bu olaya fikirlərin,
Deyirlər ki, "Çox namərddir qarı düşmən".

**Necə inandırım?**

Necə inandırım səni, de, necə?
Sözüm, əməlimdən səmimiyyətə.
Barəmdə yarana dürüst, düşüncə,
Tanıyıb gələsən düz qənaətə.

Söylə kəlməbaşı and içimmi ?- Yox,
Gözləmə, nəbadə, bu mənlik deyil.
Bundan riyakarlar yararlanır çox,
Öyrəşsə fırlanır hər bir yana dil.

Sına istəyirsən lap milyon kərə,
Təqdir edəcəyəm ,bax, bu haqqını.
Amma ki, şübhədən keçmə ha şərə,
Qəbul etməyəcəm tək nahaqqını.

Həm də ehtiyatlı dolan mənimlə,
Vurma fikirlərlə çaşıb sağ- sola.
Qərarlar vermə ki, gümanla, zənlə,
Yəqin ki, belədə getmərik yola.

Bu sənin seçimin- inan, inanma,
Dəyişən deyiləm, yox, olanımı.
Deməyə çəkinmə, zərrə utanma,
Varsa, sübut elə bir yalanımı!

Necə inandırım səni, de, necə?
Sözüm, əməlimdən səmimiyyətə.
Barəmdə yarana dürüst, düşüncə,
Tanıyıb gələsən düz qənaətə.

**Tələs**

Peyğəmbər deyilik nə sən, nə də mən,
Yəqin ki, az, ya çox günahımız var.
Belə arxayınıq onda bəs nədən,
Onları yumağa vermirik qərar?

Hərdən dilimizdən çıxan sözlərə
Diqqət yetirməyib qəlb incitmişik.
Əyriyə düz deyib, əyri düzlərə,
Nəsə qazanc çıxa, hey cəhd etmişik.

Bəlkə, ehtiyatsız davranmağımız
Yandırıb-yaxıb da olub kimləri.
Nəşəli, sevincli, kefli halımız
Yaradıb çoxunda qəmli dəmləri.

Mümkün, nəfsimizə olmağımız ram,
Azdırıb, düz yoldan sapdırıb bizi.
Hansısa istəkdən almağımız kam,
Silib adımızdan neçə təmizi.

Eh, sayım birbəbir? - Yetər məncə bəs,
Biləsən boynunda nə qədər bu yük.
Tələs, yaxşı işlər görməyə tələs,
Adi yox, cəhdinlə böyükdən böyük.

İnan ki, gecdir, gec dünəndən bu gün,
Eləcə olacaq, bu gündən sabah,
Savab qazanmaqla səy et büsbütün,
Tökülsün üstündən hesabsız günah.

# TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR

*(Məmməd Mərzilinin "Şəhid qardaşlar" kitabı haqqında)*

Bu dəfəki söhbətimizin mövzusu hərflər, sözlər, kitablar silsiləsindən olan, müasir dövrümüzdə vacib, xüsusi diqqət və qayğı tələb edən gözlərimiz önündə yaranan, yazılan tarixdir. O tarix ki, şəhidlərimizin qanı ilə yazılır. Bəli, məhz yazılır. 9 sentyabr 2023-cü il tarixində, gecədən xeyli keçmiş sol ayağımda dizdən aşağı şiddətlə gicişən hələ 90-cı illərdə aldığım güllə yarasının yerini iş (yazı) masamın artıq sürtülməkdən cilalanmış ayağına sürtə-sürtə bu sətirləri qələmə



alarkən Həzi Aslanov adına Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində (1995-1999) eyni fakültədə birlikdə təhsil aldığım kursant yoldaşım hal-hazırda ehtiyatda olan qazi polkovik-leytenant Elmar Hüseyov hərbi ekspert kimi ötən gün ərzində şərti cəbhə xəttində baş vermiş hadisələrə ARB-24 kanalında münasibət bildirir…

Tarix yazılmaqda davam edir. Artıq xeyli müddətdir şüarımıza çevrilən "tərəfsiz ədəbiyyat tarixdir" prizmasından bu olduqca zəngin yazılar dünyasına baxdıqda diqqəti cəlb edən, səhifələrində çoxumuzun şahidi olduğu real tarixi yaşadan gələcək nəsillər üçün faydalı olacaq əsərlərlə rastlaşmaq mümkündür. Bu qəbildən olan əvvəlki yazılarımdan birində Əli bəy Azərinin "Hərbi Zəngilan" adlı səlnaməsindən söhbət açmışam (sonda bu məsələyə bir daha qayıdacağam). İndi isə hazırda şərti cəbhə xəttində baş verənləri dinləyə-dinləyə artıq bir neçə dəfə gözdən keçirdiyim çapa hazırladığımız Məmməd Mərzilinin "Şəhid qardaşlar" kitabı üçün ön söz kimi nəzərdə tutulmuş bu yazını yazmağa çalışıram. Məmməd Mərzilinin yazdığı əsər barədə söhbətə keçməzdən əvvəl onun özünü yüngülvari tanımaqda fayda var düşüncəsi ilə onu sizə təqdim etmək istəyirəm.

Mərzili Ağdamın ən böyük və məlum münaqişənin ilk günlərindən daim diqqət mərkəzində olan, adı tez-tez hallanan kəndlərindən biridir. Onu qeyd edim ki, Mərzili həm də mənim böyüyüb boya-başa çatdığım Yusifcanlı kəndi ilə qonşu olan kənddir. Bu kəndlərin adlarını təkcə Zaur Ustacın və Məmməd Mərzilinin yaşadığı kəndlər olduğuna görə qeyd etmirəm. Bu kəndlərin adlarını həm də ona görə qeyd edirəm ki, oxucuya yaxşı tanışdır. Ötən 30 il ərzində ən azı gündə bir dəfə ya mətbuatda, ya televiziyada, ya da radioda mütləq "...Ağdam rayonun Mərzili, Yusifcanlı kəndləri..." ifadəsi ilə rastlaşıb... Bu kəndlərin adlarını ona görə qeyd edirəm ki, məlum 30 ilə qədər ötən 5 il ərzində Mərziliyə düşməyib üstündən keçən mərmilər gəlib Yusifcanlıya düşürdü... Bu kəndlərin adlarını ona görə qeyd edirəm ki, xeyiri-şəri bir olan sakinləri bir-birlərini yaxşı tanıyırdılar... Bu kəndlərin adlarını ona görə qeyd edirəm ki, eyni gündə (1993-cü ilin 12 iyunu) eyni taleyi yaşamışdır... Bu adları ona görə qeyd edirəm ki, o illərdə, o kədlərdə, o günləri yaşamış Zaur Ustac və Məmməd Mərzili kimi digər yüzlərlə yurdsevər vətən övladlarının deməyə, yazmağa, paylaşmağa sözü çoxdur... Onu qeyd edim ki, Məmməd Mərzilinin eyni adlı hərbi hissənin (tabor) adı ilə adlandırdığı "845"-i də səlnaməçilik baxımından dəyərli kitabdır. "845"-lər artıq zamanın sınağından uğurla keçib. Zaman mühüm amildir. Vaxtdan söz düşmüşkən söhbətimizin mövzusu ilə bir başa əlaqəsi olan bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Bu gün digər kurs yoldaşım şəhid polkovnik-leytenant Həmdəm Ağayevin anadan olduğu gündür. Allah bütün şəhidlərimizə rəh-

mət eləsin. Bu gün – son günlər hələ uzun illər tarixin yaddaşında yaşayacaq təlatümlü günlərin ərəfəsində, həqiqətən qəhrəmanlıq dastanlarına dönəcək hadisələrin astanasındayıq... Məhz bu nöqteyi-nəzərdən Məmməd Mərzili “Şəhid qardaşlar” adlandırdığı əsər sözün əsl mənasında tarixin müəyyən bir dövrünü əhatə edən canlı ziyalı və tərəfsiz şahidin dilindən həqiqi səlnamədir. “Tərəfsiz ədəbiyyat tarixdir” devizimizin tələblərinə tam cavab verir. Məmməd Mərzilinin nə yazdığına, necə yazdığına keçməzdən əvvəl özü-kimliyi ilə yaxından tanış olaq.

**QISA ARAYIŞ**

Məmməd Mərzili (Məmməd Gürşad oğlu Sarıyev) 15 sentyabr 1956-cı ildə Xocavənd qəsəbəsində anadan olub. 1971-ci ildə Mərzili kənd orta məktəbinin 8-ci sinfini bitirəndən sonra Bakıdakı 74 №-li texniki məktəbində 1971-74-cü illərdə təhsilini davam etdirib. 1975-77-ci illərdə Almaniyadakı Sovet qoşunlarında xidmət edib.

Xidməti başa vurandan sonra Ağdamda müxtəlif müəssisələrdə, təşkilatlarda çalışıb.1983 -cü ildən Mərzili kəndindəki kolxozda ehtiyat hissələri, yanacaq anbarında anbardar işləyib.1993-cü ilin 12 iyunda ermənilər Mərzili kəndini işğal etdiyinə görə məcburi köçkün kimi Mingəçevir şəhərində məskunlaşıb. 1995-ci ildə Azərenerji ASC-nin HMD- nə işə qəbul olunub. Orada işləyə-işləyə Mingəçevirdəki ədəbi məclisin üzvü kimi bədii yaradıcılıqla məşğul olub. AYB-nin Mingəçevir bölməsində 2008-ci ildən “Mingəçevir leysanı” ədəbi jurnalı çap olunmağa başlayanda bu jurnalda şöbə redaktoru kimi fəaliyyət göstərib. Sonra bu jurnal “Bənvöşə” adı altında çap olundu. 2023-cü ilin fevral ayına qədər “Azərenerji” ASC-də çalışmış Məmməd Mərzili hazırda təqaüddədir.

Bu illər ərzində “Qarabağsız döyünən ürək” (2006), “Vətənə uzanan qollar” (2008), “Qarabağa gedən cığır” (2010), “Gözlə gələcəyəm” (2017) şeirlər, “Payızın qəmli notları” (2011), “Atəş altında toy” (2015), “Xıdırlıda qalan günlər” (2020), “845” (2022) nəsr kitabları işıq üzü görüb. Haqqında söhbət edəcəyimiz “Şəhid qardaşlar” kitabı müəllifin oxucuları ilə 9-cu görüşü olacaq.

Məmməd Mərzili müqəddimə funksiyasını yerinə yetirən giriş hissəyə - əsərə aşağıdakı şəkildə uğurla başlayır: “Çar Rusiyası zaman-zaman ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsini təşkil etmişdir. Bu məqsədyönlü aparılırdı. Məqsəd iki türk dövləti arasında xristian dövləti yaratmaq idi. Həm türk dövlətlərinin arasında sərbəst gediş-gəlişin qarşısını almaq, həm də türklərin tarixi düşməni olan ermənilərdən türklərə qarşı istifadə etmək. Ona görə köçürülən erməniləri İrəvan mahalında(İrəvan xanlığı azərbaycanlıların tarixi dədə-baba torpaqlarıdı) və Qarabağ xanlığında yerləşdirdilər.“

“Ağzını aç, kim olduğunu deyim”, - deyə məşhur bir deyim var. Belə bir giriş diqqətli oxucuya sona qədər yol yoldaşlığı etmək gücündə olan parlaq bir mayakla qiyaslana bilər. Yuxarıda təqdim olunmuş nümunədə ifadə olunmuş vahid türk torpaqlarının bilərəkdən məqsədyönlü şəkildə parçalanması, quru əlaqəsinin kəsilməsi fikri ən yüksək tribunalardan dəfələrlə səslənmiş olsa da bu mövzulu əsərdə yer alması məqsədəmüvafiq və təqdirəlayiq haldır. Tarixə qısa ekskursdan sonra hadisələrin başladığı zamana qayıdan müəllif:

“Xalq bu haqsızlığa dözə bilmirdi. Ağdam rayon PK-nin birinci katibi Sadıq Murtuzayev, İK-nin sədri Xuraman Abbasova milis işçilərini “Qarağacı’’ qəbiristanlığının yanında düzdülər ki, əliboş camaatı qırğına verməsinlər. Onlar nə qədər çalışsalar da mümkün olmadı. Əli və Bəxtiyar adlı iki gənc “Vətən uğrunda!” – deyib Qarqar çayının içi ilə irəlilədilər. Əsgəran tərəfdə dayanan əsgərlər komandirlərinin əmri ilə onlara atəş açdılar. Qarqar çayı qana boyandı.

Əli və Bəxtiyar şəhid oldular. Onları unutmağa bizim haqqımız yoxdu. Onlar torpaqlarımız uğrunda gedən ilk şəhidlərdir.” - ilk şəhidlərimizi xatırlatmaqla demək olar ki, mətləbə keçid edir: “Amma buna baxmayaraq, Qarabağın qara günləri başladı.”

Ağdamın ölkə və respulika səviyyəsində əhəmiyyətindən söhbət açaraq mühüm atributlarla sadə, olduqca axıcı bədii-publisistik dildə təqdim edəcəyi tarixi hadisələr üçün münbit zəmin hazırlayır. Əsərin ideyasının açılmasına xidmət edən olduqca müxtəlif hadisələr ziddiyyətli olsa da real tarixi fonda cərəyan edir.

**MƏZMUN və QAYƏ**

"Şəhid qardaşlar" əsərində Milli ordunun yaradılmasındakı çətinliklər, hərbi kadrların, silah-sursatın çatışmazlığı açıq şəkildə göstərilib. II Qarabağ müharibəsindən fərqli olaraq I Qarabağ müharibəsində ordumuz əsasən könüllülərdən təşkil olunmuşdu. Ağdam rayonunun erməni kəndləri ilə həmsərhəd olan kəndlərində elə hallar var idi ki, bir evdən 4-5 nəfər döyüşürdü. Bu ailələrin çoxu 2 şəhid vermişdi. Hətta hərəsinin 3 şəhidi olan 2 ailə var idi. Mərzili kəndindən Əliyev İmranın döyüşən 5 oğlundan üçü; - Zakir, Tahir, Sabir şəhid oldular. Şelli kənd sakini Aslanov Kazımın da 4 oğlundan üçü; - Vidadi, Xəqani, Hasil şəhidlik zirvəsinə yüksəldilər.

Müəllif dünyanın demokratik adlanan dövlətlərinin soyqırıma, haqsızlığa qarşı göz yummalarını bu əsərdə əks etdirib. Bu haqsızlığın hələ də davam etməsini təəssüf hissi ilə oxucusuna çatdırır...

Bu əsər onlarla bərabər bütün şəhidlərimizin ruhuna həsr olunub. Qayəsi ərazi bütövlüyümüz uğrunda döyüşmüş və döyüşəcək igid, ər oğullarımızın şücaətini, qəhrəmanlığını, onların dəyanətli valideyinlərinin mətinliyini, sarsılmaz iradəsini, vüqarını, Yurd sevgisini gələcək nəsillərə çatdırmaqdan ibarətdir...

Əsərə: "Amma buna baxmayaraq, Qarabağın qara günləri başladı" cümləsi ilə başlayan Məmməd Mərzili onu: "Şükür Allaha, artıq Qarabağda Ordumuz QƏLƏBƏ BAYRAĞI qaldırıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin!" cümlələri ilə bitirir. Lap sondakı bu iki cümlə gələcəyə ümidlə, həyata sevgi ilə doludur...

Girişdə vəd etdiyim kimi, bir daha salnaməçilik haqqında xatırlatma etmək istəyirəm. Bir vaxtlar əldə silah döyüşmüş və ya sadəcə məlum hadisələrin canlı şahidi olmuş hal-hazırda söz cəbhəsində mücadilə edən qələmdarların bu mövzuda daha çox yazmasında fayda var. Növbəti yazılarla görüşmək ümidi ilə sizdən ayrılıram...

Çox dəyərli oxucum, ən qiymətli nemət olan zamanınızı bu sətirləri oxumağa həsr edərək sona qədər həmsöhbət olduğunuza görə minnətdarlığımı bildirir, müəllifə yeni-yeni yaradıcılıq uğurları arzulayıram! Ümidlərimiz doğrulsun!

**Zaur USTAC,**
**"Yazarlar" jurnalının baş redaktoru,**
**şair-publisist**



**SƏYAVUŞ VƏTƏNDAĞLI**

**ORDA BİR KƏND VAR**

Sərin-sərin hava dəyir üzümə,
"Top daşlar"dan aşdım "Yazı düzü"nə.
Qoyun-quzu qaçır, girir üzümə,
Ala yonca qalxıb, çatır dizimə.

Qoruyuram sürüləri zəmidən,
Haylayıram "Yükaşan"dan keçirəm.
"Gav yeri"ndən vələmirdən, xəzəldən,
"Qaravun"da qoyunları yedirdəm.

Sürü yenə döşənibdi xam yerə,
Kəhər atın yəhərini alıram.
Ötürürəm şamlığa ki, şam yeyə,
Özüm dağda xəyallara dalıram.

Yavaş-yavaş sürü qalxır "Dikdaş"a,
Haylayıram qoyunları suata.
Fit verirəm kəhərə, səkilqaşa,
Yəhərləyib çapıram düz "Suata".

Heyvanlarım sulanır, kölgələnir,
Kəhər atı minib gəlib evimə
gözləyirəm nə vaxt günəş əyilər,
heyvan qalxsın, çıxsın "Düyü yeri"nə.

"Üçqardaş"dan qalxaraq yalı aşır,
Otlayaraq düşür "Düyü yeri"nə.
Yavaş-yavaş gün batır, şər qarışır,
Qoyunları tökəcəm "Yurd yeri"nə.

“Yurd yeri”ndə hər kəs məni səsləyir,
Deyirlər ki, çox gözəl otarmısan.
Evdə isə anam oğul gözləyir,
Yemək verir: “Ay bala, yorulmusan”.

O günlərə çox darıxan Səyavuş,
Hər gün girir yuxusuna dağ-dərə.
Kəhəri dördnala çapan Səyavuş
Gün gələcək, dönəcəksən ellərə.

**İNDİ SƏN HARDASAN, İNDİ MƏN HARDA?**

Sakitlik çökübdür evlərimizə,
Laylalar çalırdı Həkəri bizə.
Faciə gətirmiş ellərimizə,
Elə bil yatmışdıq fil qulağında,
İndi sən hardasan, indi mən harda?

Bu sükut çevrildi hərb meydanına,
Kəndimiz tutuldu güllə-barana.
Hamı birdən düşdü düşmən toruna,
Ata bir yandaydı, oğul bir yanda,
Elə bil yatmışdıq fil qulağında,
İndi sən hardasan, indi mən harda?

Faciə yaşatdı həyat ellərə,
Çoxu əsir düşdü, oldu biçarə.
Dağıldı, məhv oldu, itdi şəcərə,
Elimiz, obamız qalandı oda,
İndi sən hardasan, indi mən harda?

Kiminin cəsədi çöllərdə qaldı,
Kiminin cəsədin sellər apardı.
Kimi zorla qaçıb canın qurtardı,
Babam darda idi, atam da harda,
Elə bil yatmışdıq fil qulağında,
İndi sən hardasan, indi mən harda?

Allah qovuşdurdu ata-babamı,
Qaçırıb gətirdim bacı-anamı.
Həmin gün anladım fani dünyanı,
Kəndim, elim, obam qaldı o tayda,
İndi sən hardasan, indi mən harda?

Bu dünya dağ çəkib, bizə dağ basdı,
Alnımıza qaçqın damğası yazdı.
Diriykən öldürüb qəbrimi qazdı,
Elimi axtardım dağda, aranda,
İndi sən hardasan, indi mən harda?

Bir sevgi yaşadım elimtək nakam,
Elimə, sevgimə həsrət qalmışam.
İndi cəfa çəkən qərib olmuşam,
Bir alın yazısı bu Səyavuşda,
Elə bil yatmışdıq fil qulağında,
İndi sən hardasan, indi mən harda?

**BU QATAR**

Bu qatar baş alıb hayana gedir?
Nə səmti bəllidir, nə özü bəlli.
Elə bil gedişi bir ürkək atdır,
Ayağı səkildir, yalmanı telli.

Qaçır haqsızlıqdan, sevgidən qaçır,
Min atlı düşübdür, sanki dalınca.
Sevgi çirkabında o itib-batır,
Həsrəti yaşayır yalnız qalınca.

Bu qatar doludur eşqə yananla,
Baş alıb gedirlər sevgilərindən.
Atlar da bənzəyir bu adamlara,
Dünyaya yayılır sevgiləri də.

Daha lazım deyil sevgi cahana,
Ölüb sevgiləri kor insanların.
Sevgini çıxarıb “haqq” bazarına,
Qul kimi satırlar öz vicdanların.

Təəssüf, özüm də bu qatardayam,
Öldürüb sevgini çıxıb gedirəm.
Artıq yaşamıram, xülyalardayam,
Özüm öz evimi yıxıb gedirəm.

Gedirəm qovuşam həsrətimə mən,
Bəlkə torpaq altda tapam sevgimi.
Qəbrimə gələcək o da gizlindən,
Tapacam qəbirdə ölməz sevgimi.

Ağlama, sevgilim, ağlama, bəsdir,
Süz bir az nurundan, yandıqca içim.
Bu dərd Səyavuşun ömrünü kəsdi,
Gedim o dünyada bir yuva seçim.

**ZƏNGİLANA**

Araz axır aramızdan, elə bil düşmən kəsilib,
Elimizin arasında Araz boyda sədd çəkilib.
Arazın düz qırağında çinar meşəsi əkilib,
Bu çinar da, bu Araz da düşmən olub Zəngilana,
Hər tərəfi çəpərlənib, zindan olub Zəngilan da.

Ümidləri kəsilmədi, insanlar hey gözlədilər,
Hər tərəfdən güllə yağdı, ləyaqətlə dözdülər.
İgidləri şəhid oldu, qəhrəmana çevrildilər,
Bu çinar da, bu Araz da düşmən olub Zəngilana,
Hər tərəfi çəpərlənib, zindan olub Zəngilan da.

Körpə-körpə övladları yalvarırlar anasına,
Bu zindandan qurtulmağı məqsəd qoydu qarşısına.
Oğul baxıb anasının yanır çarəsiz halına,
Bu çinar da, bu Araz da düşmən olub Zəngilana,
Hər tərəfi çəpərlənib, zindan olub Zəngilan da.

Qonum-qonşu yığışıb da ananı razı gətirdi,
Zəngilan torpağından ana bir ovuc torpaq götürdü.
Çox boylandı pəncərədən, o, öz ömrünü bitirdi,
Bu çinar da, bu Araz da düşmən olub Zəngilana,
Hər tərəfi çəpərlənib, zindan olub Zəngilan da.

Bu həsrəti bitirməkçün növbə gəlib çatıb bizə,
Ay Səyavuş, ölməkdirsə, gəl tökülək bu dənizə.
Ya sarılaq silahlara, gedək çıxaq elimizə,
Bu çinar da, bu Araz da düşmən olub Zəngilana,
Hər tərəfi çəpərlənib, zindan olub Zəngilan da.

**QEYD:** *Şeirlər "YALQUZAĞIN ULARTISI" kitabından götürülüb. Kitab 44 günlük Vətən müharibəsindən əvvəl, daha dəqiqi, 2018-ci ildə çap olunub.*

*Kitabı bir dostum göstərdi mənə. Dərhal vərəqlədim. İlahi, nə qədər səmimiyyət var bu şeirlərdə, nə qədər yonulmamış, kələ-kotur ifadələr, təptəzə deyimlər, saf, ülvi hiss və duyğular ifadə olunub misralarda. İnternetdə axtarışa verdim, tapılmadı. Deməli, şair təbliğatdan kənarda qalıb, özünü gözə soxmur, sadəcə yurd nisgilini nəzmə çevirir. Gözəl bir tədqiqat hədəfidir. İnşallah, araşdırıb təhlil edərik şeirlərini, yaradıcılığını. Hələlik bunları oxuyun!*



**CAHANGİR MİRZƏ**
**(CAHONGİR MİRZO)**

Cahangir Furqət oğlu Namazov 1997-ci ildə Özbəkistanın Nəmənqan vilayətinin Pap rayonunda anadan olub.

"Juntos por lasLetras" Argentina beynəlxalq yazıçılarının Özbəkistan üzrə fəal üzvü və işçi qrupunun koordinatorudur. Turkiyə dövləti "SİİR SARNİCİ" elektron jurnalının Özbəkistan üzrə nümayəndəsidir.

Qırğızıstan Respublikasında təşkil edilən "Dünya talantları" beynəlxalq birliyinin üzvü, "Abay" medalının, "Beynəlxalq Əmir Teymur Xeyriyyə Cəmiyyəti Fondunun xatirə nişanı"nın sahibidir. Qırğızıstan Respublikası "Qırğız şair və yazıçıları" ictimai fondunun üzvüdür. Gənc yazarların ənənəvi seminarlarının iştirakçısıdır. Şeirləri "Müjdə", "Flaşmob" toplularına daxil edilib.

Yaradıcılıq nümunələri Qazaxstan, Qırğızıstan, Türkmənistan, Azərbaycan, Türkiyə, Banqladeş, Nepal, Əlcəzair, Vyetnam, Serbiya, Makedoniya, Belçika, İtaliya, Amerika dövlətlərinin qəzet –jurnallarnda, həm də Ədəbi internet saytlarında dərc olunub. 2021-ci ildə "İçimdə üsyanlar adlı şeir kitabı nəşr edilib.

**DÜNYA RƏNGLƏRİ**

Gözü qamaşdırdı dünya rəngləri,
Hamısı həqiqət, hamısı yalan
Duymuram dünyanın hikmətlərini,
Söyüdlər baş əyib xəyala dalan…

# QARDAŞ XALQLAR ƏDƏBİYYATI
# –
# ÖZBƏK ƏDƏBİYYATI

Möcüzə məkanı bu köhnə boşluq,
Ətrafa nur saçıb özü sönər şam.
Xəyala dalmağın, düşünmən neçün,
Ölməzdi şam kimi yaşasa adam

Səmada ulduzlar azmış, dağınıq,
Saysız xəyalımtək cəpilib yatar.
Yuvasın qəlbimdə qurubdur günəş,
Odlu əllərilə günü oyadar.

Göydə guruldayan mavi ildırım,
Bütün bir varlığı lərzəyə salar.
Asta, damcı-damcı yağan yağışlar,
Dərdlərimi yuyar, qəmləri alar.

Dəvətsiz qonaqdır dünyada hamı,
Ağaca əmanət yaşıl yarpaqlar.
Biz də əmanətik, yarpaqlar kimi,
Həyatın qədrini bilin, qonaqlar!

**EŞQ**

***“Eşqsiz qalaraq, verməyəsən can,***
***Eşq ilə can ver ki, diri qalasan”.***
**Mövlanə Cəlaləddin Rumi**

Bu sevən ürəyim sızlayıb ağrıyar,
Sümüklərim donar, buzlayıb ağrıyar.
Elə bil möhtacam bir yeni eşqə,
Qəlbim bunu sayar  ayıb, ağrıyar.

Niyə  deyib bahar, payız ağrınmam,
Alnımı bassa da tər, duz, ağrınmam.
Ağlıma gəlməsə bir qız, ağrınmam,
Qəlbim bunu sayar ayıb, ağrıyar.

Duyğusuz bir mahnı, hava istəməm,
Heç kimə heç zaman dava istəməm.
Bu dərdimə çarə, dəva istəməm,
Qəlbim bunu sayar  ayıb, ağriyar.

Nə qədər ağırdır hissiz yaşamaq,
Adsız, nişanəsiz, izsiz yaşamaq.
Həyat deyil axı eşqsiz yaşamaq,
Qəlbim bunu sayar ayıb, ağrıyar.

İçimdən içimə dolar nəfəsim,
Getdiyin tərəfdə solar nəfəsim.
Adını söyləsəm, güllər  nəfəsim,
Qəlbim bunu sayar ayıb, ağrıyar.

Kövrəyəm, göylərə baxıram hər an,
Bu dərdlər ürəyi etməkdədir qan.
Hər gecə yuxusuz, dərdli, nigaran,
Qəlbim bunu sayar ayıb, ağrıyar.

Eşqsiz nədir mənim insanlıq qədrim,
Eşqin haqqındadır hər şeir sətrim.
Ey İlahi, mənim müqəddəs dərdim,
Ey İlahi, yalnız aşiqlik dərdi,
Qəlbim bunu sayar ayıb ağrıyar.

**VƏTƏN  ŞƏKLİ**

Ürəyimdə adsız, bir böyük duyğu.
Dağ təki köksümə sığmaz, gedər dan.
Ulduzlzr yoluma səpələyər nur,
Ulduzlar məkanı  Vətən – asiman.

Baharda yurduma gələn qaranquş,
Elimin feyzidir, bəxti, iqbalı.
Səmandakı günəş heç sönməz, abad,
Vətən – göylərimin  dolmuş hilalı.

Vətən – bağ-bağatdır, gözəl bir çəmən,
Vətən – kəpənəklə gülün vüsalı.
Vətən – ürəyimdə işıq dalğası,
Pakizə hisslərim, şövqün nur halı.

Boş, yüksək sözləri axtarmaram heç,
Qəlbimə ən böyük bir söz yazılıb.
Rənglərim o qədər parlaqdır mənim,
Qəlbimə "Vətənin şəkli" cızılıb.

**ÇƏPİK**
***Çəpiklər mənimdir, səninki deyil.***
**Şəvqət Rəhman**

Çəpiyin özü nə, alqışmı, tərif?
Sevgimi, ya adi bir cür oyuncaq.
O cür əlçalmalar əlçalma deyil,
Əlçalma ürəkdən çıxmalı ancaq!

Saxta əlçalmada əsla huşum yox,
Mənə aldadıcı, boş əl çalmayın.
Ağlayar, ya gülər, mənim işim yox
Yalandan əl çalıb ürək almayın.

Elə güclü şeir yazmalıyıq biz,
Ağlamayan ürək ağlayıb qalsın.
Əlçalma nəliyin bilməyən əllər.
Mənimçün ürəkdən çəpiklər çalsın.

Hayqırıb ürəkdən şeirlər deyim,
Şimşək gurlasın, göydə od yansın.
Ulduzlartək yorğun, ay kimi dolu,
Üzlərdən, gözlərdən, eşq, sevgi damsın.

Yox, yalan çəpiklər çalmaram heç də
Saxta şairlərin boş işi üçün.
Canımı, ömrümü bağışlayaram,
Xalqımın bircə saf alqışı üçün.

***

Yaxşı, bugünəsən yeyilib haqqım.
Ürəyimdə ziyan bitirib cəbrim.
Köksü səma adam, baxırsan hələ,
Gün gələr qızıla çevrilər səbrim.

Səxavətin yoxmu, könlün bunca dar,
Daralsan, aləm də sənə dar olar.
Könlümdə bir yer var, çətin əl çatar,
Göylərə yetişər bir gün dərd-sərim.

Ürəkdə duyğular dolub-daşmaqda,
Bir çaya can atan sutək çaşmaqda.
Dağları, bağları gəzib aşmaqda,
Gün gələr ümmana çevrilər qəlbim.

Şeirlərimə məftun olacaq dünya,
Yenə məndən məmnun qalacaq dünya.
Şeirim qəlblərə doldurar ziya,
Dastana çevrilər mənim hər sətrim.

Çörəktək, əzizdir mənə hər sözüm
Ürəktək, əzizdir mənə hər sözüm.
Qızıl, cəvahirdir zər, gövhər sözüm.
İmana çevrilər mənim hər sözüm.

**BİRCƏ ŞEİRİM…**

Hər gündə mən sənə şeir yazaram,
Lakin verəmmirəm sənə birini.
Hər gün sənə bağdan güllər üzürəm,
Lakin verəmmiəm sənə birini.
Qəlbin təndirindən üzüb verərəm,
Bizim sevgimizin isti fətrini.

Sizə gül verərəm, yoxdur sovqatım,
Verə bilməyirəm ləl, tac- taxt, fəqət.
Səninçün yaşatdım, al bu eşqimi,
Al, sənə ürəkdə hədsiz məhəbbət.

Al mənim canımı, can gərək olsa,
Verim sənə qəlbən ürək sirrimi.
Canımı, ömrümü versəm də sənə,
Əfsus verəmmirəm bir şeirimi.

***

Keçən günlərimin hamısı röya,
Zaman geri dönməz, yersiz əlaclar.
Gəncliyin darıxan çölləri kimi,
Gülaçma dövrünü bilir ağaclar.

Lakin xatirədə yaşayar keçmiş,
Ürəkdən silinməz illərin izi.
Sönsə də göylərin ayı, ulduzu
Əsla unudulmaz var olmaq sözü!

**QEYD:** *Tərcümə Şahməmməd DAĞLAROĞLUnundur.*

# CƏFƏRQULU BABAMIN ULU BABASI

## *oçerk - xatirə*

**Cəfərqulu babam**

Biz Azərbaycandanıq. Uzun müddət Zəngilan adlanan bölgənin cənnətməkan guşəsi sayılan Vejnəli kəndində yaşamışıq. 1993-cü ilin oktyabrında ermənilər Zəngilanı işğal etdilər. Bir müddət başqa bölgələrə üz tutub oralarda yaşamağa məcbur olduq. Düz 27 ildən sonra Azərbaycan ordusu Zəngilanı işğaldan azad etdi. Lakin hakimiyyətin qərarına görə Vejnəli kəndi Qızıl yatağında yerləşdiyindən yaşayış məntəqəsi kimi bərpa olunmayacaq. Elə buna görə də xatirə olaraq qalsın deyə nəslimiz haqda bəzi mühüm məlumatları qeyd etmək qərarına gəldim.

Babam Cəfərqulunu görməmişəm. Mən dünyaya gələndən altı il əvvəl o, dünyasını dəyişib. Vejnəli kənd qəbiristanlığının qərb qurtaracağında – ora qəbiristanlığın girişi hesab olunur – arvadı Həvva nənəmlə yanaşı dəfn olunub. Baş daşı üzərində heç bir yazısı yoxdur, eləcə, hər ikisinin qəbirinə mişar daşından başdaşı qoyulub.

Babamı bizə anam (bizdə anaya nənə, nənəyə qoca deyərdilər) Səryad tanıtdırıb. Atam həddən artıq qaraqabaq adam olduğundan ondan çox şey soruşmazdıq, soruşanda da qısa və konkret cavab verərdi, nənəm kimi təfsilatı ilə, sicilləmə danışmazdı. Səryad nənəm uzun payız-qış gecələrində xalq nağılları ilə bərabər keçmişdən, yaşlı adamlardan eşitdiklərindən, xüsusən də babam Cəfərqulunun öz nəsilləri barədə söylədiklərindən bizə danışardı. Çox maraqla qulaq asardıq, babamı görmədiyimizə heyfslənərdik. Babam böyük qardaşımın uşaqlıq qırxı töküləndən bir neçə gün sonra rəhmətə gedib.

Nənəmin dediyinə görə, Cəfərqulu babam dolu bədənli, ortaboylu bir kişi olub. Möhkəm bədən quruluşuna malik imiş, yeriyəndə, sanki yer titrəyirmiş. Zəhmətsevən olub, əlindən hər bir bənna-dülgər işləri gəlirmiş. Qumu ələkdən keçirtməkdən tutmuş palçıq qatıb divar hörməklə bərabər yaxşı suvaq vurmağı da varmış. Heç kimin söhbətini etməz, başqalarının da işinə qarışmazmış. İşgüzarlığı öz evində, öz həyətində işlədiyi vaxtlar qazanıbmış. Səliqəli geyinərmiş, yaxalıq bağlamadan, əlcək geymədən işə başlamazmış. Yaxşı cüt əkdiyindən "Rəncbər" ləqəbi qazanıb. Əkdiyi yerlərdə bir toxum itməzmiş, hamısı cücərərmiş. Bir sözlə, insani keyfiyyətləri ilə seçilən, nəslinin adını uca edən bir kişi kimi yaddaşlarda qalıb.

Cəfərqulu babamın danışdığına görə, onun ulu babası Cəfərqulu xan olub, sərkərdə olub, ordu böyüyü, başçısı olub. Adlı-sanlı yeddi qardaş imişlər, hamısı da vəzifədə. Xanlar, bəylər ortaya nifaq salıblar, qardaşların arasına girərək onları bir-birinə vurub düşmən eləyiblər. Qardaşlar həddən artıq



qürurlu olublar, bir-birinə yendirməyiblər, güzəştə getməyiblər. Cəfərqulu xan onları bir yerə yığmaq, barışdırmaq üçün çox çalışıb. Axırı aravuranlar onun özünə də şər atıblar, qardaşları ilə onun da arasını vurublar. Guya ki, o, böyük qardaşının yerinə, mülkünə göz qoyubmuş. Cəfərqulu da baxıb ki, başqa çarəsi yoxdu, var-dövlətini dəyər-dəyməzinə satıb, ən yaxın adamları ilə aradan çıxıb. Heç kimə sirr verməyib, ondan sonra heç kim də bilməyib ki, hara yoxa çıxıb. Axtarsalar da tapa bilməyiblər. Neçə il gizlində yaşayıb.

Cəfərqulu xan ailəsi, nökər-naibi ilə çox uzaq yol qət eləyib, nəhayət, gəlib çıxıblar buralara. Niyə buralara gəliblər? Əvvəlcədən buraları tanıyırmışlarmı? Babam bunları bilmirmiş. Bircə onu bilirmiş ki, Cənubi Azərbaycanın Estarabad vilayə-

tindən Qacar nəslindən imişlər. Belə uzaq gəlməkdə məqsədləri də o ola bilərmiş ki, onları axtarıb tapa bilməsinlər.

Biz böyüdükcə nənəmlə birlikdə xəritədə bu yeri çox axtarsaq da tapa bilmədik. Bəzən Astaranı nəzərdə tuturduq – İran Astarasını – ora da bizdən çox uzaqda yerləşirdi. Maşın olmadığı dövrdə aramızda gediş-gəliş müşgül sayılardı. “Bəlkə Astarabaddan gəliblər?” – deyə nənəmdən dönə-dönə soruşardıq. “Yox, baban Estarabad deyib dururdu” – nənəm belə deyirdi.

**İlk məskunlaşdıqları yer – Daşkənd**

Bizim kəndin cənubunda – Araz çayının sahilində (daha dəqiq olsun deyə qonşu Sürtün kəndi yaxınlığında, qonşu Ağbənd kəndi ilə Sığırt düzü arasında, Hasanı bağı deyilən yerə yaxın) Şahtaxtı deyilən bir yer var. Nənəm deyirdi ki, babamın ulu babası Cəfərqulu xan öz tayfa-toluğu ilə gəlib Arazı həmin yerdə bu taya adlayıb. Sonra Şahtaxtı deyilən yerdə toplaşıblar, çadır qurub bir gecə qalıblar. Ertəsi gün bölgəni gəziblər, özlərinə daldalanacaq, yaşayış üçün etibarlı yer axtarıblar ki, o taydan arxalarınca gəlib tapan olmasın. Tapıb yaşayış üçün seçdikləri ən etibarlı yerin adı Daşkənddir.

Daşkənd Vejnəli kəndinin başı üzərində əzəmətli görünən Bürünc qayasının şərq qurtaracağında yerləşir. Qayanın hündürlüyü iki yüz metrə yaxın olar. Şərqdan qərbə, hardasa iki kilometrlik məsafədə uzanır. Üzərində bir neçə kuful var, bəlkə də ibtidai icma dövründə həmin kufullarda insan yaşayıb. Tədqiqat işləri heç vaxt aparılmayıb.

Çox güman ki, Daşkənd deyilən yerdə əvvəllər də yaşayış olub. Kəndin xarabalıqları, evlərin, komaların kalafaları buna sübutdur. Bura su kilometrdən artıq uzaqlıqda – şimal istiqamətində yerləşən Xanazor pirinin üstündəki bulaqdan saxsı borularla yeraltı çəkilib gətirilirmiş. Daşkəndin təxminən altı yüz-yeddi yüz metr cənubunda Qala daşının zirvəsində Qız qalası adlanan bir gözətçi qalası var. Deyilənə görə Babək dövrünün yadigarıdır. El arasında dolanan əfsanələrdə isə lap qədimdə - Atəşpərəstlik dövründə tikildiyi eyham olunur. İstənilən halda Babək dövründə gözətçi qalası kimi istifadə olunub. Kənddən yan keçməklə saxsı boruların bir qolu ilə qalaya da su çəkilibmiş.

Babam danışırmış ki, Cəfərqulu xan qalaya dərhal gözətçi qoyub və Daşkəndi özlərinə məskən seçiblər. Onlar gələndə burada heç kim yaşamırmış. Əhalisi harasa köçüb gedibmiş, yoxsa yaylağa qalxıbmış, arana enibmiş, Cəfərqulu babam bu barədə heç nə bilmirmiş. Eləcə qalaya görə buranı seçiblər. Əgər Cənubi Azərbaycandan onların dalınca gəlib-eliyən olsa, gözətçi dərhal xəbər ötürər, onlar da meşələrə çəkilər, gizlənə bilərlər. Bu qaladan Araz çayı boyunca o tayın, hardasa, on kilometrlik ərazisi yaxşı müşahidə olunur.

Daşkənddə məskunlaşandan sonra qonşu kəndlərdən qoyun alıb təsərrüfat yaradıblar.

Bürünc qayasının şərq qurtaracağına yaxın “Kuful eşiyi” deyilən bir yer var, dərin mağaranı xatırladır. Daşın həmin hissəsi alovdan, tüstüdən qapqara qaralıb, uzaqdan müşahidə olunur. İndi ora getmək mümkünsüzdür, hansısa təbiət hadisəsi nəticəsində qayanın alt hissələri qopub aşağıya yuvarlanıb. Yuvarlanan qaya parçaları arasında ikimərtəbəli ev boyda olan böyük hissələri də var. Kənardan baxanda mağaraya qaya üzərində olmuş cığırın yeri bilinir, həmin cığırla insanlar məhz Daşkənd tərəfdən gəlib-gedirmişlər. Ehtimal etmək olar ki, qaya uçqunundan sonra insanlar mağaraya gedə bilməyib, qayanın qurtaracağında kənd salıblar, adını da Daşkənd qoyublar.

“Kuful eşiyi”nin altından uçan daşların yuvarlandığı aşağı yamacda üç böyük Ağcaqayın ağacı var. El arasında belə ağacları bəzən kakeyin də adlandırırlar. Ağcaqayın ağaclarının dibi həm mağal, həm də arxac kimi istifadə olunub. Arxacın yeri bəllidir, heyvan növbəsində özüm müşahidə eləmişəm. Kənd camaatı ora Cəfərqulu arxacı deyərdi. Heç şübhəsiz ki, Cəfərqulu xan burda məskən salandan sonra bir müddət heyvan sürüsünü həmin arxacda saxlayırmış. Bura daldada yerdir, Arazın o tayından ümumiyyətlə müşahidə olunmur.

**Kaha yeri, Yurd yeri**

Kəndin yuxarısında – Abu Seyid dərəsinin Söyüdlü adlanan hissəsinin başlanğıcında bürünc qayasının qurtaracağından üzüaşağı bir dərə var, adına Əyridərə deyirlər. Quru dərədir, Abu Seyidə qoşulmağına səksən-yüz addım qalmış ulas ağacları, qamışlıqla əhatə olunmuş hissəsində sızqa çeşmələri çıxır və əlli-altmış addımlıq şəlalə ilə axıb dərənin suyuna qarışır. Su bol olsaydı, şəlalədə möhtəşəm mənzərəli görüntü yaradardı. Yalnız

yağışlar gur yağanda bulanıq sular yığışıb dərə ilə üzüaşağı axır. Əyri dərədə bir kaha var, tamamilə uçub dağılmayıb. Adına Cəfərqulu kahası deyirlər. Kahada 120-150 baş qoyunu saxlamaq olarmış. Ara-sıra Cəfərqulu babam da kolxozlaşma dövrünə kimi həmin kahadan istifadə edib, qoyunlarının bir hissəsini orda saxlayırmış.

Ötən əsrin səksəninci illərində dədəm Qurban (biz atamıza dədə deyə müraciət edirdik) məni də özü ilə götürüb Abu Seyid dərəsi ilə yuxarı apardı. Gərək ki, fevral ayının axırları idi, bəlkə də mart ayının əvvəlləri olardı, dəqiq yadımda deyil. Biz Abu Seyid dərəsinin Söyüdlü adlanan hissəsinin qurtaracağına gedib çıxdıq. Orda dərə iki yerə ayrılır, yaxud, başqa cür desək, yuxarıdan gələn iki dərə həmin yerdə birləşir. Üzüyuxarı baxdıqda soldan gələn dərə Sağaltop dərəsi, sağdan gələn dərə isə Naxırçı cəvizi dərəsi adlanır. Yolumuza davam edib Naxırçı cəvizi deyilən yerə çatdıq. Sıx meşəlik idi. Dərədən üzü qərb istiqamətində səksən-yüz addım aralandıq. Burada böyük palıd ağacları vardı. Nəhəng palıd ağaclarının üstündə həmişəyaşıl olan bitki vardı, bizdə onun adına “bağabürcü” deyirlər. Dədəm ağaca çıxıb bağabürclərini qırıb yerə tökür, mən isə bir yerə toplayırdım. Təzə otuxmuş çəpişlər üçün göydəndüşmə yem sayılır. Üç böyük kisə topladıqdan sonra oturub dincimizi aldıq. Həmin palıd ağaclarının əhatəsində səkkiz-doqquz kalafalıq vardı, nə vaxtsa insan yaşayışından, Yurd yeri olduğundan xəbər verirdi. Dədəm uçub dağılmış ev, koma yerlərini göstərib dedi:

-Ulu babamız tayfa-toluğunu Daşkənddən bura köçürdüb. Bura ordan daha təhlükəsiz və gizlin yer sayılırmış. Əyri dərədə kahanı da o vaxt tikdirib, gecələr həmin kahaya yığırmış.

“Ulu babamız kimdən və niyə gizlənirmiş?” sualını versəm də dədəm cavablandırmadı. Heç nənəm də bu sualın cavabını bilmirdi, bir neçə dəfə soruşmuşdum. Nənəm həmişə Cəfərqulu babamdan eşitdiyini deyirdi: “O taydan gəlib-eliyən olsa, onları tapmasınlar deyə ehtiyatlı davranırmış...”

O taydan dallarınca kim gəlməliydi? Ulu babamız kimdən və niyə qaçıb? Varı, dövləti, tayfa-toluğu olan, gələn kimi heyvan alıb təsərrüfat yaradan insan öz vətənindən niyə didərgin düşməliydi?

Bu suallar məni daima düşündürürdü, di gəl ki, onlara cavab ala biləcəyim bir adam yox idi. Cəfərqulu babam bilirmiş, bilmirmiş, deyə bilmərəm. Hər halda bilsəydi oğlanlarına, nənəmə danışarmış.

Dədəmin mənə göstərdiyi həmin Yurd yerinin Təkə daşı tərəfindəki qənşər yamacında bir neçə qəbir də vardı. Güman etmək olardı ki, onlar bir müddət burda yaşayıblar. Bəlkə də həmin qəbirlərdən biri Cəfərqulu xana məxsusdur.

Ərazidə Sağaltop deyilən böyük bir düzəngah var. Düzəngahın bir hissəsi ot biçmək üçün yararlıdır. Biçənəyə Cəfərqulu biçənəyi də deyirlər. Kəndimiz 1993-cü ildə ermənilər tərəfindən işğal olunana kimi biz həmin biçənəkdən mal-heyvanın qış azuqəsinə ot toplayardıq. Biçənəyin otu qara yoncası ilə başqa yerlərin otundan seçilərdi.

**Daha üç kaha yeri**

Əyri dərədəki kahadan başqa Vejnəli kəndinin ərazilərində daha üç kaha yeri vardır. Bu da bölgədə heyvandarlığın, xüsusən də davar təsərrüfatının əhalinin əsas məşğuliyyəti və dolanışıq yeri olduğundan xəbər verir.

Kahalardan biri lap yaxınlıqda, kəndin üst – Bürünc daşı tərəfində yerləşirdi. Bürünc daşının dibindən başlanğıcını götürüb kənddə o biri dərələrə qovuşan həmin dərəyə elə Kaha dərəsi deyirdilər. Bu kahanın lap yaxınlığında - əlli-altmış addımlığında Xırman da var, Mətinin xırmanı kimi tanınır. Kahanı, nənəmin dediyinə görə, Cəfərqulu babamın əminəvəsi sayılan Məti kişinin atası Mirsaqulu kişi tikdirib, heyvan saxlamağa başlayıb. Sonralar Məti kişi atasından qalma təsərrüfatı davam etdirib, qaçaq-quldur dövründə müflis olub. Həmin nəsildən olan Əli Mirsaquliyev iki kahanın yerləşdiyi ərazini çəpərləyib özünə bostan yeri düzəltmişdi.

İkinci kaha kənddən Araz çayı istiqamətdə 3,5 kilometr məsafədə Qala daşına çatmamış, Güneydən başlanan Pəyə dərəsinin ümumi dərəyə qovuşduğu yerdə, düzəngahda yerləşir. Ora, nədənsə, Damdaş deyirdilər. Kaha yerləri Cəfərqulu kişiyə məxsus olub.

Üçüncü kaha isə ordan Araz çayı istiqamətdə beş yüz – altı yüz metr aşağıda yerləşirdi. Kimə məxsusluğunu bilmirik. Kolxoz təsərrüfatı yaradılandan sonra həmin kahalar bərpa edilərək xeyli müddət istifadə olunub.

**Xırmanlar**

Kəndin ərazisində beş xırman vardı. Xırmanlar qütblərə uyğun tikilmişdi; şərq, qərb, şimal və cə-

nubda. Ən yaxında olan birinci xırman kəndin güney tayındaydı, adına Mətinin xırmanı deyərdilər. İkinci xırman onunla üzbəüz yerləşirdi, Cəfərqulunun xırmanıydı. Daha üç xırmanın adı yoxuydu. Beşinci xırman kənddən beş yüz – altı yüz metr yuxarıdaydı. Buğdanı sovurmaq üçün külək yetərli olmayanda dəryazları həmin xırmana qaldırarmışlar. Hər xırmanın yanında mərək tikilmişdi. Buğda sovrulandan sonra küləş-samanı mərəyə yığıb qışa saxlayarmışlar. Kollektivləşmə dövründə də bu xırmanlardan istifadə olunub.

Cəfərqulu xırmanının altında cır armud ağacı vardı, hər il dolu gətirərdi, yaxşı sortdandı. Nənəmin dediyinə görə onu Cəfərqulu babam özü basdırıbmış. Babamın əli bərəkətliymiş. Kolxoz qurulanda babamın zəhmətindən toxumçu kimi istifadə olunub. Babama məxsus Daşqoz deyilən yerdə o, qarpız, yemiş, soğan, balqabaq, xiyar, lobya və digər bostan məhsullarının kolxoz üçün toxumunu hazırlayarmış. Onun tutduğu toxumlar bol məhsul yetirərmiş. Kənd camaatı uzun müddət bunu danışardı.

**Cəfərquluyla bağlı yer adları**

Cəfərqulunun arxacı (Kuful eşiyinə yaxın)

Cəfərqulunun çuxuru (Armudun yalın altında, bəlkə də Armudlu yalın. Çuxurun yaxınlığında daha bir armud ağacı vardı)

Cəfərqulunun zəmi yerləri (Kənddən üzü Xaçamaş yalına tərəf iki zəmi yeri, oralarda buğda əkərmiş)

Cəfərqulunun armudu (Xırmanın altında və Çuxurun yaxınlığında)

Cəfərqulunun xırmanı (Kəndin qənşərində, üzbəüz)

Cəfərqulunun biçənəkləri (Sağaltopda, Şütürü dərəsində Qaralpa yerində, Mizarda yol dönəndə, Dərə zəminin yanında – hazırda fəaliyyət göstərən Vejnəli Qızıl zavodunun bir hissəsi həmin Palıddibi adlanan biçənəkdə yerləşir)

Cəfərqulunun kolavatı... (Şütürü dərəsində, Bataqlıq deyilən yamacda)

Bir sözlə, Vejnəli kəndi ərazisində Cəfərqulunun adı ilə bağlı çoxlu yer adlarına rast gəlmək mümkündür. Bu da, heç şübhəsiz ki, sonuncu Cəfərqulu babama aid ola bilməzdi. Onun kolxoz quruculuğuna qədər və sonralar da qismən istifadəsində olduğundan ulu babalarından miras qaldığını ehtimal etmək mümkündür.

Belə ki, Şimali Azərbaycan Çar Rusiyasının ucqarlarından hesab olunduğundan 1861-ci ildəki "Təhkimçilik hüququnun ləğvi" Qanunu buralara da şamil edilib. Şimali Azərbaycanın bəzi bölgələrində bu qanunun həyata keçirilməsi müşkülə çevrilib və illərlə uzanıb. Bunun üçün bölgəyə Petrburqdan müfəttişlər göndərilib. Zelenski soyadlı müfəttiş Zəngəzurun doqquz kəndində bu islahatı həyata keçirib, həmin kəndlərdən biri də Vejnəlidir. Onun keçirdiyi islahatdan sonra Vejnəli ərazilərinə Cəfərqulunun adı ilə bağlı yer adlarından əlavə daha iki ad əlavə olundu; Nağının güneyi və Kəlba İsmayılın zəmisi.

Nağının güneyi kənddən Şütürü dərəsi boyunca üzüyuxarı üç kilometrlik məsafədə ərazinin güney tayında yerləşir. Daş-çınqıllı yer olduğundan əkin-biçin üçün yararlı sayılmır. Bulaq, çeşməsi də yoxdur. Yağış suları hesabına ot bitir, təkəmseyrək kolluq yamacdır. Heyvan otarmaq üçün münasibdir.

Kəlbə İsmayılın zəmisi kənddən iki kilometrə yaxın aşağıdadır. Dərə zəmi Bərə yeri və Xaçamaş tərəfdən gələn quru dərələrin əsas çaylağa qovuşduğu kiçik düzəngahdır. Xaçamaş tərəfə yamacda ardıc ağacları və qarışıq kolluq ərazidir. Azacıq yerdə biçənək kimi istifadə olunub.

Nağı (Nağdalı) və Kəlbə İsmayıl Cəfərqulu babamın (sonuncudan əvvəlki Cəfərqulu) əmioğlanlarıymış. Çox güman ki, həmin dövrə qədər hamısı bir təsərrüfatda birləşmiş imiş. Görünür, islahatdan sonra təsərrüfatlarını ayırıblar. Ya da ərazilər simvolik olaraq bölünüb. Zelenskiy 1886-cı ildə Tiflisdə, "Menşikov" mətbəəsində çap etdirdiyi kitabında bu barədə müfəssəl məlumat verib.

Kəndin aşağısında Daşqoz deyilən bir yer var, dərənin cənub yamacında yastanalı zəmi yeri olub. Daşqozun qurtaracağında kəndin ən bolsulu bulağı – Kəhriz çıxır. Cəfərqulu babam bir müddət Daşqozdan kolxoz təsərrüfatı üçün toxum tutmaq məqsədilə istifadə eləyib. Yaşlananda isə ərazilərini oğlanları arasında bölüşüb. Daşqozun bir hissəsi evin sonbeşiyi Yusifə, bir hissəsi isə ata ocağında yaşayan Qurbana düşüb. Qurban digər bağ-bostan yerləri ilə kifayətləndiyindən daşqozdan ona düşən payı Yusifə istifadə üçün güzəştə gedib.

1976-cı ildə kənddə səkkizillik məktəbin açılışına icazə verilir, o vaxta kimi ibtidai məktəb fəaliyyət göstərirmiş. Məktəbin tikilişi üçün yer seçilməkdə problem yaranır. Kənddə heç kim bağından,

bostanından vaz keçmək istəmir. O zaman Qurban ona məxsus Daşqozdakı payını təklif edir. Məktəb həmin yerdə tikilir və işğala qədər fəaliyyət göstərir.

**Şah bərəsi, Bərə yeri və Qız qalası**

Kəndin qərb qənşərində Şah bərəsi adlanan bir təpə var. Təpənin başında iki balaca komanın kalafası olduğunu çəpiş-quzu otaran vaxtlarımda görmüşdüm. Burda kim yaşayıb, deyə düşünmüşdüm. Niyə kənddən aralıda özünə koma tikib? Ümumiyyətlə, bura niyə Şah bərəsi adlanır? Kənddə də şah olarmı?

Bərə yeri isə kəndin cənubunda, hardasa, Xaçamaş yolu istiqamətində iki kilometrlikdə yerləşir. Düzəngaha bənzər yamac bir yerdir. Yamacın ətəyində iki böyük saqqız ağacının yanında Şah bərəsindəki kimi iki balaca daxmanın, yaxud komanın kalafalıqları məlumdu. Bəs burda, görəsən, kim yaşayıb? Bu suallar məni daima düşündürürdü.

Bərə kənd yerində ovçuluğa aid yer adıdı. Çöl və vəhşi heyvanların gəlib keçəcəkləri ehtimal olunan yerlərə bərə yerləri deyilir. Bizdə isə bu yerlərin heç birində ovun gəlib keçə biləcəyi ehtimalı yox idi, olsaydı da az idi. Həm də yerin Şah bərəsi adlandırılması mənə çox qəribə görünürdü. Məmləkətin ucqar bir dağ kəndində şah olubmuş ki, onun bərəsi də olsun?

Nənəm danışırdı ki, babamın ulu babası bir müddət bu yerlərdə gözətçi qoyub. Qardan, yağışdan, küləkdən qorunmaq üçün koma tikib qalıblar. Qız qalasındakı gözətçi Arazın o tayını müşahidə edirmiş, gələn təhlükəni Bərə yerində duran gözətçiyə ötürürmüş. Bərə yerində olan gözətçi Şah bərəsindəki gözətçiyə, o isə öz növbəsində Əyri dərədəki kahaya məlumat verirmiş. Bu yerlər beləcə müşahidə olunur. Əyri dərədə məlumatı alanlar isə həm davarı gizlədə bilir, həm də Naxırçı cəvizi tərəfdəki Yurd yerinə asanlıqla gedib xəbər çatdıra bilirmişlər.

Beləcə, babam Cəfərqulunun ulu babası Cəfərqulu haqqında, onun böyük adam olması barədə, bu yerlərdə onun gəlişindən sonra həyatın yenidən canlanması, bəzi yerlərə ad verilməsi təsəvvürü yaranırdı. Hətta "şah babam" deyib qürrələnirdik də.

**Nəslin qərib Rzaqulu nisgili**

Babam danışırmış ki, onun ulu babasının qardaşlarından birinin adı Rzaqulu olub. Ailədə yeddi qardaş imişlər. Ataları öləndən sonra necə olubsa hakimiyyətə gəliblər. Nəsə hakimiyyət məsələsində razılaşmayıblar, araya nifaq düşüb. Bundan istifadə edən varlılar sadəlövh Rzaqulunu öz tərəflərinə çəkiblər. Rzaqulu böyük qardaşına qarşı üsyana qalxıb. Böyük qardaşları bundan qəzəblənib üsyançılara divan tutdurub, qardaşı Rzaqulunu isə zindana saldırıb. Edam etdirmək qərarına gəlib. Cəfərqulu böyük qardaşını sakitləşdirmək üçün çox çalışıb. Nəhayət, bir nəticə əldə edə bilmədiyini görüb "sən qardaş qatili kimi tarixə düşə bilməzsən, onu edam etdirirsənsə, əvvəlcə məni öldür, onun qətlini görməyim" deyərək qəti etirazını bildirir. Böyük qardaş bundan sonra fikrini dəyişir. "Onda çıxıb buralardan getsin və bir daha qarşıma çıxmasın" deyə Rzaqulunu zindandan azad etdirir. Rzaqulu oralardan çıxıb gedir. Bir müddət ordan-burdan sorağını alsalar da sonralar xəbər tuta bilmirlər. Harda öldüyü, basdırıldığı qardaşlara bəlli olmur. Onu daima qərib sayırlar, nisgilini saxlayırlar. O vaxtdan Rzaqulu adını nəsilbənəsil yeniləyib yaşadırlar. Hətta soyad olaraq onun adını götürüblər.

Babam Cəfərqulunun atasının adı da Rzaqulu olub. Böyük oğluna da Rzaqulu adı qoyub. Rzaqulu Böyük Vətən Müharibəsinə yollanıb. Dnepr çayını keçərkən fədakarlıq göstərib və o biri sahilə çıxar-çıxmaz sinəsindən aldığı güllə yarasından şəhid olub. Onun qara xəbərini gətirən üçkünc məktub rayon işğal olunana kimi böyük əmimgildə əziz xatirə olaraq qorunub saxlanılırdı. Sonra Əsgər əmim oğluna Rzaqulu adını qoydu.

Cəfərqulu babamın danışdığına görə, ulu babası bu bölgədə yurd salandan sonra Rzaqulu adı hər dəfə yenilənib, hətta Cəfərqulu – Rzaqulu yenilənməsi hər dəfə təkrarlanıb.

**Bir də Ceyran nisgili**

Cəfərqulu babamın dediyinə görə, onların ulu babasının anasının adı Ceyran olub. Ceyran xanım o dövrdə tanınmış sima olub. Qoçaqlığı, at çapmağı, qılınc oynatmağı, qıvraqlığı ilə seçilirmiş, cavanlıqda igidlərdən geri qalmırmış. Oğlanlarının tərbiyəsi, təhsili ilə ciddi məşğul olub, onların şəxsiyyət kimi formalaşmasında böyük rol oynayıb. Odur ki, onun adını daima əziz tutur, nəsilbənəsil qız övladların birinə Ceyran adını qoyarmışlar.

Cəfərqulu babamın qardaşları tez ölüb. Qaraş

evlənib, bir qızı olub, adını Zeynəb qoyublar. Bir il keçməmiş qara sancıdan (kor bağırsağa "qara sancı" deyərmişlər) dünyasını dəyişib. O biri qardaşı Sədətqulu hələ evlənmədən damın tirini qaldırarkən beli sərpib, onurğa sümüyü zədələnib və bir müddət sonra o da belə həyatla vidalaşıb. Cəfərqulu babamın isə dalbadal oğlanları olurmuş. Rzaqulu, Sədətqulu, Əsgər, Qurban və Yusif adlı oğlanları dünyaya gəlib, ancaq qız övladı olmurmuş. O, hər il pirlərə nəzir aparıb, qurbanlar kəsib paylayırmış ki, qızı olsun. Qızı olmadığına görə başı havalanırmış. Xüsusən də kolxoz qurulandan, var-dövləti əlindən çıxandan sonra bunu özünə yaman dərd edirmiş. Bəzən cütü buraxıb (həmin vaxtlar yer şumlayırmış), bəzən də elə belə qol qaldırıb oxuyarmış: "Ay mənim Ceyran balam heeyyy...." Deyirmiş bəlkə belə etsə Allaha xoş gedər, ona bir qız övladı verər.

-Mənim a Ceyran balam hey, Ceyran balam...

Bunu onun müasirləri dönə-dönə söyləyərdilər.

Nəhayət, ömrünün payız çağında – 1940-cı ildə Cəfərqulu kişinin ailəsində bir qız uşağı dünyaya gəlir. Dərhal adını Ceyran qoyur, Tanrıya şükr eliyir. "Şükür sənə, İlahi! Məni bu dünyadan nakam köçürmədin. Ceyran nənəmin adını yeniləyə, yaşada bildim", deyir. Sevincini kənd camaatı ilə bölüşür. Patefonu qoşub konsert verir. Bir döngə kəsir. Bir hissəsini camaata paylayır. Bir hissəsindən həyətində kabab çəkir, kənd camaatını başına yığır, kababı isti-isti yuxanın arasına doldurub paylayır ki, yeyin, şənlənin, oynayın. Özü də sevincindən qol qaldırıb oynayır, camaat ona qoşulur, şadyanalıq olur. Bunu Cəfərqulu kişinin müasirlərindən Nağı kişi, Əliş kişi, Məhərrəm kişi, Gülqız arvad, Mələy arvad, Badisəbah arvad, Ziyad qocam danışanda şəxsən eşitmişəm.

Cəfərqulu babam Ceyran bibimi ərköyün böyüdür. Ona at minməyi, tüfəng atmağı öyrədir, deyir qoy ulu nənələri kimi qıvraq olsun. Ceyran böyüyür, boya-başa çatır. Cəfərqulu babam onun ailə qurmasını görəndən sonra rahatlıqla dünyasını dəyişir.

Ceyran bibimin altı qızı olub. İkinci qızından olan nəvəsi qardaşının nəvəsi ilə nigaha girib.

Ailənin məsləhəti ilə həmin nigahdan olan qız uşağına Ceyran adını veriblər. Tərbiyəsi, təhsili ilə xüsusi məşğul olurlar.

**On yeddi güllə deşiyi**

Nənəmin dediyinə görə, ermənilər Nikolay taxtdan yıxılan ili hücum eliyiblər, özü də payızda. Qoç bəsləyirmişlər, bu gün-sabah kəsəcəkmişlər. Bizdə qoçu sentyabr, oktyabr, bəzən noyabr ayının da birinci yarısını bəsləyib, ayın 20-25-i arası kəsib qovurar, qış uzunu qovurmalı xörək bişirib yeyərlər. Nəsilbənəsil əməl olunan adətlərdəndi. Ermənilər hücum edəndə hələ bəslənmə qoçlar kəsilməyibmiş. Bu da, hardasa, 1917-ci ilin payızına düşür. Erməni qoşununun qabağı kəndin qənşərindəki babamın xırmanının üstündəki, o tay yalın başındakı qoşa ardıca dirənəndə arxası Armudun yalın görünməz tərəfindəymiş, bir ucdan gəlirmişlər. Kilometryarımlıq məsafədə heç olmasa, heç olmasa altı-yeddi yüz silahlı varıymış. Axşamüstü olduğundan hərə öz işində, gücündəymiş. Erməni kəndi gülləbaran edən kimi kim nə gəldi götürüb dərəaşağı qaçır. Babamın Abbas adında comərd bir qaynı varıymış. Aynalını iki kəmərlə götürüb çıxır kəndin güney tayına. İri daşlardan birinə səngərlənib ermənilərə müqavimət göstərir. Hərdənbir güllə atmaqla onların qabağın alır, kəndə girməyə qoymur. Kənd camaatının qaçıb aradan çıxmasına şərait yaradır. Patronu qurtarar-qurtarmaz ermənilər onu vururlar. Döyüşə-döyüşə həlak olur.

Zöhrə qocam həna asıbmış, gəbə toxuyurmuş. Gəbəni həna qarışıq büküb şəllənib, qoşulub köçə, qaç ki, qaçasan. Həmin vaxt babamın iki sürüsü var imiş. Boğaz heyvanları ayırıb kənddən aşağıda saxlayırmış, Damdaşdakı kahaya yığırmış. Herağaş quzular, doğmayan şişəklər, satdıq heyvanlar, döldən çıxmış erkəklər; hamısı yuxarıdakı sürüdəymiş. Həmin sürüyə əl çatmadığından hamısı qalır erməniyə. Kənddən aşağıdakı sürüyə babamın qaynatası Hüseyn kişi baxırmış. Babam Hüseyn kişi ilə həmin sürünü dərəaşağı qabağına qatıb qovalayır. Babamın qardaşları Sədətqulu, Qaraş da onlara kömək edir. Ermənilər sürünü görcək düşürlər dalına. Babamgili basırlar gülləyə. Qaraşla Sədətqulu hərdən dayanıb ermənilərə cavab atəşi açırlar, onların qabağını saxlamağa çalışırlar.

Babam danışırmış ki, Tapan dərəsinin döngəsinə qədər ermənilər beşaçılandan onlara güllə atıblar. Döngəni keçib gözdən itəndən sonra nədənsə arxalarınca gəlməyiblər. Gecə ikən sürünü də camaatla bərabər Araz çayını o taya adladıblar. Ağbənd deyilən ağburun qayanın Araz çayına qarışdığı yerdə

iki pələçi (bir az böyük olana, taxtadan hazırlanana bərəçi deyərlər) dururmuş. İrana gedib-gələnləri onlar adladırmış. Altı tulux pülənib doldurulubmuş. Üstünə sal deyilən quru ağaclar bağlanıbmış. Pələçi beş adam götürüb kürəklə pələni yelləyə-yelləyə çayın o tayına yön alırmış. Onları düşürüb geri qayıdırmış. Qoyunları isə başqa cür adladırmışlar. Uzun sicimi beş-onunun ortasındak keçirib suya buraxırmışlar. Pələçi dartdıqca sicimi yerdə qalanlara dolayıb suya atırmışlar. Pələçi o taya çatanda iyirmi-iyirmi beş qoyun çayda üzürmüş. Pələçi hamısını dartıb o taya çıxardar, sicimi açıb dəstələyər, bu taya qayıdarmış.

Beləcə, Arazı o taya adlayırlar.

Ertəsi gün babamın yapıncısında on yeddi güllə deşiyi sayırlar. Xoşbəxtlikdən babam yaralanmayıb, o güllələrin hamısı yapıncını deşib, sağdan, soldan, ayağının arasından keçib gedib.

Babam sürüsündən İrandakı ərbaba ailə sayına görə bir qoyun, sürünün qalmasına görə də əlavə on qoyun verib. Qışı İranda qalıblar. Novruz bayramından sonra geri qayıdıblar. Gəlib görüblər ki, ermənilər bütün evləri yandırıblar, uçurda bildiklərini də uçurdublar. Camaat yenidən ev tikib, meşədən ağac qırıb, komalarının üstünü örtüb yaşamaqlarına davam ediblər.

**Ortabab kəndli kimi**

İyirminci yüzilliyin əvvəlində Ordubaddan Ələsgər adında bir nəfər qalayçılıqla məşğul olurmuş. Qara adam olduğundan adına Qara, Qarakişi deyirmişlər. Ələsgər kəndləri dolaşar, səhəngi, sərnici sınan, qazanı deşilən, qulpu qırılan, samovarının lüləyi qopan olardısa, onların dər-dəmirin qalaylayar, özünə dolanışıq qazanarmış. Günlərin bir günü gəzə-gəzə gəlib çıxır Vejnəliyə. Burda iş çox olduğundan bir həftəyədək qalmalı olur. Kənddə Gülgəz adında gözəl, ərgən bir qız varıymış, Ələsgər ona vurulur. Daha çıxıb getmir Ordubada, qonşu kəndlərdə işini bitirib qayıdır Vejnəliyə. Əlqərəz, elçi göndərib Gülgəz ilə evlənir, qalır bu kənddə. Çox keçmir bir oğlan övladları olur, adını Qarakişi qoyurlar.

Qalayçı Ələsgər sonralar Arazın o tayına da ayaq açır. Arazqırağı kəndlərdən birində Humay bəy adında biri ilə dost olur. Humay bəy xırda alverlə məşğul olurmuş. Təbrizdən mal gətirib Arazqırağı kəndlərdə satarmış. Ələsgər də qalayçılığın daşın atıb qoşulur ona. Dayılarının köməyi ilə bir qatır alır. Qatırla Təbrizə gedib gəlirmiş, bir qatır yükü kəlağayı, şamaxı, dəstəmaz, möhür, çərəkə, təsbeh, xına, həna, sarıkök, darçın, zəncəfil, istiot, iynə-sancaq və sair xırdavat gətirib onları satırmış. Qonşu kəndlərdə də onu tanıyır, sifarişlər verirmişlər.

Elə olur ki, Ələsgər ölür. Humay bəy sifariş eliyir ki, oğlu gəlsin, alver şərikliyimizi onunla eliyək. O vaxtlar Qarakişi də həddi-bülluğa çatıbmış. Qarakişi gedib qoşulur Humay bəyə, atasının alver işini davam etdirir. Növbəti səfərlərin birində Təbrizdə bolşeviklərdən biri ilə tanış olurlar, dostlaşırlar. Qarakişi tacir kimi bolşevikə əyin-baş alır, onun karvansaray xərclərini ödəyir, səxavətini əsirgəmir. Onun bu mərdanəliyi bolşevikin xoşuna gəlir. Bolşevik ona bəzi sirrləri açıqlayır. Deyir ki, ay Qarakişi, siz tacirlər də bəy, xan, hacı, mülkədar, hətta ortabab kəndlilər kimi bizim sinfi düşmənimiz hesab olunursunuz. Hamınızın qulağınızdan tutub vızıldadacağıq Sibirə sürgünə. Madam ki, sən belə əliaçıq, ürəyiaçıq adamsan, gəl bu ticarətin daşını at. Get təsərrüfat yarat, kəndçiliyini elə. Qarakişi də qayıdır ki, ay qardaş, mən bu ticarətlə ancaq ki, ailəmi dolandırıram. Mənim pulum hardandı gedib özümə mal-heyvan alam, təsərrüfat yaradam. Bölşevik dostu başa salır ki, get kəndin ən varlı adamının yanına. Sənə dediklərimi ona da söylə. Ağıllı adam olsa sənə kömək edəcək. Olmasa, onu sürgünə göndərərik. Sənə də görək nə kömək edə bilirik.

Qarakişi səfərdən qayıdan kimi gəlir Cəfərqulu babamın yanına. Əhvalatı danışlr. Cəfərqulu babam onu dinlədikdən sonra sürüsündən on qoyun, dörd keçi, ağartıları olsun deyə yanıbalalı bir sağılan inək, bir düyə ayırıb verir. Dayılarına da sifariş eliyir ki, kömək eliyin, day Qarakişi alverin daşın atıb, təsərrüfat yaratsın. Kənd yerində ağartısı olmaq dolanışıq deməkdi, südün, qatığın, pendirin ki, öz təsərrüfatından çıxır, deməli, sənə zaval yoxdur.

Bolşevik Qarakişiyə bir də onu deyir ki, biz kəndə kollektiv təsərrüfat qurmağa gələndə, çıx qabağa, heyfslənmə, təsərrüfatında nəyin var, hamısını ver hökumətə. Biz də əvəzində səni qiymətləndirəcəyik. Qarakişi bunları da danışdığından Cəfərqulu kişi barmağını dişləyir. Fərdi təsərrüfatçılığın dövranı qalmadığını düşünür. Onsuz da ona olan olmuşdu. Ermənilər gələndə böyük bir sürüsünü yağmalayıb aparmışdı. Odur ki, Cəfərqulu babam

heyvanın bir hissəsin satmaq qərarına gəlir.

1977-ci ildə dünyasını dəyişmiş Ziyad qocamın öz dilindən eşitmişəm. O, deyirdi ki, Cəfərqulu nə eşitdi, nə eşitmədi, heyvanın bir qismini aparıb Kənd Zəngilanın bazarında, bir qismini də Xocahan bazarında dəyər-dəyməzinə satdı. Üç torba pul elədi, gətirdi. Elə bil iy bilirmişlər, heç bir həftə keçmədi ki, üç ordubadlı tacir qapını kəsdi. Onlar əvvəllər də Cəfərqulu kişini tanıyırdılar, evə gəlib-gedən adamlardandı. Qatır almaq bəhanəsi ilə pulu borca götürdülər və o gedən getdilər. Bundan sonra Cəfərqulu kişi çox məyus dolanırdı. Əyri dərədə saxladığı iki yüz əlli-üç yüz baş qoyununu qaynatası Hüseyn kişi ilə otarırdı. Yer şumlanandan şumlanana, arpa-buğda səpiləndən səpilənə, biçindən-biçinə kəndə gəlirdi, çox vaxt elə kahada, heyvanın yanında qalırdı.

Ziyad (pasportda Zinyət) qocam Cəfərqulu babamın qardaşı Qaraşın arvadı olub. Əri öləndən sonra qızı Zeynəb ilə bir müddət qaynının himayəsində yaşayıb.

Beləliklə, illər tez gəlib keçib. 1929-cu ildə bolşeviklər qonşu Bartaz kəndinə gəlib çıxıblar. Sifariş eliyiblər ki, Vejnəlidən Qarakişi gəlsin. Qarakişi, arvadı Mirvari, dayısı Hüsü kişi atlanıb gediblər Bartaza. Bartazda onların hər üçünü Bolşevik partiyasına üzv qəbul ediblər. Hüsü kişini hətta Bartaz sovetliyinə sədr seçiblər. Baxmayaraq ki, Bartaz böyük kənd idi, ətrafındakı beş kənd həmişə ora tabeydi, yüzbaşılıq, sovetlik həmişə orda olmuşdu, ilk sovet sədri Vejnəlidən təyin edilib.

Növbəti 1930-cu ildə bolşeviklər Vejnəliyə gəliblər. Kollektiv təsərrüfat yaradıblar, Qarakişini kolxoza sədr təyin ediblər. Babam Cəfərqulu təsərrüfatının tən yarısını; 150 qoyun, 30 keçi, iyirmi baş iribuynuzlu, on dörd cüt öküz və dörd at hökumətə təhvil verib və deyilənlərə görə kollektiv təsərrüfatın böyük hissəsi babamın heyvanları olub. Qarakişinin zəmanətinə görə babamın nəyi var müsadirə edib Sibirə göndərməyiblər, qalan təsərrüfatına vergi qoyub gediblər.

Bir il babam öz təsərrüfatında qara nökər kimi işləyib. Hökumətin vergisini çıxandan sonra öz dolanışığına az qaldığını görüb atını minərək rayon mərkəzinə gedib. O vaxt rayon İcraiyyə Komitəsi rayon mərkəzindəki müsadirə olunmuş bəy evlərindən birində yerləşirmiş. Babam aşağıda duran postaçıya deyir ki, gəldiyini xəbər eləsin. O da tez yuxarıya xəbər eləyir. Qalife şalvarlı, xrom çəkməli, süvari gimnastyorkalı İcraiyyə Komitəsinin sədri eyvana çıxır və ucadan səslənir:

-Nə var, ay Cəfərqulu kişi, nolub?

Babam bir söz demir. Eləcə qoltuğunun dibində saxladığı orağı çıxardıb yuxarıya tolazmalayır. Oraq göydə fırlana-fırlana düz gedib düşür sədrin böyrünə.

-Bu nə hərəkətdi, ay Cəfərqulu kişi? – Sədr həyəcanlanır. – Gəlmisən mənim başımı kəsməyə?

-Yox, ay sədr. – Cəfərqulu babam asta-asta danışır. – Deyirəm, day bir şey qalmayıb. Al bu orağı, sən mənim başımı kəs.

-Bu nə deməkdir? – Sədr hirslənir. – Biz baş kəsən deyilik.

-Elə vergi qoymusan ki, bir ildir gecə-gündüz çalışıram, artırıb özümə bir qarın çörək qazana bilmirəm. Baş kəsmək day nətəri olur?

Sədr arif adamıymış. Babamı yuxarıya çağırır. Çay gətizdirir. Dilə tutur ki, gəl inad eləmə, o qalan mal-heyvanını da təhvil ver. Bir il, para il, bir də gördün gəlib zorla əlindən aldılar, özünü də gedər-gəlməzə yolladılar.

Babam kəndə qayıdan kimi nəyi var, hamısını təhvil verir. Qarakişi atını özünə təhkim edir. Bir də Daşqozdakı yeri verir, kolxoza toxum hazırlamağa. Babam kiminsə əlinin altında işləmir. Öz əli, öz başı olur. Belə həyat hər ortabab kəndliyə qismət olmayıb.

**Zəngilanın canlı arxivi**

Bütün bu sadaladıqlarımı öyrənəndən sonra üz tutdum bir nəfərin yanına. Dedilər ki, o, Zəngilanın canlı arxividir. Hamını tanıyır. Uzun müddət MTN-də işləyib. İşinin xüsusiyyətinə görə çox məlumatlıdır. Bilsə, ulu babalarınız haqqında o, biləcək.

Yaşı səksəni haqlamaqda olan Əfrayıl Hüseynov çoxdan təqaüdə çıxmışdı. Şəhərin Nizami rayonu ərazisində bina evlərdən birində yaşayırdı. Telefonla danışdıqdan sonra dediyi ünvana getdim. Məni qapıda özü qarşıladı və otağına apardı. Evdə ondan başqa heç kimi görmədim. Olsa da, mətbəxdə, yaxud başqa otaqda ola bilərdilər.

Bilmədim Əfrayıl müəllimin otağı kitabxanadır, yoxsa arxiv. Otaq kitabla və qovluqlarla dolu idi. Otağında ev telefonu da vardı.

Əfrayıl Hüseynovu şifahi tanıyırdım. Yazı-pozu ilə məşğul olduğunu da bilirdim. "Çaylar səmtinə axar", "Altmış yeddi – Xankəndi, səksən yeddinin

qıfılbəndi" sərlövhəli yazılarını da oxumuşdum. Odur ki, söhbətə başlamağımız çətin olmadı. Mən kəndimiz, məni maraqlandıran yerlər haqqında danışdım, ulu babamın kimliyi ilə maraqlandım. Diqqətlə dinlədi, nəsə təzə məlumat eşitdiyini hiss etmədim.

"Öz nəsil-nəcabətin haqqında maraqlanmağın xeyirdimi?" – sualı mənə qəribə gəldi. "Necə yəni? İnsan öz soy-köküylə maraqlanmazmı? Bəyəm adam öz kökündən güc, enerji alıb böyümürmü, pərvazlanmırmı?" Elə beləcə də dedim. Gülümsündü. Qəribə gülməyi vardı.

"Xoşdu", dedi. Bizim nəsildən kiminsə gəlib maraqlanacağını gözləyirmiş. "Əminə bir-iki dəfə söz atdım, yan keçdi. Kommunistiydi, vəzifəsindən qorxurdu. Sovetlərdə köklü nəsillərdən olanları qabağa çəkmirdilər". Əfrayıl Hüseynov böyük əmimi nəzərdə tuturdu. Adam qırx il büro üzvü olmuşdu, üç rayonu birləşdirən dəmiryol xətti üzrə partkom işləmişdi, tabeçiliyində altı yüzdən çox kommunist varıydı.

"Baban Cəfərqulu kişi ilə də görüşmüşəm. Ot biçini vaxtı Palıddibi deyilən kəndin aşağısındakı biçənəkdə xeyli söhbət eləmişik. Məni ayranaşına qonaq eləyib. Yaşlı olmasına baxmayaraq çox gümrah idi, yaxşı ot biçməyi vardı. Kərəntini elə çəkirdi ki, elə bil qılıncı sivirirdi..."

Əfrayıl kişi burda dayandı. Məni xeyli süzdü.

-Ulu babanın kim olduğunu bilib neyləyəcəksən? – deyə qəfildən soruşdu.

-Nəslimiz haqqında kitab tərtib etdirəcəyəm. – Qeyri-ixtiyari ağlıma gələni dedim.

-Əmin ola bilərsən. Qacarlardansan, özü də şah qolundan. Ulu baban Cəfərqulu xan Qacarlar hakimiyyətində sərkərdə, baş komandan olub.

Tüklərim biz-biz oldu.

Əfrayıl Hüseynov dəstəyi götürüb kiməsə yığdı. Xəttin o başından tez cavab verdilər. Salamlaşdılar, bir-birindən qısa hal-əhval tutdular.

-Sərvər, - dedi. – Bir eloğlumuz gəlib yanıma. – Nəsil şəcərəsindən kitab yazdırmaq istəyir. Ona kömək eləmək lazımdı.

Sərvər yüksək rütbəli dövlət xidmətçisi idi. Haqqında eşitmişdim.

-Kimlərdəndi?

-Qacarlardandı, özü də şah qolundan.

-Bizdə qacarlar var ki?

-Var, Sərvər, var. Sovet hökuməti çox nəsilləri qaralayıb deyə indi kimin kim olduğunu bilmirsiniz.

-Havalar bir az isinsin. May ayında üçlükdə görüşərik.

-Mən elə belə də bilirdim, Sərvər. Sən mənim yaşımı unutmamısan.

Sağollaşandan sonra mənə baxdı.

-Mayda səksəni haxlıyıram. Sağ olsun Sərvəri, yaddan çıxartmayıb.

Sağollaşıb ayrıldıq. Özünün zəng vurub xəbər verəcəyini dedi. İli dəqiq yadımda deyil, ay mart ayı idi. Novruz bayramından 3-4 gün keçmiş olardı. Ailə dostumuz Hüseyn bizə bayramlığa gəlmişdi. Əfrayıl müəllimin də telefonunu ondan aldım.

Gözlədim. Əfrayıl müəllim mənə bir daha zəng vurmadı. May ayının axırlarına yaxın onun ölüm xəbərini eşitdik.

**Bir də Ramazan Hüseynovun monoqrafiyası**

Ramazan Hüseynov Rusiya İnstitutlarının birinin Azərbaycan filialında prorektor vəzifəsində çalışırdı. "Qaçaq hərəkatı", "İrəvan xanlığı" və başqa tarixi araşdırmalarını kitab şəklində çap etdirmişdi. "Ağa Məhəmməd Şah Qacar, (gerçəklər, həqiqətlər, uydurmalar)" üzrə araşdırmalar aparırdı. Araşdırmalarını qəzetlərdə çap etdirirdi ki, daha çox məlumatlar üzə çıxara bilsin. O, Jak Jevrin "Xacə şah" romanında yazıldığı kimi Cəfərqulu xanın sarayda öldürülməsinə inanmırdı. Onun araşdırmasına görə Cəfərqulu xan həmin ərəfədə yoxa çıxır və saraya çağrılaraq öldürüldüyü barədə şayiə uydururlar. Əks halda onun ölümündə iştirak edənlərdən kimsə sonralar da olsa bu barədə danışar, basdırıldığı yeri nişan verər, dövrün tarixçiləri bunu qələmə alardı. Söhbət sıravi ölkə vətəndaşından deyil, Qacarlar hakimiyyəti dövründə ordu komandanı sipənsar (general) sərkərdə Cəfərqulu xandan gedir.

Təəssüf ki, həmin ərəfədə Ramazan Hüseynov kimi nəcib bir ziyalı da şərin qəzəbinə tuş gələrək həbsə düşdü. Sonralar əlaqə saxlaya bilmədim.

Beləcə, nəsil şəcərəmiz barədə axtarışlarım yarıda qaldı. Yalnız məntiqim üzərindəki inandırıcı arqumentlərdən başqa söykənəcəyim bir mənbə tapa bilmədim. Deyirlər həyatda heç nə təsadüfdən olmur. Bəlkə elə, doğrudan da, belədir.

**Böyük hörmətlə:**
**Əli bəy Azəri**

## YAZI DÜZÜMÜ

**1.Redaktor guşəsi**
-“Azərbaycan ədəbiyyatının rusdilliləri”........................................................................................1

**2.Publisistika**
-Əli BƏY AZƏRİ – “Kapitan Surxay Noçiyevin son əmri: “Ölmək olmaz!””..................................................2
-Nəzakət CAVADOVA – “Əlimdə bir cüt qərənfil”, “Mən eşqi bitirmişəm” (esselər)........................................4
-Dilbər RZAYEVA – “Satirik “Məşəl” jurnalı”.......................................................................................15
-Röya TALIBLI – “Azərbaycan mədəniyyətinin keşikçisi”.........................................................................33
-Kifayət MƏMMƏDOVA – “Azərbaycan çağdaş xanım şairəsi” (Həmidə Rəiszadə - “Səhər”)......................45
-Ruqiyə İSMAİLOVA – “Azərbaycan gəncliyinin xilaskarı”........................................................................70
-Zaur USTAC – “Tərəfsiz ədəbiyyat tarixdir”........................................................................................88
-Əli BƏY AZƏRİ – “Cəfərqulu babamın ulu babası” (oçerk)......................................................................95

**3.Poeziya**
-Şahməmməd DAĞLAROĞLU – “Bir soyuq baxış”, “Bəlkə də utanardım”, “Ortaya”, “Səhvlərim”, “Sevgi şeiri yazsam”, “Yeridi” (şeirlər).......................................................................................................8
- Fərhad ƏSGƏROV (RAMİZOĞLU) – “Müəllim adını şərəfləndirdin” (şeir).................................................14
-Təranə DƏMİR – “Poeziyanın payız çələngi”.........................................................................................19
-Ay Bəniz ƏLİYAR – “43 yaşıma gecikmiş məktub”, “O dam”, “Qızıma gecikmiş ad günü təbriki”, “Yox-luq”, “Hardan bilim”, “Qapısı”, “Qapının”, “Gəzərsən”, “Ölçüsü boyda”, “Ana olmaq” (şeirlər).................28
-Hafiz ƏLİMƏRDANLI – Müxəmməslər, qəzəllər, rübai və dübeytlər..........................................................36
-Seymur SÖNMƏZ PAŞAYEV – “Bəd nəzərlər çapdı bizi”, “Mən səni bu qədər sevməməliydim”, “Sənin”, “Nolar, qocalmasın anam, ay Allah”, “Gedirsən”, “Neynirəm ucuz ad-sanı”, “Məni bağışla”, “Getmisən”, “Sən hardan biləsən”, “Gördüm” (şeirlər)........................................................................................42
-Mahir CAVADLI – “Payız”, “Qayıdarıq, inşallah”, “Salam, od-ocağım”, “Sənin axı nə yaşın ki...”, “Çəki-lir”, “Qəhrəman Sivas”, “İsti bir yay günü” (şeirlər)...........................................................................48
-Şərqiyyə BALACANLI – “Sevimli rəhbər”, “Hamı əzizimdir”, “Mənim İbrahim balam”, “Təvazökar adam”, “Bilmirəm”, “Zəfər qazanan şəhidlərə”, “Dünyanın”, “Tələbəlik illəri”, “Vətən”, “Sərkərdə oldun”, “Nəvələrimə”, “Məhəbbətim”, “Qələbə sevinci”, “Azərbaycan şəhidləri” (şeirlər)........................................66
-Zaur USTAC – “Ustacam”, “Araz”, “Bayraq, bizim bayrağımız”, “Nadanlıq”, “Mən zəfərə təşnəyəm”, “Bu payız”, “Tuncaya”, “Dağlar” (şeirlər).................................................................................................73
-Səbuhi RƏHİMLİ – “Gileyli deyiləm”, “Özünlə apardın”, “Tənha bülbül”, “Yağan yağış”, “İtirdik”, “Şəhərə gedən yol”, “Darıxıram”, “Özümdən ağır”, “Torpaq” (şeirlər)..........................................................76
-Nəcməddin MÜRVƏTOV – “Şuşada”, “Çaşıb Nikol”, “Nə olub axı”, “Səslə”, “Dözər yəni”, “Səni anlama-yan”, “Günahı nə dünyanın?”, “Heykəllərin günahı nə?”, “Necə inandırım?”, “Tələs” (şeirlər)....................84
-Səyavuş VƏTƏNDAĞLI – “Orda bir kənd var”, “İndi sən hardasan, indi mən harda?”, “Bu qatar”, “Zəngi-lana” (şeirlər)..............................................................................................................................90
-Cahangir MİRZƏ – “Dünya rəngləri”, “Eşq”, “Vətən şəkli”, “Çəpik”, “Bircə şeirim” (şeirlər – özbəkcədən tərcümə Şahməmməd Dağlaroğlunundur)..........................................................................................92

**4.Nəsr**
-Xuraman ZAKİRQIZI – “Zəfər ətri” (hekayə)..........................................................................................10
-Vüqar ƏHMƏD – “Niqab” (hekayə).........................................................................................................23
-Damət SALMANOĞLU – “Mən səni unutmadım” (hekayə)........................................................................40
-Ayaz İMRANOĞLU – “Sevgilimin oğlu qardaşımdır” (roman, davamı - əvvəli ötən saylarda)...................51
-Fərhad ƏSGƏROV (RAMİZOĞLU) – “Qulaq yoldaşı” (hekayə), “Beləsinə nə deyəsən?” (olmuş hadisə).76
-Çərkəz NƏSİRLİ – “Qırx pilləkən” (hekayə)............................................................................................81